

*Azərbaycan sabitlik məkanı kimi inkişaf edir. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır. Azərbaycan xalqının iradəsi Azərbaycanda sabitliyin əsas təminatçısıdır. Xalq tərəfindən bizə göstərilən dəstək, bizim siyasətimizə verilən yüksək qiymət həm bizi daha da ruhlandırır və eyni zamanda, ölkəmizdə siyasi və iqtisadi sahələrdə sabitliyi təmin edir.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:

## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2019**
**4 (68)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2019**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Ramiz Mehdiyev, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Etibar Nəcəfov, Ziyafət Həbibova, Elçin Əhmədov, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Rəcəb Rəhimli, Sevil Məmmədova, Fəxrəddin Nağıyev, Firdovsiyyə Əhmədova***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2019, №4(68).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2019, 336s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2019*

ISSN 2309-1347

**The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan**

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

**2019**
**4 (68)**

**ACADEMY OF PUBLIC ADMINISTRATION**

**BAKU – 2019**

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Ramiz Mehdiyev, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Etibar Najafov, Ziyafet Habibova, Elchin Ahmadov, Khatira Huseynova, Gulnara Gurbanova, Rajab Rahimli, Sevil Mammadova, Fakhraddin Naghiyev, Firdovsiyya Ahmadova***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2019, №4(68)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2019, 336p.*

*© Academy of Public Administration, 2019*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

*Oktyabr – noyabr – dekabr 2019-cu il*

## Oktyabr

**1 oktyabr**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Nərimanov rayonundakı Atatürk prospektində yerləşən parkda əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur.
- Sonra parkda sakinlərlə görüşmüşdür.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Nəsimi rayonunda 28 May, Dilarə Əliyeva və Fikrət Əmirov küçələrinin kəsişməsində yerləşən yeni parkda yaradılan şəraitlə tanış olmuşdur.
- Ölkəmizdə həyata keçirilən növbəti siyahıyaalınmada iştirak etmiş, siyahıyaalma və sorğu vərəqələrinin suallarını cavablandırmışdır.

**2 oktyabr**
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə gəlmişdir.

**3 oktyabr**
- Soçidə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə görüşü olmuşdur.
- Nümayəndə heyətlərinin geniş tərkibdə görüşündən sonra Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək söhbət etmişdir.
- Soçidə Rusiyanın «Rossiya» və «Birinci» televiziya kanallarının müxbirlərinin suallarını cavablandırmışdır.
- Soçi şəhərində «Valday» Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında iştirak və çıxış etmişdir.
- Sonra dövlət başçılarının «Valday» Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının iştirakçıları ilə qeyri-formal görüşündə iştirak və çıxış etmişdir.

**4 oktyabr**
- Rusiya Federasiyasına səfəri başa çatmışdır.
- Rusiyanın Xantı-Mansiysk şəhərində keçirilən Dünya Kuboku uğrunda yarışlarda qələbə qazanmağı münasibətilə qrossmeyster Teymur Rəcəbovu təbrik etmişdir.

**7 oktyabr**
- Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi qəbul etmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edərək onu ad günü münasibətilə səmimi qəlbdən təbrik etmiş, ona Rusiya dövlətinin və xalqının tərəqqisi naminə prezidentlik fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulamışdır.

**8 oktyabr**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış «Qobu Park-2» yaşayış kompleksinin açılışında iştirak etmişdir.

**9 oktyabr**
- İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniyenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Gürcüstanın Baş Naziri Giorgi Qaxariyanı qəbul etmişdir.
- Bakıdakı Rus Kitab Evinin 10 illiyi münasibətilə ölkəmizdə səfərdə olan Rusiya nümayəndə heyətini qəbul etmişdir.
- İspaniya Krallığının milli bayramı münasibəti ilə Kral Əlahəzrət VI Felipeni təbrik etmişdir.

**10 oktyabr**
- Türkiyə Respublikasının Təhsil naziri Ziya Selçukun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Avstriyanın Federal Nəqliyyat, İnnovasiya və Texnologiya naziri Andreas Rayxhardtın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Türkmənistana işgüzar səfərə gəlmişdir.
- Aşqabadda Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olmuşdur.
- Aşqabadda Moldova Respublikasının Prezidenti İqor Dodon ilə görüşmüşdür.

**11 oktyabr**
- Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında iştirak və çıxış etmişdir.
- Aşqabadda məhdud tərkibdə iclas başa çatandan sonra MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclasında iştirak etmişdir.
- İclasda bir sıra sənədlər, o cümlədən «Strateji iqtisadi əməkdaşlıq haqqında» bəyannamə imzalanmışdır.
- Daha sonra Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun adından nümayəndə heyətləri başçılarının şərəfinə təşkil olunmuş rəsmi qəbulda iştirak etmişdir.
- Türkmənistana işgüzar səfəri başa çatmışdır.

**13 oktyabr**
- Hindistanda oğlanlar və qızlar arasında keçirilən şahmat üzrə dünya çempionatında 14 yaşlılar arasında qələbə qazanmağı münasibətilə Şahmatçı Aydın Süleymanlını təbrik etmişdir.

**14 oktyabr**

- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olmuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.
- Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov ilə görüşü olmuşdur.
- Macarıstanın Baş Naziri Viktor Orban ilə görüşmüşdür.
- Qazaxıstan Respublikasının birinci Prezidenti-elbası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəxri sədri Nursultan Nazarbayevlə görüşmüşdür.
- Qazaxıstan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Serjan Abdıkarimovun etimadnaməsini qəbul etmişdir.
- Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilən VII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçıları ilə birgə şam etmişdir.

**15 oktyabr**

- Bakıda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə çıxış etmişdir.
- Onun adından Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının şərəfinə verilən ziyafətdə iştirak etmişdir.
- Onun yanında keçirilən iqtisadi müşavirəyə sədrlik etmiş, müşavirədə nitq söyləmişdir.
- Ölkəsində baş vermiş «Hagibis» tufanı nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla əlaqədar Yaponiyanın Baş Naziri Zati-aliləri cənab Şinzo Abeyə başsağlığı vermişdir.

**16 oktyabr**

- Koreya Respublikası Milli Assambleyasının sədri Mun Hi-sanqın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**17 oktyabr**

- ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan həmsədri Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.
- Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin idarə heyətinin sədri Saleh Məmmədovu qəbul etmişdir.

**18 oktyabr**

- Latviya Respublikasının sabiq Prezidenti Raymonds Veyonislə görüşmüşdür.
- Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevi qəbul etmişdir.

**21 oktyabr**

- Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Həsənovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul etmişdir.
- Azərbaycan Respublikası Baş Nazirinin müavini Hacıbala Abutalıbovu vəzifədən azad edilməsi ilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul etmişdir.
- Macarıstan Respublikasının milli bayramı münasibəti ilə Prezident Yanoş Aderi təbrik etmişdir.

**22 oktyabr**

- Şahin Mustafayevi yeni vəzifəyə – Baş Nazirin müavini təyin olunması ilə əlaqədar qəbul etmişdir.
- Krasnoyarsk diyarında insan tələfatı ilə nəticələnmiş faciə ilə əlaqədar Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə başsağlığı vermişdir.

**23 oktyabr**

- Ramiz Mehdiyevi qəbul etmişdir.
- Mikayıl Cabbarovu yeni vəzifəyə – İqtisadiyyat naziri təyin olunması ilə əlaqədar qəbul etmişdir.
- İran İslam Respublikasının Xarici İşlər naziri Cavad Zərifin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Xarici İşlər üzrə Dövlət naziri Ənvər Qarqaşın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Belleni təbrik etmişdir.

**24 oktyabr**

- İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə görüşü olmuşdur.
- Kuba Respublikasının Prezidenti Migel Diaz-Kanel ilə görüşmüşdür.
- Akademik Akif Əlizadəni qəbul etmişdir.
- Vyetnam Sosialist Respublikasının vitse-prezidenti xanım Danq Thi Nqok Thinhin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyətinin sədri Çoe Ryonq Haenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Oman Sultanlığı Dövlət Şurasının sədri Yahya bin Məhfuz Əl-Munzirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Çex Respublikasının milli bayramı münasibəti ilə Prezident Miloş Zemanı təbrik etmişdir.

**25 oktyabr**

- Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olmuşdur.
- Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro ilə görüşmüşdür.
- Cibuti Respublikasının Prezidenti İsmail Ömər Qelleh ilə görüşmüşdür.
- Bakıda keçirilən Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə nitq söyləmişdir.
- Onun adından Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçılarının, nümayəndə heyətlərinin rəhbərlərinin şərəfinə verilmiş rəsmi ziyafətdə iştirak və çıxış etmişdir.
- Türkiyə Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğanı təbrik etmişdir.

**26 oktyabr**
- Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşmüşdür.
- Malayziyanın Baş Naziri Mahathir Bin Mohamadı qəbul etmişdir.
- BMT Baş katibinin siyasi və sülh quruculuğu məsələləri üzrə müavini xanım Rozmari DiKarlonu qəbul etmişdir.
- Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelkader Bensalah ilə görüşü olmuşdur.
- Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Milorad Dodik ilə görüşmüşdür.
- Liviyanın Baş Naziri Faiz Saracı qəbul etmişdir.
- BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bandeni qəbul etmişdir.
- Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi ilə görüşü olmuşdur.
- Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Abdelrahman Al-Burhan ilə görüşmüşdür.
- Banqladeş Xalq Respublikasının Baş Naziri xanım Şeyx Hasinanı qəbul etmişdir.
- Esvatininin Kralı Əlahəzrət III Msvati ilə görüşmüşdür.

**28 oktyabr**
- Qəbələ rayonuna səfərə gəlmişdir.
- Ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Qəbələ rayonunun Vəndam qəsəbəsində dekorativ gülçülük istixanası ilə tanış olmuşdur.
- Qəbələ rayonunda 110/35/10 kilovoltluq «Qəbələ» elektrik yarımstansiyasında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur.
- Qəbələ şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyəverilmə mərasimində iştirak etmişdir.
- «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Qəbələ filialının açılış mərasimində iştirak etmişdir.
- Sonra filialın kollektivi ilə görüşmüşdür.
- Qəbələ rayonunun Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.
- Ağdaş rayonuna səfərə gəlmişdir.
- Xalqımızın ümummilli lideri Heydər Əliyevin Ağdaş şəhərində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Ağdaş rayonunda yenidən qurulan Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı avtomobil yolunun açılış mərasimində iştirak etmişdir.
- Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyəverilmə mərasimində iştirak etmişdir.
- Sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, görüşdə çıxış etmişdir.
- Ağdaş Rayon Telekommunikasiya Qovşağında «Şəbəkə» Xidmət Mərkəzi ilə tanış olmuşdur.
- Ağdaşda «Biyan Products» MMC-yə məxsus Biyan Sənaye Parkının açılışında iştirak etmişdir.

**29 oktyabr**
- Böyük Britaniyanın Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul etmişdir.
- «Azərkosmos» Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyevi ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhərinin 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazanması ilə əlaqədar qəbul etmişdir.

**30 oktyabr**
- MDB Müdafiə Nazirləri Şurasının iclasının iştirakçılarını qəbul etmişdir.
- Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**31 oktyabr**
- Anar Tağıyevi Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı, Elnur Rzayevi Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul etmişdir.
- Paytaxtın Yasamal rayonunda Şəfayət Mehdiyev küçəsinin Tbilisi prospektindən Landau küçəsinədək olan hissəsində yenidənqurmadan sonra görülən işlərlə tanış olmuşdur.

## Noyabr

**4 noyabr**
- Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovu qəbul etmişdir.

**6 noyabr**
- Neft Daşlarının 70 illiyi münasibətilə Azərbaycan neftçilərini təbrik etmişdir.

**7 noyabr**
- Argentina Respublikasının Prezidenti vəzifəsinə yeni seçilməsi münasibətilə Prezident Alberto Fernandesi təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik günü münasibətilə Kambocanın Kralı Əlahəzrət Norodom Sihamonini təbrik etmişdir.

**11 noyabr**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Heydər Əliyev Fondu tərəfindən Bakının Xətai rayonunda salınan yeni «Gənclik» parkında «Təbiət naminə birləş, Həyat naminə birləş!» layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak etmişdir.

**12 noyabr**

- İlqar Abbasovu Şirvan şəhər, Mərdan Camalovu Zərdab, Əziz Əzizovu Bakının Suraxanı, Elşad Həsənovu Yasamal, Rafiq Quliyevi Xətai rayonlarının icra hakimiyyətlərinin başçıları vəzifələrinə təyin olunmaları ilə bağlı qəbul etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat naziri Sultan bin Səid əl-Mansurinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı münasibəti ilə Fələstin Dövlətinin Prezidenti Mahmud Abbası təbrik etmişdir.

**13 noyabr**

- «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovu qəbul etmişdir.
- Rusiya Federasiyasının Federasiya Şurasının sədr müavini İlyas Umaxanovu, Rusiya Federasiyasının Federasiya Şurasının Regional məsələlər üzrə komitəsinin sədri Sergey Melikovu, Dağıstan Xalq Məclisinin sədri Xızrı Şıxsəidovu və Dağıstan Xalq Məclisi sədrinin müşaviri Məhəmməd Qurbanovu qəbul etmişdir.
- İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Misir Ərəb Respublikasının Nümayəndələr Palatası sədrinin birinci müavini Əl-Seyyid Mahmud əl-Şərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm Honlaynı qəbul etmişdir.

**14 noyabr**

- Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı Raşid Temrezovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızı Leyla Əliyeva ilə birlikdə Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill ilə görüşmüşdür.
- Birinci xanım Mehriban Əliyeva və qızı Leyla Əliyeva ilə birlikdə Bakıda keçirilən Dünya dini liderlərinin II Sammitinin açılış mərasimində iştirak etmiş və nitq söyləmişdir.
- Onun adından Dünya dini liderlərinin II Bakı Sammitinin iştirakçılarının şərəfinə verilmiş ziyafətdə iştirak etmişdir.

**15 noyabr**

- Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul etmişdir.
- Qüds Sefardi ortodoks baş ravvini Şlomo Amarı qəbul etmişdir.
- Simon Vizental Mərkəzinin həmtəsisçisi və sədr müavini, yəhudi din xadimi Rabbi Abraham Kuperi və ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri, yevangelist din xadimi Conni Muru qəbul etmişdir.
- KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Feysəl bin Muammarı qəbul etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızı Leyla Əliyeva ilə birlikdə Heydər Əliyev Mərkəzində Rusiyanın tanınmış yumoristi, teleaparıcı, şoumen və müğənni Maksim Qalkinin yaradıcılıq axşamına tamaşa etmişdir.
- Latviya Respublikasının milli bayramı – Müstəqillik günü münasibəti ilə Prezident Egils Levitsi təbrik etmişdir.
- Oman Sultanlığının milli bayramı münasibəti ilə Sultan Əlahəzrət Qabus bin Səidi təbrik etmişdir.

**18 noyabr**

- Qətər Dövlətinin Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Feysal bin Abdullah Həməd Abdullah Al Hinzabın etimadnaməsini qəbul etmişdir.
- İordaniya Haşimilər Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Sami Abdullah Ğoşehin etimadnaməsini qəbul etmişdir.
- Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovu qəbul etmişdir.

19 noyabr

- «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin Bakı dairəvi dəmir yolunun Sabunçu-Pirşağı xəttinin yenidənqurmadan sonra açılışında iştirak etmişdir.
- Bakı Dəmir Yolu Vağzalının «Defektoskop» infrastruktur-diaqnostika kompleksində bir qrup dəmiryolçu ilə görüşmüşdür.
- Sonra metronun «28 May» stansiyasının qarşısında vətəndaşlarla görüşmüş, onlarla söhbət etmişdir.
- Daha sonra Dəmir Yolu Muzeyi ilə tanış olmuşdur.

**21 noyabr**

- Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Sumqayıt şəhərində səfərdə olmuşdur.
- Ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoymuşdur.
- Sumqayıt Dövlət Dram Teatrında şəhərin 70 illiyinə həsr olunmuş tədbirdə iştirak etmiş və geniş nitq söyləmişdir.
- Sumqayıtda «Nizami» kinoteatrının yeni binasının açılışında iştirak etmişdir.
- Sumqayıtda Muğam Mərkəzinin açılışında iştirak etmişdir.
- Sumqayıt Dənizkənarı Bulvar Kompleksinin yeni salınmış hissəsində yaradılan şəraitlə tanış olmuşdur.

- Sonra elektromobillə Sumqayıt Dənizkənarı Bulvar Kompleksinin yeni salınmış hissəsini gəzmişdir.

**22 noyabr**

- Ölkəsinin milli bayramı münasibətilə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Jelko Komşiçi təbrik etmişdir.

**26 noyabr**

- NATO-nun Hərbi Komitəsinin sədri Ser Stüart Piiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak etmiş və nitq söyləmişdir.

**27 noyabr**

- Rumıniyanın Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Prezident Klaus Verner İohannisi təbrik etmişdir.
- Ölkəsində baş vermiş güclü zəlzələ nəticəsində insan tələfatı və dağıntılar ilə əlaqədar Albaniya Respublikasının Prezidenti Zati-aliləri cənab İlir Metaya başsağlığı vermişdir.

**28 noyabr**

- Slovakiya Respublikasının Xarici İşlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**29 noyabr**

- İsrafil Məmmədovu yeni vəzifəyə – Dövlət Neft Fondunun icraçı direktoru təyin olunması ilə əlaqədar qəbul etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik günü münasibətilə Prezident Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanı təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik günü münasibətilə Birləşmiş Ərəb Əmirliklərinin Vitse-prezidenti, Baş naziri və Dubay Əmiri Əlahəzrət Şeyx Məhəmməd bin Rəşid Al Məktumu təbrik etmişdir.
- Laos Xalq Demokratik Respublikasının milli bayramı – Respublika günü münasibətilə Prezident Bounyanq Voraçiti təbrik etmişdir.

**30 noyabr**

- Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində keçirilən TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimində iştirak və çıxış etmişdir.
- Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi çərçivəsində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasiminin iştirakçılarının şərəfinə verilən ziyafətdə iştirak etmişdir.

## Dekabr

**2 dekabr**

- Dilarə Seyidzadəyə «Şərəf» ordenini təqdim etmişdir.
- CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrovu qəbul etmişdir.
- XXV beynəlxalq «Bakutel 2019» telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgisinin iştirakçılarını təbrik etmişdir.
- Tailand Krallığının milli bayramı münasibətilə Tailandın Kralı Əlahəzrət Maha Vaciralonqkorn Bodindradebayavaranqkunu təbrik etmişdir.

**3 dekabr**

- Türkiyə Respublikasının Nəqliyyat və İnfrastruktur naziri Mehmet Cahit Turhanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhrominin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi Haulin Jaonu qəbul etmişdir.
- Finlandiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident Sauli Niinistönü təbrik etmişdir.

**4 dekabr**

- Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşəçilik naziri Bekir Pakdemirlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Rüstəm Xəlilovu Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızı Arzu Əliyeva ilə birlikdə Bakı Ekspo Mərkəzində XXV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi – «Bakutel-2019» ilə tanış olmuşdur.
- Sərgidə Rusiyanın «Rossiya 24» televiziya kanalına müsahibə vermişdir.

**5 dekabr**

- Şamaxı rayonuna səfərə gəlmişdir.
- Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Bakı-Şamaxı-Yevlax magistral avtomobil yolunun Şamaxı rayonu ərazisindən keçən 101-117-ci kilo-

metrlik hissəsinin yenidənqurmadan sonra açılışında iştirak etmişdir.
- Şamaxıda «ASAN Həyat» kompleksinin açılışında iştirak etmişdir.
- Sonra kompleksin əməkdaşları ilə görüşmüş, görüşdə çıxış etmişdir.
- Daha sonra «ASAN Həyat» kompleksinin tərkibindəki «ABAD Food Hall»un fəaliyyəti ilə tanış olmuşdur.
- Şamaxı rayonunda zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş 44 mənzilli yaşayış binasında yaradılmış şəraitlə tanış olmuşdur.
- Sonra Fərdar Həsənovun mənzilində yaradılan şəraitlə maraqlanmış, çay süfrəsi arxasında Fərdar Həsənov və anası Xuraman Həsənova ilə söhbət etmişdir.
- Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin (TRASEKA) 20 illik fəaliyyətinə həsr olunmuş yubiley konfransının iştirakçılarını təbrik etmişdir.

**6 dekabr**
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şamaxıda Şahxəndan türbəsinin ətrafında aparılan abadlıq işləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Azərbaycanın filosof şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə mütəfəkkirin anadan olduğu Şamaxı rayonunda keçirilən ağacəkmə aksiyasında iştirak etmişdir.

**9 dekabr**
- Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Rusiya-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Keniya Respublikasının Prezidenti Uhuru Kenyattanı təbrik etmişdir.

**10 dekabr**
- Rəsmi qarşılanma mərasimindən sonra İordaniya Haşimilər Krallığının Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyn ilə təkbətək görüşü olmuşdur.
- Təkbətək görüş başa çatandan sonra İordaniya Haşimilər Krallığının Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyn ilə işçi nahar etmişdir.

**11 dekabr**
- BP qrupunun baş icraçı direktoru Robert Dadlini qəbul etmişdir.
- Koreya Respublikasının Statistika Komitəsinin sədri Kanq Şin-Uokun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**12 dekabr**
- Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət etmiş, Ulu Öndərin məzarı önünə əklil qoymuşdur.
- Sonra Ailə üzvləri ilə birlikdə Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri qoymuşdur.
- Daha sonra tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin xatirələrini yad edərək məzarları üstünə gül dəstələri düzmüşdür.

**13 dekabr**
- Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- «Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi» Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda inşa olunan ilk neft tankerinin istismara verilməsi və «Azərbaycan» adlı gəmi-bərənin suya salınması mərasimində iştirak etmişdir.
- Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş Naziri vəzifəsinə yenidən təyin olunması münasibətilə Baş Nazir Boris Consonu təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Bəhreynin Kralı Əlahəzrət Şeyx Həməd bin İsa Al Xəlifəni təbrik etmişdir.

**16 dekabr**
- «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin (ASC) prezidenti Baba Rzayevi qəbul etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Tanini təbrik etmişdir.

**17 dekabr**
- Rəsmi qarşılanma mərasimindən sonra Ukraynanın Prezidenti Vladimir Zelenski ilə təkbətək görüşü olmuşdur.
- Ukrayna Prezidenti Vladimir Zelenski ilə hər iki tərəfin nümayəndə heyətlərinin də iştirak etdiyi geniş tərkibdə görüşü olmuşdur.
- Geniş tərkibdə görüş başa çatdıqdan sonra Ukrayna Prezidenti Vladimir Zelenski ilə Azərbaycan-Ukrayna sənədlərinin imzalanması mərasimində iştirak etmişdir.
- Sənədlərin imzalanması mərasimində sonra Ukrayna Prezidenti Vladimir Zelenski ilə mətbuata bəyanatla çıxış etmişdir.
- Ukrayna Prezidenti Vladimir Zelenski ilə Bakıda keçirilən Azərbaycan-Ukrayna biznes forumunda iştirak və çıxış etmişdir.
- Onun adından Ukrayna Prezidenti Vladimir Zelenskinin şərəfinə verilmiş rəsmi ziyafətdə iştirak və çıxış etmişdir.
- Qırğız Respublikası parlamentinin – Joqorku Keneşin sədri Dastanbek Cumabekovu qəbul etmişdir.
- Özbəkistan Ali Məclisi Senatının sədri xanım Tanzila Narbayevanı qəbul etmişdir.

**18 dekabr**

- Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Qazaxıstan Parlament Məclisinin Sədri Nurlan Niqmatulinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**19 dekabr**

- Pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər ilə bağlı müşavirəyə sədrlik etmişdir. Müşavirədə giriş və yekun nitq söyləmişdir.
- Azərbaycan Yazıçılar Birliyinin 85 illiyi münasibətilə ölkəmizin ədəbi ictimaiyyətinin nümayəndələrini təbrik etmişdir.

**20 dekabr**

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün Sankt-Peterburq şəhərinə səfərə gəlmişdir.
- Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində fəaliyyət göstərən diaspor təşkilatlarımızın rəhbərləri ilə görüşmüşdür.
- Rusiyanın Sankt-Peterburq şəhərində keçirilən MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmişdir.
- Sonra görüş iştirakçıları ilə birgə «1939-cu il II Dünya müharibəsinin başlanması» mövzusunda tarixi-sənədli sərgi ilə tanış olmuşdur.
- MDB dövlət başçılarının qeyri-rəsmi görüşünün iştirakçılarının şərəfinə verilən ziyafətdə iştirak etmişdir.
- Rusiya Federasiyasına səfəri başa çatmışdır.

**23 dekabr**

- Birinci xanım Mehriban Əliyeva və qızı Leyla Əliyeva ilə birlikdə Bakı şəhərinin 29 saylı Səbail seçki dairəsinin 6 nömrəli orta məktəbdə yerləşən 6 saylı seçki məntəqəsinə gələrək səs vermişdir.
- Yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibə vermişdir.

**24 dekabr**

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin telefonla zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona Azərbaycan xalqının firavanlığı və Azərbaycan dövlətinin inkişafı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan telefonla zəng edərək onu ad günü münasibətilə təbrik etmiş, ona Azərbaycan xalqının rifahı və tərəqqisi naminə Prezidentlik fəaliyyətində yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulamışdır.
- Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov telefonla zəng edərək onu ad günü münasibətilə təbrik etmiş, ona xalqımızın rifahı naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev telefonla zəng edərək onu ad günü münasibətilə təbrik etmiş, ona xalqımızın tərəqqisi naminə fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç telefonla zəng edərək onu ad günü münasibətilə təbrik etmiş, ona dövlətçilik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Gürcüstanın Baş Naziri Giorgi Qaxariya telefonla zəng edərək onu ad günü münasibətilə təbrik etmiş, ona Azərbaycan xalqının firavanlığı naminə fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulamışdır.
- Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri, Rusiya-Azərbaycan Hökumətlərarası İqtisadi Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul etmişdir.
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Xəzər rayonunda yerləşən 2 saylı DOST mərkəzinin açılış mərasimində iştirak etmişdir.
- Bakının Nizami rayonunda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün inşa olunan yaşayış binasında mənzillərin, həmçinin Qarabağ müharibəsi əlillərinə və onlara bərabər tutulan şəxslərə avtomobillərin təqdim olunması mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızı Leyla Əliyeva ilə birlikdə Bakı Ağ Şəhərdə Mərkəzi Bulvar küçəsinin açılışında iştirak etmiş, əsasən tamamlanmış Park Kvartalı ilə tanış olmuşdur.
- İsveçrə Konfederasiyasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Prezident xanım Simonetta Sommaruqanı təbrik etmişdir.

**25 dekabr**

- İsrailin Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Corc Dikin etimadnaməsini qəbul etmişdir.
- Əlcəzairin Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Salima Abdelhakın etimadnaməsini qəbul etmişdir.
- Milli Olimpiya Komitəsində 2019-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak etmiş və nitq söyləmişdir.
- Sonra Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2019-cu ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatların təqdimolunması mərasimində iştirak etmişdir.
- Daha sonra 2019-cu ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə –

Salman Əlizadə, Bəhram Mürvətov, Qərib Əliyev, Rəşad Məmmədov, Ramiz Ramizzadə, Bəhruz Salehli, Səbinə Məmmədova, Elxan Süleymanov, Səid Quliyev, Əbülfəz Məmmədov, Rəşad Əbdürrəhmanov, Vladislav Qədirov, Anar Allahverdiyev, Xanım Balacayeva, Kərim Sərdarov, Emil Həsənov, Kamil Qafarov, Ceyhun Hüseynov, Asiman Qurbanlı, Cabbar Mustafayev, Faiq Quliyev, Şahbandlu Rəcəbzadə və Səməd Qurbanova yeni mənzillərin orderlərini təqdim etmişdir.

- Sonda Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova ona xatirə hədiyyələri təqdim etmişdir.
- Azərbaycan xalqının milli-mənəvi bütövlüyünü təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Dünya Azərbaycanlılarını təbrik etmişdir.

**26 dekabr**

- Türkiyə Respublikasının Ticarət naziri xanım Ruhsar Pekcanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhədi yeni avtomobil yolunun tikintisi ilə tanış olmuşdur.

**27 dekabr**

- Birinci xanım Mehriban Əliyeva və qızı Leyla Əliyeva ilə birlikdə "Şahdağ" Turizm Mərkəzində görülən işlərlə tanış olmuşdur.
- «Şahdağ» Turizm Mərkəzində xizək sürmüşdür.
- Sonra yerli və xarici turistlərlə söhbət etmişdir.
- Ölkəsinin milli bayramı – Azadlıq günü münasibətilə Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri Raul Kastro Rusu Migel Dias-Kanel Bermudesi təbrik etmişdir.

**29 dekabr**

- «Azərbaycan Dəmir Yolları» QSC tərəfindən paytaxtın Sabunçu rayonunun Pirşağı qəsəbəsində inşa edilən avtomobil tunelinin açılışında iştirak etmişdir.

**30 dekabr**

- Bakının Binəqədi rayonundakı Səttar Bəhlulzadə küçəsi, Atatürk və Ziya Bünyadov prospektlərinin kəsişməsində yerləşən parkda aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.

**31 dekabr**

- Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

***Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi qəbul edib.

Qonağı salamlayan Prezident İlham Əliyev dedi:

-Sizi mühüm hadisə - Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının növbəti sammiti ərəfəsində yenidən görməyimə şadam. Bu, mühüm hadisəyə hazırlığın son ştrixlərini müzakirə etmək üçün yaxşı imkandır. Biz çox fəal hazırlaşırıq. Əminəm ki, sammit yüksək səviyyədə keçəcək, bizim dövlətlərin əməkdaşlığı işində yeni mərhələlərə nail olacağıq.

Son illərdə əməkdaşlığımızın coğrafiyası genişlənir. Bizim üçün çox xoşdur ki, qardaş dövlətlər təşəbbüslərimizə qoşulur. İndiki sammit yubiley sammiti olacaq. Azərbaycanın qədim şəhəri olan Naxçıvanda 10 il əvvəl biz Əməkdaşlıq Şurasının yaradılması ilə bağlı qərar qəbul etdik. Mən bu mühüm qərara gətirib çıxaran bütün məqamları təfərrüatı ilə xatırlayıram. Siz bilirsiniz ki, Azərbaycan qardaş dövlətlərin başçılarını ilk dəfə deyil ki, qəbul edir. Buna görə də əminəm ki, həm təşkilati tərəfi, həm də məzmun cəhəti yüksək səviyyədə olacaq. Bu mühüm tədbir ərəfəsində biz sizinlə sammitə hazırlıqla bağlı son məqamları müzakirə etməliyik ki, tədbir uğurla keçsin və bizim ölkələri daha da sıx birləşdirsin.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev dedi:

-Bizi qəbul etdiyinizə görə sağ olun, cənab Prezident. Doğrudan da sammit artıq yaxınlaşmaqdadır. Həqiqətən də indi görülən işlər və sammitə qədər nələri edə biləcəyimizi Sizə bildirməyimə böyük ehtiyacım var. İlk növbədə, demək istərdim ki, Azərbaycan, ümumiyyətlə, türk birliyi prosesində xüsusi yer tutur. Məhz Azərbaycan torpağı Naxçıvanda razılaşma imzalanıb. Məhz Bakıda, Azərbaycan torpağında siz yubiley sammitini qəbul edirsiniz. Artıq 10 ildir ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası fəaliyyət göstərir. Həmin 10 il bir növ təşəkkül dövrü olub. İndi bu dövrü Sizin siyasi iradəniz, türk birliyinin formalaşması üzrə verdiyiniz mühüm qərarlar sayəsində başa çatdırmışıq. Biz təşəkkül, təsisat dövrünü başa vurmuşuq. İndi isə biz yeni mərhələyə - artıq böyük inteqrasiya mərhələsinə keçirik.

***İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniyenin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniyenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev dedi:

-Xoş gəlmisiniz. Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Əminəm ki, səfəriniz İsveçrə-Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün önəmli addım olacaqdır.

Bildiyiniz kimi, bizim əlaqələrimiz uğurla inkişaf edir, bir çox sahələri əhatə edir. İlk növbədə, siyasi əlaqələr haqqında demək istərdim. Son 10 il ərzində hər il İsveçrə və Azərbaycan prezidentləri görüşür və ikitərəfli əməkdaşlıq haqqında fikir mübadiləsi aparırlar. Davos Dünya İqtisadi Forumunun burada, əlbəttə ki, xüsusi rolu vardır. Çünki Forum çərçivəsində bu görüşlər baş verir və bu il də istisna olmamışdır. Bu ilin yanvar ayında İsveçrə Prezidenti ilə görüşümü xatırlayıram. İkitərəfli əlaqələrimizin müxtəlif aspektləri geniş müzakirə edilmişdir və əlaqələrimizə yeni təkan verilmişdir. Eyni zamanda, deməliyəm ki, dövlət səfərləri də təşkil edilmişdir. Mən İsveçrədə dövlət səfərində olmuşam və İsveçrə prezidentləri Azərbaycanda dövlət səfərlərində olmuşlar.

Şadam ki, əlaqələrimiz təkcə siyasi dialoqla məhdudlaşmır, iqtisadi sahədə və sərmayə qoyuluşu sahəsində də yaxşı nəticələr vardır. İsveçrə şirkəti "Holcim" Azərbaycana yüz milyonlarla ölçülən sərmayə qoymuşdur. Həmçinin Azərbaycan şirkətləri də ölkənizə sərmayə qoyurlar və bu proses qarşılıqlı xarakter daşıyır.

Beynəlxalq maliyyə qurumları çərçivəsində də əməkdaşlığımızın xüsusi mənası vardır.

Əlbəttə, münasibətlərimizin ümumi kontekstində parlamentlərarası əlaqələr də önəmli yer tutur və əminəm ki, bu əlaqələrin inkişafı ilə əlaqədar sizin səfəriniz çərçivəsində növbəti addımlar atılacaqdır.

Bir daha sizi salamlayıram və "Xoş gəlmisiniz!" deyirəm.

İsveçrə Kantonlar Şurasının sədri Jan-Rene Furniye dedi:

-Çox sağ olun, cənab Prezident. Əvvəla, biz Sizin ölkənizə minnətdarıq ki, bizi və nümayəndə heyətimizi səmimiyyətlə qəbul edir. Əlbəttə ki, bu gün səhər-səhər Sizin tərəfinizdən qəbul olunmaqdan böyük şərəf hissi

duyuruq. Həmçinin hesab edirik ki, bu, aramızda olan əməkdaşlığı dərinləşdirmək üçün yaxşı bir fürsətdir.

Əlbəttə ki, mənim səfərimin məqsədinin digər bir hissəsi bizim Azərbaycan parlamenti ilə olan əlaqələrimizin daha da təkmilləşdirilməsi və gücləndirilməsindən ibarətdir.

Əslində hesab edirik ki, bu, həmçinin iki xalq arasında da böyük bir yaxınlaşmanın əlamətidir. Çünki bilirik ki, hazırda Azərbaycan öz Dövlət Neft Şirkəti vasitəsilə biz isveçrəlilərin gündəlik həyatında daha yaxından iştirak etməyə başlayıb.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bir milyondan artıq soydaşımızın qaçqın və köçkün vəziyyətinə düşdüyünü, dövlətimizin qaçqın və köçkünlərin sosial problemlərinin həll edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirdiyini qeyd etdi.

İsveçrə Konfederasiyası Kantonlar Şurasının sədri Jan-Rene Furniye Azərbaycana səfərindən məmnunluğunu və ölkəmizdə inkişaf etmiş infrastrukturun şahidi olduğunu bildirdi.

Görüşdə Azərbaycanla İsveçrə arasında müxtəlif sahələrdə əməkdaşlıq, o cümlədən beynəlxalq təşkilatlar, beynəlxalq maliyyə təsisatları çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu, dövlət idarəçiliyinin müxtəlif sahələri üzrə təcrübə mübadiləsi aparılmasının vacibliyi qeyd olundu.

### *Gürcüstanın Baş Naziri Giorgi Qaxariyanın qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Gürcüstanın Baş Naziri Giorgi Qaxariyanı qəbul edib.

Baş Nazir Giorgi Qaxariyanı salamlayan Prezident İlham Əliyev dedi:

-Hörmətli cənab Baş Nazir. Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz.

İlk növbədə, sizi Baş Nazir vəzifəsinə seçilməyiniz münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram. Siz dəfələrlə Azərbaycanda səfərdə olmusunuz. Mən sizinlə keçirdiyim görüşləri böyük məmnunluq hissi ilə xatırlayıram. Bu dəfə siz qardaş ölkənin Baş Naziri kimi Azərbaycana səfər edirsiniz və sizin Baş Nazir kimi ilk xarici səfərinizdir. Bu, bizi olduqca məmnun edir. Birinci səfəriniz Azərbaycana edilir və bu, bir daha onu göstərir ki, Azərbaycan Gürcüstan üçün çox önəmli və ən yaxın tərəfdaşlardan biridir. Bizim üçün də Gürcüstan ən yaxın tərəfdaşdır və ən yaxın ölkələrdən biridir. Bizi birləşdirən ortaq tarix, ortaq coğrafi məkan əlaqələrimizin inkişafı üçün gözəl təməldir. Müstəqillik dövründə əlaqələrimiz uğurla inkişaf edib və bu gün bir çox sahələri əhatə edir. Biz beynəlxalq təşkilatlarda bir-birimizin ərazi bütövlüyünü dəstəkləyirik və beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edirik.

Şadam ki, iqtisadi sahədə gözəl nəticələr var. Azərbaycan Gürcüstan iqtisadiyyatına sərmayə qoyan ölkələr sırasında ilk yerlərdədir. Birgə həyata keçirdiyimiz neft-qaz və nəqliyyat layihələri ikitərəfli formatdan çıxıb və qlobal məna daşıyır. Əlbəttə ki, insanlar arasındakı əlaqələr xüsusi məna daşıyır. Gürcüstanda yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan gürcülər bu əlaqələrin inkişafında çox önəmli amildir. Bir daha sizi salamlayıram və "Xoş gəlmisiniz!" deyirəm.

Gürcüstanın Baş Naziri Giorgi Qaxariya dedi:

-Təşəkkür edirəm, cənab Prezident, səmimi və xoş qəbulunuz üçün. Mənim üçün böyük şərəfdir ki, ilk xarici səfərimi məhz Azərbaycana edirəm. Bu, təsadüfi deyil ki, biz ilk səfəri Azərbaycan Respublikasına etdik. Biz bu qərarı ona görə qəbul etdik ki, düşmənə və dosta sübut edək, Azərbaycan və Gürcüstan arasında heç bir həll olunmayan məsələ yoxdur və ola bilməz.

Mən Sizinlə görüşləri xatırlayıram, biz bütün məsələlər ətrafında açıq söhbət edirdik. Bu, mənim üçün böyük təcrübə idi. Siz dediyiniz kimi, Azərbaycan və Gürcüstan ən yaxın dost və qardaş ölkələrdir. Həqiqətən bizim əməkdaşlığımız və tərəfdaşlığımız regional çərçivədən çıxdı və beynəlxalq müstəviyə yüksəldi, xüsusən iqtisadiyyat, nəqliyyat, ticarət məsələlərində. Gürcüstan və Azərbaycan bir-birini beynəlxalq formatda hər zaman dəstəkləyir. Bizim üçün çox vacib olan məsələdə - Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiyiniz üçün Sizə təşəkkürümü bildirirəm.

Əlbəttə ki, insanlarımız arasında mehriban, dost münasibətlər də çox mühümdür və vacibdir. Bizim xalqlar arasındakı əlaqələr uzunəsrlidir və mədəni əlaqələrdir. Bizim xalqlarımız arasında münasibətlərin böyük tarixi var.

Əminəm ki, bugünkü səfərim, bugünkü görüşlərimiz son dərəcə səmərəli olacaq, dosta və düşmənə bir daha göstərəcək ki, Gürcüstan və Azərbaycan arasındakı əlaqələr hər zaman dost əlaqələridir. Onlar arasında həll olunmayan məsələlər yoxdur və onlar hər zaman bütün məsələlərdən çıxış yolu tapa bilərlər.

Səmimi qəbul üçün Sizə bir daha təşəkkür edirəm.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş Naziri Giorgi Qaxariya işçi nahar etdilər.

### *Bakıdakı Rus Kitab Evinin 10 illiyi münasibətilə ölkəmizdə səfərdə olan Rusiya nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Bakıdakı Rus Kitab Evinin 10 illiyi münasibətilə ölkəmizdə səfərdə olan Rusiya nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:

-Sizi yenidən görməyimə şadam.

Rusiya Dövlət Dumasının MDB, Avrasiya inteqrasiyası işləri üzrə və həmvətənlərlə əlaqələr komitəsinin sədri Leonid Kalaşnikov dedi:

-Buraya gələndə elə bil, öz evimizə gəlirik.

Prezident İlham Əliyev: Düzdür, belə də olmalıdır. Buyurun, əyləşin. Mən sizi görməyimə çox şadam. Siz bizə çox əlamətdar vaxtda gəlmisiniz. Mənim də Rusiyaya səfərim yenicə başa çatıb. Tezliklə də MDB sammiti başlayacaq.

Leonid Kalaşnikov: İlham Heydər oğlu, Sizin səfəriniz Rusiyada çox böyük effekt doğurdu. Sizə açığını deyim ki, çox səmimi görüş oldu. Bütün bunlar göstərildi.

Prezident İlham Əliyev: Heç kəs üçün sirr deyil ki, mənim Vladimir Vladimiroviçlə əslində qarşılıqlı hörmətə, qarşılıqlı anlaşmaya və əməkdaşlığı dərinləşdirmək cəhdlərinə əsaslanan, mötəbər, mən deyərdim ki, dost münasibətlərimiz mövcuddur. Əlbəttə, "Valday" forumuna dəvət olunmaq mənim üçün böyük şərəfdir. Forum özü də əhəmiyyətlidir, kimin dəvət etməsi də mühümdür. Vladimir Vladimiroviç məni hələ apreldə, bizim Pekində görüşümüz vaxtı dəvət etmişdi. Onda biz çox konstruktiv danışıqlar apardıq və indi Soçidə biz bir növ bu danışıqlarımıza yekun vururduq. Nə barədə razılaşırıqsa hamısı yerinə yetirilir. Əlbəttə, Prezidentlə görüş çox məzmunlu, səmimi keçdi. Mən buna çox şadam.

Rusiya Dövlət Dumasının komitə sədri Leonid Kalaşnikov Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubundakı çıxışının diqqətlə izlənildiyini və bu çıxışın böyük təəssüratlar doğurduğunu diqqətə çatdırdı. O, bu səfər çərçivəsində Azərbaycanda fəaliyyət göstərən Rus Kitab Evinin 10 illiyinin qeyd olunacağını bildirdi və bu Kitab Evinin fəaliyyətinə göstərilən dəstəyə görə Azərbaycan tərəfinə minnətdarlığını ifadə etdi.

Qonaq, həmçinin Azərbaycanda dövlət səviyyəsində rus dilinə olan qayğının nümunəvi xarakter daşıdığını qeyd etdi. Azərbaycanda 350-dən artıq orta məktəbdə tədrisin rus dilində aparıldığını və ali təhsil müəssisələrində rus bölmələrinin fəaliyyət göstərdiyini məmnunluqla vurğuladı.

Leonid Kalaşnikov, həmçinin Azərbaycanın və Rusiyanın parlamentləri arasında çox sıx əlaqələrin olduğunu qeyd etdi və Rusiyanın Avropa Şurasının Parlament Assambleyasında üzvlüyünün bərpasında Azərbaycan nümayəndə heyətinin göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini bildirdi.

Görüşdə Rusiya və Azərbaycan arasında elm, təhsil və digər humanitar sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

### *Türkiyə Respublikasının Təhsil naziri Ziya Selçukun başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 10-da Türkiyə Respublikasının Təhsil naziri Ziya Selçukun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev dedi:

-Xoş gəlmisiniz. Sizi görməyimə şadam. Əminəm ki, səfəriniz uğurlu olacaq və təhsil sektorundakı əməkdaşlığımız davam edəcək.

Bildiyiniz kimi, Türkiyə-Azərbaycan əlaqələri bütün sahələrdə ən yüksək zirvədədir. Elə bir sahə yoxdur ki, biz o sahədə əməkdaşlıq etməyək. O cümlədən sizin rəhbərlik etdiyiniz sahə də həm bu gün üçün, həm də gələcək üçün çox önəmlidir ki, gələcək nəsillərimiz milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə alsınlar, bilikli savadlı olsunlar və gələcəkdə ölkələrimizin inkişafında fəal olsunlar. Sizi səmimiyyətlə salamlayıram. Türkiyə-Azərbaycan qardaşlığı, birliyi sarsılmazdır. Biz bütün sahələrdə - həm siyasi sahədə, həm də iqtisadi, nəqliyyat, enerji, mədəniyyət, təhsil sahələrində gözəl nəticələri görürük.

Bildiyiniz kimi, bir neçə gündən sonra Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə Görüşü keçiriləcək. Biz bu görüşə ciddi hazırlaşırıq və əminəm ki, qəbul ediləcək qərarlar türkdilli dövlətlərin birliyini daha da möhkəmləndirəcək. Sizi bir daha salamlayıram. Xoş gəlmisiniz.

Türkiyənin Təhsil naziri Ziya Selçuk dedi:

-Təşəkkür edirəm. Zati-alinizin bizi qəbul etməsindən böyük məmnunluq duyuruq. Çox minnətdaram, sağ olun. Cənab Prezidentimizin salamlarını çatdırmaq istərdim.

Prezident İlham Əliyev: Sağ olun. Mənim də salamlarımı çatdırın.

Ziya Selçuk: Prezidentimiz Sizə olan dost münasibətini hər zaman ifadə edir. "Bir millət, iki dövlət" şüarının daim vurğulandığı və bu məsələnin əhəmiyyəti barədə danışıldığı da Sizə məlumdur.

Zati-alinizin Türkiyə vətəndaşları üçün viza rejiminin ləğvi barədə qərarı Türkiyədə böyük bir sevinc hissi yaradıb. Bunu, cənab Prezident, Sizə çatdırmaq istəyirəm. Mükəmməl səviyyədə olan əməkdaşlığımız hamımızı sevindirir. Həm vətəndaşlarımızın ünsiyyətinin artması, həm tələbələrin Türkiyəyə təhsil almağa gəlmələri, həm də Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi əməkdaşlığın genişlənməsi hamımızı çox məmnun edir.

Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla onu qardaşlıq münasibətlərinin bağladığını dedi. Dövlətimizin başçısı qeyd etdi ki,

Azərbaycanla Türkiyə arasında böyük sərvətimiz olan dostluq və qardaşlığımızı möhkəm iş birliyinə çevirməyə nail olmuşuq. Prezident İlham Əliyev bildirdi ki, dünya miqyasında Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın ölkələr yoxdur.

Diqqətə çatdırıldı ki, görülən işlər nəticəsində şəhərdə 132 kilometr içməli su şəbəkəsi yaradılıb, 7 mindən çox abonent yeni şəbəkəyə qoşulub və sayğaclaşma işləri aparılıb. Hazırda şəhər əhalisi yeni yaradılmış infrastruktur hesabına fasiləsiz rejimdə içməli su ilə təmin olunur. Şəhərdə 123 kilometrlik kanalizasiya şəbəkəsi və 8,2 kilometr uzunluğunda kanalizasiya kollektoru inşa edilib. Tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 4400 kubmetr olan tullantı sutəmizləyici qurğunun tikintisi yekunlaşıb.

Dövlətimizin başçısı Qəbələ şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.

Oktyabrın 28-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qəbələ filialının açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Dövlətimizin başçısı Qəbələ filialının açılışını bildirən lenti kəsdi.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov bildirdi ki, qədim el sənətlərindən olan xalçaçılığın inkişafı ilə bağlı son illərdə görülən işlər öz bəhrəsini verir.

Qeyd olundu ki, bu sahənin inkişafına xüsusi diqqət və qayğı sayəsində artıq bir çox bölgələrdə xalça fabrikləri istifadəyə verilib və bəzi regionlarda yeni fabriklərin açılması istiqamətində işlər gedir. Hazırda dövlət səviyyəsində bu fabriklərin yerli istehsal hesabına xammalla təmin olunması diqqət mərkəzindədir. Bu fabriklərin açılması xüsusilə qadınların işlə təmin olunmasında müstəsna əhəmiyyətə malikdir. Bu sırada təbii ki, Qəbələdəki xalça fabriki də fərqlənir. Müəssisədə əsasən Şamaxı, Ağdaş, Ağsu, Kürdəmir, Hacıqabul, Göyçay, Zərdab, İsmayıllı, Qobustan, Ucar, Qəbələ, Qax, Zaqatala və Oğuz rayonlarının kəndlərində toxunan tarixi və orijinal Şirvan xalça çeşnilərinə üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında "Azərxalça"nın rəssamları tərəfindən hazırlanıb.

Qəbələ filialı toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq və zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilib. Toxucular Qəbələ şəhərinin və rayonun ayrı-ayrı kəndlərinin sakinləridir. Onlar bir neçə ay ərzində "Azərxalça"nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında mütəmadi iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları "Azərxalça" ASC-nin tədris sertifikatını alacaqlar. Xalça-satış salonunda "Azərxalça" ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgilənməsi və satışı həyata keçiriləcək.

Dövlətimizin başçısı toxunuşu başa çatan xalçanı kəsdi.

Sonra filialın kollektivi ilə görüşən Prezident İlham ƏLİYEV dedi:

- Mən sizi ürəkdən salamlayıram. Sizi yeni xalça fabrikinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu gözəl müəssisədə indi 50-dən çox iş yeri yaradılıb. Gələcəkdə iş yerlərinin sayı daha da çox olacaq. Əsas məsələ ondadır ki, burada qadınlar üçün iş yerləri yaradılır. Yəni, qadınları işlə təmin etmək üçün xüsusi tədbirlər görülür ki, Azərbaycanda iş yerləri daha da sürətlə açılsın, daha geniş əhalini əhatə etsin.

Burada iş şəraiti də, əməkhaqqı da yaxşıdır. Azərbaycanda xalçaçılıq sənətinin bundan sonra da yaşadılması üçün biz çox böyük işlər görürük. Bu məqsədlə "Azərxalça" müəssisəsi yaradılıbdır və mənim göstərişimlə ölkəmizdə 30-dan çox xalça fabriki tikilməlidir. Onlardan 10-u istifadəyə verilib, o cümlədən biri Qəbələ şəhərində. Növbəti illərdə isə 20-dən çox fabrik fəaliyyətə başlayacaq. Bu fabriklərdə minlərlə yeni iş yeri yaradılacaq.

Xalçaçılıq sənəti bizim milli sənətimizdir, bizim qədim sənətimizdir. Azərbaycan xalçaları dünyanın ən aparıcı muzeylərində nümayiş etdirilir. Xalça bizim məişətimizin ayrılmaz hissəsidir və Azərbaycan xalçaları öz keyfiyyəti ilə seçilir. Biz elə etməliyik ki, bu sənət daim yaşasın. Buna nail olmaq üçün, əlbəttə ki, belə fabriklərin yaradılması çox böyük əhəmiyyət kəsb edir. Əminəm ki, gənc nəsil bu gözəl sənətə gələcək və bizim peşəkar mütəxəssislərimiz öz təcrübələrini bölüşərək bunu gənc nəslə də ötürəcəklər. Beləliklə, xalça sənəti yaşayacaq, necə ki, əsrlərboyu yaşayıb.

Eyni zamanda, xalça ixracyönümlü məhsuldur. Bu xalçalar xaricə satılmaqla ölkəmizə valyuta gələcək. Biz indi Sumqayıt şəhərində böyük əyirici-boyaq müəssisəsini yaradırıq. Ölkə üzrə yun tədarük mərkəzləri yaradılır. Bizim öz boyalarımız, öz iplərimiz olacaq və idxaldan asılılıq aradan qaldırılacaq.

Ona görə "Azərxalça"nın yaradılması, görün, nə qədər böyük, gözəl hadisələrə təkan verdi. Həm iş yerləri yaradılır, biz sənətimizi yaşadırıq, gənc nəsli yetişdiririk, həm də bölgələrdə yunçuluqla bağlı aparılan tədbirlər öz səmərəsini verir və nəticədə Azərbaycan daha da güclənir, ölkəmizin uğurlu inkişafı təmin edilir.

Qəbələ rayonuna çox böyük diqqət göstərilir. Son illər ərzində burada bir çox önəmli müəssisələrin, obyektlərin açılışı olub. Təsadüfi deyil ki, mən son 16 il ərzində Qəbələyə 13 dəfə səfər etmişəm, şəhərin, rayonun inkişafı ilə bağlı göstərişlər verilib və gözəl açılışlarda iştirak etmişəm.

Qəbələ Azərbaycanın Bakıdan sonra ikinci turizm məskənidir. Turizmin inkişafı sürətlə davam edir, 9 otel, 9 istirahət mərkəzi yaradılıb. Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Qəbələdə beynəlxalq aeroport tikilib. Baxmayaraq ki, sovet vaxtında Qəbələdə aeroport yox idi, indi beynəlxalq uçuşlar təşkil edilir. İcra başçısı mənə məlumat verdi ki, bu il təkcə otellərdə 150 min qonaq istirahət edib. Fərdi evlərdə də bəlkə o qədər qonaq istirahət edib. Bu, vətəndaşlara da böyük maddi dəstəkdir. İmkanı olan vətəndaşlar öz evlərinin bir hissəsini kirayəyə verirlər, pul qazanırlar. Kəndlilər də öz məhsullarını satırlar. Ona görə turizmin inkişafı əhalinin çox böyük bir hissəsini əhatə edir.

Əlbəttə, Qəbələdə sosial infrastruktur da icra edilir. O cümlədən biz bu gün içməli su-kanalizasiya layihəsini icra etdik. Bundan sonra Qəbələ ən yüksək standartlara cavab verən içməli su ilə təmin ediləcəkdir. Şəhər sakinləri bundan faydalanır. "ASAN xidmət" mərkəzi yaradılmışdır ki, bu da vətəndaşlara çox böyük rahatlıq verir. Heydər Əliyev adına böyük Konqres Mərkəzi yaradılıb və orada beynəlxalq tədbirlər, musiqi festivalları keçirilir. Yəni, Qəbələdə hərtərəfli inkişaf təmin edilir, iş yerləri, yeni müəssisələr, konserv zavodu, iki böyük heyvandarlıq müəssisəsi, bu gün tanış olduğum, Azərbaycanın tələbatının böyük hissəsini öz üzərinə götürən gülyetişdirmə mərkəzi və bu xalça müəssisəsi. Ona görə Qəbələnin timsalında biz ölkəmizin uğurlu inkişafını görürük.

Şəhər də gündən-günə gözəlləşir, abadlaşır. Həm tarixi abidələr qorunur, həm yeni obyektlər göz oxşayır. Belə də olmalıdır. Çünki Qəbələ dünyanın ən qədim yaşayış yerlərindən biridir. Qəbələ qədim Qafqaz Albaniyası dövlətinin paytaxtı olmuşdur. Bu şəhərin çox böyük tarixi var. Biz indi Qəbələnin tarixi simasını saxlamaqla şəhərə, rayona yeni nəfəs veririk. Yeni inkişaf konsepsiyası icra edilir. Hər dəfə Qəbələdə olanda mən gördüyüm bu inkişafı qiymətləndirirəm və buna sevinirəm.

Sizə gələcəkdə yeni uğurlar arzulayıram. Arzu edirəm ki, bu müəssisədə yaxşı işləyəsiniz, həm ailə büdcənizə töhfə verəsiniz və həm də burada gözəl sənətimizi yaşadasınız.

Xalçaçılar: Çox sağ olun, cənab Prezident.

Sonda xatirə şəkli çəkdirildi.

İlham Əliyev Qəbələ rayonunun Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun açılışında iştirak edib

Oktyabrın 28-də Qəbələ rayonunun Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun yenidənqurmadan sonra açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov bildirdi ki, regionların inkişafı Dövlət proqramlarına uyğun olaraq son illərdə yol infrastrukturunun müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələr uğurla icra olunur. İndi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən yolların, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilib.

Diqqətə çatdırıldı ki, Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolu 10 min nəfər əhalinin yaşadığı 11

yaşayış məntəqəsini birləşdirir. Uzunluğu 19 kilometr olan yol dördüncü texniki dərəcəlidir. İki hərəkət zolaqlı yol üzərində xeyli yol nişanı və göstərici lövhələr, siqnal dirəkləri və 8 avtodayanacaq quraşdırılıb. Avtomobil yolunun 10-cu kilometrliyində Qaraçay çayı üzərində dördaşırımlı yeni körpü tikilib, Zalamçay çayı üzərində isə ikiaşırımlı körpü təmir edilib. Bu yolun inşası əhalinin mənzil başına tez və rahat çatmasına, həmçinin kənd təsərrüfatı məhsullarının vaxtında bazarlara və digər satış məntəqələrinə çatdırılmasına şərait yaradacaq.

Prezident İlham Əliyevə rayonun Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx avtomobil yolunun tikintisi barədə də məlumat verildi. Qeyd olundu ki, 11 min əhalinin yaşadığı və 8 yaşayış məntəqəsini birləşdirən yolun uzunluğu 18 kilometrdir.

Prezident İlham Əliyev Şamaxı-İsmayıllı yolunun yenidən qurulması barədə göstəriş verərək dedi:

- Mən indi Bakı-Şamaxı yolu ilə gəlmişəm. Bu yol yaxşıdır. Vaxtilə göstəriş vermişdim ki, yol dörd zolağa genişləndirilsin, demək olar başa çatıb. Amma Şamaxı-İsmayıllı yolu bərbad vəziyyətdədir. Belə bir yolla biz barışa bilmərik. Niyə məlumat vermirsiniz bu haqda? Biz indi kənd yollarını magistral yollar səviyyəsində inşa edirik. Amma şəhərlərarası, xüsusilə turizm zonasına gedən yol belə bərbad vəziyyətdə qala bilməz. Təkliflər verin ki, biz Şamaxı-İsmayıllı yolunu investisiya proqramına salaq. Gələn il gərək Şamaxı-İsmayıllı yolu istifadəyə verilsin, özü də yüksək səviyyədə.

Sonra dövlətimizin başçısı Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun yenidənqurmadan sonra açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

## *Ağdaş rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Ağdaş rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Ağdaş şəhərində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Rayon icra hakimiyyətinin başçısı Tofiq İbrahimov Prezident İlham Əliyevə son illər Ağdaşda görülən işlər, həyata keçirilən layihələr, eləcə də Ulu Öndərin abidəsi ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi

Ağdaş rayonunda yenidən qurulan Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı avtomobil yolu istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avtomobil yolunun açılış mərasimində iştirak edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin siyasətinə uyğun olaraq hazırda ölkəmizin regionlarında infrastrukturun təkmilləşdirilməsi və inkişaf etmiş ölkələrdəki səviyyəyə çatdırılması diqqət mərkəzindədir. Bu baxımdan dövlətimizin başçısının müvafiq tapşırıqları əsasında respublikamızda kənd yollarının inşası və yenidən qurulması da geniş vüsət alıb. Bütün bölgələrdə kənd yollarının tikintisi ilbəil daha da genişlənir. Bu, həm sosial, həm də iqtisadi layihələrdir. Həmin layihələrin icrası nəticəsində on minlərlə yeni iş yeri açılır. Təzə kənd yolları yerlərdə aqrar bölmənin əsaslı şəkildə inkişafına da təkan verir, kənd təsərrüfatı məhsullarının bazarlara rahat və operativ şəkildə çatdırılmasına əlverişli şərait yaradır. Kənd yollarının inşasının genişləndirilməsi məqsədilə büdcə vəsaiti ilə yanaşı, Prezidentin ehtiyat fondundan da əlavə vəsait ayrılır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı yolunun uzunluğu 33 kilometr, hərəkət hissəsinin eni 6 metrdir. Dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılmış 12,7 milyon manat vəsait hesabına salınmış yol əhatə etdiyi 10 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında, eləcə də insanların həyat tərzinin və rifah halının yüksəlməsində mühüm əhəmiyyət kəsb edəcək.

Sonra dövlətimizin başçısına rayonun Orta Qəsil-Şordəhnə-Qarağan Şıxlar-Kükəl-Ərəb-İkinci Aral avtomobil yolunun tikintisi layihəsi barədə məlumat verildi. Bildirildi ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli Sərəncamı ilə kəndlərarası avtomobil yollarının tikintisi üçün ayrılmış vəsait hesabına 17 min nəfər əhalinin yaşadığı 16 yaşayış məntəqəsini əhatə edən bu yolun tikintisi məqsədilə 18,7 milyon manat vəsait ayrılmışdır. Dördüncü texniki dərəcəli yolun ümumi uzunluğu 40,5 kilometrdir.

Prezident İlham Əliyevə Nehrəxəlil-Kotanarx-Cardam-Tofiqi-Şəmsabad avtomobil yolunun tikintisi barədə də məlumat verildi. Qeyd olundu ki, tamamilə yenidən qurulmuş bu yol 12,8 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirir. Yolun ümumi uzunluğu 27 kilometrdir.

Dövlətimizin başçısı Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Oktyabrın 28-də Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri istismara verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü və çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

-Mən Sizi ürəkdən salamlayıram. Yenidən Ağdaş rayonunda olmağımdan çox məmnunam. Bu, Prezident kimi mənim Ağdaş rayonuna beşinci səfərimdir. Hər səfərdə biz hansısa önəmli layihənin ya təməl daşını qoyuruq, ya da ki, açılışını qeyd edirik, o cümlədən bu gün. Artıq neçə vaxtdır ki, Ağdaş şəhərinə içməli suyun verilməsi təmin edilibdir. Bu gün isə bu gözəl layihənin rəsmi açılışını qeyd edirik. Bu, doğrudan da çox böyük hadisədir. Həm içməli su, həm kanalizasiya layihəsi tam başa çatıb və şəhər əhalisi 24 saat ərzində təmiz içməli su ilə təmin olunur. Bu suyun keyfiyyəti də Dünya Səhiyyə Təşkilatının bütün standartlarına cavab verir. Ona görə bu gözəl hadisəni biz birlikdə qeyd edirik.

Onu da bildirməliyəm ki, bu gün Qəbələ şəhərinin də içməli su layihəsi artıq icra edildi, açılışı oldu. Ancaq Qəbələ şəhərində 15 min əhali varsa, Ağdaş şəhərində bu, 35 mindir. Ona görə də burada gələcəkdə görüləcək işlər elə hesablanmalıdır ki, artan əhali də nəzərə alınsın. Buna görə "Azərsu"ya da göstəriş verildi ki, bu layihə təqribən gələcək 20-30 ili də ehtiva etsin ki, artan əhali bu imkandan istifadə edə bilsin.

Bildiyiniz kimi, içməli su insan orqanizmi üçün ən vacib amildir. İçməli su problemi bir sıra ölkələrdə çox ciddi problem kimi qalır. Bəzi ölkələrdə insanların ömrünün uzunluğunun o qədər də böyük olmamasının səbəbi də içməli suya olan tələbatdır. Biz isə bütün şəhərlərdə bu layihələri icra edirik. İlk növbədə, Bakı şəhərində bunu icra etdik və çox müasir, dünya miqyasında ən böyük sutəmizləyici stansiya tikildi. İndi bütün şəhərlərdə bu layihələr ya icra edilib, ya da ki, icradadır. Cəmi beş şəhər qalıb ki, hələ orada işlər başlamayıb. Ancaq "Azərsu"ya göstəriş verildi ki, gələn ildən başlayaraq qalan bu beş şəhərin də içməli su problemi öz həlini tapsın.

Eyni zamanda, insan sağlamlığı üçün digər vacib amil keyfiyyətli qidadır. Bu məsələyə də diqqət yetirilir, Qida Təhlükəsizliyi Agentliyi yaradılıbdır. Agentlik həm idxala, həm də yerli istehsala nəzarət edir. Ekoloji vəziyyət çox böyük əhəmiyyət daşıyır, bu sahədə də yaxşı nəticələr var.

İdman əlbəttə ki, hər bir insanın fiziki sağlamlığını möhkəmləndirir. Ağdaşda Olimpiya Kompleksi, Mərkəzi Rayon Xəstəxanası fəaliyyət göstərir. Xəstəxana tam şəkildə əsaslı təmir olunub və bütün avadanlıqla təchiz edilib. Bildiyiniz kimi, hər il Azərbaycanda beş milyondan çox insan dövlət xətti ilə tibbi müayinədən keçir. Hesab edirəm ki, bu təşəbbüsə görə Azərbaycan dünyada liderdir. Çünki əksər ölkələrdə bu xidmət pulludur, ancaq Azərbaycanda pulsuzdur. İndi bütün bölgələrdə müasir tibb ocaqları var. Ona görə hər bir vətəndaşa qan analizləri verməsi, ultrasəs müayinəsindən, digər müayinələrdən keçməsi tövsiyə olunur. İndi imkanlar da var, şərait də yaradılır.

Həmçinin Ağdaş rayonunda icra edilən layihələr rayonun potensialının inkişafına, ümumi inkişafımıza xidmət göstərir. Bu gün "Ağdaş" elektrik yarımstansiyası da fəaliyyətə başlayıb. Mən onu Qəbələdəki yarımstansiyadan düyməni basmaqla işə saldım. Elektrik enerjisi ilə bağlı heç bir problem olmamalıdır, yoxdur və olmayacaq. İçməli su layihəsi icra edilib, qazlaşdırma 80 faiz səviyyəsindədir. Mənə dedilər ki, cəmi 19 kənddə hələ qaz yoxdur. İndi Azərbaycan Dövlət Neft Şirkətinə tapşırıq verirəm ki, o 19 kəndə də qısa müddət ərzində qaz xətləri çəkilsin.

Avtomobil yollarının tikintisi. Son 2 il ərzində Ağdaşda yüz kilometrdən çox kənd yolları salınıb, birinin açılışını bu gün etdik. Yəni, bu sosial infrastruktur layihələri öz həllini tapır. Modul tipli 28 sutəmizləyici qurğu fəaliyyət göstərir. İndi içməli su sistemini işə salacağıq. Beləliklə, rayonun hərtərəfli inkişafı üçün şərait yaradılır. Yeni müəssisələr yaradılır, o cümlədən biyan kökü istehsalı və emalı zavodu. O da çox böyük sənaye müəssisəsidir ki, burada işsizlik olmasın, vətəndaşlar işlə təmin edilsinlər. Həmçinin onlar yaxşı tibbi xidmət alsınlar, təmiz sudan içsinlər və sağlam olsunlar. Məqsədimiz budur. Sizi bir daha təbrik edirəm.

Ağdaşlıların minnətdarlığını Prezident İlham Əliyevə çatdıran rayon sakini Gülcənnət İsmayılova dedi:

-Əziz Prezidentimiz İlham Əliyev, Ağdaşa xoş gəlmisiniz. Bizim ürəyimizdən gələnlərin hamısını Siz dediniz, artıq nəsə deməyə ehtiyac yoxdur. Allah Sizi qorusun, yardımçınız olsun. Biz Sizi çox sevirik. Niyə sevirik. Ona görə ki, biz işləyənə səs veririk, biz işləyənin arxasında dayanırıq. Bu boyda işləri görmək hər bir ölkəyə nəsib deyil. Bir xahişimiz də var, Ağdaş camaatının, xüsusən də ağdaşlı anaların salamlarını bizim birinci xanımımıza, Birinci vitse-prezidentimizə çatdırın. Bizdən ötrü, gələcəyimiz olan uşaqlarımızdan ötrü gördüyünüz bu işlərə görə Sizə ürəkdən "sağ olun" deyirik. Çox sağ olun, Sizə təşəkkür edirik, Allah Sizi qorusun.

Prezident İlham Əliyev: Çox sağ olun. Vətəndaşlara xidmət etmək bizim borcumuzdur. Prezident kimi mənim əsas vəzifəm ölkə daxilində olan problemləri həll etməkdir. Ona görə də mən bölgələri gəzirəm, hər il bəlkə də 30-35 rayonda oluram. Elə rayonlar var ki, 10 dəfədən çox olmuşam. Amma 4-5 dəfədən az olduğum rayon yoxdur. Ona görə gəlirəm, vəziyyətlə tanış oluram, mövcud olan problemləri vətəndaşların dilindən eşitmək istəyirəm ki, o problemlər həll olunsun. Ona görə mənim işimin əsas hissəsini daxili məsələlər tutur və məhz buna görə Azərbaycan çox uğurla inkişaf edir. Bu yaxınlarda yeni hesabatlarda yenə də

Azərbaycanın uğurlu inkişafı öz əksini tapır. Misal üçün, Dünya Bankının, Davos Ümumdünya Forumunun hesabatlarında göstərilir ki, elektrik enerjisinə əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Baxın görün dünyada nə qədər inkişaf etmiş ölkələr var. Onların arasında, bütün dünya ölkələri arasında biz ikinci yerdəyik. Xalqın hökumətə inamına görə indi biz birinci onluqdayıq. Bu, nəyi göstərir? Bunu biz demirik, bunu geniş təhlil aparan dünyanın ən mötəbər qurumları deyir və bu da həqiqətdir. Bizim gücümüzün də mənbəyi budur. Çünki xalq-iqtidar birliyi bizim inkişafımızı şərtləndirir və bu dəstək bizə güc verir ki, biz öz sözümüzü deyək, öz mövqeyimizi müdafiə edək.

Eyni zamanda, beynəlxalq gündəliyimiz də çox zəngindir. Təkcə bu ay ərzində Azərbaycan iki önəmli təşkilata sədrliyi öz üzərinə götürüb. Oktyabrın ortasında Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürüb və biz bir il bu təşkilata rəhbərlik edəcəyik. Oktyabrın 25-də isə dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik etməyə başlamışıq. Qoşulmama Hərəkatından daha böyük təşkilat Birləşmiş Millətlər Təşkilatıdır ki, onun da sədri olmur. Orada Təhlükəsizlik Şurasının sədri olur və özü də rotasiya qaydasında. Ona görə biz bu gün işlək vəziyyətdə sədrliyi olan ən böyük beynəlxalq təşkilata sədrlik edirik və bu sədrliyi 119 ölkənin dəstəyi ilə əldə etmişik. Bu, nəyi göstərir? Onu göstərir ki, dünya ictimaiyyəti bizi dəstəkləyir, bizə inanır, bizə rəğbətlə yanaşır və bizim mövqeyimizi müdafiə edir. İki gün əvvəl Yekun Bəyannamədə bizim istədiyimiz bütün məsələlər öz əksini tapıb, o cümlədən ərazi bütövlüyü ilə, erməni işğalı ilə bağlı. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar bizim mövqeyimizlə bağlı istədiyimiz bütün müddəalar orada öz əksini tapıb. Yəni, bu, böyük nailiyyətdir. Mən tam səmimi deyirəm, bu təşkilatda yekdil dəstək almaq çox böyük qəhrəmanlıqdır. Çünki təşkilatın 120 üzv ölkəsi var. Bəzi ölkələr bir-biri ilə yola getmir, bəzi ölkələr arasında çox böyük ixtilaflar, hətta münaqişələr var. Buna baxmayaraq, onların hamısı bizi dəstəklədilər.

Bizim daxili siyasətimiz, bax, bu reallığı yaradır, xarici siyasətimiz də mövqeyimizi gücləndirir. Ona görə bizim gələcəkdə ancaq inkişaf yolu ilə getməyimiz üçün bütün şərtlər var. Mən tam əminəm ki, Azərbaycan bundan sonra da sabitlik, inkişaf və tərəqqi yolu ilə gedəcək, bu gün xalqı narahat edən bütün problemlər – sosial infrastruktur, sosial ədalətlə bağlı olan problemlər öz həllini tapacaq. Bir daha sizi təbrik edirəm.

Sakinlər: Çox sağ olun. Hər şey Sizin sayənizdədir.

Sonra "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına layihə çərçivəsində görülən işlərlə bağlı məlumat verdi. Bildirildi ki, 2008-ci ildə "Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi"nin həyata keçirilməsinə başlanılıb və layihə mərhələlərlə icra olunub. Layihə 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Ağdaş şəhərində 47 min nəfərin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Eyni zamanda, 20 min sakinin yaşadığı 13 kəndə də içməli suyun verilməsi nəzərdə tutulub. Ümumilikdə bu layihədən 67 min nəfər sakin faydalanacaq. Rayon mərkəzini və ətraf kəndləri içməli su ilə təmin etmək üçün mənbə olaraq yeraltı sular seçilib. İlkin mərhələdə Türyançayın məcrasında 2 kəşfiyyat quyusu qazılıb. Mənbədə aparılan tədqiqatlar suyun keyfiyyətinin mövcud standartlara uyğunluğunu təsdiqləyib. Araşdırma zamanı məlum olub ki, mənbənin məhsuldarlığı da optimal səviyyədədir, şəhər mərkəzi və ətraf kəndləri davamlı olaraq su ilə təmin etməyə imkan verir. Bütün bunlar nəzərə alınaraq ümumi məhsuldarlığı saniyədə 240 litr olan 8 subartezian quyusu qazılıb. Su mənbəyində yerləşən qurğuların Türyançayda baş verə biləcək sel və daşqınlardan mühafizəsi məqsədilə müvafiq tədbirlər görülüb. Subartezian quyularından qəbul olunan suyun toplanması və optimal paylanması üçün tutumu 10 min kubmetr olan 2 su anbarı inşa edilib. Əhaliyə verilən içməli suyun keyfiyyətinin standartlar səviyyəsində saxlanılması məqsədilə zərərsizləşdirici qurğu inşa edilib. Anbarlardan şəhər şəbəkəsinə və ətraf kəndlərə suyun nəqli məqsədilə ümumi uzunluğu 13 kilometr olan, 560 millimetr diametrli polad borulardan ibarət 2 magistral su xətti çəkilib. Layihə çərçivəsində Ağdaş şəhərində 183 kilometr içməli su şəbəkəsinin inşası tam başa çatıb və 7500 ev birləşməsi və su sayğacı quraşdırılıb. Şəhər əhalisi yeni tikilmiş şəbəkə vasitəsilə 24 saat keyfiyyətli içməli su ilə təmin olunacaq. Layihə çərçivəsində yeni yaradılmış infrastruktur hesabına şəhər mərkəzinə yaxın və magistral su xəttinin marşrutu boyu yerləşən 5 kəndə içməli su verilib. Hazırda Qaradağlı, Zeynəddin, Gürcüva, Nehrəxəlil kəndlərinin və Ləki qəsəbəsinin bir hissəsində 10 mindən çox sakinin içməli su təchizatı yaxşılaşdırılıb. Gələcəkdə daha 8 kəndə içməli suyun verilməsi nəzərdə tutulur. Bununla da həmin kəndlərdə 11 minədək sakinin keyfiyyətli içməli suya çıxışı təmin ediləcək.

Bildirildi ki, layihə çərçivəsində Ağdaş şəhərində kanalizasiya infrastrukturu da tamamilə yenidən qurulub. Şəhər ərazisində 166 kilometr kanalizasiya şəbəkəsi tikilib. Hər bir evin və obyektin kanalizasiya şəbəkəsinə qoşulması təmin edilib. Şəhərdə yaranan tullantı sularının təmizləyici qurğuya ötürülməsi məqsədilə kanalizasiya nasos stansiyası və 9,6 kilometr uzunluğunda əsas daşıyıcı kollektor inşa edilib. Yaranan tullantı suların təmizlənib zərərsizləşdirilməsi məqsədilə şəhərin cənub hissəsində məhsuldarlığı sutkada 10 min kubmetr olan təmizləyici qurğunun tikintisi yekunlaşmaq üzrədir.

Qeyd edildi ki, yeni layihənin icrasına qədər şəhərə içməli su Türyançay çayının yatağında quraşdırılmış

drenaj sistemi vasitəsilə verilirdi. Şəhərdə 32 kilometr paylayıcı şəbəkə mövcud olmuşdur və içməli su fasiləli rejimdə verilirdi. 24 min sakinin təxminən 50 faizinə xidmət göstərilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Şəhərdə mövcud olmuş 18 kilometr kanalizasiya şəbəkəsi kiçik bir hissəni əhatə edirdi və istismara yararsız vəziyyətə düşmüşdür.

Prezident İlham Əliyevə məlumat verildi ki, ümumilikdə, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq 50 şəhər və rayon mərkəzində içməli su təchizatı və kanalizasiya layihələri icra olunur. İndiyədək bu şəhərlərin 30-da su və kanalizasiya, 11-də isə su layihələrinin icrası yekunlaşıb.

Dövlətimizin başçısı Ağdaş şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.

Sonda rayon ictimaiyyətinin nümayəndələri ilə xatirə şəkli çəkdirildi.

Oktyabrın 28-də Ağdaş Rayon Telekommunikasiya Qovşağında "Şəbəkə" Xidmət Mərkəzi istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Şəbəkə" Xidmət Mərkəzi ilə tanış olub.

Qeyd edək ki, ölkəmizdə digər sahələrdə olduğu kimi, rabitə və informasiya texnologiyaları sahəsində də kompleks yenidənqurma tədbirləri reallaşdırılır. Yüksək texnoloji tutumlu və rəqabətli iqtisadiyyatın qurulmasında İKT-nin rolunun genişləndirilməsi, infrastrukturun modernləşdirilməsi, sahə üzrə iqtisadi-təşkilati islahatların aparılması Azərbaycanın informasiya tranziti ölkəsinə çevrilməsinə xidmət edir. Bunun üçün bir neçə perspektiv layihələr üzrə əməli işlər görülür. Bunlardan biri də Prezident İlham Əliyevin tapşırıqlarına əsasən 2017-ci il fevralın 10-da "Şəbəkə" xidmət mərkəzlərinin yaradılmasıdır. Yaradılan müasir xidmət mərkəzlərində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin qurumları tərəfindən vətəndaşlara göstərilən xidmətlər vahid məkandan təqdim olunur. "Şəbəkə" mərkəzlərində əhaliyə ənənəvi telekommunikasiya və poçt xidmətlərindən əlavə bank-maliyyə, eləcə də aviabilet satışı və turizm xidmətləri də göstərilir. Eyni zamanda, "Şəbəkə" mərkəzlərində lokal və beynəlxalq ödəniş kartlarının, icbari sığorta, elektron imza, zərf, marka, açıqca və pul köçürmələri, büdcə, kommunal, Dövlət İpoteka Fondu üzrə ödənişlər, mobil cihazların qeydiyyatı həyata keçirilir. Mərkəzlərdə müştərilər həm də xüsusi özünəxidmət terminallarından istifadə edə bilirlər.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və "Aztelekom" MMC-nin baş direktoru Suat Paşayev xidmətin fəaliyyət istiqamətləri barədə dövlətimizin başçısına məlumat verdilər. Bildirildi ki, "Şəbəkə" Xidmət Mərkəzinin yaradılmasında məqsəd nazirliyin bütün xidmətlərini əhaliyə vahid məkanda təqdim etməkdir. Xidmətləri vahid məkanda cəmləməklə vətəndaşların vaxt itkisini aradan qaldırmaq, həmçinin xidmətlərə görə dövlət xərclərinə qənaət etmək mümkün olacaq.

Diqqətə çatdırıldı ki, "Şəbəkə" Xidmət Mərkəzində poçt xidmətləri, bütün növ ödənişlər, telefon çəkilişləri, internetə qoşulma, IMEI qeydiyyat, elektron hökumət, elektron imza, valyuta mübadiləsi, aviabiletlərin və turpaketlərin satışı və digər bir çox xidmət növləri təqdim olunacaq.

Sonda xatirə şəkli çəkdirildi.

Oktyabrın 28-də Ağdaşda "Biyan Products" MMC-yə məxsus Biyan Sənaye Parkının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısı əvvəlcə biyan tədarükü və emal zavodunu işə saldı.

Biyan Sənaye Parkının direktoru Ramin Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, bu park Azərbaycan brendi ilə istehsal olunan məhsullara yeni nümunələr əlavə edəcək. Müəssisənin yaradılmasında məqsəd müasir texnologiyalardan istifadə edərək, emal olunmuş biyan kökü və biyandan hazırlanan 100 faiz bitki mənşəli, bioloji fəallığa malik qida əlavələrini dünya bazarına çıxarmaqdır. Ümumi sahəsi 11 hektar olan Biyan Sənaye Parkının ərazisinə biyan tədarükü və emalı zavodu, bitki ekstraktı və sirop zavodu və digər yardımçı binalar daxildir.

Məlumat verildi ki, müəssisə saatda 2300 kiloqram biyan kökü emal etmək gücündədir. Zavodda Türkiyənin "Bigtem" şirkətinin istehsalı olan müasir avadanlıq quraşdırılıb. Biyan kökü həm mexaniki üsulla, həm də əllə seçilir, təmizlənir, yuyulur, müxtəlif formada və ölçüdə doğranır, qurudulur və qablaşdırılır.

Biyan Sənaye Parkının nəzdində fəaliyyət göstərən bitki ekstraktı və sirop zavodunda bioloji fəallığa malik qida əlavələri istehsal olunur. İstehsal edilən məhsullar elmi patentlər əsasında hazırlanır. Bu patentlərdən biri 2019-cu ildə Koreya Respublikasında keçirilən Beynəlxalq İxtiraçı Qadınlar Forumunda xüsusi mükafat və qızıl medal qazanıb. İstehsal olunan müalicəvi şərbətlər öskürək, iltihab, qrip və zökəm əleyhinə, bəlğəmgətirici, immuniteti, hemoqlabini artıran, sinir sistemini sakitləşdirən təsirlərə malikdir. Məhsulların başlıca üstünlükləri 100 faiz bitki mənşəli olması, xammalın ekoloji təmizliyi, tərkibində kimyəvi maddənin - konservant, dadverici və rəngvericilərin olmamasıdır. Xəttin illik istehsal gücü 350 min ədəddir. Bütün istehsal prosesi boyu məhsul nümunələri müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyada yoxlanılır. İstər doğranmış biyan kökünə, istərsə də biyan tərkibli bitki mənşəli şərbətlərə həm daxili, həm də xarici bazarda böyük tələbat var. Məhsulun ilk nümunələri İrana göndərilib. Gələcəkdə məhsulların ABŞ, Koreya, Hindistan, Misir və Avropa ölkələrinə ixracı da nəzərdə tutulur. Biyan Sənaye Parkında ildə 7500 ton biyan kökünün və 100 min ədəd biyan şərbətinin "Made in Azerbaijan" brendi ilə ixracı planlaşdırılır.

"Biyan Products" MMC-nin elmi məsləhətçisi, Azərbaycan Tibb Universitetinin professoru Məhbubə Vəliyeva dedi:

-Möhtərəm Prezidentimiz, biz fəxr edirik ki, bu ideyanı siz verdiniz. Buna görə zavodun kollektivi adından Sizə təşəkkür edirik. "Çox sağ olun" deyir, Sizi və xalqımızı təbrik edirik. Burada sözümü deməliyəm. Çünki Prezident Heydər Əliyevin qarşısında da çıxış etmişəm. Mən ulu öndərimiz, təkrarsız və bənzərsiz şəxsiyyət və çox sevdiyim Heydər Əliyevin bu sözlərini xatırlatmaq istəyirəm: "Mən İlham Əliyevə özüm qədər inanıram". Möhtərəm Prezidentimiz, xalqımız Sizə çox inanır, Sizi çox sevir. Biz bilirik ki, görülən bütün işlər, qazanılan nailiyyətlər Sizin adınızla bağlıdır. Mən Sizə cansağlığı, uzun ömür arzulayıram. Siz Azərbaycanda o qədər qlobal işlər görmüsünüz ki, bunu görməmək üçün gərək kor olasan. Biz Sizinlə fəxr edirik və sevinirik ki, Siz qiymətli vaxtınızı ayırıb bizimlə görüşə gəlmisiniz. Bütün kollektiv adından Sizə təşəkkürümüzü bildiririk. Yenə də Sizə deyirik ki, canınız sağ, ömrünüz uzun olsun.

Prezident İlham Əliyev dedi:

-Çox sağ olun, xoş sözlərə görə sizə təşəkkür edirəm, kollektivə də uğurlar arzulayıram. Şadam ki, mənim vaxtilə irəli sürdüyüm təşəbbüs belə gözəl nəticələrə gətirib çıxardı və doğrudan da dünya səviyyəli sənaye müəssisəsi yaradıldı. Burada bütün proses bir-birini tamamlayır - əkin sahələri, ondan sonra biyan kökünün yığılması, çeşidlənməsi, qurudulması, siropa, ekstrakta çevrilməsi və satışı. Yəni, bütün zəncir burada təmin olunur, ixracyönümlü məhsuldur. Mən baxdım ki, bir neçə mötəbər mükafata da layiq görülüb və bu, onu göstərir ki, keyfiyyəti də yüksəkdir. Əgər yüksək olmasaydı, əlbəttə ki, bunu ixrac etmək də mümkün olmazdı. Demək olar ki, ölkəmizdə yeni bir sənaye sahəsi yaradılmışdır. Bizim ümumi inkişafımızı təmin edəcək, iş yerlərinin yaradılmasına xidmət göstərəcək. Təsadüfi deyil ki, bu ilin 9 ayının yekunlarına görə bizim qeyri-neft sənayemiz 15 faiz artıb, məhz belə müəssisələrin hesabına. Belə müəssisələrin yaradılması neft-qazdan asılılığı azaldır, iş yerləri, ixracyönümlü məhsul yaradır, ölkəmizə valyuta daxil olur. Yəni, görün, bunun nə qədər böyük əhəmiyyəti və faydası var.

Əlbəttə, görürəm ki, siz bu işin çox böyük mütəxəssisisiniz, bu işlə çox böyük həvəslə, inamla məşğul olursunuz. Sizə bir daha uğurlar arzulayıram. Arzu edirəm ki, fəaliyyət sahəsini genişləndirəsiniz. Yeni yaradılan və gözəl nəticə verən müəssisələrə mənim yeganə tövsiyəm odur ki, maksimum genişləndirin, çünki bazar da var, tələbat da var. Bir daha təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

Sonda xatirə şəkli çəkdirildi.

## *Sumqayıt şəhərinə səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıt şəhərində səfərdə olub.

Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov Sumqayıtda görülən işlər haqqında məlumat verdi.

Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıt Dövlət Dram Teatrında şəhərin 70 illiyinə həsr olunmuş tədbirdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə geniş nitq söylədi.

Prezident İlham Əliyevin nitqi

-Əziz sumqayıtlılar, əziz dostlar.

Mən sizi və bütün sumqayıtlıları, eyni zamanda, bütün Azərbaycan xalqını Sumqayıtın 70 illiyi münasibətilə ürəkdən təbrik edirəm, sizə yeni uğurlar, yeni qələbələr arzulayıram.

Bu gün Sumqayıt müasir, böyük sənaye potensialına malik olan, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl şəhərdir. Əldə edilmiş bütün nailiyyətlər münasibətilə sumqayıtlıları təbrik edirəm.

Sumqayıtın qədim tarixi var. Ancaq şəhər kimi Sumqayıt 70 il bundan əvvəl formalaşdı. 1949-cu il noyabrın 22-də Nazirlər Sovetinin qərarı ilə Sumqayıt şəhəri yaradılmış və Sumqayıtın sürətli inkişafı başlamışdır. Sumqayıt sənaye şəhəri kimi formalaşdı, kimyaçılar şəhəri kimi inkişaf etdi. Sumqayıtda bir çox sənaye müəssisələri, yeni iş yerləri yaradılmışdır. Azərbaycanın müxtəlif bölgələrindən Sumqayıta kadrlar gəlməyə başlamışdır. Eyni zamanda, Sovet İttifaqının digər respublikalarından gələnlər Sumqayıtda işlə təmin olunmuşdular.

Ancaq əfsuslar olsun ki, şəhərin yaranmasının birinci mərhələsini əhatə edən dövr ərzində Sumqayıtda ekoloji tarazlığa fikir verilməmişdir, ekoloji tarazlıq pozulmuşdur. Sumqayıt o illərdə Sovet İttifaqında ekoloji cəhətdən ən qeyri-təmiz şəhər kimi fəaliyyət göstərirdi. Əlbəttə ki, bu, insanların sağlamlığına zərər vururdu, ekoloji tarazlıq pozulmuşdur. Ancaq 1969-cu ildə ulu öndər Heydər Əliyev Azərbaycana rəhbər seçiləndən sonra ekoloji vəziyyətə diqqət yetirməyə başlamışdır. Mən bilirəm ki, Heydər Əliyev Sumqayıtın ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün mərkəzi orqanlara dəfələrlə müraciət etmişdir, müvafiq tədbirlər görülmüşdür, təmizləyici qurğular quraşdırılmışdır və 1970-ci illərdə şəhərin ekoloji vəziyyəti yaxşılaşdırılmışdır, ancaq standartlara hələ də tam cavab vermirdi. Ancaq bu gün biz görürük ki, Sumqayıt ekoloji cəhətdən təmiz bir şəhərdir, havası təmizdir,

təbiəti çox gözəldir. Əminəm ki, bu istiqamətdə bundan sonra da atılacaq addımlar Sumqayıtı daha da gözəlləşdirəcək.

Heydər Əliyevin fəaliyyəti dövründə Sumqayıt müasir sənaye şəhəri kimi inkişaf etdi, burada yeni yaşayış binaları tikildi, sosial obyektlər yaradıldı, parklar, xiyabanlar salındı, ağaclar əkildi və Sumqayıt Sovet İttifaqı müstəvisində mühüm ümumittifaq əhəmiyyətli sənaye şəhəri kimi inkişaf etmişdir. 1982-ci ildə ulu öndər Heydər Əliyev Moskvaya gedəndən sonra Azərbaycanın hər bir yerində olduğu kimi, Sumqayıtda da tənəzzül dövrü başlamışdır. O vaxtkı respublika rəhbərliyi öz məsuliyyətini tam dərk etmirdi, proseslərə nəzarət etmirdi və bunun nəticəsində Azərbaycanda inkişaf demək olar ki, getmirdi, durğunluq dövrü başlamışdı. Heydər Əliyev Siyasi Büronun üzvü və Sovet İttifaqının Nazirlər Soveti sədrinin birinci müavini kimi Azərbaycana daim kömək və diqqət göstərirdi, buna baxmayaraq, respublikada işlər tənəzzülə uğrayırdı. Xüsusilə 1985-ci ildən sonra Sovet İttifaqında dırnaqarası yenidənqurma dövrü başlamışdı. Həm Sovet İttifaqında çox mənfi proseslər getməyə başlamışdı, o cümlədən Azərbaycanda. Təsadüfi deyil ki, dırnaqarası yenidənqurma siyasəti başlanandan 6 il sonra Sovet İttifaqı kimi nəhəng dövlət çökdü.

1985-ci ildə Azərbaycan böyük çətinliklərlə üzləşmişdi. Çünki həm iqtisadi sahədə durğunluq hökm sürürdü, eyni zamanda, erməni millətçiləri baş qaldırmışdı, həm Dağlıq Qarabağda, həm də respublikamızın digər yerlərində, o cümlədən Sumqayıtda. Ulu öndər Heydər Əliyevin dövründə Dağlıq Qarabağda azərbaycanlı əhalinin faiz nisbəti kəskin artmışdır, 2 dəfə artmışdır və azərbaycanlı əhali 30 faizə çatmışdır. Əgər Heydər Əliyev 1982-ci ildən sonra Moskvaya getməsəydi və Azərbaycanda qalsaydı, bəlkə də 10 il ərzində artıq orada azərbaycanlı əhali 50 faizə çatacaqdı. Dağlıq Qarabağda erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında məsələ qaldırırdılar. Əfsuslar olsun ki, Azərbaycan Respublikasının rəhbərliyi bu məsələyə çox biganə yanaşırdı, öz məsuliyyətini dərk etmirdi və beləliklə, vəziyyəti nəzarətdən buraxmışdı. Eyni zamanda, erməni millətçiləri Sumqayıtda da yuva qura bilmişdilər və burada da xoşagəlməz proseslərə artıq təkan verilmişdi. Bildirməliyəm ki, Sovet İttifaqının süquta uğramasının bir neçə səbəbi var. Onların ən başlıcası odur ki, iqtisadi münasibətlər düzgün qurulmamışdı, planlı iqtisadiyyat özünü doğrultmamışdı. Sovet İttifaqının inkişafı 1980-ci illərdə daha çox neft amilinə söykənirdi və neftin qiyməti dünya bazarlarında kəskin düşəndən sonra gəlirlər də azaldı və bu gəlirləri başqa sahələrdən əldə edilən mənfəət hesabına formalaşdırmaq mümkün olmadı. Ona görə əlbəttə ki, iqtisadi amil birinci rol oynayırdı, eyni zamanda, 1985-ci ildən sonra Sovet İttifaqında milli siyasət sahəsində çox kobud səhvlər buraxılmışdır. Sovet İttifaqını böyük, çoxmillətli ölkə kimi ayaqda saxlayan, o cümlədən milli siyasət idi. Müttəfiq respublikalarda yerli milli kadrların qabağa çəkilməsi adi təcrübə idi. 1985-ci ildən sonra bu sahəyə böyük zərbə vuruldu. Biz yaxşı xatırlayırıq ki, o vaxt xüsusilə müsəlman respublikalarına münasibət çox mənfi idi. Müsəlman respublikalarının rəhbərlərinə qarşı qarayaxma kampaniyaları aparılırdı. Ümumittifaq mətbuatında bu respublikalar haqqında ancaq mənfi materiallar dərc edilirdi. Bu respublikalara mərkəzdən istintaq qrupları göndərilmişdi və elə bir rəy yaradılmışdı ki, Orta Asiya respublikalarında və Azərbaycanda vəziyyət bərbaddır, vəziyyət kritik həddə çatıb və o respublikaları idarə edənlər vəzifə borcunu yerinə yetirə bilmirlər. Əlbəttə ki, hər bir respublikada pozuntular da, nöqsanlar da olmuşdur, ancaq digər respublikalarda da bunlar var idi. Nə üçün bu istintaq qrupları Ermənistana, Gürcüstana, Ukraynaya, Moldovaya və digər respublikalara göndərilmirdi? Ancaq Orta Asiya respublikalarına və Azərbaycana göndərilirdi. Beləliklə, Sovet İttifaqının təməl sütunu olan milli siyasət artıq deformasiyaya uğramışdır.

Eyni zamanda, separatçılara imkan yaradıldı ki, onlar nəinki öz cəfəng fikirlərini səsləndirsinlər, həm də ictimai rəyə təsir etsinlər. O vaxt biz yaxşı xatırlayırıq ki, erməni millətçiləri, o cümlədən cəllad Balayan, Kaputikyan və digərləri azərbaycanlılara qarşı açıq-aydın etnik ayrı-seçkilik toxumları səpirdilər. Ümumittifaq mətbuatında bu barədə açıq söhbət gedirdi və ümumiyyətlə, Azərbaycana qarşı ədalətsiz münasibət göstərilirdi. Bütün bunlar 1987-ci ildən sonra baş vermişdir. Çünki 1987-ci ildə Heydər Əliyev bütün vəzifələrdən gedəndən sonra Azərbaycan hədəf seçildi. O dövrü təhlil edərkən bir daha görürük ki, bütün bu hadisələr erməni millətçilərinin və onların havadarlarının məkrli planının bir hissəsi idi. Baxın, 1985-ci ildən sonra Heydər Əliyev Qorbaçovun yarıtmaz siyasətinə qarşı açıq şəkildə çıxış etmişdi, buna görə ona qarşı kampaniya başlamışdı, həm mərkəzi mətbuat orqanlarında, həm də ki, Azərbaycanda. Burada da milli satqınlar mərkəzə donoslar yazmağa başlamışdılar. 1987-ci ildə Heydər Əliyev vəzifədən gedəndən sonra iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında beynəlxalq mətbuatda və sovet mətbuatında məsələ qaldırmışlar. Artıq Dağlıq Qarabağda separatçı meyillərə elə bil ki, yaşıl işıq yandırıldı. Heydər Əliyev vəzifədən gedəndən 3 ay sonra Sumqayıt hadisələri baş vermişdir. Sumqayıt hadisələri də məkrli planın tərkib hissəsi idi. Plan ondan ibarət idi ki, Heydər Əliyev hakimiyyətdən getsin. Çünki onun Siyasi Büronun üzvü kimi fəaliyyəti erməni millətçilərə imkan vermirdi ki, məsələ qaldırsınlar. Onlar belə cəhdlər edirdilər, amma Heydər Əliyev bunun qarşısını layiqincə alırdı. Yəni, plan onu vəzifədən uzaqlaşdırmaq və bu məqsədlə buradakı yerli satqınlar, xainlər vasitəsilə donos

göndərmək, erməni millətçiləri tərəfindən məsələ qaldırmaq idi ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində qala bilməz. Beləliklə, iğtişaş törətmək, hansı ki Sumqayıtda baş verdi və ondan sonra məsələ qaldırmaq ki, ermənilər Azərbaycanın tərkibində təhlükəsiz şəkildə yaşaya bilmirlər. Buna görə də Dağlıq Qarabağ Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməlidir. Bax, plan bundan ibarət idi və əfsuslar olsun ki, bu plan həyata keçdi.

Sumqayıt hadisələri erməni millətçilərinin təxribatı idi. Biz bunu açıq deməliyik. Çünki artıq neçə ildir ki, erməni millətçiləri Sumqayıt şəhərinə qara yaxmaq, ləkə vurmaq istəyirlər. Tamamilə əsassızdır və cəfəngdir. Tam məsuliyyətlə deyirəm ki, Sumqayıt hadisələrini törədən erməni millətçiləridir və erməni dəstələridir. Biz hamımız yaxşı bilirik ki, on nəfərə yaxın ermənini öldürən milliyyətcə erməni Qriqoryan və onun quldur dəstəsi idi. Sonra nə baş verdi? İstintaqı Moskvadan gəlmiş qrup aparırdı, yəni, tam ədalətli aparırdı. Verilmiş bütün ifadələr, şahidlərin ifadələri, üzləşmələr sübut etmişdi ki, həmin o, Qriqoryan erməni xalqının nümayəndələrini qətlə yetirmişdir. O, həbs edilir, bütün sübutlar təsdiq olunur. Ondan sonra o, cəza çəkmək üçün Ermənistana göndərilir və ancaq orada sərbəst buraxılır. Bax, sual yaranır. On nəfərə yaxın ermənini öldürən bir qatili Ermənistan niyə sərbəst buraxır? Ona görə buraxır ki, o, onların tapşırıqlarını icra edirdi. Sumqayıt hadisələrindən istifadə edib Azərbaycana qarşı qarayaxma kampaniyası daha geniş vüsət almışdır və nəticə etibarilə Dağlıq Qarabağda münaqişə baş vermişdir. Mən dəfələrlə bunu demişəm, əgər, Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, heç vaxt Dağlıq Qarabağ münaqişəsi baş verməzdi, heç vaxt torpaqlarımız işğal altına düşməzdi.

Ondan sonra bizi yeni, çox ağır sınaq və faciə gözləyirdi – Yanvar faciəsi. Hansı ki, yenə də Qorbaçov öz xalqına qarşı böyük cinayət törədərək dinc əhalini qırdırdı. Yüzdən çox günahsız insan həlak oldu. Azərbaycan xalqının qanı axıdıldı. Əfsuslar olsun ki, o vaxtkı Azərbaycan rəhbərliyi tamamilə iflic vəziyyətdə idi. O vaxt respublikaya rəhbərlik edən, antimilli siyasətlə fərqlənən Vəzirov respublikanı tərk edib hərbi təyyarə ilə Moskvaya qaçdı. Heç bir rəhbər işçi bu qanlı cinayəti qınamadı. Ancaq o vaxt pensiyada olan Heydər Əliyev ona qarşı çox çirkin kampaniya gedə-gedə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, - mən də onun yanında idim, - öz səsini ucaltdı, bütün dünyaya Yanvar faciəsi haqqında məlumat verdi. Sovet İttifaqının rəhbərliyini qınadı, onların siyasətini pislədi və uzun illər xidmət etdiyi Kommunist Partiyasının sıralarını tərk etdi.

O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, bir gün Sovet İttifaqı dağılacaq. Yəni, bu addımı atarkən Heydər Əliyev təcrübəli rəhbər kimi bilirdi ki, ona qarşı çox böyük təzyiqlər olacaq və nəinki təzyiqlər, onun hətta həyatı təhlükə altına düşə bilər. Belə də oldu. Sonrakı tarix bunu bir daha göstərdi, onun həbs edilməsi haqqında qərar verildi. Bakıya gəlməli idi, həmin gün onun yaxın tərəfdarı qətlə yetirildi. Ondan sonra onun səfəri təxirə salındı. Sonra Bakıya gəldi. O vaxtkı rəhbərlik ona burada da yaşamağa imkan vermədi, Naxçıvana üz tutdu. Beləliklə, Azərbaycanın yeni dövrü başladı.

Bu gün, noyabrın 21-i Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması günüdür. Çünki o vaxt özünü demokrat adlandıran, hakimiyyəti qanunsuz yollarla zəbt etmiş satqın AXC-Müsavat hakimiyyəti imkan vermədi ki, Yeni Azərbaycan Partiyasının təsis qurultayı Bakıda keçirilsin. Vətənpərvər insanlar, Heydər Əliyevi dəstəkləyən insanlar, ziyalılar Naxçıvana gedib soyuq, işıqsız şəraitdə, - hər on dəqiqədən bir işıqlar kəsilirdi, - Yeni Azərbaycan Partiyasını təsis etdilər. Artıq Azərbaycanın yeni dövrü başlamışdır. Məhz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını dövlət bayrağı kimi ucaltdı və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırdı ki, onlar da eyni addımı atsınlar. Onlara hələ bir neçə ay lazım oldu və artıq görəndə ki, Sovet İttifaqı çökür, ondan sonra bunu etdilər.

Biz bu tarixi yaddan çıxarmamalıyıq və gənclər bu tarixi bilməlidirlər. Bugünkü reallıqları düzgün təhlil etmək, bu reallıqlara düzgün qiymət vermək üçün biz bu acı dövrü yaddan çıxarmamalıyıq. Elə etməliyik ki, gənclər də bunu bilsinlər, hesab etməsinlər ki, bugünkü inkişaf, bugünkü tərəqqi göydən düşüb. Bilsinlər ki, biz buna qanımız, canımız bahasına nail olmuşuq. Biz tariximizin ən rüsvayçı səhifələrini də vərəqləməliyik. Ona görə ki, o rüsvayçı dövr təkrarlanmasın.

Bunu deyəndə, əlbəttə ki, mən, ilk növbədə, AXC-Müsavat dövrünü qeyd edirəm. 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş o antimilli dəstə Azərbaycanı uçuruma aparırdı. Azərbaycan əldən gedirdi. Yenicə bərpa edilmiş müstəqillik əldən gedirdi, ölkədə xaos, anarxiya, talançılıq, oğurluq, özbaşınalıq, böhran hökm sürürdü. Ermənilər orada torpaqlarımızı işğal edirdi, Xalq Cəbhəsi isə vətəndaş müharibəsinə start vermiş və Gəncə şəhərini bombalamağa başlamışdı. Vətəndaş müharibəsi ən ağır müharibədir. Çünki qardaş qanı axıdılır. Ona da getdilər ki, öz laxlamış hakimiyyətlərini qoruya bilsinlər. Görəndə ki, qoruya bilmirlər, Heydər Əliyevə müraciət etdilər ki, gəl, bizi xilas elə. Yalvarırdılar, mən bunun şahidiyəm. Üç dəfə təyyarə göndərmişdilər ki, bizi xilas elə, çünki artıq gəlirdilər bunları öldürməyə, yaxud da ki, yıxmağa. Qaçıb gizləndilər, bəziləri guya vəzifələrini dondurdular. O vaxt belə cəfəng ifadələr işlədilirdi. Əgər Heydər Əliyev gəlməsəydi, həm Azərbaycan dağılacaqdı, həm də, o antimilli AXC-Müsavat dəstəsi öz cəzasını alacaqdı. Yəni, Heydər Əliyevin humanistliyi onları layiq olduqları bu cəzadan xilas etdi.

Başqa cür ola da bilməzdi. Çünki baxın, bizi kimlər idarə edirdi. İndi bu tarix yaddan çıxır, amma çıx-

mamalıdır. Baxın, Azərbaycan xalqı hansı rəzil dövrdə yaşayırdı. Baxın, kimlər idi. Mən bir daha deməliyəm ki, yaddan çıxmasın, gənclər də bilsin. Prezident elmi işçi, zəif, iradəsiz bir adam idi. Heç vaxt heç bir idarəyə rəhbərlik etməmişdi. Hətta kiçik bir idarənin rəhbəri olmamışdı. Sadəcə, küçələrdə, orada-burada çığırıb bağırmaqla gəldi prezident oldu və ölkəni rüsvay elədi. Görün, hansı kadrlar seçildi. İndi bunu təsəvvür etmək çətindir ki, - bağışlayın sözümə görə, - belə yaramaz adamlar Azərbaycana rəhbərlik edirdi. Baş nazir, - o da elmi işçi idi. O da heç bir dissertasiya müdafiə edə bilməmişdi. Hamı yaxşı bilir, indi bu, sirr deyil, mövsümi ticarətlə məşğul olan adam Baş nazir təyin edildi. Məhz onun dövründə “otkat” sözü bizim lüğətimizə daxil edildi. Gəldi ki, ölkəni talan eləsin, onun sərvətini oğurlasın, tramvay xətlərini kəsdirsin, göndərsin İrana və pul əldə etsin. Bax, bu Baş nazir idi. Parlamentin sədri, - o da elmi işçi idi. On bir il aspiranturada oxumuşdu. Təsəvvür edin, on bir il. Dissertasiyanı müdafiə edə bilməmişdi. Rəhmətlik akademik Ziya Bünyadovun onun haqqında dediklərini mən təkrarlamaq istəmirəm. Sadəcə olaraq, bunu özümə rəva bilmirəm. Uğursuz aspirant, biliksiz, savadsız adam parlamentin sədri oldu. Ondan nə gözləmək olardı? Yaxud da ki, dövlət katibi. İstəyirdi komsomolda öz karyerasını artırsın, sonra partiya işinə keçsin və karyerist kimi hansısa bir vəzifəyə sahib olsun. Belələrinə siyasi dönük, flüger deyirlər. Onun bütün tarixi satqınlıq tarixidir. Komsomolçuları satıb, öz partiya himayədarlarını satıb, ondan sonra qoşulub Xalq Cəbhəsinə, orada da Əbülfəz Elçibəyi satıb. Bunu cəbhəçilər yaxşı bilirlər. Əbülfəz Elçibəy xəstələnəndə ən çox sevinən elə o idi. Mən bunu dəqiq bilirəm, bu məlumat var. Sevinirdi ki, xəstələnib öləcəkdir, bu da keçəcəkdir onun yerinə.

İndi son hadisələr də göstərdi ki, o, hansı hünərə sahibdir. Yəni, bu isterika, bu paranoya, bu qorxaqlıq, - özünü lider sayan hansı adam özünə rəva bilər ki, bunu nümayiş etdirsin və ondan sonra bütün millətə bəyan etsin ki, mənə qarşı zor tətbiq ediblər. Bu, yalandır. Özünə hörmət edən, ləyaqəti üstün tutan hansı adam belə söz deyər. Bax, bu adam prezidentlik iddiasında olub və bu gün vaxtilə xalq hərəkatı tərəfindən yaradılmış Xalq Cəbhəsinə rəhbərlik etməyə çalışır.

Dövlətimizin başçısı elektromobillə Sumqayıt Dənizkənarı Bulvar Kompleksinin yeni salınmış hissəsini gəzdi.

Məlumat verildi ki, Sumqayıt Bulvarı şəhərin şimal-qərb istiqamətində 1 kilometr uzunluğunda, 400 metr enində, ümumilikdə isə 40 hektar sahədə genişləndirilib. Beləliklə, bu istirahət məkanın sahəsi 106 hektara, uzunluğu isə 5,2 kilometrə çatdırılıb. Ərazidə geniş miqyasda yaşıllıq sahəsi salınıb, müasir işıqlandırma sistemi qurulub. Park boyu 1 kilometr uzunluğunda yeni yol inşa olunub. Kompleksin yeni salınan hissəsində bütün yaş qruplarının istirahəti üçün yüksək şərait yaradılıb.

Bu gün ölkəmizdə həyata keçirilən sosial-iqtisadi layihələrin tərkib hissələrindən biri də yeni istirahət guşələrinin, park və xiyabanların yaradılmasıdır. Son dövrlərdə Prezident İlham Əliyevin tapşırığına əsasən, bütün şəhər və rayonlarda yeni parkların, xiyabanların, istirahət guşələrinin yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması istiqamətində mühüm layihələr icra edilir. Bu istiqamətdə reallaşdırılan ən mühüm layihələrdən biri də Sumqayıtda Dənizkənarı bulvarın və şəhər çimərliyinin yaradılmasıdır. Bu kompleksdəki şərait sübut edir ki, Azərbaycan dövləti vətəndaşların istirahətlərini mənalı təşkil etmək, asudə vaxtlarını səmərəli keçirmək üçün bütün zəruri addımları atır. Xəzərin sahilindəki bu kompleks Sumqayıt şəhərinin simasının daha da gözəlləşdirilməsi baxımından da olduqca əhəmiyyətlidir.

## *Türkiyə Respublikasına işgüzar səfər*

Noyabrın 30-da Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Əvvəlcə Cənub Qaz Dəhlizinin ən mühüm seqmentlərindən biri və Avropanın enerji təhlükəsizliyində mühüm amil olan TANAP – Trans-Anadolu qaz boru kəməri layihəsinin icrasına həsr olunmuş videoçarx nümayiş etdirildi.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və Türkiyənin Enerji və Təbii Sərvətlər naziri Fatih Dönməz TANAP layihəsinin əhəmiyyətindən danışdılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

-Hörmətli Türkiyə Respublikasının Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Hörmətli dövlət və hökumət başçıları.

Əziz dostlar.

İlk növbədə, qardaşım Rəcəb Tayyib Ərdoğana məni bu tarixi mərasimə dəvət etdiyi və göstərdiyi qonaqpərvərlik üçün dərin təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə torpağında yenidən olmağımdan çox məmnunam.

Bu gün tarixi gündür. Bu gün dörd il bundan əvvəl birlikdə təməlini qoyduğumuz TANAP Avropa sərhədinə çatdı. Bu münasibətlə hamımızı ürəkdən təbrik edirəm. Əminəm ki, TANAP-ın ömrü uzun olacaq, TANAP Türkiyə və Azərbaycan xalqlarına, digər qonşu xalqlara fayda və tərəqqi verəcəkdir.

Dörd il əvvəl Qars şəhərində əziz qardaşım Prezident Ərdoğanla birlikdə TANAP-ın təməlini qoyduq. Ancaq TANAP-a aparan yol 2012-ci ildə başlamışdır. Tarixi İstanbul sazişi nəticəsində TANAP-ın yaşıl işığı yandırıldı. Tarixi İstanbul anlaşması Türkiyə və Azərbaycanın birgə siyasi iradəsi nəticəsində mümkün olmuşdur. Çünki TANAP haqqında bu qərarın qəbul edilməsinə qədər Azərbaycan qazının Türkiyə və ondan sonra Avropaya nəql edilməsi ətrafında bir neçə il çox böyük mübahisələr və müzakirələr aparılmışdır, ancaq heç bir nəticə verməmişdir. Belə olan halda əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə qərara gəldik ki, bizə lazım olan bu nəhəng layihəni özümüz həyata keçirək və belə də oldu. Bu gün bu layihəyə qoşulan BP şirkəti bizim tərəfdaşımızdır. Ancaq əsas texniki və maliyyə yükünü Azərbaycan və Türkiyə öz üzərinə götürmüşdür.

TANAP-a qədər apardığımız birgə işlər TANAP-a yol açdı. Çünki əgər 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verilməsəydi, bu gün TANAP haqqında danışmaq mümkün olmazdı. Bakı-Tbilisi-Ceyhan neft boru xəttinin təməlini çağdaş Azərbaycan dövlətinin lideri Heydər Əliyev öz əlləri ilə qoymuşdur və 2006-cı ildə əziz qardaşım, Prezident Ərdoğanla birlikdə Ceyhanda Bakı-Tbilisi-Ceyhan neft boru xəttini istismara verdik. Bu günə qədər Bakı-Tbilisi-Ceyhan boru xətti ilə Türkiyə və dünya bazarlarına Azərbaycanın və başqa dövlətlərin 450 milyon tondan çox nefti nəql edilmişdir. Bunun böyük hissəsini - 400 milyon tondan çoxunu Azərbaycan, 27 milyon tonunu Türkmənistanın, 12 milyon tonunu Qazaxıstanın, 7 milyon tonunu Rusiya nefti təşkil edir. Yəni, bir sözlə, Bakı-Tbilisi-Ceyhan nəinki Azərbaycanın, digər ölkələrin nefti üçün də gözəl bir infrastruktur layihəsi oldu və bu gün də uğurla fəaliyyət göstərir. 2007-ci ildə yenə də əziz qardaşımla Bakı-Tbilisi-Ərzurum qaz boru xəttinin açılışını etdik və bu da TANAP-a yol açan digər layihə idi. Qeyd etdiyim kimi, 2015-ci ildə Qarsda TANAP-ın inşası başlamışdır. Fürsətdən istifadə edərək, TANAP-ın inşasında iştirak etmiş bütün insanlara dərin təşəkkürümü bildirmək istəyirəm. Onların fədakarlığı və peşəkarlığı bu nəhəng layihənin vaxtında istismara verilməsində böyük rol oynamışdır.

TANAP Cənub Qaz Dəhlizinin bir hissəsidir. Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir, maliyyə dəyəri 38 milyard dollardır və dörd layihədən ibarətdir. Onlardan üçü - “Şahdəniz” və Cənubi Qafqaz Boru Kəməri istifadəyə verilib, bu gün isə TANAP tam istifadəyə verilir. Dördüncü layihə olan TAP-ın icrası artıq 90 faizi keçib. Əminəm ki, TAP da vaxtında istismara veriləcək. Beləliklə, Avrasiyada ən böyük infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizi vaxtında istismara veriləcəkdir.

Bildirməliyəm ki, bu layihələrin həyata keçirilməsi Türkiyə-Azərbaycan birgə siyasi iradəsinin məhsuludur, eyni zamanda, biz bunu digər ölkələrin iştirakı və özəl şirkətlərin maliyyə dəstəyi ilə reallaşdırdıq. Bu gün Cənub Qaz Dəhlizi özündə 7 ölkəni birləşdirir və bu, artıq beynəlxalq əməkdaşlıq layihəsidir. Bu layihə ölkələr arasında körpülər yaradacaq və daha böyük anlaşmaya yol açacaq. Bu layihədə iştirak edən 7 ölkə, - onlardan üçü Avropa İttifaqının üzvüdür,- bundan sonra uzun illər birlikdə çalışacaq və bunun faydasını bölüşəcəklər. Yəni, bu layihə əməkdaşlıq, sabitlik, uzunmüddətli anlaşma gətirir. Yəni, bu layihələrə, sadəcə olaraq, enerji layihələri kimi baxmaq düzgün olmaz. Onu da bildirməliyəm ki, bizim enerji layihələrimiz digər layihələrə də yol açdı. İki il bundan əvvəl əziz qardaşım, Prezident Ərdoğanla birlikdə Bakıda Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını qeyd etdik. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə həm Azərbaycanın, həm Orta Asiya ölkələrinin, həm də Əfqanıstanın və Çinin yükləri daşınır. Bu dəmir yolu qitələri birləşdirir. Necə ki, bizim boru xətlərimiz. Digər layihə elektrik enerjisinin ötürülməsidir. Artıq Azərbaycan Gürcüstana və Türkiyəyə elektrik enerjisini ixrac edir. Əgər enerji layihələri, yaşadığımız bölgədə

sabitlik, qarşılıqlı dəstək, anlaşma olmasaydı bunların biri də həyata keçməzdi.

Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı gündən-günə möhkəmlənir. Mən bu gün dünya miqyasında ikinci belə ölkələr tanımıram ki, Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın olsun. Bizim aramızdakı ticarət dövriyyəsi artır. Bu ilin 9 ayında ticarət dövriyyəmiz 40 faizdən çox artıb və 3,4 milyard dollara çatıbdır. Qarşılıqlı yatırımlar bizim qardaşlığımızı göstərir və eyni zamanda, onu göstərir ki, biz bir-birimizə güvənirik. Bir-birimizin iqtisadiyyatına dəstək veririk. Türkiyə bu günə qədər Azərbaycan iqtisadiyyatına 12 milyard dollardan çox vəsait yatırıb. Azərbaycan isə Türkiyəyə 17,5 milyard dollar sərmayə qoyub və bu yatırımlar bizim xalqlarımızın rifah halını yaxşılaşdırır.

Eyni zamanda, Türkiyə bu gün xarici sərmayələr üçün açıq ölkədir və çox məqbul yerdir. Əziz qardaşım, Prezident Ərdoğanın liderliyi sayəsində Türkiyə həm iqtisadi, həm də siyasi sahədə böyük uğurlara imza atıb. Biz əvvəlki dövrü yaxşı xatırlayırıq. O vaxt Türkiyə Beynəlxalq Valyuta Fondunun və başqa maliyyə qurumlarının borcundan yaxa qurtara bilmirdi, asılı vəziyyətdə idi. İqtisadi asılılıq istər-istəməz siyasi asılılığa gətirib çıxara bilər. Məhz Prezident Ərdoğan tərəfindən aparılan düşünülmüş iqtisadi siyasət nəticəsində Türkiyə bu asılılıqdan yaxasını qurtara bildi və bu gün çox güclü iqtisadiyyat kimi dünya miqyasında öz sözünü deyir. Bu gün Türkiyə dünya miqyasında güc mərkəzidir. Nəinki yerləşdiyi bölgədə, dünyada Türkiyənin sözünün çəkisi artır, imkanı genişlənir və hər kəs bilməlidir, heç kim unutmamalıdır ki, bu qardaş ölkə buna görə kimə borcludur.

Tarixdə liderlərin rolu haqqında kifayət qədər kitablar yazılıb, elmi əsərlər yaradılıb və müxtəlif fərziyyələr, fikirlər var. Onların hər biri qəbuldur. Ancaq tarix göstərir ki, liderin rolu bir çox hallarda həlledici olur, bu, danılmazdır. Bu gün möhkəm Türkiyə və onun lideri inkişafı, sabitliyi təcəssüm etdirir və gələcəyə nikbinliklə baxmaq üçün imkan yaradır. Biz buna sevinirik. Çünki Türkiyənin gücü bizim gücümüzdür, Türkiyənin uğuru bizim uğurumuzdur və biz birlikdə bundan sonra da iki qardaş ölkə kimi çiyin-çiyinə irəliyə gedəcəyik. Bizim qarşımızda bütün üfüqlər açıqdır. Həyata keçirdiyimiz bu nəhəng layihələr bizim gücümüzü göstərir və bizim gücümüzü artırır. İqtisadi güc nəticədə siyasi gücə çevrilir.

TANAP və Cənub Qaz Dəhlizi, eyni zamanda, enerji təhlükəsizliyi layihəsidir. Bu gün dünya miqyasında enerji təhlükəsizliyi haqqında danışılır və bu məsələ dünyanın gündəliyini zəbt etmişdir. Hesab edirəm ki, burada çox gözəl əməkdaşlıq formatı yaradılıb. İstehsalçı ölkə Azərbaycan, tranzit ölkələri və istehlakçı ölkələr birlikdə çalışır. Bizim mənafeyimiz də birdir, gəlirimiz də ədalətli şəkildə bölünür. Bir daha demək istəyirəm ki, bütün bu layihələr bölgədəki sabitliyi möhkəmləndirir.

Mən əminəm ki, bundan sonra da birgə həyata keçirəcəyimiz bütün layihələr TANAP kimi, Bakı-Tbilisi-Ceyhan kimi, Bakı-Tbilisi-Ərzurum kimi, Bakı-Tbilisi-Qars kimi uğurlu olacaq, Türkiyə və Azərbaycan birlikdə gələcəyə inamla addımlayacaq.

Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı!

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı

- Azərbaycan Prezidenti, çox hörmətli qardaşım İlham Əliyev.

Gürcüstanın Baş Naziri hörmətli Giorgi Qaxariya.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü cənab Şefik Caferoviç.

Serbiya Milli Məclisinin sədri xanım Maya Qoykoviç.

Hörmətli nazirlər, səfirlər, enerji ictimaiyyətinin təmsilçiləri.

Sizi ən səmimi hislərimlə, sevgi və ehtiramla salamlayıram.

Cənub Qaz Dəhlizi layihəsinin bel sütununu təşkil edən Trans-Anadolu təbii qaz boru kəməri - TANAP-ın Avropa ilə birləşən hissəsinin xeyirlərə səbəb olmasını diləyirəm. Sizi bu mühüm açılış mərasimi münasibətilə ölkəmizdə qəbul etməkdən böyük məmnunluq duyuram. Sevincimizi bölüşmək məqsədilə Ədirnəyə gəldiyiniz üçün hər birinizə təşəkkür edirəm.

Bu gün hamımız birlikdə ölkələrimiz və bölgəmiz üçün həqiqətən də tarixi bir ana şahidlik edirik. Hər mərhələsi səbirlə, diqqətlə, Türkiyə, Azərbaycan və Gürcüstanın ortaq səyləri ilə ərsəyə gələn yeddi il yarımlıq uzun və çətin bir prosesi uğurla başa çatdırmağın haqlı qürurunu yaşayırıq.

Birincisi, TANAP Azərbaycan, Gürcüstan, Türkiyə marşrutundan Avropaya - TAP xəttinə birləşir və təbii ki, oradan davam edərək Bolqarıstan, Yunanıstan, Makedoniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina marşrutu üzərindəki ölkələr də ondan faydalanır. Təbii ki, bütün bu addımları atarkən bunun bir regional layihə, bir sülh layihəsi olduğunu da xüsusilə vurğulamaq lazımdır. Gürcüstan ərazisindən Anadoluya giriş reallaşarkən Gürcüstanın buradakı səylərini əsla inkar etmək olmaz. Bu, bir həmrəylikdir və bu həmrəyliyin adı da sülhdür.

Bu layihə hər şeydən əvvəl ölkələrimiz arasındakı köklü dostluğun rəmzidir. TANAP bu mərhələyə Türkiyə və Azərbaycanın qarşılıqlı inama söykənən əlaqələri sayəsində gələ bilmişdir. Layihənin uğur qazanmasında istehsalçı, tranzit və istehlakçı ölkələrlə bu layihədə pay sahibi olan şirkətlər arasındakı uzlaşma da həlledici rol oynayıb. Xatırlatmaq istərdim ki, TANAP-la bağlı ilk addımı 2012-ci ilin iyun ayında İstanbulda hökumətlərarası müqavilələrin imzalanması ilə atmışdıq.

"Şahdəniz 2" yekun investisiya Sazişini isə 2013-cü ilin dekabr ayında Bakıda təşkil edilən mərasimlə

başa çatdırdıq. Bundan sonra 2015-ci il martın 17-də Qarsda Türkiyə, Azərbaycan və Gürcüstan prezidentlərinin iştirakı ilə TANAP-ın təməlqoyma mərasimi keçirildi. Bu tarixdən üç il sonra - 2018-ci il iyunun 12-də isə dost və qardaş ölkələrin də iştirakı ilə Əskişəhərdə TANAP-ın açılış mərasimini keçirdik. 2012-ci ilin iyunundan ötən müddətdə TANAP layihəsinin reallaşdırılması üçün həqiqətən böyük əmək sərf etdik. Xüsusilə, daxildə və xaricdə dəf etdiyimiz bir neçə təhlükəli vəziyyətə, regional gərginliyə, hətta silahlı toqquşmalara qədər gedib çıxan qeyri-sabitliklərə baxmayaraq, TANAP-ı planlaşdırıldığı kimi həyata keçirdik.

Çox dəyərli qardaşım Əliyevin şəxsən diqqəti, istər Gürcüstanın aidiyyəti qurumları ilə əməkdaşlıq, istərsə də bu layihədə əməyi olan qardaşlarımızın səyləri ilə, şükür olsun, TANAP-ı bugünkü səviyyəyə gətirdik. Bu gün hamımız birlikdə sərf etdiyimiz əməyin hədər getmədiyini görürük. "Enerjinin İpək yolu" adlandırılan bu möhtəşəm layihənin nəzərdə tutulan təqvimə, hədəflərimizə və öhdəliklərimizə uyğun şəkildə ölkələrimizlə bağlı hissəsini bu gün tamamlayırıq.

Bu layihə ilə sahib olduğumuz zənginlikləri öz vətəndaşlarımızın, onlarla yanaşı, bütün bölgə xalqlarının, bütün insanlığın xidmətinə verməklə bağlı iradəmizi bir daha ortaya qoyduq. Biz TANAP ilə ölkəmizin enerji ehtiyacını təmin etməklə yanaşı, Avropanın enerji təhlükəsizliyinə də töhfə verməyi hədəflədik.

Siz də bildiyiniz kimi, TANAP Azərbaycandan Avropaya uzanan 3500 kilometrlik enerji dəhlizinin ən önəmli hissəsidir. Bu gündən etibarən Azərbaycanın təbii qazı ölkəmizin 20 vilayətindən, 67 rayonundan və 600 kəndindən keçərək artıq Avropanın qapısına, yəni, buraya çatmışdır. TANAP ilə 16 milyard kubmetr Azərbaycan təbii qazının Türkiyənin və Avropanın istifadəsinə verilməsi əfsanədən həqiqətə çevrilib. Bu 16 milyard kubmetr qazın 6 milyardını biz, 10 milyardını isə Avropa ölkələri istifadə edəcək.

Həqiqətən də 2019-cu il noyabrın 18-dək TANAP vasitəsilə Türkiyəyə daşınan qazın həcmi 3,23 milyard kubmetrə çatdı. Qarşıdakı illərdə TANAP-ın nəqletmə qabiliyyətini əvvəlcə 24 milyard kubmetrə, daha sonra 31 milyard kubmetrə çatdırmağı planlaşdırırıq. Bundan sonra əsl məsuliyyət sərhədin o biri tərəfindəki qonşularımızın üzərinə düşür. Avropaya qaz nəqlinin başlaması üçün Trans-Adriatik təbii qaz boru kəməri – TAP qısa müddətdə başa çatdırılmalıdır. İnşallah, TAP-ın 2020-ci ildə başa çatdırılmasını gözləyirik.

Əziz dostlar, bəşəriyyət son iki əsrdə enerji mənbələrinə nəzarət uğrunda müharibələr, mübarizələr aparmış, nəticədə milyonlarla insan həyatını itirmişdir. Xüsusilə, yerləşdiyimiz coğrafiya enerji mənbələri ilə bağlı yaşanan ağır rəqabətə bilavasitə səhnə olub. Yaxın Şərqin on illər boyunca qeyri-sabitliklə mübarizə aparması planının arxasında məhz bu məsələ vardır. Bir damcı nefti insan qanından, insan həyatından daha qiymətli hesab edən düşüncə dünyaya sülh və əmin-amanlıq gətirə bilməmişdir. Yaşanan bu qədər acıya, ölümə, fəlakətə baxmayaraq, təəssüf ki, bu düşüncənin müəyyən qüvvələr tərəfindən davam etdirildiyini görürük. Xüsusilə, Aralıq dənizinin şərqində mövcud karbohidrogen ehtiyatlarının bölüşülməsi məsələsində bəziləri ədalətli bölgü əvəzinə, gərginliyi körükləməyə çalışırlar. Ədalətli bölgü imkanı var ikən, təhdid dilinə və şantaj siyasətinə əl atırlar. Halbuki heç bir ölkə beynəlxalq hüquqdan üstün deyil. Zor gücü ilə bir nəticənin hasil ola bilməyəcəyi artıq dərk edilməlidir. "Mən etdim, oldu" məntiqi ilə heç kəs öz istəyinə çata bilməz. "Əba altından dəyənək" göstərərək heç bir ölkə başqasını öz haqlarından əl çəkməyə məcbur edə bilməz. Xüsusilə, Türkiyə belə bir düşüncəyə əsla boyun əyməz.

Ölkəmiz nə öz hüququnun, nə də Kipr türkünün maraqlarının tapdanmasına icazə verməz. Aralıq dənizinin şərqində uzun dəniz sahillərinə sahib olan bir ölkəni kənarlaşdıraraq layihələr həyata keçirməyə çalışmaq onsuz da mümkün deyil. Hazırda ən son texnologiyalara sahib iki qazma gəmimiz – "Fateh" və "Yavuz" ilə iki seysmik araşdırma gəmimiz bölgədə fəaliyyətlərini davam etdirir. Biz onların çığır-bağırı ilə bu gəmilərimizi oradan çəkməyəcəyik. Onlar hazırda orada öz vəzifələrini yerinə yetirirlər və yetirməkdə davam edəcəklər. Gəmilərimizin və heyətlərimizin təhlükəsizliyi isə Dəniz Qüvvələrimiz tərəfindən ən yüksək səviyyədə təmin edilir. Bu gəmilərin həyata keçirdiyi fəaliyyətlərin qısa müddətdə bəhrə verəcəyinə inanıram. Bilirsiniz, indi Liviya ilə də anlaşma əldə etdik. Liviya ilə əldə etdiyimiz bu anlaşma parlamentimizdə təsdiq olunduqdan sonra həmin işi xeyli fərqli səviyyəyə çatdıracağıq. İndi nə edirlər? Liviyanı təhdid etməyə başlayıblar. Bu anlaşma əldə edildi. İndi bu anlaşmanın digər hissələri də eyni qaydada tətbiq ediləcək. Bizim qazma işlərimizdən münaqişə və qan deyil, sülh və rifah püskürəcəkdir.

Mən bu inamla sizin vasitənizlə Aralıq dənizindəki bütün tərəflərə səmimi bir çağırış etmək istəyirəm: Gəlin, enerjini münaqişə vasitəsi əvəzinə, əməkdaşlıq zemininə çevirək. Diplomatiyanın imkanlarından istifadə etmək var ikən, bölgəyə yeni qurbanlar verdirəcək yollara əl atmayaq!

Əziz dostlar, artan əhali və böyüyən iqtisadiyyat nəticəsində enerjinin çox ciddi bir qlobal məsələ olaraq qarşımızda durduğunu bilirik. Eyni qaydada dünya enerji xəritəsinin dəyişdiyini, bu sahədə yeni aktorların, yeni layihələrin məhz bu gün burada olduğu kimi, yeni əməkdaşlıq modellərinin ortaya çıxdığını görürük. Enerji təhlükəsizliyinin təmin edilməsində istehsalçı, tranzit və istehlakçı ölkələr arasındakı möhkəm əməkdaşlığın vacib olduğuna inanırıq.

Türkiyə strateji mövqeyi ilə enerjini hasil və istehlak edən ölkələrin tam qovuşuğunda yerləşir. Bu

gün Yer kürəsində mövcud təbii qaz ehtiyatlarının 70 faizi, neft ehtiyatlarının isə 60 faizi qonşularımızın torpaqlarındadır. Bundan başqa, ölkəmiz Avropanın dördüncü, dünyanın isə 18-ci ən böyük təbii qaz bazarıdır. 2002-ci ildə beş vilayətimizdə təbii qaz var idisə, artıq 81 vilayətimizin hamısına təbii qazın çatdırılmasını təmin etdik. 2019-cu il avqustun sonuna olan rəqəmlərə əsasən, 144 min kilometrdən çox təbii qazpaylama şəbəkəsinə nail olmuşuq. Ölkəmizin əhalisinin 81 faizinə, yəni, 66,5 milyon insanımıza təbii qazı çatdırdıq. 2018-ci ildə təbii qaz tələbatımız isə 49,3 milyard kubmetrə çatıb. Təbii qazsaxlama potensialımızı 4 milyard kubmetrdən 11 milyard kubmetrə çatdırmağı planlaşdırırıq. İki üzən qazsaxlama və qazlaşdırma gəmisini istifadəyə verdik. İnşallah, bunlara daha birini də əlavə edəcəyik. Ümumilikdə 5,4 milyard kubmetr tutumu olan Duz gölü yeraltı qaz anbarlarının sonuncusunun təməlini bu il qoyduq. Onun 2023-cü ildə istifadəyə verilməsi ilə dünyanın ən böyük yeraltı qaz anbarlarına sahib olacağıq.

Bütün bu statistik rəqəmlərin ölkəmizə təmin etdiyi imkanlarla yanaşı, çox ciddi bir məsuliyyət də tələb etdiyini bilirik. Həqiqətən də bu günə qədər bu məsuliyyətimizi dərk edərək hərəkət etdik. Qarşılaşdığımız bir çox ikili standartlara baxmayaraq, dialoqdan, diplomatiyadan, beynəlxalq hüquqdan əsla geri çəkilmədik. Rəqabət əvəzinə əməkdaşlığın, gərginlik əvəzinə müzakirənin, münaqişə əvəzinə məsələlərimizi danışaraq həll etmək yolunu seçdik. Bizə bir addım atana biz qaçaraq getdik. Bu gün də, sabah da eyni xoş niyyətlə hərəkət etməyə davam edəcəyik. Nə öz haqlarımızdan, nə Şimali Kiprin haqqından vaz keçəcəyik, nə də haqqımız olmayana əl uzadacağıq. Ədalət, sabitlik və regional əməkdaşlıq üçün səylərimizi davam etdirəcəyik.

Bu gün hamımız birlikdə Avropa ilə birləşməsinin açılış mərasimini qeyd etdiyimiz TANAP ölkəmizin sülhpərvər baxışının konkret nümunəsidir. Dünya gündəmini ticarət müharibələrinin, terrorun, etirazların, qeyri-sabitliyin zəbt etdiyi bir dövrdə biz bu gün Avropa ilə Asiyanı TANAP vasitəsilə birləşdiririk. Buradan bölgəmizlə yanaşı, bütün dünyaya əməkdaşlıq və tərəfdaşlıq mesajları veririk. Türkiyəni üç qitənin enerji və ticarət mərkəzinə çevirmək yolunda yeni bir addım atırıq.

Çıxışımı bu düşüncələrlə yekunlaşdırarkən, TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimində iştirak etdiklərinə, görülən işlərdə əməyi olan memarından mühəndisinə qədər bütün qardaşlarıma, bütün rəhbər şəxslərə, xüsusilə qardaşım İlham Əliyevə, Gürcüstandakı dostlarımıza səylərinə görə şəxsən öz adımdan, millətim adından bir daha təşəkkürlərimi bildirirəm.

Təbii ki, qardaşım İlham Əliyevin liderliyini unutmaq əsla mümkün deyil. Qonşumuz Gürcüstana əməkdaşlığı ilə bu layihəyə həyat verdikləri üçün minnətdarlığımızı xüsusilə ifadə edirəm. Qarşıdakı dövrdə "Hamımız qazanaq" prinsipi ilə yeni layihələrə imza atacağımıza inanır, hamınızı sevgi və ehtiramla salamlayır, "Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!" deyirəm.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Gürcüstanın Baş Naziri Georgi Qaxariya və digər rəsmi şəxslərin iştirakı ilə TANAP kəmərini TAP kəməri ilə birləşdirilməsi mərasimi oldu.

Mərasim xatirə şəklinin çəkdirilməsi ilə başa çatdı.

Qeyd edək ki, Cənub Qaz Dəhlizinin əsas seqmenti olan TANAP Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" qaz-kondensat yatağından çıxarılan qazı avropalı istehlakçılara çatdıracaq. TANAP Türkiyənin Ərdahan vilayətinin Posof qəsəbəsindən başlayaraq qardaş ölkənin ərazisi boyunca 20 şəhərdən, 67 qəsəbə və 600 kənddən keçən və Ədirnənin İpsala qəsəbəsində Avropaya çatan 1850 kilometrlik boru kəməridir. Azərbaycan qazını Türkiyəyə və Avropaya çatdıran TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşib. TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca uzanan hissəsi isə 480 kilometrdir.

TANAP layihəsi ilə bağlı Azərbaycan ilə Türkiyə arasında anlaşma memorandumu 2011-ci il dekabrın 24-də, Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair saziş 2012-ci il iyunun 26-da İstanbulda imzalanıb və hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. Layihə üzrə yekun investisiya qərarı isə 2013-cü il dekabrın 17-də qəbul edilib. 2015-ci ildə Azərbaycan və Türkiyə Prezidentlərinin iştirakı ilə Qarsda keçirilən təməlqoyma mərasimindən sonra boru kəmərinin inşasına başlanılıb.

Boru kəmərinin quru hissəsinin diametri 56 və 48 düym, Mərmərə dənizi boyunca isə 36 düym təşkil edir. Kəmərin dəniz səviyyəsindən maksimal hündürlüyü 2700 metr yüksəklikdə yerləşir. TANAP-dan Türkiyə qazpaylama sisteminə iki qol ayrılıb və onun maksimum illik ötürücülük qabiliyyəti 31 milyard kubmetrdir.

"Enerjinin İpək yolu" adlandırılan TANAP-ın birinci fazası keçən il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi, həmin il iyunun 30-da başlayıb.

Noyabrın 30-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından TANAP qaz kəmərinin Avropa ilə birləşən hissəsinin açılış mərasiminin iştirakçılarının şərəfinə ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ziyafətdə iştirak edib.

Bununla da Prezident İlham Əliyevin Türkiyəyə səfəri başa çatıb.

## *Şamaxı rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxı şəhərinin mərkəzindəki Heydər Əliyev mədəniyyət və istirahət parkında Ulu Öndərin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov rayonda görülmüş işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.

Dövlətimizin başçısı müvafiq tapşırıqlarını verdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxı rayonuna səfərə gəlib.

Dövlətimizin başçısı əvvəlcə Bakı-Şamaxı-Yevlax magistral avtomobil yolunun Şamaxı rayonu ərazisindən keçən 101-117-ci kilometrlik hissəsinin yenidənqurmadan sonra açılışında iştirak edib.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Prezident İlham Əliyevə məlumat verdi ki, ümumi uzunluğu 16 kilometr olan yol yenidən qurularaq 4 zolağa genişləndirilib.

Dövlətimizin başçısına 4 min nəfər əhalinin yaşadığı, 5 məntəqəni birləşdirən Qonaqkənd–Həmyəli-İkinci Çaylı-İkinci Cabanı-Cabanı avtomobil yolunda görülmüş işlər barədə də məlumat verildi.

Sonra Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.

Sonda xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Şamaxıda "ASAN Həyat" kompleksinin açılışında iştirak edib.

Dövlətimizin başçısı kompleksin rəmzi açılışını bildirən lenti kəsdi.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev kompleks barədə dövlətimizin başçısına məlumat verdilər.

Sifarişçisi Dövlət Agentliyi, podratçısı isə "Kristal Abşeron" olan kompleksin tikintisinə 2018-ci ilin iyun ayında başlanılıb. Kompleks Şamaxı, Qobustan, İsmayıllı, Ağsu və Göyçay rayonlarında qeydiyyatda olan 450 minə yaxın vətəndaşa xidmət göstərəcək. "ASAN xidmət" mərkəzində müxtəlif dövlət orqanları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən ümumilikdə 320-dən çox xidmət həyata keçiriləcək.

Qeyd edək ki, bu günədək ölkə üzrə "ASAN xidmət" mərkəzlərinə daxil olan müraciətlərin sayı 35 milyona yaxındır. 2019-cu ilin 9 ayı ərzində keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,4 faiz təşkil edib.

Sonra Prezident İlham Əliyev kompleksin əməkdaşları ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

-Bu gün Şamaxıda "ASAN Həyat" Mərkəzi açılır. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Əminəm ki, vətəndaşları razı salacaqsınız və "ASAN xidmət" öz yüksək keyfiyyətini saxlayacaq.

Şadam ki, mənim təşəbbüsümlə yaradılmış bu xidmət bu gün nəinki ölkəmizdə, hətta xarici ölkələrdə də böyük rəğbətlə qarşılanır. Şadam ki, "ASAN xidmət"in vətəndaşlar tərəfindən bəyənilmə əmsalı 99,4 faizdir. Yəni, bu, onu göstərir ki, xidmət doğrudan da böyük nailiyyətdir, ictimai xidmətlər sahəsində böyük dəyişikliklərə gətirib çıxarıb. Eyni zamanda, "ASAN xidmət" cəmiyyətimizin ictimai şüurunda da inqilabi dəyişikliklərə səbəb olubdur. Çünki ictimai xidmətlər sektoru həmişə çox problemli sektor idi və vətəndaşlar çox əziyyət çəkirdilər. Bürokratiya, süründürməçilik, korrupsiya, rüşvətxorluq xidmət sektorunun əsas problemləri idi. "ASAN xidmət"in fəaliyyətə başlamasından sonra artıq bu sahədə tam şəffaflıq təmin edilibdir.

Təsadüfi deyil ki, artıq 34 milyondan çox müraciət daxil olub və bu müraciətlər cavabsız qalmır. "ASAN xidmət" öz coğrafiyasını genişləndirir. Bu, sayca 16-cı mərkəzdir və artıq 4 mərkəzdə tamamlama işləri aparılır. Kürdəmir, Ağcabədi, Tovuz mərkəzləri artıq hazırdır, Balakən mərkəzi isə gələn il istifadəyə veriləcəkdir. Mənə verilən məlumata görə, Bakı mərkəzlərində, - baxmayaraq ki, Bakıda 5 mərkəz fəaliyyət göstərir, - artıq növbələr yaranır. Ona görə göstəriş vermişəm ki, Bakıda əlavə 2 mərkəz açılsın, eyni zamanda, Sumqayıt və Gəncə şəhərlərində ikinci mərkəzlər açılacaqdır. Artıq çoxdandır səyyar xidmət də göstərilir, 10-dan çox avtobus daim ölkəmizi dolaşır, "ASAN qatar" da fəaliyyət göstərir. Demək olar ki, ölkəmizin hər bir yeri belə gözəl xidmətlə əhatə olunub. Xidmətlərin sayı artır, artıq 320-dən çox xidmət göstərilir. ABAD Mərkəzlərinin fəaliyyətini nəzərə alsaq, artıq bu rəqəm 350-yə çatır. Bu da onu göstərir ki, biz son illərdə ASAN-ın funksiyalarını böyük dərəcədə genişləndirə bilmişik və buna ehtiyac var idi. Çünki "ASAN xidmət"də işlər yüksək dərəcədə düzgün qurulur. Problemli sahələrin bir çoxu da "ASAN xidmət"in əhatəsinə daxil edilib. Beləliklə, artan xidmətlər və xidmətlərin keyfiyyəti göstərir ki, biz düzgün yoldayıq. Çünki biz başlayanda xidmətlərin sayı təqribən 20-30 ətrafında idi.

ASAN bizim intellektual məhsulumuzdur. Mən çox şadam ki, Azərbaycan intellektual məhsul icad edir və bunu ixrac edir. İntellektual məhsulun, xidmətlərin ixracı hesab edirəm ki, bizim gələcək fəaliyyətimizdə çox böyük diqqətə layiq olmalıdır. "Bakutel" sərgisində də mənə edilən təqdimatlar göstərir ki, biz artıq xidmətləri, o cümlədən peyk xidmətlərini, inno-

vasiyalarla bağlı olan xidmətləri ixrac edirik. "ASAN xidmət" mərkəzi artıq Əfqanıstanda fəaliyyət göstərir və bir neçə ölkə ilə bizim artıq anlaşma memorandumlarımız və sazişlər imzalanıbdır. ASAN dünyada öz fəaliyyətini genişləndirir və bizim gələcəkdə də bir çox ölkələrlə əməkdaşlığımız mümkündür. Əsas şərtimiz ondan ibarətdir ki, Azərbaycanda göstərilən xidmət orada da göstərilsin, çünki bu, bizim brendimizdir və mərkəzin adı da bütün ölkələrdə ASAN olmalıdır. Təsadüfi deyil ki, ASAN artıq beynəlxalq mükafatlara da layiq görülüb və Azərbaycanın həm intellektual brendidir, həm də bizim siyasətimizi, niyyətimizi əks etdirir. Çünki bizim siyasətimiz ondan ibarətdir ki, hər bir sahədə şəffaflıq, dürüstlük, mədəni xidmət olsun, pozuntulara yol verilməsin. Hesab edirəm ki, "ASAN xidmət" korrupsiyaya, rüşvətxorluğa qarşı ən səmərəli mexanizmlərdən biridir. Bu məsələlərlə bağlı köklü tədbirlər görülür. Azərbaycanda korrupsiyanı, rüşvətxorluğu aradan qaldırmaq, yaxud da ki, əhəmiyyətli dərəcədə azaltmaq üçün əməli tədbirlər görülür. Bu tədbirlər həm nəticə verir, həm də verəcək. Ona görə inzibati tədbirlərlə, cəza tədbirləri ilə yanaşı, institusional tədbirlər də görülməlidir ki, biz korrupsiyanın və rüşvətxorluğun əhatə dairəsini daraldaq və beləliklə, Azərbaycanı müasir, çox sürətli inkişaf yoluna gətirək. Biz buna nail oluruq.

"ASAN xidmət", eyni zamanda, bizim siyasətimizi göstərir ki, bu mərkəzlərdə işləyənlərin mütləq əksəriyyəti gənclərdir. Bu, həm gənclərimizin istedadını, biliklərini göstərir və həm də kadr hazırlığı üçün də çox önəmlidir. Çünki artıq minlərlə ASAN könüllü müxtəlif önəmli vəzifələrdə çalışır. "ASAN xidmət"lərdə təlim keçmiş, yaxud da ki, işləmiş gənclərimiz artıq həyata da vəsiqə alırlar, bilikli kadrlar kimi onlara inam artır və onları işə götürənlər əmin olurlar ki, dürüstlük, keyfiyyət, biliklər və mədəni xidmət olacaq. Onu da bildirməliyəm ki, könüllülər hərəkatı bizdə "ASAN xidmət"dən başlayıb. O vaxta qədər könüllülər hərəkatı yox idi. Bu gün minlərlə könüllü ölkəmizin müxtəlif sahələrində çalışır, işləyir, dövlətə xeyir gətirir. Bizim gənclərimiz məhz belə olmalıdır. Mən bu yaxınlarda Bakı Dövlət Universitetinin 100 illiyinə həsr edilmiş tədbirdə gənclərə öz sözlərimi dedim. Bilikli, savadlı, Vətənə bağlı müasir gənclik Azərbaycanın dayanıqlı uğurunun təminatçısıdır. Gənclər biliklərlə yanaşı, Vətənə bağlı olmalıdırlar, Vətəni və dövlət maraqlarını hər şeydən üstün tutmalıdırlar.

"ASAN xidmət", eyni zamanda, xidmət sektorunda yenilikdir. "ASAN xidmət" göstərdi ki, xidmət sektoru necə olmalıdır. Bax, bütün "ASAN xidmət" mərkəzlərinə gələn, müraciət edən vətəndaşlar sizi görürlər, gözəl gənclərimizi, gözəl mədəniyyəti, xoş münasibəti, gülər üzləri görürlər. Doğrudan da böyük sərvətdir və bunu biz özümüz yaratmışıq. Bir daha demək istəyirəm ki, bu, bizim milli brendimizdir və milli sərvətimizdir.

Ona görə ASAN mərkəzlərinin sayının artırılması ilə bağlı mənim tərəfimdən göstərişlər verilir. Eyni zamanda, ASAN mərkəzlərinin funksiyalarının genişləndirilməsi ilə əlaqədar "ASAN xidmət" və onun rəhbərliyi çox fəal işləyir. Hər bir mərkəzin açılışında mən hansısa bir yeniliklə rastlaşıram. Mənə edilən məruzələrdən görürəm ki, ildən-ilə yeni innovasiyaları hərəkətə gətirmək üçün imkan yaradılır və bu innovasiyalar da tətbiq ediləcəkdir. Bu gün mənə məruzə edilən məsələlərdən biri "smart city" layihəsidir. Biz mütləq buna keçməliyik. Artıq müvafiq göstərişlər verildi ki, Bakı şəhərində "smart city" sisteminin tətbiqi üçün əməli addımlar atılsın. O cümlədən, digər şəhər və rayonlarımızda da bu istiqamətdə işlər görüləcəkdir.

Şadam ki, bu mərkəz Şamaxı şəhərində açılır. Şamaxı bizim qədim diyarımızdır, tarixi yerimizdir. Şamaxının çox zəngin tarixi, mədəniyyəti var. Şamaxının tarixi abidələri hər birimiz üçün çox əzizdir. Şadam ki, mənim göstərişimlə qədim Şamaxı Cümə məscidi əsaslı təmir olundu. Bu, Azərbaycanın ən qədim məscididir, müsəlman aləminin ən qədim məscidlərindən biridir. 743-cü ildə inşa edilmişdir. Biz Şamaxının tarixi simasını qorumaqla onu müasirləşdiririk. Bu yaxınlarda rayon icra hakimiyyətinə kifayət qədər böyük vəsait ayrıldı ki, infrastrukturla bağlı layihələr icra edilsin. Müasir sərnişin avtobusları, müasir təcili tibb yardımı maşınları, kommunal texnika gətiriləcək. Tapşırıq verilmişdir ki, Şamaxı şəhərinin bütün daxili yolları, kənd yolları əsaslı şəkildə təmir edilsin. Şəhərin içməli su problemi təxminən gələn ilin aprel-may aylarında həllini tapacaq və şamaxılılar təmiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin ediləcəklər. Şamaxı rayonunda qazlaşdırma 95 faizdir. Baxmayaraq ki, bir çox kəndlər bir-birindən aralıdır və dağ kəndləridir, amma biz qazlaşdırmanı 95 faizə çatdırmışıq. Elektrik enerjisi ilə heç bir problem yoxdur. Bakı-Şamaxı avtomobil yolunu mənim göstərişimlə dörd zolağa genişləndirdik və çox rahat yoldur. O yolun axırıncı hissəsi bu gün rəsmən açıldı. Həmçinin kənd yollarının tikintisi aparılır. Vaxtilə burada Müalicə-Diaqnostika Mərkəzi, Olimpiya Kompleksi inşa olunmuşdur. Şamaxı Rəsədxanası əsaslı təmir edilmişdir. Əlbəttə ki, həm respublika sakinləri, həm də qonaqlar üçün Şamaxı-Lahıc yolu nəinki əsaslı şəkildə təmir olundu, Şamaxı-Dəmirçi, Dəmirçi-Lahıc yolu yenidən çəkildi. Yəni indi Lahıca ən təhlükəsiz yol Şamaxıdan keçir. Biz indi Şamaxını müasir turizm mərkəzi kimi inkişaf etdiririk. Böyük üzüm bağları salınır, üzüm festivalı keçirilir, Şamaxı və Hacıqabul rayonlarının ərazisində ölkəmizin ən böyük aqroparkı salınır. O aqroparkın sahəsi 42 min hektardır və kənd təsərrüfatının inkişafına böyük dərəcədə təkan verəcəkdir. Şamaxı ənənəvi üzümçülük rayonudur. Üzümçülüyün ənənələri bərpa edilir, iş yerləri açılır, o cümlədən ödənişli ictimai işlər yaradılır. Şamaxı Azərbaycan xalqının böyük oğlu İmadəddin

Nəsiminin vətənidir. Bilirsiniz ki, mənim Sərəncamımla bu il "Nəsimi ili" elan edilibdir. Böyük Nəsiminin xatirəsinə hörmət və ehtiram əlaməti olaraq sabah bütün ölkəmizdə kütləvi ağacəkmə aksiyası keçiriləcək və bütövlükdə 650 min ağac əkiləcəkdir. Nəsimi festivalı ənənəvi xarakter alıbdır. Şamaxının çox qədim tarixi var və çox görkəmli nümayəndələri Azərbaycan xalqının şöhrətini yüksəklərə qaldırırlar.

Siz isə gəncsiniz, müstəqil həyata yenicə qədəm qoyursunuz. Şadam ki, sizin fəaliyyətiniz "ASAN xidmət" mərkəzində başlayır və əminəm ki, burada qazanacağınız təcrübə gələcək həyatınızda sizə kömək edəcək. Siz öz biliklərinizi, bacarığınızı ölkəmizin ümumi işinə bir töhfə kimi qoyacaqsınız. Sizi təbrik edirəm və uğurlar arzulayıram.

Kompleksin əməkdaşı Jalə Hüseynova dedi:

-Salam möhtərəm cənab Prezident. Sizi Şamaxıda görməyə çox şadıq. Mən hələ tələbə olarkən Bakı şəhərində "ASAN xidmət" mərkəzində könüllü kimi fəaliyyət göstərirdim. Fevral ayında Siz Gənclər Günü münasibətilə respublika gəncləri ilə görüşmüşdünüz. Həmin görüşdə mən də ASAN könüllüsü kimi iştirak edirdim. Siz həmin görüşdə Azərbaycan gənclərinə öz həyat yolunuzdan da misallar çəkərək tövsiyə vermişdiniz. Orada qeyd etmişdiniz ki, Azərbaycan uzun müddət əsarət altında olmasına baxmayaraq, bu gün müstəqildirsə, öz müstəqilliyini qoruya, inkişaf etdirə bilirsə, öz milli dəyərlərini qorumağa, dilinə sahib çıxmağa borcludur. Gənclərə məsləhət gördünüz ki, hər zaman vətənpərvərlik ruhunda tərbiyə alsınlar, öz dillərini, dəyərlərini qorusunlar və hansı sahədə olmaqlarından asılı olmayaraq, öz işlərinin peşəkarı olsunlar.

Həmin görüş mənim həyatımın dönüş nöqtələrindən biri oldu. Mən də qərar verdim ki, bu yolda addımlamalıyam və dövlət qulluğuna hazırlaşdım. Mən çox şadam ki, fevral ayında Sizin qarşınızda könüllü kimi dayanmışdım, bu gün isə dövlət qulluqçusu kimi dayanıram.

Siz hər zaman bildirirsiniz ki, Azərbaycanın dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Dövlət qulluqçuları hər zaman vətəndaşların xidmətində olmalıdırlar. Siz əmin ola bilərsiniz ki, Şamaxı regional "ASAN xidmət" mərkəzində biz bu prinsipləri hər zaman öndə saxlayacağıq. Şamaxıdan, ətraf rayonlardan bizdən xidmət almaq üçün gələn vətəndaşlar bunu hər zaman görəcəklər, dövlətin dəstəyini hər zaman hiss edəcəklər. Bizim üçün yaratdığınız şəraitə görə bütün gənclər adından Sizə öz təşəkkürümü bildirirəm. Çox sağ olun.

Prezident İlham Əliyev: Çox sağ ol, təşəkkür edirəm. Sən buraya Bakıdan gəlmisən, yoxsa buralısan?

Jalə Hüseynova: Xeyr, mən Bakıdan gəlmişəm.

Prezident İlham Əliyev: Çox yaxşı. Burada işləyənlərin əksəriyyəti yəqin ki, Şamaxı rayonunun sakinləridir. Qonşu rayonlardan gələnlər var?

Kompleksin əməkdaşı: Bəli, mən İsmayıllıdanam.

Prezident İlham Əliyev: Çox gözəl. Sizi təbrik edirəm.

Jalə Hüseynova: Çox sağ olun, təşəkkür edirəm.

Kompleksin əməkdaşı Toğrul Cəfərov:

-Möhtərəm cənab Prezident, Sizi Şamaxı regional "ASAN xidmət" mərkəzində görməkdən çox qürur duyduq. Mən bu günə kimi ölkəmizdə keçirilən bir çox könüllülük fəaliyyətlərinə qoşulmuşam. İlk könüllülük fəaliyyətim "Bakı-2015" Avropa Oyunlarında oldu. Sonra "Bakı-2017" İslam Həmrəyliyi Oyunları, daha sonra üç il ard-arda davam edən Formula 1 yarışları, 2016-cı ildə təşkil olunan Şahmat Olimpiadasında könüllü kimi çıxış etdim. Ən sonda isə "ASAN xidmət" ailəsinin bir fərdi olaraq "ASAN xidmət" könüllüsü oldum. Mən, sadəcə, Sizə bildirmək istəyirdim ki, bizlər könüllü olan zaman bizim şəxsi inkişafımız üçün bir sıra təlimlərin, seminarların keçirilməsi, ən kiçik ehtiyacımızdan tutmuş ən böyük ehtiyaclarımıza kimi qarşılanması məhz Sizin biz gənclərə, biz könüllülərə göstərdiyiniz qayğı və diqqət nəticəsində olub. Mən bir gənc kimi hər zaman Sizin qayğınızı, diqqətinizi öz üzərimdə hiss etmişəm. Buna görə Sizə öz təşəkkürümü bildirirəm. Bir məqamı qeyd etmək istəyirəm ki, mən bir könüllünün uğuru olaraq bu gün Şamaxı regional "ASAN xidmət" mərkəzinin əməkdaşı kimi Sizin qarşınızda çıxış edirəm. Sonda demək istəyirəm ki, Siz çıxışlarınızın birində qeyd etmişdiniz ki, ölkəmizdə könüllülük fəaliyyəti var və bu könüllülük fəaliyyəti daim yaşayır. Biz də öz növbəmizdə Sizə söz vermək istəyirik ki, bu illər ərzində keçdiyimiz bütün təcrübələri, Sizin bizə olan qayğınızı, diqqətinizi Şamaxı gəncləri ilə bölüşəcəyik. Bu könüllülük fəaliyyətini daim yaşadacağıq.

Onu da demək istəyirəm ki, bu gün 5 dekabr - Beynəlxalq Könüllülər Günüdür. Burada gördüyünüz əksər əməkdaşların müəyyən vaxtlar ərzində könüllülük fəaliyyəti olub. Bu gün də bizim yanımızda olduğunuz üçün Sizə öz minnətdarlığımızı bildiririk. Diqqətiniz üçün çox sağ olun.

Prezident İlham Əliyev: Çox sağ olun. Mən çox şadam ki, Azərbaycanda könüllü hərəkatı geniş vüsət alır. Bu, doğrudan da onu göstərir ki, siyasətimiz həyatda öz əksini tapır. Bir daha təkrar etmək istəyirəm ki, könüllülər hərəkatı "ASAN xidmət"dən başlamışdır. Ondan sonra həmin "ASAN xidmət"də sənin kimi fəaliyyət göstərən gənclər mötəbər beynəlxalq idman yarışlarında da böyük işlər görmüşlər. Bilirsən ki, bütün oyunlarda iştirak etmiş könüllüləri mən şəxsi Fəxri diplomla təltif etmişəm. Çünki doğrudan da onların fəaliyyətini mən elə oyunlar gedən vaxt izləyirdim. Görürdüm ki, bizim gənclərimiz nə qədər böyük məhəbbətlə, peşəkarlıqla, nəzakətlə bütün qonaqlara xidmət göstərirlər, yol göstərirlər, kömək edirlər. Bilirsiniz, bu, artıq tərbiyədir. Bu proqramdan keçən gənclər artıq gələcək həyatda da belə olacaqlar.

Xalqımıza xas olan, əsrlərboyu yaşatdığımız milli-mənəvi dəyərlər də bu prinsiplər üzərində qurulubdur. Mən bu barədə dəfələrlə demişəm ki, bizim gənclərimiz xalqımızın əsrlərboyu yaratdığı dəyərləri gələcəkdə qorumalıdırlar, necə ki, biz qoruyuruq. Məhz o təqdirdə biz öz milli mənliyimizi, ləyaqətimizi saxlaya bilərik, qoruya bilərik. Ona görə xalqımıza xas olan xüsusiyyətlər könüllülər hərəkatı ilə üst-üstə düşür. Artıq minlərlə, bəlkə də on minlərlə könüllümüz var. Mən onu da bildirməliyəm, nisbətən bu yaxınlarda göstəriş vermişdim ki, dövlət orqanlarında da könüllülər fəaliyyətə başlasın, oraya cəlb olunsunlar. Artıq nazirliklərdə, dövlət şirkətlərində könüllülər qrupları vardır. Özəl şirkətlər könüllüləri işə cəlb etməlidirlər. Çünki bu, həm onlara xeyir gətirəcək, həm ümumi işimizə töhfə verəcəkdir. Ona görə könüllülər qarşısında hesab edirəm ki, bütün imkanlar açıqdır. Sən könüllüdən artıq dövlət qulluqçusu statusuna yüksəlmisən və sənə bundan da uğurlu gələcək arzulayıram.

Kompleksin əməkdaşı Ülkər Mahmudova: Möhtərəm cənab Prezident, Sizi Şamaxıda görməyimizə çox şadıq. Bu yaxınlarda 100 illiyini qeyd etdiyimiz Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin məzunuyam. Öncə qeyd edim ki, biz şamaxılılar Sizin diqqət və qayğınızı həmişə hiss etmişik. Siz tez-tez bizim bölgəmizə səfər edirsiniz və daim bizim yanımızda olursunuz. Evlərimizin, məktəblərimizin vəziyyətini diqqətinizdə saxlayırsınız və onların yenilənməsinə bilavasitə özünüz nəzarət edirsiniz. Bildiyimiz kimi, bu ilin fevral ayında Şamaxıda zəlzələ baş vermişdir. Demək olar ki, elə həmin an Siz bizim yanımızda oldunuz. Bu, bir daha təsdiq etdi ki, Siz bizə - vətəndaşlarınıza nə qədər önəm verirsiniz. Sabah ağacəkmə aksiyası olacaq, Şamaxıda 45 minə yaxın ağac əkiləcək. Bu da o deməkdir ki, Şamaxının təbiəti daha da gözəlləşəcək. Bunlar hamısı Sizin sayənizdə baş verir. Ölkəmizin rəhbərliyinin yanımızda olduğunu hiss edirik. Buna görə Sizə dərin təşəkkürümüzü bildiririk və söz veririk ki, vətəndaşlarımızın xidmətində layiqincə dayanacağıq.

Prezident İlham Əliyev: Çox sağ ol. Mən doğrudan da Şamaxıda tez-tez oluram. Bir tərəfdən ona görə ki, Şamaxıya xüsusi diqqət göstərilir. Çünki bu, doğrudan da bizim tarixi şəhərimizdir. Ta qədim xəritələrdə Şamaxının adı vardır. Ona görə bunu hər bir Azərbaycan vətəndaşı bilməlidir. Biz Şamaxının tarixini, mədəni irsimizi qorumalıyıq. Digər tərəfdən, son illərdə Şamaxıda bir çox açılışlar olub, mən burada bir çox obyektlərin fəaliyyətə başlamasını qeyd edirdim. Ona görə mən Prezident kimi Şamaxıda 12 dəfə olmuşam. Bu səfər 13-cüdür. Bu il isə 3-cü səfərdir. Birinci səfərlər zəlzələ ilə bağlı idi. Fevral ayında və ondan sonra birinci evlərin, o cümlədən Saray nənənin evinin yenidən tikilməsini qeyd etmək üçün gəlmişdim. Onu da bildirməliyəm ki, zəlzələdən əziyyət çəkmiş vətəndaşların problemləri daim diqqət mərkəzindədir. Mən bu işlə demək olar ki, müntəzəm maraqlanıram. Bu gün yeni çoxmərtəbəli evin açılışını da qeyd edəcəyik. Əsas yükü təbii ki, dövlət öz üzərinə götürübdür. Amma mənim çağırışımdan sonra özəl sektor da bu işlərə qoşulub. Mən dedim ki, şamaxılıların, zəlzələdən əziyyət çəkmiş bütün vətəndaşların məişət problemləri həll olunmalıdır və həll olunur. Necə ki, İsmayıllı və Ağsu rayonlarında, orada da böyük tikinti işləri aparılır. Bu, bir daha bizim siyasətimizi göstərir. İndi təbii fəlakətlər hər bir ölkədə baş verir. Bu yaxınlarda biz televiziyadan gördük ki, Venesiya kimi tarixi şəhər su altında qalıb. Heç bir kanalizasiya sistemi o yağışların qabağında davam gətirə bilməyib. Bu yaxınlarda bəzi Avropa ölkələrində böyük daşqınlar baş verib. Düzdür, bizdə də olur. İndi yağış yağanda, özü də leysan yağanda heç bir şəhərin kanalizasiya sistemi onu tam götürə bilməz. Baxmayaraq ki, biz çox çalışırıq və göstəriş verilib ki, yağışların, daşqınların fəsadları aradan qaldırılsın və amma hətta ən inkişaf etmiş ölkələrdə daşqın böyük problemlərə gətirib çıxarır, o cümlədən zəlzələlər. Bir neçə il ərzində bizdə həm daşqın olub, həm də şimal-qərb bölgəsində zəlzələ olub. Hər iki halda dövlət bütün xərcləri öz üzərinə götürüb. Bu da deyə bilərəm ki, nadir bir təcrübədir. Çünki inkişaf etmiş ölkələrdə bu, belə deyil. Orada vətəndaşların evləri sığortalanır və əgər ev hansısa səbəbə görə ziyan çəkibsə, vətəndaş sığorta şirkətinə müraciət edir. Ondan sonra təqribən bir neçə ay ərzində ona vəsait ödəniləcək, ödənilməyəcək hələ bəlli deyil. Bizdə isə belə deyil. Biz başa düşürük ki, bizim vətəndaşlar buna hələ ki, öyrəşməyiblər. Evlərin bir çoxu sığortalanmayıb. Ona görə nə etməliyik? İmkan verə bilmərik ki, onlar küçədə qalsınlar. Ona görə dövlət bu işi öz üzərinə götürür. Əlbəttə, bu, böyük məsrəfdir, böyük xərclərdir. Amma biz xalq üçün yaşayırıq, dövlət xalqı qorumalıdır. Ən ağır vəziyyətdə olan vətəndaşları biz daim diqqət mərkəzində saxlamalıyıq. Şamaxı rayonunda baş vermiş zəlzələnin fəsadlarının bir hissəsi aradan qaldırılıb. Bu gün mənə növbəti addımlarla bağlı məruzə ediləcək. Zəlzələdən əziyyət çəkmiş yoldaşlar bilsinlər ki, biz onların yanındayıq. Necə ki, mən zəlzələdən dərhal sonra Şamaxıya gəldim. Bu gün də deməliyəm ki, bu məsələ daim diqqət mərkəzindədir. Təmirə, tikintiyə ehtiyacı olan axırıncı evə qədər bu, daim mənim diqqətimdə olacaqdır.

Kompleksin əməkdaşı Səbinə Kərimova: Möhtərəm cənab Prezident, Sizi salamlayırıq. Bizim üçün bu cür önəmli bir gündə yanımızda olduğunuz üçün Sizə təşəkkürümüzü bildiririk. Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin məzunuyam. İxtisasıma uyğun olaraq özəl sektorda işləmişəm. Bu gün dövlət qulluqçusu olmağımda ən əsas motivasiyanı Sizdən almışam. Qeyd edim ki, Sizin tərəfinizdən daim müxtəlif sahələrdə islahatlar həyata keçirilir ki, bu da hər zaman izlənilir və diqqət mərkəzindədir. Sosial sahədə həyata keçirilən islahatlardan biri "ASAN

xidmət" mərkəzinin yaradılması oldu. "ASAN xidmət" hazırda operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik və rahatlıq prinsipləri əsasında fəaliyyət göstərir və bu prinsiplərə sadiqdir. Qeyd etmək istəyirəm ki, bu prinsiplər məhz Sizin tərəfinizdən irəli sürülmüşdür. Bu prinsiplərə əməl olunduğuna görə də "ASAN xidmət" vətəndaşlar tərəfindən sevildi.

Möhtərəm Prezident, əmin ola bilərsiniz ki, biz gənclər daim Sizin siyasətinizi və islahatlarınızı dəstəkləyirik və daim Sizin yanınızdayıq. Qeyd etmək istəyirəm ki, son dövrlərdə hakimiyyətin hər üç qolunda apardığınız islahatlar, yəni, qanunvericilik, icra, məhkəmə sahələrində həyata keçirdiyiniz islahatlar həm gənclər tərəfindən, həm də bütövlükdə xalq tərəfindən çox böyük rəğbətlə qarşılandı. Xüsusilə də qeyd etmək istəyirəm ki, son dövrlərdə əksər rəhbər vəzifələrə gəncləri təyin edirsiniz. Bu da təbii ki, gəncləri dövlət qulluğunda çalışmağa ruhlandırır.

Möhtərəm Prezident, həm gənclər olaraq, həm də dövlət qulluqçuları olaraq Sizi əmin edirik ki, regional səviyyədə Sizin dövlət müstəvisində korrupsiyanın qarşısının alınması və şəffaflığın artırılması sahəsində apardığınız islahatlar vətəndaşlara aşılanacaqdır və bunun nəticəsində vətəndaşlar hiss edəcəklər ki, dövlət onların yanındadır və dövlət qulluqçuları onların xidmətindədir. Diqqətiniz üçün təşəkkür edirəm.

Prezident İlham Əliyev: Çox sağ ol, sən çox önəmli məsələyə toxundun. Mən də bir-iki kəlmə demək istəyirəm. Bilirsiniz, korrupsiya və rüşvətxorluq bizə qalan mirasdır. Ona görə bundan canımızı qurtarmaq üçün əlbəttə ki, həm maarifləndirmə işləri aparılmalıdır, düzgün siyasət aparılmalıdır və nəsillər dəyişməlidir. Mənim ümidim gənclərədir. Çünki gənclər yeni mühitdə, müstəqillik dövründə formalaşır. Əlbəttə, indi bizim dövrümüzdə də pozuntular, çatışmamazlıqlar var. Amma məsələ ondadır ki, biz bunlarla necə mübarizə aparırıq. Mən bir daha demək istəyirəm ki, biz bu mübarizədə təkcə inzibati, yaxud da ki, cəza tədbirləri ilə məqsədə müvəffəq ola bilmərik. Bütün bu tədbirlərlə yanaşı, institusional, sistem xarakterli islahatlar aparılmalıdır. İslahatların yeni dövrü keçən il prezident seçkilərindən sonra başlamışdır. Mən andiçmə mərasimindəki çıxışımda bizim əsas strateji inkişaf parametrlərini xalqın diqqətinə çatdırdım və hazırda biz ardıcıllıqla bu yolla gedirik. Baxın, Prezident Administrasiyası tamamilə yenidən formalaşıb, gənclər cəlb olunubdur. Nazirlər Kabineti yenidən formalaşıb, gənc nəsil cəlb olunur. İndi artıq növbədənkənar parlament seçkiləri elan olunub. Ümid edirəm ki, gənclər də bu seçkilərə çox fəal qoşulacaqlar. Çünki yeni simalar, yeni ideyalar, yeni yanaşma lazımdır. Eyni zamanda, mən onu da bildirməliyəm ki, biz nəsillər arasında ziddiyyətlərə yol verə bilmərik. Çünki bu, hər bir cəmiyyətdə var. Yaşlı nəsildən olan bir çoxları həmişə gənc nəsildən narazıdır. Ona görə biz bunu başa düşməliyik. Nəsillər arasındakı anlaşılmazlıq hər bir cəmiyyətdə var. Amma bizim cəmiyyət mühafizəkar cəmiyyətdir, konservativ cəmiyyətdir və ənənəvi dəyərlər üzərində qurulmuş cəmiyyətdir. Biz, əlbəttə, imkan verə bilmərik ki, bu təbii ziddiyyətlər hansısa böyük bir problemə çevrilsin. Ona görə, mən demişəm və mən gəncləri işə fəal cəlb etməyə başlayanda, gördüm ki, yaşlı nəslə qarşı elə bil hansısa bir kampaniya aparılır. Onu da mən dayandırdım. Çünki yaşlıların təcrübəsi, gənclərin müasirliyi və bunun vəhdəti bizə xeyir gətirəcək. Siz və "ASAN xidmət"də çalışanların mütləq əksəriyyəti cavanlardır. Amma yaşlı nəslə xidmət edirsiniz. Çünki bu xidməti almaq üçün daha çox yaşlı nəslin nümayəndələri gəlirlər. Bax, bu nəzakətli davranış, bu mehribanlıq, xoş sözlər bizim cəmiyyətimizi də saflaşdırır və irəliyə aparır. Ona görə bir daha sizi təbrik edirəm və sizə uğurlar arzulayıram. Sağ olun.

Görüşdən sonra xatirə şəkli çəkdirildi.

Daha sonra Prezident İlham Əliyev "ASAN Həyat" kompleksinin tərkibindəki "ABAD Food Hall"un fəaliyyəti ilə tanış oldu.

Dövlətimizin başçısı burada yaradılmış iaşə mərkəzi və istirahət-əyləncə guşəsinə də baxdı.

İlham Əliyev Şamaxıda zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş binada yaradılmış şəraitlə tanış olub

Dekabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şamaxı rayonunda zəlzələ nəticəsində ziyan çəkmiş ailələr üçün yeni inşa edilmiş 44 mənzilli yaşayış binasında yaradılmış şəraitlə tanış olub.

Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov dövlətimizin başçısına aparılan tikinti və təmir işləri barədə məlumat verdi.

Prezident İlham Əliyev Fərdar Həsənovun mənzilində yaradılan şəraitlə maraqlandı.

Xocalı soyqırımı dünyanın 10-dan çox ölkəsi tərəfindən tanınmışdır. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamədə Ermənistan qoşunlarının Azərbaycanın ərazisindən tam və qeyd-şərtsiz çıxarılması tələb olunmuşdur. Təəssüf ki, həmin qətnamələr həyata keçirilməmişdir. Bəzən Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günün içində icra edilir. Bəzən isə Azərbaycanın üzləşdiyi münaqişəyə münasibətdə olduğu kimi, 26 ildir ki, kağız üzərində qalır.

Bu ikili standartlar siyasətinə son qoyulmalıdır. İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, ATƏT və digər nüfuzlu təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul etmişlər. Fürsətdən istifadə edərək Qoşulmama Hərəkatının indiyə qədər qəbul olunmuş sənədlərində münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə etdiklərinə görə üzv dövlətlərə təşəkkürümü bildirirəm.

Azərbaycanın işğal olunmuş ərazilərində bütün tarixi abidələr, məscidlər, məzarlıqlar Ermənistan tərəfindən dağıdılmış, muzeylər və maddi-mənəvi sərvətlərimiz talan edilmişdir. Ermənistan məqsədli surətdə işğal olunmuş ərazilərdə Azərbaycan izini itirməyə çalışaraq bütün toponimləri erməniləşdirir. Ermənistan, həmçinin işğal olunmuş ərazilərdə beynəlxalq humanitar hüquqa zidd olaraq qeyri-qanuni məskunlaşdırma siyasəti aparır və qanunsuz iqtisadi fəaliyyətlə məşğul olur.

2016-cı ilin aprel ayında Ermənistanın törətdiyi hərbi təxribat nəticəsində aralarında bir uşaq olmaqla altı azərbaycanlı mülki şəxs həlak olmuş, 26-sı yaralanmışdır, yüzlərlə ev dağıdılmışdır. Qarabağ əzəli

Azərbaycan torpağıdır və münaqişə yalnız Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Azərbaycan müstəqil xarici siyasət yeridir. Bu siyasət milli maraqlara, ədalətə əsaslanır və bizə çoxlu dostlar qazandırmışdır. 2011-ci ildə Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi buna bariz nümunədir. Təhlükəsizlik Şurasına üzvlük müddətində Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə, ədalətin təmin edilməsinə mühüm töhfələr vermiş və beynəlxalq siyasi proseslərin fəal iştirakçısına çevrilmişdir.

Azərbaycan BMT Təhlükəsizlik Şurasının mandatı əsasında təsis edilmiş beynəlxalq sülhməramlı əməliyyatlara da öz töhfəsini verir. Ölkəmiz Rusiya-NATO, Rusiya-ABŞ yüksək hərbi rəhbərliyinin mütəmadi olaraq keçirilən görüşlərinə ev sahibliyi edir. Dünyada 200-ə qədər ölkə vardır. Bu ölkələr arasında qeyd etdiyim görüşlər üçün Azərbaycanın seçilməsi bizim yürütdüyümüz müstəqil xarici siyasətə olan hörmətin göstəricisidir.

Hörmətli qonaqlar, müstəqilliyimizin ilk illəri Azərbaycan üçün çox keşməkeşli olmuşdur. Xəyanətkar, satqın, qorxaq, səriştəsiz Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti illərində ölkəmiz böyük bəlalara düçar olmuşdur. Azərbaycanda vətəndaş müharibəsi başlamışdır. Yalnız 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə Prezident Heydər Əliyevin hakimiyyətə gəlməsi ölkəmizi daha böyük faciələrdən xilas etdi. Azərbaycan demokratik, dayanıqlı inkişaf yoluna qədəm qoydu, ölkədə sabitlik və əmin-amanlıq bərqərar oldu.

Azərbaycan demokratiya, insan hüquqları və azadlıqları kimi dəyərlərə sadiqdir. Bunun dərin tarixi kökləri vardır. Biz fəxr edirik ki, bir əsr bundan əvvəl Şərqdə müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika qurulmuş, qadınlara səsvermə hüququ verilmişdir. Bu sahədə biz hətta əksər Qərb ölkələrini də qabaqlamışıq. Demokratik inkişaf Azərbaycanın şüurlu seçimidir. Azərbaycanda bütün fundamental insan hüquq və azadlıqları, qanunun aliliyi, mətbuat azadlığı təmin olunur.

Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf etmiş, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Azərbaycana 270 milyard dollardan artıq sərmayə qoyulmuşdur ki, bunun da yarısı xarici sərmayədir. Azərbaycanın xarici borcu ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada 9-cu yerdəyik. Azərbaycanda yoxsulluq 5 faiz səviyyəsindədir. Təkcə bu il minimum əməkhaqqı və sosial müavinətlər iki dəfə, minimum pensiya 70 faiz artmışdır. 280 mindən çox insanı əhatə edən 68 min ailə ünvanlı sosial yardımdan faydalanır və hər bir ailə təxminən 140 ABŞ dolları ekvivalentində aylıq sosial yardım alır. Son 15 il ərzində Azərbaycanda 3200-dən çox məktəb və 640-dan çox xəstəxana və tibb müəssisəsi tikilmiş və ya təmir edilmişdir. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Üç yüz mindən çox məcburi köçkün pulsuz evlər və mənzillərlə təmin edilmişdir. Məcburi köçkün ailələrinə orta hesabla 180 ABŞ dolları ekvivalentində aylıq müavinət verilir.

Azərbaycanın əldə etdiyi nailiyyətlər beynəlxalq aləmdə təqdir olunur. Dünya Bankının 2020-ci il üzrə "Doing Business" hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer alıb. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında hökumətin uzunmüddətli strategiyasına görə Azərbaycan dünya miqyasında 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsində isə 5-ci yerdədir.

Azərbaycan kosmik ölkədir. Hazırda ikisi telekommunikasiya, biri isə Yer səthini müşahidə edən üç peykimiz var. Əhalimizin 80 faizi internet istifadəçisidir.

Azərbaycanda enerji təhlükəsizliyi təmin edilmişdir. Yenə də Davos Ümumdünya İqtisadi Forumunun hesabatına istinad edərək deməliyəm ki, elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Azərbaycan, eyni zamanda, bir sıra ölkələrin enerji təchizatçısıdır. Asiya və Avropa qitələri arasında körpü rolu oynayan Azərbaycan açıq dənizə çıxışı olmayan ölkə kimi bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin fəal iştirakçısı olaraq hazırda digər mühüm layihələr - Cənub-Qərb və Şimal-Qərb layihələri üzərində çalışırıq. Beləliklə, Azərbaycan etibarlı tranzit ölkəsi kimi çoxtərəfli beynəlxalq əməkdaşlığa öz dəyərli töhfəsini verir.

İqlim dəyişikliyi qlobal təhlükədir. Azərbaycan onun fəsadlarına qarşı mübarizə üzrə beynəlxalq səyləri dəstəkləyir. Azərbaycan Paris Sazişini ratifikasiya etmiş, baza ili – 1990-cı illə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürmüşdür. Elektrik enerjisinin istehsalı üçün Azərbaycanda ancaq ekoloji təmiz qaz və su elektrik stansiyalarından istifadə olunur.

Azərbaycan zəngin tolerantlıq, multikulturalizm ənənələrinə malikdir. Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. On bir il əvvəl İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin iştirakı ilə başladığımız "Bakı Prosesi" təşəbbüsü BMT tərəfindən də dəstəklənir. BMT-nin Baş katibi Antonio Quterreş "Bakı Prosesi"ni 2008-ci ildən bəri mədəniyyətlər arasında dialoqun təbliğinin ön cəbhəsi kimi dəyərləndirmişdir. "Bakı Prosesi"nin məntiqi davamı olaraq təsis edilmiş və iki ildən bir ölkəmizdə keçirilən mədəniyyətlərarası dialoq üzrə Ümumdünya Forumu artıq BMT Baş Assambleyasının qətnamələri ilə

mədəniyyətlərarası dialoqun təşviq olunması üçün əsas qlobal platforma kimi tanınmışdır.

Hörmətli qonaqlar, əminəm ki, Zirvə Görüşü çərçivəsində aparılacaq müzakirələr Qoşulmama Hərəkatının gündəliyində duran hədəflərin həyata keçirilməsinə xidmət göstərəcəkdir. Azərbaycan Hərəkata sədrlik edəcəyi müddətdə öz prioritetlərini üzv dövlətlərlə birgə həyata keçirmək üçün ardıcıl səylər göstərəcəkdir.

Mən Zirvə Görüşünün işinə uğurlar arzulayır və bir daha hamınıza “Xoş gəlmisiniz!” deyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

## *Dünya dini liderlərinin II Sammitinin açılış mərasimində İlham Əliyevin nitqi*

Hörmətli Şeyxülislam Allahşükür Paşazadə həzrətləri.

Zati-müqəddəsləri Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill.

Hörmətli din xadimləri, qonaqlar, xanımlar və cənablar.

Mən bütün qonaqları səmimiyyətlə salamlayıram. Dünya dini liderlərinin ikinci Zirvə görüşündə iştirak edən bütün qonaqlara “Xoş gəlmisiniz!” deyirəm.

Bu beynəlxalq tədbirin çox böyük əhəmiyyəti var. Biz fəxr edirik ki, Azərbaycan bu mötəbər tədbirə ikinci dəfə ev sahibliyi edir. Bu, bir daha onu göstərir ki, Azərbaycan dinlərarası dialoqun inkişafında öz önəmli rolunu oynayır və bundan sonra da oynayacaqdır.

Bakıda belə mötəbər tədbirin keçirilməsi, hesab edirəm ki, təbiidir. Çünki Azərbaycanın qədim dinlərarası ənənələri vardır. Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlərboyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır. Bizim qədim tariximizi əks etdirən o cümlədən bizim dini abidələrimizdir. Bizim dini abidələrimiz, ilk növbədə, onu göstərir ki, Azərbaycan qədim diyardır. Digər tərəfdən onu göstərir ki, müxtəlif dövrlərdə müxtəlif dinlərin nümayəndələri Azərbaycanda yaşamış, yaratmış və gözəl tarixi miras qoymuşlar. Qeyd etməliyəm və biz fəxr edirik ki, İslam aləminin ən qədim məscidlərindən biri Azərbaycanda yerləşir. Şamaxı Cümə məscidi 743-cü ildə inşa edilmişdir, bir neçə il bundan əvvəl əsaslı təmir olunmuşdur. Bu məscid Dərbənd məscidindən sonra Qafqazın ən qədim məscididir.

Eyni zamanda, qədim dövlət olan Qafqaz Albaniyasının kilsəsi Azərbaycanın digər tarixi şəhəri - Şəkinin yaxınlığında yerləşir və bu kilsənin qədim tarixi var. Bu, Qafqazın ən qədim kilsələrindən biridir. Bakıda atəşpərəstlik məbədi – Atəşgah yerləşir. Bu da onu göstərir ki, zərdüştlük dininin Azərbaycanda qədim kökləri vardır. Sonrakı dövrlərdə rus pravoslav kilsələri, sinaqoqlar, katolik kilsəsi inşa edilmişdir. Onu da bildirməliyəm ki, Azərbaycan dövləti tarixi-dini abidələrimizin qorunması və yeni dini məbədlərin inşası istiqamətində səylərini əsirgəmir. Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilmiş və ya yenidən tikilmişdir. Beləliklə, dinlərarası dialoqun Azərbaycanda qədim tarixi vardır və müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir. Biz İslam dininə sadiqik. Öz dinimizi təbliğ edirik, eyni zamanda, Azərbaycanda bütün dinlərin nümayəndələri sərbəst yaşayır, fəaliyyət göstərir, öz dini ayinlərini icra edirlər. Beləliklə, ölkəmizdə çox gözəl ictimai ab-hava vardır.

Beynəlxalq təşkilatlar, eyni zamanda, dünya dini liderləri Azərbaycanın bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirirlər. Azərbaycana bir neçə dəfə səfər etmiş Zati-müqəddəsləri Moskva və Bütün Rusiyanın Patriarxı Kirill, Azərbaycana səfər etmiş Roma Papası Fransisk, İslam Əməkdaşlıq Təşkilatına rəhbərlik etmiş şəxslər Azərbaycanda dinlərarası dialoqun yüksək səviyyədə təşkil edilməsi haqqında dəfələrlə öz sözlərini demişlər. Bu sözlər, bu yüksək qiymət bizim üçün çox dəyərlidir və bu, reallığı əks etdirir.

Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur. Ənənəvi dəyərlər bizim üçün ən böyük sərvətdir. Biz çox şadıq ki, Azərbaycanda yetişən gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda və eyni zamanda, ənənəvi dəyərlər ruhunda tərbiyə alır. Hesab edirəm ki, Bakıda keçirilən Zirvə görüşünün mövzularından biri də məhz bu, olacaq. Çünki biz görürük ki, dünyada, dünyanın müxtəlif yerlərində ənənəvi dəyərlərə qarşı kampaniya aparılır, onlar gözdən salınır, bizim üçün yad olan, bizim milli təfəkkürümüzə uyğun olmayan yeni “dəyərlər” aşılanır. Biz özümüzü və xüsusilə gənc nəslimizi bu yad və bəd təsirdən qorumalıyıq. Ona görə hesab edirəm ki, ənənəvi dəyərlərin, ailə dəyərlərinin təbliğ edilməsi hamımızın işi olmalıdır. Yenə də deyirəm, Azərbaycanda bu istiqamətdə aparılan siyasət - həm dövlət, həm dini liderlər tərəfindən aparılan siyasət, hesab edirəm ki, çox böyük qiymətə layiqdir.

Azərbaycan multikulturalizm dəyərlərini təbliğ edən ölkələrdən biridir. Multikulturalizm Azərbaycanda

həm həyat tərzidir, həm də dövlət siyasətidir. Təsadüfi deyil ki, Azərbaycanda bu istiqamətdə bir çox önəmli addımlar atılmışdır və bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Tədbirlərin bəziləri ənənəvi xarakter daşıyır. Məsələn, Bakı Humanitar Forumu ənənəvi olaraq keçirilir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT tərəfindən dəstəklənir. BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya dini liderlərinin Zirvə görüşləri, yəni, bütün bu tədbirlərin bir məqsədi var - dinlərarası dialoqu möhkəmləndirmək, dini ayrı-seçkiliyə qarşı birgə mübarizə aparmaq, multikultural dəyərləri təbliğ etmək və beləliklə, dünyada gedən müsbət proseslərə öz töhfəmizi verməkdir. Çünki biz yaxşı görürük və mətbuatdan da izləyirik ki, dini zəmində, etnik zəmində, məzhəb zəminində bir çox xoşagəlməz hallar - münaqişələr, qarşıdurmalar, müharibələr, qardaş qanının axıdılması baş verir. Əfsuslar olsun ki, bəzi hallarda psevdodini şüarlar altında cinayətlər törədilir. Biz bu istiqamətdə öz səylərimizi birləşdirməliyik.

Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir. Dövlət-din münasibətlərinin əsasını ulu öndər Heydər Əliyev qoymuşdur. Heydər Əliyev Azərbaycan xalqının böyük oğludur və bütün dövrlərdə - həm sovet dövründə, həm müstəqillik dövründə xalqa ləyaqətlə xidmət etmişdir. Dövlət-din münasibətlərinin təməlini məhz Heydər Əliyev qoymuşdur, necə ki, müasir Azərbaycanın bütün başqa istiqamətlər üzrə inkişaf konsepsiyası onun adı ilə bağlıdır. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyinə nail olmuşdur. Ancaq ilk iki ildə müstəqillik formal xarakter daşıyırdı. Demək olar ki, ölkə idarəolunmaz vəziyyətdə idi. Xüsusilə 1992-ci ildə Azərbaycan Xalq Cəbhəsi tərəfindən həyata keçirilmiş hərbi çevriliş nəticəsində vəziyyət daha da ağırlaşdı, Azərbaycan dərin böhrana düçar oldu, ölkəni xaos, anarxiya, özbaşınalıq bürüdü. Eyni zamanda, dinlərarası, millətlərarası münasibətlərə böyük ziyan vuruldu. Azərbaycan Xalq Cəbhəsinin hakimiyyəti tariximizin qara ləkəsidir. Bu, rüsvayçılıq dövrüdür və təsadüfi deyil ki, Azərbaycan xalqı bu antimilli, satqın və qorxaq hakimiyyətə cəmi bir il dözə bildi, bir ildən sonra öz liderinə üz tutub Heydər Əliyevi hakimiyyətə dəvət etdi və ona ölkənin gələcəyini etibar etdi.

Heydər Əliyev hakimiyyətə gələndən sonra, ilk növbədə, qanunsuz silahlı birləşmələrin tərk-silah edilməsi istiqamətində önəmli addımlar atdı, erməni işğalının qarşısını aldı və Azərbaycan işğal altında olmuş bəzi torpaqları geri qaytara bildi. Ölkədə sabitlik bərqərar oldu, inkişaf yoluna qədəm qoyuldu. Biz beynəlxalq təcriddən çıxa bildik, iqtisadi və siyasi islahatlar aparılmağa başlandı. O cümlədən dövlət-din münasibətlərinin formalaşması Heydər Əliyevin adı ilə bağlıdır. Eyni zamanda, şeyx həzrətləri bu istiqamətdə çox böyük fədakarlıq və fəaliyyət göstərmişdir. Mən bu işlərin şahidi kimi deyə bilərəm ki, Heydər Əliyevin və şeyx həzrətlərinin dostluğu dövlət-din münasibətlərinin formalaşmasında həlledici rol oynamışdır. Şeyx həzrətləri bu gün də dövlət-din münasibətlərinin sağlam zəmində davam etdirilməsi istiqamətində böyük işlər görür, Azərbaycanı dünyada təbliğ edir. Onun rəhbərliyi ilə aparılan işlər həm Azərbaycan xalqı tərəfindən, həm də dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Hər il bir neçə ölkədə şeyx həzrətlərinin təşəbbüsü və rəhbərliyi ilə mötəbər beynəlxalq tədbirlər keçirilir. Həm Azərbaycanda, həm Qafqazda, həm də dünyada böyük nüfuz qazanmış şeyx həzrətləri din-dövlət münasibətlərinin necə tənzimlənməsi istiqamətində atılan addımları ölçüb-biçir və bu addımlar ölkəmizin ümumi inkişafını dəstəkləyir. Çünki hər bir ölkənin sabitliyi hər bir ölkənin gələcəyi deməkdir. Sabitlik pozulan yerlərdə inkişafa da yer qalmır. Əfsuslar olsun ki, son illər ərzində dini zəmində müxtəlif ölkələrdə iğtişaşlar, müharibələr, münaqişələr baş alıb gedir. Əfsuslar olsun ki, bir çox hallarda dini şüarlar altında böyük cinayətlər törədilir.

Şeyx həzrətləri Azərbaycanın ümumi inkişafına çox böyük töhfə vermiş böyük şəxslərdən biridir. Bu ilin avqust ayında mənim Sərəncamımla Azərbaycanın ən ali ordeni olan “Heydər Əliyev” ordeni şeyx həzrətlərinə verilmişdir və bu gün təntənəli şəkildə bu yüksək mükafat şeyx həzrətlərinə təqdim ediləcəkdir.

Dinlərarası münasibətlərə gəldikdə, hesab edirəm ki, bu münasibətlərin spektri kifayət qədər genişdir. Biz Azərbaycanda ümumi konsepsiyaya baxdıqda görürük ki, bir neçə istiqamət var, bu, sadəcə olaraq, dini liderlərin bir-biri ilə əlaqədə olması demək deyil. Bu, müxtəlif tədbirlərin keçirilməsidir və önəmli mesajların verilməsidir. Mən bu tədbirlərin arasında Azərbaycanda bir neçə il bundan əvvəl keçirilmiş I Avropa və IV İslam Həmrəyliyi oyunlarını da qeyd etmək istəyirəm. Baxmayaraq ki, bu, idman yarışlarıdır, ancaq bu yarışların çox böyük siyasi mənası vardır. Çünki təsəvvür edin, cəmi iki il ərzində bir ölkədə, bir şəhərdə İslam ölkələrinin və Avropa ölkələrinin idmançıları yarışır və eyni zamanda, dostluq əlaqələri yaradırlar. Çünki bu oyunlar, sadəcə olaraq, idman yarışı deyil. Bu oyunlar Azərbaycanda bir dostluq festivalına, dostluq bayramına çevrilmişdir. Hər iki idman yarışında 100-dən çox ölkə təmsil olunurdu, minlərlə idmançı, məşqçi, qonaq iştirak edirdi və əlbəttə ki, bu oyunların dinlərarası, mədəniyyətlərarası dialoqun təşviqində böyük rolu vardır.

Keçən il biz “Bakı Prosesi”nin 10 illiyini qeyd etmişik. “Bakı Prosesi” bizim təşəbbüsümüzlə başlanmış prosesdir və bu gün bu, geniş beynəlxalq dəstəyə

malikdir. O cümlədən BMT "Bakı Prosesi"ni dinlərarası, mədəniyyətlərarası dialoqun önəmli platforması kimi qəbul edir. 2008-ci ildə Bakıda Avropa Şurasının Mədəniyyət nazirlərinin toplantısı keçirilmişdir və biz qərara gəldik ki, bu toplantıya İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin Mədəniyyət nazirlərini dəvət edək və beləliklə, birinci təmas yarandı. Ondan sonra 2009-cu ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Mədəniyyət nazirlərinin toplantısına biz Avropadan nazirləri dəvət etdik. Azərbaycan nadir ölkələrdəndir ki, həm İslam Əməkdaşlıq Təşkilatına, həm də Avropa Şurasına üzvdür və biz bu imkandan istifadə edib "Bakı Prosesi"nə start verdik. Bayaq qeyd etdiyim kimi, bu gün beynəlxalq aləmdə "Bakı Prosesi" çox yüksək qiymətləndirilir və bu, doğrudan da nadir əməkdaşlıq formatıdır.

Dinlərarası dialoqdan danışarkən, əlbəttə ki, biz təkcə müsbət məqamların qeyd edilməsi ilə kifayətlənməməliyik. Eyni zamanda, münaqişələri din amilinə bağlamaq cəhdlərini də çox ciddi şəkildə pisləməliyik. Bu nümunələrdən biri uzun illər davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Bildirməliyəm ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı əsrlərboyu bu torpaqda yaşayıb yaratmışdır və qədim xəritələrdə, eyni zamanda, Çar Rusiyasının XX əsrin əvvəllərində çap edilmiş xəritələrində Dağlıq Qarabağa aid olan ərazidə bütün toponimlər Azərbaycan mənşəlidir. Qarabağ xanlığı Azərbaycan xanlığı olmuşdur. Sadəcə olaraq, XIX əsrin əvvəllərində ermənilər Dağlıq Qarabağa köçürülmüşlər və XX əsrdə orada milli tərkib böyük dərəcədə deformasiyaya uğramışdır. Onu da bildirməliyəm ki, bolşevik inqilabından sonra respublikalar arasında cızılan xəritələrə gəldikdə, o vaxt bolşevik hökuməti tərəfindən qərar qəbul edilmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Bu, çox önəmli məqamdır, çünki tarixi təhrif etməkdə usta dərəcəsinə çatmış erməni tarixçiləri qeyd edirlər ki, Dağlıq Qarabağın Azərbaycana verilməsi haqqında qərar qəbul edilmişdir. Halbuki bu, belə deyil və tarixi sənədlər bunu göstərir, Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlamaq haqqında qərar qəbul edilmişdir. Yəni, bu, eyni zamanda, tarixi və siyasi məqamları əks etdirir.

Ancaq Sovet İttifaqının dağılması ərəfəsində Dağlıq Qarabağda və Ermənistanda baş qaldırmış millətçi qüvvələr Azərbaycana qarşı təcavüzə başlamışdır və hərbi təcavüz nəticəsində torpaqlarımızın təxminən 20 faizi, o cümlədən Dağlıq Qarabağ və ətrafda olan 7 rayon işğal altına düşmüşdür. Bu ərazilərdə Azərbaycan xalqına qarşı soyqırımı törədilmişdir, bizim bütün tarixi abidələrimiz, qəbirlərimiz, o cümlədən məscidlərimiz ermənilər tərəfindən dağıdılmışdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib və bu qətnamələrdə erməni silahlı qüvvələrinin bizim torpaqlarımızdan çıxarılması haqqında açıq-aydın müddəalar var, Ermənistan bu qətnamələrə məhəl qoymur. Digər beynəlxalq təşkilatlar – Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası və başqa təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Münaqişənin həlli üçün yeganə yol Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır.

Bu böyük humanitar fəlakət nəticəsində Dağlıq Qarabağdan, Ermənistandan və Qarabağı əhatə edən rayonlardan bir milyon azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşmüşdür. O vaxt Azərbaycanın əhalisi 8 milyon idi. Yəni, təsəvvür edin nə qədər böyük humanitar fəlakət idi. Buna baxmayaraq, Azərbaycan uğurla inkişaf edir, ölkəmiz beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır. Keçən ay Bakıda Qoşulmama Hərəkatının Zirvə Görüşünün Yekun Bəyannaməsi də ədaləti əks etdirir və bildirməliyəm ki, Azərbaycan bu böyük təşkilata sədrliyi öz üzərinə götürmüşdür. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə bundan sonra üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcək.

Bizim iqtisadi göstəricilərimiz çox müsbətdir. 2003-cü ildən bu günə qədər ölkə iqtisadiyyatı 3,2 dəfə artmışdır, savadlılıq 100 faizə yaxındır, yoxsulluq son 16 il ərzində təxminən 50 faizdən 5 faizə düşmüşdür. Azərbaycan texnoloji inkişafa böyük önəm verir və bu gün dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür, üç peykimiz var. Önəmli nəqliyyat layihələri icra edilir. Bu layihələr, sadəcə olaraq, nəqliyyat layihələri deyil, bu, əməkdaşlıq layihələridir. Çünki nəqliyyat elə bir sahədir ki, qonşu ölkələr və digər bölgə ölkələri bir-birindən asılı olurlar. Azərbaycan açıq dənizlərə çıxışı olmayan bir ölkə kimi artıq beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilmişdir - Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycanın ərazisindən keçir.

Bütün bu nailiyyətlər deməyə əsas verir ki, inkişafımız bundan sonra da uğurlu olacaq, gələcəyimiz parlaq olacaq və uğurlu gələcəyimizin əsas şərti daxili sabitlikdir. Sabitliyin də təminatçısı Azərbaycan xalqıdır, onun rəyidir, onun bizə verdiyi dəstəkdir. Xalq-iqtidar birliyi Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir və eyni zamanda, dinlərarası münasibətlər də bizim gücümüzü artırır.

Mən əminəm ki, bu Zirvə görüşünün çox böyük əhəmiyyəti olacaq və Bakıdan səslənən mesajlar lazımi ünvana çatacaq. Hesab edirəm ki, əsas istiqamətlərdən biri dini ayrı-seçkiliyə yol verməmək, ksenofobiya, islamofobiya, antisemitizmə qarşı birgə mübarizə aparmaq, dindən siyasi məqsədlər üçün istifadə etməmək, münaqişələrə dini don geyindirməmək, münaqişə zamanı tarixi-dini abidələri dağıtmamaq və ənənəvi

dəyərləri təbliğ etməkdir. Hesab edirəm ki, dediyim bu məsələlər Azərbaycanın bu istiqamətdəki siyasətini əks etdirir. Əminəm ki, Zirvə görüşünün nəticələri bu istiqamətdə atılmış növbəti addım olacaqdır.

Mən bir daha qonaqları səmimiyyətlə salamlayıram və Zirvə görüşünə uğurlar arzulayıram. Sağ olun.

## *Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə İlham Əliyevin nitqi*

Hörmətli xanımlar və cənablar.

Hörmətli müəllimlər, tələbələr.

Mən sizi və bütün Azərbaycan xalqını Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm. Universitetin bütün kollektivinə yeni uğurlar arzulayıram.

Bakı Dövlət Universiteti Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə təsis edilmişdir. Bu qərar bir daha onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərmişdir. Xalq Cümhuriyyətinin qurucuları yaxşı anlayırdılar ki, savadsız cəmiyyətdə güclü müstəqil dövlət qurmaq mümkün deyil. Baxmayaraq ki, gənc respublika böyük çətinliklərlə üzləşmişdi və ölkə ərazisinə tam nəzarət edə bilmirdi, bu qərar bir daha respublikanın niyyətini, qurucuların siyasətini əks etdirir. Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr vermişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. Bu, bir daha onu göstərir ki, müstəqilliyi əldə etmək onu qoruyub saxlamaqdan daha asandır. Müstəqilliyi qorumaq, onu müdafiə etmək, onu gücləndirmək böyük siyasi biliklər, böyük cəsarət tələb edir.

Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən sonra Bakı Dövlət Universiteti yeni ictimai-siyasi dövrdə fəaliyyətini davam etdirirdi. Yüz il ərzində universitetin 200 minə yaxın məzunu Azərbaycanın müxtəlif sahələrində öz bilik və bacarıqlarını nümayiş etdirmişdir. Məzunlar arasından görkəmli şəxslər, alimlər, ictimai xadimlər, siyasətçilər, mütəxəssislər çıxmışdır. Onların bir çoxu Azərbaycanın hərtərəfli inkişafına öz dəyərli töhfəsini vermişdir.

Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyev də Bakı Dövlət Universitetinin məzunu idi. Heydər Əliyev həm sovet dövründə, həm müstəqilliyin ərəfəsində, həm də müstəqillik dövründə xalq qarşısında, dövlət qarşısında misilsiz xidmətlər göstərmişdir. Məhz onun rəhbərliyi ilə sovet dövründə Azərbaycan müttəfiq respublikalar arasında ən geridə qalmış yerdən ən qabaqcıl yerlərə qədər yüksəldi. O vaxt, - gənclər təbii ki, bunu bilmirlər, - respublikaları fərqləndirən bir neçə əlamət var idi. Onların arasında keçici "Qırmızı bayraq" var idi. Yəni, "Qırmızı bayraq" ilə o respublikalar təltif olunurdu ki, orada həm sənayedə, həm kənd təsərrüfatında, həm də bütün digər sahələrdə böyük uğurlar var idi. Bax, Heydər Əliyevin dövründə 13 il ərzində Azərbaycan hər il bu "Qırmızı bayrağı" alırdı. Bu, bir daha onu təsdiq edirdi ki, onun rəhbərliyi ilə Azərbaycan böyük uğurlu yol keçmişdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayanda biz ən sonuncu yerlərdə idik. O, Azərbaycanı böyük inkişafa doğru apararaq ən qabaqcıl yerlərə qədər ucaltdı. Əgər sovet dövründə cəmi iki respublika var idi ki, onlar donor kimi fəaliyyət göstərirdi, onlardan biri Azərbaycan idi.

Heydər Əliyev təhsil sahəsinə çox böyük diqqət göstərirdi, hər il böyük müşavirələr keçirirdi. Eyni zamanda, Azərbaycan gənclərinin Sovet İttifaqının aparıcı ali məktəblərində oxuması üçün böyük səylər göstərmişdi və bu, unikal xarakter daşıyırdı. Çünki sovet məkanında buna oxşar təcrübə yox idi. Hər il təqribən 800-ə yaxın Azərbaycan gənci Bakıda imtahanlar verməklə Sovet İttifaqının Moskva, Leninqrad və digər böyük şəhərlərindəki aparıcı ali məktəblərinə ezam edilmişdir. Beləliklə, Azərbaycanın gələcəyi üçün güclü kadr potensialı yaradılırdı. Məhz bu kadr potensialı, o cümlədən bu gün ölkəmizin, müstəqil dövlətin uğurlu inkişafını təmin edir. Həmçinin o illərdə yüksək təhsil almış kadrlar bu gün Azərbaycanı ləyaqətlə təmsil edirlər.

Heydər Əliyevin qərarı ilə 1970-ci illərin əvvəllərində Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılmışdır. Bu da Ulu Öndərin uzaqgörənliyini göstərir. Çünki o vaxt azərbaycanlılar sovet ordusunda az təmsil olunurdu. Heydər Əliyev çox istəyirdi ki, Azərbaycan hərbçiləri yetişsin. Sanki bilirdi ki, nə vaxtsa Azərbaycan müstəqil dövlət olacaq və bu kadrlar bizə lazım olacaq.

Bir sözlə, təhsilə, bütün başqa sahələrə göstərilən diqqət, onun fədakar əməyi və Azərbaycan xalqının müdrikliyi imkan verdi ki, Heydər Əliyev Azərbaycanın ən ağır günlərində öz xilaskarlıq missiyasını icra etsin. Əgər 1970-ci illərdə onun gördüyü işlər xalq tərəfindən rəğbətlə və böyük məhəbbətlə qarşılanmasaydı, - 1990-cı illərin əvvəllərində Azərbaycan böyük fəlakətlə üz-üzə qalmışdı, - Azərbaycan xalqı ona müraciət etməzdi. Məhz o illər ərzində gördüyü işlər Azərbaycan xalqının qəlbində ona inam hissini saxlayırdı.

Ölkəmizin müstəqilliyə qədərki dövründə də, müstəqillik dövründə də Heydər Əliyev daim xalqın

yanında idi və xalqa xidmət etmək onun başlıca missiyası idi. 20 Yanvar faciəsindən sonra o, səsini ucaltdı, Moskvadakı daimi nümayəndəliyə gəlib, orada mətbuat konfransı keçirib, sovet rəhbərliyini, Kommunist Partiyasının rəhbərliyini ittiham etmişdir, bu qanlı faciəni pisləmişdir və bütün dünyaya bu həqiqəti çatdırmışdır. Çünki onun böyük nüfuzu var idi və onun dilindən səslənən sözlər, həqiqətlər dünyanın bütün yerlərində əks-səda vermişdi. Halbuki o vaxt Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı dağılacaq. O cəsarətli addım Heydər Əliyevin xalqa nə qədər bağlı olduğunu göstərir.

Ondan sonra uzun illər xidmət etdiyi Kommunist Partiyasının sıralarını tərk etdi. O da böyük təhlükə idi. Onu da bildirməliyəm ki, 20 Yanvar faciəsindən sonra Azərbaycan rəhbərliyində təmsil olunanlar susmuşdular, ağızlarına su alıb susmuşdular, biri də bu qanlı faciəni qınamadı, biri də öz səsini ucaltmadı. Bu, bir daha göstərdi ki, ovaxtkı rəhbərlik antimilli rəhbərlik idi. O hakimiyyəti əvəzləyən, qanunsuz yollarla hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü bir ildən çox hakimiyyətdə idi. Bir il ərzində 20 Yanvar faciəsinə siyasi və hüquqi qiymət vermədi. Hakimiyyət onların əlində idi. Nə üçün bunu etmədilər? Nə üçün xalqımızın bu faciəsinə, bu yarasına biganə qalmışdılar? Bu, həqiqətdir. 20 Yanvar faciəsinə, Azərbaycan xalqına qarşı törədilmiş bu cinayətə məhz Heydər Əliyev hakimiyyətə qayıdandan sonra siyasi-hüquqi qiymət vermişdir və bu, tarixdir. Bu, bir daha Ulu Öndərin xalqa nə qədər bağlı olduğunu göstərir.

Müstəqilliyə gedən yol da Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun qərarı ilə Naxçıvan Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi təsis olundu və buna oxşar digər qərarlar qəbul edildi. O vaxt Sovet İttifaqının saxlanmasına dair referendum keçirilmişdir və Azərbaycan üzrə referendum saxtalaşdırılmışdır. Guya ki, Azərbaycan əhalisi Sovet İttifaqının saxlanmasına səs vermişdir. Halbuki bu, belə deyildi. Naxçıvanda referendum keçirilmədi. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözləri çıxarıldı. Bu da müstəqilliyə aparan yol idi. Azərbaycanda siyasi sistemi formalaşdıran Yeni Azərbaycan Partiyası təsis edildi. Çünki partiya yaranana qədər Azərbaycanda siyasi sistem, partiyalar yox idi. Ayrı–ayrı silahlı dəstələr öz adlarını partiya qoymuşdular və bir-biri ilə mübarizə aparırdılar, torpaqlar isə işğal altına düşürdü. Əgər Heydər Əliyev müstəqilliyin ilk illərindən Azərbaycanda rəhbər olsaydı, heç vaxt torpağımız işğal altına düşməzdi. Azərbaycanın Heydər Əliyevə qədərki bütün rəhbərləri fərarilik etmiş, xalqı və ölkəni ağır vəziyyətdə tərk etmiş, qaçmışlar, ikisi Moskvaya, biri Kələkiyə. Bu, fərarilikdir, bu, satqınlıqdır, bu, xəyanətdir. Liderin vəzifəsidir dövləti qorumaq, liderin vəzifəsidir xalqla bir yerdə olmaq. Ən ağır, ən çətin anlarda lider qabaqda olmalıdır, Heydər Əliyev kimi. O, hər birimiz üçün nümunədir. Burada əyləşən gənclər də bu tarixi bilməlidirlər. Mən dəfələrlə bunu demişəm. Biz - bu tarixi yaşayan insanlar, əlbəttə ki, heç vaxt bunu unutmayacağıq. Bugünkü uğurlu inkişafımızı hər zaman qiymətləndirəcəyik. Gənclər bunu görməyiblər. Onlara elə gəlir ki, həmişə belə olub. Onlara elə gəlir ki, Azərbaycan həmişə belə çiçəklənən, firavan dövlət olub. Belə deyildi. Biz o günləri yaxşı xatırlayırıq. Xalq Cəbhəsi-Müsavat cütlüyünün xəyanətkar hakimiyyəti dövründə on minlərlə insan saatlarla çörək növbəsində dayanırdı. Əli silahlı quldurlar meydan oxuyurdular, şəhərlərimizdə insanları incidirdilər, oğurlayırdılar, işgəncələr verirdilər, jurnalistləri döyürdülər. Məhz Xalq Cəbhəsi-Müsavat hakimiyyəti - özünü demokrat adlandıran bu ünsürlər Azərbaycanda senzura tətbiq etmişdilər. Heydər Əliyev hakimiyyətə gələndən sonra senzuranı ləğv etdi. Gənclər bu tarixi bilməlidirlər. Müəllimlər bu tarixi onlara çatdırmalıdırlar ki, həm həqiqəti bilsinlər, həm də Azərbaycan gələcəkdə heç vaxt bu ağır vəziyyətə düşməsin. Azərbaycan heç vaxt gözü kölgəli olmasın, heç vaxt başqasının iradəsindən asılı olmasın, heç vaxt başqa dövlətlər qarşısında baş əyməsin. AXC-Müsavat cütlüyü dövründə prezidentin kabinetinin qapısını xarici səfirlər ayaqları ilə açırdılar, ona göstərişlər verirdilər. O da məzlum bir adam kimi o göstərişləri yerinə yetirirdi. Ona görə belə günə düşdü. Məgər bizi bizdən çox sevən, istəyən varmı? Bu gün bəzi hallarda bəzi xarici dairələrdən eşidirik ki, biz Azərbaycana kömək etmək istəyirik, biz Azərbaycanı belə inkişaf etmiş ölkə kimi görmək istəyirik. Hamısı yalandır. Mən tam səmimiyyətlə deyirəm. Bizim ən ağır günlərimizdə xəzinə boş idi, Xalq Cəbhəsi-Müsavat cütlüyü talamışdı, ləl-cavahirat fondunu talamışdı. İnsanlar öz axırıncı qızıl əşyalarını aparırdılar ki, ordumuza kömək etsinlər. O vaxt prezident, dövlət katibi, baş nazir o ləl-cavahirat fondunu talan etmişlər. İndi onun izi-tozu da qalmayıb. O vaxt xəzinə boş olanda, biz kreditlər üçün müraciət edəndə heç kim bizə kredit vermirdi. Yaxşı, əgər siz Azərbaycanı bu qədər sevirsinizsə, nə üçün o vaxt bizə kömək etməmisiniz?! Nə üçün ağır vəziyyətdə olan ölkəyə kömək etməmisiniz?! İndi sıra ilə düzülüblər bizə kredit vermək istəyənlər. Biz almırıq. Biz özümüz kredit veririk. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada doqquzuncu yerdəyik. İndi istənilən məbləğdə - bax, sabah 10 milyard dollar lazım olsa, alarıq. Almırıq, qoymuram. Borcu yenə də endirirəm. Ona görə

kimsə deyəndə ki, biz Azərbaycanın yaxşılığını istəyirik, inanmayın, gənclər də inanmasınlar. Bizdən çox bizi istəyən heç vaxt olmayıb və olmayacaq.

Xalqımızın tarixi faciələrlə doludur. Biz nəyə görə uzun illər, əsrlərboyu müstəmləkə kimi yaşamışıq? Nəyə görə başqa dövlətlərin tərkibində yaşamışıq? Nəyə görə bizim dövlətçiliyimizin tarixi çox məhduddur? O vaxt hətta müstəqil dövlətlər olanda onların da imkanları məhdud idi. Elə götürək Azərbaycan Xalq Cümhuriyyətini, ölkəni idarə edə bilmirdi. Xarici hərbi missiyaların rəhbərləri qərarlar qəbul edirdilər. Hətta bizim o vaxt qəbul edilmiş birinci dövlət bayrağımız xarici hərbi missioner tərəfindən dəyişdirildi. Ultimatum qoyuldu, tarixçilər bunu yaxşı bilirlər. Müstəqil dövlətin rəhbərliyinə ultimatum qoyuldu ki, siz bu bayrağı dəyişdirməlisiniz və dəyişdirdilər. Ondan sonra indiki üçrəngli bayraq təsis edildi. Ona görə hətta o dövrlərdə müstəqillik yarımçıq idi, natamam idi.

Bu gün əsl müstəqillik dövrüdür. Çünki bu gün biz özümüz öz gələcəyimizi müəyyən edirik. Bu gün biz özümüz qərarları qəbul edirik. Bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür. Bu gün Azərbaycan dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir. Heç kimdən asılı deyilik və elə etməliyik ki, heç vaxt heç kimdən asılı olmayaq. Buna görə güclü olmalıyıq, vətənpərvər olmalıyıq, iqtisadiyyatımız daha da güclü olmalıdır və siyasi iradəmiz yerində olmalıdır. Bugünkü hakimiyyətdə bütün bunlar var və hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz. Nə qədər çalışsalar, nə qədər əlləşsələr, nə qədər yalan-böhtan yaysalar yapışmır bizə. Çünki xalq bizi dəstəkləyir və sonuncu rəy sorğuları onu göstərir. Əhalinin mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir. Əhalinin mütləq əksəriyyəti bizə alternativ görmür və kim ola bilər bu alternativ? Hətta havadarları artıq onlardan üz döndərmişlər. Biz bunu dəqiq bilirik. Mən indi bu auditoriyada bəzi operativ məlumatları da bölüşə bilərəm sizinlə, Azərbaycan xalqı ilə. İndi anti-Azərbaycan dairələr, xaricdəki dairələr artıq açıq deyirlər ki, bizdə ənənəvi müxalifət yoxdur, ayrı-ayrı satqın dəstələr var ki, onların da kitabı bağlanıb, onlara ümid bəsləmək olmaz. Ona görə onlara pul təminatı da azalıbdır, ona görə çabalayırlar. Əsas hədəf gənclər olmalıdır. Onlar gəncləri əsas hədəf seçiblər və gəncləri yoldan çıxarmaq istəyirlər, onların beyinlərini zəhərləmək istəyirlər, onları xalqa qarşı, Vətənə qarşı, ənənəvi dəyərlərə qarşı qaldırmaq istəyirlər. Alınmır və alınmayacaq. Çünki Azərbaycan gəncləri vətənpərvərdir, Vətəni sevəndirlər, Vətənə bağlıdırlar. Ancaq o niyyət var və biz bunu bilməliyik, müəllimlər də bilməlidirlər. Müəllimlər tələbələrə nəinki biliklər verməlidirlər, onları tərbiyə də etməlidirlər. Ümumiyyətlə Azərbaycanda tərbiyə işi yeni müstəviyə qalxmalıdır, biz ideoloji işə yenidən baxmalıyıq, burada zəifliklər, boşluqlar var. Bizi istəməyən qüvvələr, o cümlədən erməni lobbi qurumları tərəfindən maliyyələşən qurumlar bu boşluqlardan istifadə edirlər, xüsusilə bu gün ki, azad internet mövcuddur. Azərbaycanda internet istifadəçilərinin faiz nisbəti 80-ni keçib. Azərbaycanda azad, demokratik cəmiyyət formalaşıb, azad media var. Ona görə istənilən yalanı ortalığa atmaq olar. Ondan sonra bu yalan ətrafında müzakirələr təşkil olunur, bu yalan artıq bir real fakt kimi təqdim edilir və gənclərin beyinlərini zəhərləmək istəyirlər. Biz buna imkan verə bilmərik. Gənclər özləri də bilməlidirlər, tarixi yaxşı bilməlidirlər. Əgər tarixi yaxşı bilsələr, görərlər ki, tariximizdə heç vaxt heç bir kənar qüvvə, heç bir yad dairə bizim xoşbəxtliyimizi istəməyib, əksinə, bizi əzmək istəyib, özünə ram etmək istəyib, sərvətlərimizi talamaq istəyib, bizi alçaltmaq istəyib. Əgər belə olmasaydı, bizim çoxəsrlik tariximizin böyük hissəsi müstəmləkəçilik tarixi olmazdı. Bir daha demək istəyirəm ki, bizim müstəqillik dövrlərimiz Azərbaycan xalqının tarixində çox məhduddur. Məhz ona görə ki, aldanmışıq, əzilmişik. Buna imkan vermək olmaz və verməyəcəyik, biz möhkəm dayanmışıq. Heç kim bizim işimizə müdaxilə edə bilməz, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Qoy, ləkələsinlər, qoy, yalan-uydurma yaysınlar, bizə yapışmır. Əsas odur ki, biz öz həyatımızı ləyaqətlə yaşayaq. Ləyaqətli insanlar kimi, Vətənə bağlı olan insanlar kimi, mərd insanlar kimi yaşayaq, quraq, yaradaq, bütün yad qüvvələrə cavabımızı verək və öz inkişaf yolumuzu davam etdirək.

Bu gün Azərbaycan bax, belə inkişaf edir. Ona görə dünyada bizə rəğbət artır. Təsadüfi deyil ki, dünya birliyinin mütləq əksəriyyətini təşkil edən ölkələr bizə səs verirlər. Necə ki, 8 il bundan əvvəl səs veriblər, biz 155 ölkənin səsi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Özü də necə seçilmişik. İndi diplomatlar bunu yaxşı bilirlər ki, adətən səsvermə bir gün ərzində keçirilir və tez bir zamanda yeni üzvlər seçilir. Bizdə isə bu, üç gün çəkdi. Üç gün, 16 tur. Nəyə görə? Çünki bizə rəqib olan ölkə öz namizədliyini geri götürmürdü. Biz hər bir turda böyük səs fərqi ilə qalib idik, amma lazım olan səsləri yığa bilmirdik. Adətən belə olan halda, səslərdə fərq böyük olanda məğlub ölkə öz namizədliyini geri götürür. O isə götürmürdü. Özü də bizə dost ölkə idi. Təəccüb etdim, bu, nə məsələdir, sonra öyrəndik ki, imkan vermirlər. Bəzi böyük dövlətlər imkan vermir və istəyirdilər ki, bizim üzvlüyümüzün qarşısı alınsın. Bir daha qayıdıram bu məsələyə. Əgər həmin o ölkələrin nümayəndələri sizə desələr ki, "biz Azərbaycanı istəyirik, inkişafını istəyirik", inanmayın. İstəsəydilər, imkan verərdilər.

Mən indi onların adını çəkmək istəmirəm, maraqlananlar öyrənə bilərlər. On altı tur və üç gün bizim üzvlüyümüzü əngəlləmək istəyirdilər. Sonra nə oldu? Gəldilər bizim nümayəndələrə yaxınlaşıb dedilər ki, Azərbaycan, öz namizədliyinizi geri götürün. Gələn il biz sizə kömək edərik, amma indi geri götürün. Mən bu üç gün ərzində Nyu-Yorkla birbaşa əlaqədə idim. Dedim ki, qətiyyən, axıra qədər, lap bir il çəksə, biz orada bu səsvermədə iştirak edəcəyik. Bir il çəksə, biz Təhlükəsizlik Şurasının işini iflic vəziyyətə sala bilərik. Ancaq ondan sonra həmin o rəqib ölkəyə göstəriş verildi, o, namizədliyini geri götürdü. Bu, nəyin bahasına oldu? Çünki əksər ölkələr bu sistemdən beziblər, yorulublar. Bizə səs verənlər də vaxtilə bizim kimi müstəmləkə olublar, əziliblər, soyulublar, talan ediliblər. Daha artıq onların da səbri tükənib.

Bu yaxınlarda biz 120 ölkənin qərarı ilə Qoşulmama Hərəkatına sədrlik etməyə başladıq. Mən sizə deyim və Bakıda keçirilmiş Zirvə Görüşü onu bir daha göstərdi, bu ölkələr arasında ixtilaflar kifayət qədər çoxşaxəlidir. Elə ölkələr var ki, bir-biri ilə müharibə şəraitindədir. Elə ölkələr var ki, bir-biri ilə diplomatik əlaqələr saxlamırlar. Amma onların hər biri – 119-u bizə səs verdi. Nadir bir vəziyyətdir. Biri də bitərəf qalmadı, yaxud da əleyhinə səs vermədi. Nəyə görə? Bax, dediyim sözlərə görə. Bizə inanırlar, bizi tanıyırlar, bilirlər ki, sözümüzlə əməlimiz birdir. Bilirlər ki, heç kimin qarşısında baş əymirik, lap ən ağır sınaqlarla, ən ağır təxribatlarla üz-üz qalsaq belə. Bu müddət ərzində belə təxribatlar az olmayıb. 2003-cü ili xatırlayaq. Prezident seçkilərindən sonra Azərbaycanda çevriliş cəhdi. Heç kimə sirr deyil ki, mən prezident seçkilərində təmiz qələbə qazanmışdım. Çünki insanlar Heydər Əliyev siyasətinə səs vermişdilər. İğtişaş törədildi. 2005-ci il. Azərbaycan artıq o inqilabların sırasında növbəti yer kimi göstərilirdi. Belə maykalar buraxılmışdı, üzərində yazılmışdı: "Gürcüstan, Ukrayna, Qırğızıstan, Azərbaycan". Yəni, dördüncü biz olmalı idik və bizdən sonra da başqaları olmalı idi. Biz dayandırdıq bu vəbanı, bu xəstəliyi, bu azarı. İndi bütün dünya görür ki, bu inqilablar o ölkələrə ancaq bədbəxtlik gətirib və indi öz problemləri ilə üz-üzədirlər, orada iğtişaşlar səngimir. Çünki oralara bu zəhərli inqilab toxumu səpilmişdi. Necə ki, bu zəhərli alaq otu kimi Xalq Cəbhəsi-Müsavat cütlüyü hakimiyyətdə bir il qaldı. O qədər zəhərlədilər ki, bu günə qədər də o zəhərin təsiri bəzi yerlərdə qalır. Ona görə növbəti məntəqə biz olmalı idik və narıncı maykaları da gətizdirmişdilər, sadəcə olaraq, özünü müxalifət adlandıran ünsürlər bir daha öz kütlüyünü göstərmişlər. Fikirləşmədilər ki, noyabr ayında parlament seçkiləri keçirilməli idi, noyabr ayı soyuq keçir. Ona görə o maykaları bilmirlər necə geyinsinlər, bəziləri pencəyin üstündən maykalar geymişdilər. Yəni, çox gülməli bir mənzərə idi. O da alınmadı. Nəyə görə?! Xalq istəmədi! Xalq dedi ki, yox, bəsdir, görmüşük sizi, necə ki, hakimiyyət uğrunda mübarizə naminə talamısınız, döymüsünüz, söymüsünüz, öldürmüsünüz, Gəncəni bombalamısınız, vətəndaş müharibəsini başlamısınız, Qarabağı satmısınız, Şuşanı satmısınız, Laçını satmısınız. Sonra da fərari kimi qaçmısınız, prezident Kələkiyə, dövlət katibi Kələkiyə, o birilər isə vəzifələrini dondurdular. Belə də hakimiyyət olar? Belə də qorxaq adamlar olar? Heç adi adam hansı ki, özünü lider hesab etmir, özünə rəva bilməz ki, belə, bu cür biabır olsun. Amma bunların belə utanan üzü yoxdur. Bu yaxınlarda yenə də o mənzərəni hamımız görmüşük, biabırçılıqdır, xəstədilər, dəlidirlər, nədirlər, vallah deməyə söz tapmıram. Ona görə bu gün müxalifət düşərgəsində boşluq yaranıbdır və bizi istəməyənlər gənclərdən istifadə etmək istəyirlər ki, onları xalqın üstünə qaldırsınlar. Sağlam müxalifət yaradılmalıdır. Dövlətçiliyə sadiq olan, xalqa bağlı olan, doğrudan da təklif verən, hakimiyyəti tənqid edən, amma konstruktiv təklif verən, yol göstərən. Ancaq biz sevinərik əgər belə müxalifət yaranarsa. Doğrudan da bizim işimizə kömək olar. Biz hər şeyi indi öz üzərimizə götürmüşük, bəlkə də hansısa alternativ yanaşma, yaxud da ki, mövqe kömək edə bilər. Amma yoxdur və yaxın üfüqlərdə də görünmür.

Bizim xarici siyasətlə bağlı uğurlarımız təkcə bu sədrliklə məhdudlaşmır. Halbuki bu, çox önəmli məsələdir. Oktyabr-noyabr aylarında - cəmi iki ay ərzində görün nə qədər böyük hadisələr baş verdi. Prezident Putinin dəvəti ilə mən "Valday" Diskussiya Klubunda iştirak etdim. Oraya cəmi 3 dövlət başçısı dəvət olunmuşdu, o cümlədən Azərbaycan. Bu, bir daha göstərir ki, Rusiya və onun Prezidenti Azərbaycana nə qədər böyük önəm verir və bizə böyük hörmət göstərir. Orada da canlı efirdə sözümü dedim. Mən bunu Bakıda da, hansısa rayonda da deyə bilərdim. Onu kim eşidəcəkdi? Bizimkilər, yəni, biz bunu özümüz üçün demirik, biz deyirik ki, dünya bilsin və orada canlı efirdə mən dedim: "Qarabağ Azərbaycandır, nida işarəsi". Bir daha bütün dünya gördü ki, Qarabağ Azərbaycanındır, bir daha bütün dünya bu həqiqəti gördü.

Ondan sonra MDB Zirvə Görüşündə, - o, "Valday"dan bir neçə gün sonra baş verdi, - mən qeyd etdim ki, biz Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinin ərəfəsindəyik. Biz imkan verə bilmərik ki, MDB məkanında faşistlərə abidələr ucaldılsın. Dedim ki, Ermənistanda faşist Qaregin Njdeyə 6 metrlik abidə ucaldılıb, bu, sökülməlidir, bu, qəbuledilməzdir. Dedim ki, o vaxt o, həbs olunmuşdur və həbsxanada da çürümüşdür. Onu da bildirmək istəyirəm ki, həbs edən təşkilatın adı "СМЕРШ" idi. Bilməyənlər bilsinlər ki,

bu, abreviaturadır, bunun adı "Смерть Шпионам", "СмерШ", yəni, "Casuslara ölüm". Yəni, casus kimi həbs olundu, ona 25 il cəza verildi, faktiki olaraq, ölüm cəzası və o, Vladimir türməsində dünyadan getdi. İndi, görün, Ermənistanın baş nazirinin cavabı nə oldu? Dedi ki, Soljenitsın da lagerdə olub, dissidentlər də türmədə olub. Yəni, bu adam Soljenitsını və söz azadlığına görə həbs edilən və sonra reabilitasiya olunan digər adamları faşist Njde ilə eyniləşdirir. Bu, onu göstərir ki, Ermənistanda hakimiyyət dəyişə bilər, amma bu ölkənin faşist mahiyyəti dəyişmir. Mən onlara şans verdim. Öz çıxışımda dedim ki, onu əvvəlki hakimiyyət ucaldıb. İndiki hakimiyyət özünü demokratik adlandırırsa, söksün, yıxsın bu abidəni. Bu ləkəni yusun Ermənistan üzündən. Heç olmasa, onlar bir ləkədən canlarını qurtarsınlar. Yox, görün, bunların faşist mahiyyəti hara gedib çıxıb ki, bu, türklərə qarşı vuruşub. Yəni, onlar üçün əsas budur. Onlar uşaqları da belə yetişdirirlər, bizə qarşı, Türkiyəyə qarşı, müsəlmanlara qarşı nifrət abhavasında.

Mən müsəlman ölkələrinə dəfələrlə müraciət etmişəm. Açıq müraciət etmişəm ki, siz Ermənistanla necə qucaqlaşırsınız? Siz bunların liderlərini necə dəvət edirsiniz? Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə bir etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər? Gedin, baxın, o şəkillər var, onlar Ağdam məscidini, Şuşa məscidlərini, işğal edilmiş digər torpaqlardakı məscidləri nə günə qoydular? Bu, axı təkcə bizim məscidlərimiz deyil, bütün müsəlman aləminin məscidləridir. Buna necə göz yummaq olar? Necə belə riyakarlıq etmək olar?

Biz dəfələrlə İslam həmrəyliyi ilə bağlı tədbirlər keçirmişik, sözümüzü demişik. Bunu davam etdirəcəyik və o faşist Njdeyə ucaldılan abidə də gündəlikdədir. O cinayətkar dövlətlə münasibətlər quran bəzi müsəlman ölkələri bunu edəndə və faşistlərə qucaq açanda heç olmasa, o dağılmış məscidlərin təsvirlərini göz önünə gətirsinlər və özlərinə sual versinlər ki, mən kiminlə qucaqlaşıram?!

Ona görə bizim bu istiqamətdə siyasətimiz davam etdiriləcək. Amma məsələ bununla bitmir. Ermənistanın baş naziri Aşqabad Zirvə Görüşündə böyük səhv buraxdı, Soljenitsınla faşisti eyniləşdirdi. Amma heç olmasa, ondan sonra bir nəticə çıxaraydı. Çünki həm mətbuatda, özü də Rusiya mətbuatında, başqa mətbuatda bunu lağa qoydular ki, bu, nə deyir, nə danışır, bu, nədir? Ondan sonra, görün, nə deyir? Rusiya jurnalistləri ilə görüşdə deyir ki, nə olsun ki, Njde Hitlerlə görüşüb, Molotov da Hitlerlə görüşüb. Bax, bilirsiniz, buna daha şərh vermək mümkün deyil. Molotov Sovet İttifaqının Xarici İşlər naziri olub, 1939-cu ildə müharibənin mümkünlüyünü aradan qaldırmaq üçün gedibdir, görüşübdür. O, Hitlerə xidmət etmirdi. O, Hitlerə qarşı koalisiyanın başında duran Sovet İttifaqının aparıcı simalarından biri idi. Onu Njde ilə eyniləşdirmək olar?! Mən, eyni zamanda, bu misalları ona görə gətirirəm ki, gənclər yaxşı oxusunlar, gələcəkdə belə gülünc vəziyyətə düşməsinlər, tarixi yaxşı bilsinlər. Amma bunu deyən bu gün o ölkənin rəhbəridir. Yəni, onlardan nə gözləmək olar? Bu sual ritorik sualdır.

Elə bu iki ay ərzində bizim xarici siyasətlə bağlı digər önəmli hadisələr də baş vermişdir. Biz oktyabr ayında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərimizə götürdük və Zirvə Görüşünü Bakıda keçirdik. Qoşulmama Hərəkatının sədrliyini öz üzərimizə götürmüşük. Üç il ərzində biz bu təşkilata sədrlik edəcəyik. Bu, BMT-dən sonra dünyada ikinci təşkilatdır və əslində, birinci təşkilatdır. Çünki BMT indi elə vəziyyətdədir ki, onu islah etmək istəyənlərin sayı gündən-günə artır, bu, bir. İkincisi, BMT-nin rəhbəri yoxdur. Heç bir ölkə BMT-yə rəhbərlik etmir. Təhlükəsizlik Şurasına da sıra ilə rəhbərlik olunur. Biz də, o cümlədən rəhbərlik etmişik. Bu rəhbərlik müddətlidir. Biz isə dünyanın BMT-dən sonra ən böyük təşkilatının sədriyik və indi bizim sözümüz keçəcəkdir. Gündəliyi biz formalaşdırırıq, məsələləri biz müzakirəyə çıxaracağıq. Əlbəttə ki, öz məsələmizi və əzilmiş, ədalətsizliyə düçar olmuş ölkələrin məsələlərini qaldıracağıq, onları müdafiə edəcəyik.

Noyabr ayında Bakıda Dünya dini liderlərinin II Zirvə Görüşü keçirilmişdir, 70 ölkənin dini liderləri Bakıya gəlmişlər. Dünyada buna bənzər ikinci yığıncaq yoxdur. Mən iclaslarda bir-birinin yanında oturanlara fikir verirdim, əgər onlar başqa yerdə görüşsəydilər, bəlkə başqa cür danışardılar. Amma oturublar, bir-birini dinləyirlər, bir-birinə salam verirlər. Biz bunu istəyirik. Çünki dünya başqa istiqamətdə gedir. Deyirlər ki, multikulturalizm ölübdür, yoxdur. Müsəlman miqrantlarını qəfəsdə saxlayırlar, "Stop İslam" deyirlər demokratiya beşikləri. Deyirlər ki, biz miqrantları qəbul edə bilərik, - mən Avropa ölkələrini nəzərdə tuturam, - ancaq müsəlman miqrantları yox. Deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Amma biz göstəririk ki, yox, elə deyil. Bu, siyasi iradədən, baxışlardan asılıdır, sən nə istəyirsən, hansı siyasət yürüdürsən. Bax, biz bu siyasəti yürüdürük. Bu siyasət yeganə düzgün siyasətdir. Əks təqdirdə, gələcək müharibələr, o cümlədən ola bilsin, dini müharibələr qaçılmazdır. Ona görə, bax, dini liderlərin Zirvə Görüşünün keçirilməsi belə səviyyədə və belə təmsilçiliklə bir daha bizim hörmətimizi, rolumuzu göstərir. Biz nəinki ölkə daxilində, dünya miqyasında bu gün çox önəmli ölkəyə çevrilmişik.

O ki qaldı, daxili məsələlərə, onlar da öz həllini tapır. Azərbaycan iqtisadiyyatı inkişaf edir. Mən gələcəkdə iqtisadi sahədə heç bir problem görmürəm. Manatın məzənnəsi artıq üç ildir ki, sabitdir. Əminəm

ki, belə davam edəcək. Valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız ümumi daxili məhsuldan artıq çoxdur. Xarici borcumuz azalır, yenə də azaldacağıq. Mən göstəriş vermişəm təqribən 10 faizə qədər, indi ümumi daxili məhsulun 17 faizini təşkil edir, 10 faizinə qədər getməlidir. Sənaye artır. Bu il qeyri-neft sənayemiz 15 faiz, kənd təsərrüfatı 7 faiz artıbdır. Davos Ümumdünya Forumu bizi çox yüksək yerlərə layiq görür, o cümlədən islahatların aparılması istiqamətində. İslahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə biz dünyada birinci onluqdayıq. Özü də bunu biz yox, Davos deyir. Dünya Bankı nə deyir? Deyir ki, Azərbaycan 20 ən islahatçı ölkə sırasındadır.

İslahatlar bizim şüurlu seçimimizdir. Elə fərz edə bilərik ki, nəyə lazımdır bu islahatlar? Onsuz da hər şey yolunda gedir, ölkə inkişaf edir, yeni müəssisələr açılır, abadlıq işləri görülür. Yox, struktur islahatları, siyasi islahatlar, iqtisadi islahatlar lazımdır. Baxın, iqtisadi islahatlar nəticəsində təkcə bu ilin on ayında büdcəyə 850 milyon manatdan çox vəsait toplamışıq. Bunları sosial sahəyə yönəldirik. Amma bu, hələ islahatların növbəti mərhələsinin birinci addımlarıdır. Bundan sonra da daha böyük addımlar atılacaqdır. Bu, imkan verir ki, sosial sahəyə böyük diqqət yetirək. Bundan 4 milyon 200 mindən çox insan faydalanıb. Bu il minimum əməkhaqqı iki dəfə, minimum pensiya 70 faiz, müavinətlər iki dəfə, tələbələrin təqaüdləri 50 faiz, köçkünlərə verilən təqaüd 50 faiz artırılıb. Nəyin hesabına? Bu, göydən düşən deyil, bunları islahatların hesabına əldə edirik, əldə də etməliyik.

Kadr islahatları gedir, bu da zərurətdir, durğunluq yarada bilmərik, sovet dövrünün durğunluğu hələ ki, yadımızdan çıxmayıb. Ona görə kadr islahatları aparılmalıdır, ancaq təkamül yolu ilə, təbii yolla, burada da heç bir əyintilərə yol vermək olmaz. Mən bir neçə dəfə bu məsələ ilə bağlı fikirlərimi deyəndən sonra bəziləri başladılar bəzi adamların yaşını hesablamağa ki, bunun 70 yaşı var getməlidir, qətiyyən belə şey ola bilməz. Sonra dedim mən imkan verməræm ki, kampaniya aparılsın. Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meyilliliyi - bu sintez Azərbaycanda var. Həm cəmiyyətdə, həm iqtidarda var. Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər. İndi bəzi ölkələrdə buna fikir verilmir. Qadınlarla kişilər arasında artıq fərq qoyulmur. Amma biz ənənəvi cəmiyyətdə yaşayırıq və yaşamalıyıq. Qadınlara hörmət etməliyik, biz onları qorumalıyıq, onları müdafiə eləməliyik. Onlar bizi yox, biz onları. Gender bərabərliyi var, biz də bunu qəbul edirik. Amma biz ənənəvi düşüncədən kənarda yaşaya bilmərik və gənc nəsil də bunu bilsin. Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən "ağsaqqal", "ağbirçək" sözləri çıxsın, necə ki, bəzi ölkələrdə. Onlara baxanda adam dəhşətə gəlir. Sonra da bizə deyirlər ki, gəlin bizə inteqrasiya edin. Mən bir dəfə demişəm, hələ Avropada o iqtisadi böhran baş alıb gedəndə dedim ki, biz haraya inteqrasiya etməliyik, böhrana? Haraya inteqrasiya etməliyik, "Stop İslam!" deyənlərə? Haraya inteqrasiya etməliyik, qadınla kişi arasında fərq görməyənə? Mən artıq daha dərinə getmək istəmirəm. Biz qətiyyən oraya inteqrasiya etməyəcəyik. Ona görə Azərbaycanda yaşlı nəsil, gənc nəsil bir yerdə olmalıdır, necə ki, ali məktəblərdə. Baxın, indi Bakı Dövlət Universitetində minlərlə gənc var, müəllim var. Müəllimlər biliklərini bölüşürlər, gənclər öyrənirlər, sabah onların yerini tutacaqlar. Belə inkişaf etməliyik. Əlbəttə, kadr islahatları bundan sonra da aparılmalıdır. Ancaq bu, kampaniyaya çevrilməməlidir.

O ki qaldı, müəllimlərin fəaliyyətinə, mən onların fəaliyyətini çox yüksək qiymətləndirirəm. Müəllim peşəsi çox şərəfli, məsuliyyətli, çox ağır peşədir. Müəllim hər zaman tələbə qarşısında öz biliyini göstərməlidir. Tələbələr də indi hər şeyi görürlər, hər şeyi seçə bilirlər. Ona görə müəllimlər daim öz biliklərini artırmalıdırlar. Mən deyim ki, biz müasir dövrdə köhnə baqajla yaşaya bilmərik. Ona görə indi internet dövrüdür, hər bir məlumatı əldə etmək üçün imkanlar var. Daim müəllimlər yeniliklərə baxsınlar, onların peşəsində hansı proseslər gedir, dünyada hansı proseslər gedir, texnoloji inkişaf nədən ibarətdir ki, tələbələrə keyfiyyətli biliklər versinlər. Ona görə müəllim peşəsi şərəflidir, hörmətlidir, ancaq, eyni zamanda, müəllimlər də daim öz üzərlərində işləməlidirlər.

Mən də müəllim olmuşam. İnstitutu bitirəndə mən bir xarici ölkəyə təyinat aldım, ancaq ondan imtina etdim, xaricə getmək istəmədim. Qaldım institutda, aspiranturaya daxil oldum, dissertasiya müdafiə etdim və 23 yaşımda dərs verməyə başlamışdım, özü də Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda, 23 yaşında, 5 il ərzində. Ona görə müəllim peşəsi mənim üçün yad peşə deyil. Mən də müəllim olmuşam, müəllim kimi sizi salamlayıram.

Tələbələrə də sözüm odur ki, bilikli olsunlar. Bugünkü dünyada tanışlıqla, tapşırıqla oxumaq mümkün deyil. Sovet vaxtında belə bir söz var idi: "tapş", o, instituta "tapşla" daxil oldu. Əvvəllər sovet dövründə əsas məqsəd diplom almaq idi. Evlənmək üçün, yəni, elçiliyə getmək üçün diplomu var, yoxsa yox? Hə varsa, onda markası artır. Diplom heç nədir, bilin. Əgər bilik olmasa, savad olmasa müasir dünyada bu, əhəmiyyətsiz bir şeydir. Bilik olmalıdır. Çünki indi yeni peşələr açılır. Əvvəlki peşələrin bir çoxu sıradan çıxır. Artıq 20 il bundan əvvəl olan bəzi peşələr yoxdur və olmayacaq da. Bu proses getdikcə gedəcək, biz 4-cü

industrial inqilab içərisindəyik. Artıq bilinir ki, hansı peşələr 5 ildən sonra olmayacaq. Amma biz əhalisi artan ölkəyik. Sovet dövründəki 7 milyondan 10 milyona çatıb bizim əhalimiz. Ona görə biz o yeni peşələri gərək mənimsəyək. Gərək imkan yaradaq bizim vətəndaşlara ki, o peşələrə onlar yiyələnsinlər. Ona görə bu sahədə həm müəllimlərin üzərinə böyük vəzifə düşür, həm də tələbələr daim çalışmalıdırlar. Bilik, savad - onların yaxşı gələcəyini, təminatlı gələcəyini müəyyən edən budur. Vətənpərvər olmalıdırlar. Bu olmasa, ölkəmizin gələcəyi olmayacaq. Bu olmasa, nə vaxtsa yenə də kiminsə təsiri altına düşüb yenə də müstəqillik arzuları ilə yaşayacağıq. Ona görə gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin.

Biz 1920-ci ildən müstəqilliyi əldən verdik. Bunun obyektiv və subyektiv səbəbləri vardır. Ancaq bu, reallıqdır, indi hansı səbəbi istəyirsən gətir, xeyri yoxdur, getdi əldən müstəqillik. Nəyə görə gücümüz çatmadı? Onun da müxtəlif səbəbləri var, amma fakt odur ki, çatmadı. Ona görə bu acı tarix daim bizim gözümüzün önündə olmalıdır.

Müstəqillik 1993-cü ildə də əldən gedirdi, əgər Heydər Əliyev gəlməsəydi. O, müstəqilliyi qorudu, saxladı, gücləndirdi, bizi düz yola gətirdi. Biz də onun yolu ilə gedirik, müstəqilliyi möhkəmləndiririk və möhkəmləndirəcəyik.

Bizim müstəqilliyimiz başlıca vəzifəmizdir. Azərbaycan müstəqil dövlətdir, qürurlu dövlətdir və gələcəyə çox nikbin baxan dövlətdir. Bir daha sizi təbrik edirəm, cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

## *XXV beynəlxalq “Bakutel 2019” telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgisinin iştirakçılarına İlham Əliyevin müraciəti*

Hörmətli sərgi iştirakçıları!

Sizi Bakı şəhərində XXV beynəlxalq “Bakutel 2019” telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgisinin işə başlaması münasibətilə salamlayır, hər birinizə fəaliyyətinizdə uğurlar arzulayıram.

İyirmi beş ildir ki, təşkil edilən ənənəvi "Bakutel” sərgisi regionun informasiya və kommunikasiya texnologiyaları üzrə mötəbər tədbirlərindəndir. Sərgi təkcə Azərbaycanın deyil, eləcə də dünyanın bir çox ölkələri və aparıcı şirkətlərinin qabaqcıl texnologiyalar sahəsində ən yeni nailiyyətlərinin təqdim olunduğu mühüm platformaya çevrilmişdir.

Təqdirəlayiq haldır ki, Dünya İqtisadi Forumunun qlobal informasiya texnologiyalarına dair son hesabatında Azərbaycan informasiya-kommunikasiya texnologiyalarına verdiyi əhəmiyyətə görə 139 ölkə arasında 8-ci yerdə qərarlaşmışdır.

Ölkəmizdə innovasiya ekosisteminin, yüksək texnologiyaların inkişafı və cəmiyyətin bu texnologiyaların imkanlarından faydalanması üçün əlverişli mühit mövcuddur. Telekommunikasiya sahəsində yeni texnologiyaların istifadəsi, xidmət şəbəkəsinin müasir standartlara uyğunlaşdırılması və yeni xidmətlərlə bağlı müvafiq işlər aparılır. Regionlarda müasir telekommunikasiya xidmətləri istiqamətində irimiqyaslı layihələr icra olunur. İnnovativ layihələrə dövlət dəstəyi bu sahənin potensialının artırılmasını, startapların genişlənməsini və təşəbbüskarlığın yüksəlməsini təmin edir, bu isə bütövlükdə ölkə iqtisadiyyatının dayanıqlı inkişafına müsbət təsir göstərir.

Sərgidə bir çox yeni iştirakçıların da milli pavilyonlarla təmsil olunması beynəlxalq aləmdə özünəməxsus mövqe və nüfuza malik Azərbaycanla informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığa artan marağın təzahürüdür.

Bu tədbir sizə qabaqcıl texnoloji nailiyyətlərin və yeniliklərin təqdimatı, biznes əlaqələrinin qurulması və təcrübə mübadiləsi ilə yanaşı, həmçinin ölkəmizi yaxından tanımağınıza şərait yaradır.

İnanıram ki, sərgi çərçivəsində görüşlər və fikir mübadiləsi yeni təşəbbüslərin meydana çıxması və müvəffəqiyyətlə gerçəkləşməsi baxımından əhəmiyyətli olub, qarşılıqlı əlaqələrin daha da dərinləşməsinə öz töhfəsini verəcəkdir.

## *İlham Əliyev “Bakutel-2019” sərgisində Rusiyanın “Rossiya 24” televiziya kanalına müsahibə verib*

Rusiyanın “Rossiya-24” telekanalı dekabrın 5-də XXV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi – “Bakutel-2019”la bağlı reportaj yayımlayıb. Reportajda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müsahibəsi də yer alıb.

"Rossiya-24"ün müxbiri Aleksandr Çernetsovun reportajını təqdim edirik.

Aparıcı: Bakı. Yenə də Formula 1-in mühərriklərinin gurultusu. Bu dəfə arzu edən hər kəs özünü əsl pilot kimi hiss edə bilər. Yürüş bolidinin super müasir simulyatoru "Bakutel" Beynəlxalq Sərgisinə gətirilib. Yüzlərlə IT şirkətinin 23 ölkədən olan təmsilçisi texnologiyaların inkişafını və bu sahədə parlaq layihələri müzakirə edirlər və əlbəttə, müqavilələr bağlayırlar. Məsələn, "Azərkosmos" və Rusiyanın peyk rabitəsi arasında əməkdaşlıq müqaviləsi imzalandı. Aleksandr Çernetsov razılaşmaların nədən ibarət olduğunu öyrənib.

Müxbir: Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi – "Bakutel-2019" mahiyyətcə ən qabaqcıl IT texnologiyalarının nümayişi üçün arenadır. Hər il Bakıya, Azərbaycan paytaxtına dünyanın 50 ölkəsinin telekommunikasiya bazarının aparıcı oyunçuları gəlir. Bu il "Bakutel"də nəinki rekord sayda iştirakçı, həm də bağlanacaq müqavilələrin rekord sayı gözlənilir. Axı, bu gün Azərbaycan Xəzəryanı regionda IT texnologiyaları sahəsində aparıcı ölkədir.

Beynəlxalq Telekommunikasiya İttifaqının Baş katibi Haulin Jaon deyir:

- Təxminən 10 il əvvəl, Prezident İlham Əliyevlə görüşəndə o dedi ki, Azərbaycan neftlə zəngindir. Lakin biz anlayırdıq ki, bu ehtiyat gec-tez tükənəcək. Buna görə hələ o vaxt biz fikirləşdik ki, digər ehtiyat istiqamətlərini inkişaf etdirmək lazımdır. Təbii ki, bu mənada İKT – İnformasiya-Kommunikasiya Texnologiyaları sektoru ən mühüm idi.

Müxbir: "Bakutel-2019" yubiley sərgidir. Düz 25 il bu məkan həm aparıcı IT şirkətlərinə, həm də gənc tədqiqatçılara öz nailiyyətlərini göstərmək imkanı verir. Yeni iştirakçılar arasında İrandan olan qonaqlar var. Tərəfdaşlar kiber hücumlara qarşı IT sahəsindəki işlərini sərgidə təqdim edirlər. Digər iki qonşu stenddə isə jurnalistlərin videokameraları həqiqətən tarixi anı qeyd edir: "Azərkosmos" və Rusiyanın peyk rabitəsi ilk tərəfdaşlıq sazişini imzaladılar.

Rusiyanın "Federal Dövlət Unitar Müəssisəsi" şirkətinin biznesi inkişafı baş direktorunun müavini Kseniya Drozdova deyir:

- Kosmik imkanlarımızı birləşdirərək, biz Yaxın Şərq, Xəzər və Cənubi Afrika regionunda teleradio yayımları şirkətlərinə, rabitə operatorları şirkətlərinə daha geniş imkanlar təqdim etməyi nəzərdə tuturuq.

Müxbir: Yeri gəlmişkən, "Bakutel" təkcə biznes və strateji vəzifələr haqqında deyil. Bu, həm də əyləncədir.

Yəqin ki, bu sərginin istənilən qonağı özü üçün, öz maraqları üçün nəsə tapa bilər. Məsələn, bu Formula 1-in maksimal olaraq reallığa yaxın bolididir. Bu, əlbəttə ki, virtual olaraq trasda özbaşınalıq etmək və özünüzü Alonso kimi hiss etmək üçün nadir imkandır.

Yaxud IT robotexnika. Məsələn, dünyaca məşhur robot - Almaniyadan olan rəssam, bu isə teatronikadır - tamaşaçıların sevimlisi pianoçu robot.

İnnovasiyalar Agentliyinin idarə heyətinin sədri Tural Kərimli deyir:

-Bilirsiniz, 30-cu ilədək artıq 54 peşə süni intellekt və robotexnika ilə əvəz olunacaq. Buna görə bizim üçün gənc nəsilə yaxın gələcəkdə gözlənilənləri nümayiş etdirmək vacibdir.

Müxbir: Sərginin iştirakçılarını və qonaqlarını şəxsən salamlamaq üçün bu gün Prezident və birinci xanım da gəliblər. Kanalımıza eksklüziv müsahibədə söhbət, ilk növbədə, İlham Əliyevin fikrinə görə, bu gün ən yüksək səviyyədə olan Rusiya-Azərbaycan münasibətlərindən getdi.

Prezident İlham Əliyev deyir:

-Azərbaycan müasir texnologiyaların idxalçısı, daha artıq dərəcədə idxalçısı və istehlakçısıdır. Rusiya isə inkişaf etmiş elmi potensialı və Rusiya rəhbərliyinin bu sahəyə göstərdiyi böyük diqqət sayəsində istehsalçıya çevrilir. Buna görə də ölkələrimiz arasında dostluq münasibətlərini əsas götürərək bu istiqamətdə Rusiya qurumları ilə işləmək bizim üçün çox maraqlı olardı. Çünki heç kəs üçün sirr deyil ki, bu, həm təhlükəsizlik, həm texnologiya, həm də biznes deməkdir, ümumiyyətlə, bu, ölkələrin potensialı deməkdir.

Müxbir: Bu ilin sonunadək iki ölkənin prezidentləri növbəti dəfə Moskvada görüşəcəklər. Planda, həmçinin IT texnologiyaları sahəsində ikitərəfli münasibətlərə dair məsələlərin müzakirəsi var.

## *Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin (TRASEKA) 20 illik fəaliyyətinə həsr olunmuş yubiley konfransının iştirakçılarına İlham Əliyevin müraciəti*

Hörmətli konfrans iştirakçıları!

Əziz qonaqlar!

Sizi – Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin 20 illik fəaliyyətinə həsr olunmuş yubiley konfransında salamlayır və hər birinizi bu əlamətdar tədbir münasibətilə təbrik edirəm.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il sentyabrın 7-8-də 9 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan) dövlət başçısının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransın Bakı şəhərində keçirilməsi ölkəmizin TRASEKA Proqramına verdiyi xüsusi önəmin və diqqətin təzahürüdür. Bu konfransın yekununda Avropa İttifaqının TRASEKA Proqramı

əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanmışdır. Bundan əlavə, 2001-ci il 21 fevral tarixində Bakı şəhərində ümummilli lider Heydər Əliyevin iştirakı ilə TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinın açılışı olmuşdur.

Fəaliyyət göstərdiyi 20 il ərzində TRASEKA Proqramı üzv ölkələr arasında multimodal daşımaların təşviqi, tranzit daşımalar üçün əlverişli şəraitin yaradılması, ticarət-iqtisadi və nəqliyyat əlaqələrinin inkişaf etdirilməsi sahələrində əməkdaşlığın genişləndirilməsi, habelə həmin ölkələrin iqtisadi potensialının artırılması işinə mühüm töhfələr vermişdir.

Azərbaycan Respublikası Avropa-Qafqaz-Asiya regionunda nəqliyyat dəhlizlərinin və əlaqəli infrastrukturun inkişaf etdirilməsinin vacibliyini tanıyaraq, bir sıra layihələrin həyata keçirilməsi üçün sərmayələr yatırır, ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlıq edir. Bununla bağlı xüsusilə vurğulamaq istərdim ki, Azərbaycan region üçün vacib layihələrin təşəbbüskarı olmaqla yanaşı, həm də Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars dəmir yolu, Cənub Qaz Dəhlizi kimi vacib beynəlxalq layihələrin əsas həmicraçısı, beynəlxalq nəqliyyat dəhlizlərində daşımaların, o cümlədən multimodal infrastrukturun təşviqinə dəstək verən Şərq-Qərb və Cənub-Qərb avtomobil yolları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və digər yerli layihələrin icraçısıdır.

Nəqliyyat sahəsində əməkdaşlığa böyük diqqət yetirən Azərbaycan Respublikası qarşıdakı dövrdə Proqramın fəaliyyətini ölkələrimizin nəqliyyat sektorlarının inkişafı baxımından yeni mərhələnin başlanğıcı kimi qiymətləndirir. Bu fəaliyyətin uğurla aparılması üçün ölkəmiz bundan sonra da Proqramın prioritet istiqamətləri üzrə daha vacib layihələrin gerçəkləşməsində davamlı iştirak edəcəkdir.

Əminəm ki, konfrans çərçivəsində aparılan müzakirələr və qəbul edilən sənədlər Proqramın gələcək fəaliyyətinin daha səmərəli həyata keçirilməsi üçün əlverişli zəmin yaradacaqdır.

## *Pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər ilə bağlı müşavirədə İlham Əliyevin giriş nitqi*

Biz bu gün pambıqçılıq sahəsində görülmüş işlərə yekun vuracağıq. Pambıq yığımı demək olar ki, başa çatıbdır. Bu il rekord göstərici əldə olunub, 294 min ton pambıq yığılıb və hər hektardan məhsuldarlıq orta hesabla 29,4 sentner təşkil edib. Bu, doğrudan da çox böyük göstəricidir və onu göstərir ki, son illər ərzində pambıqçılıqda inkişafla bağlı atılmış bütün addımlar öz səmərəsini verməkdədir. Bu, bir daha onu göstərir ki, dövlət dəstəyi olmadan pambıqçılıq inkişaf edə bilməz. Biz demək olar ki, Azərbaycanda pambıqçılığı dirçəltmişik, bunu çox gəlirli sahəyə çevirmişik, pambıqçılıqla məşğul olan rayonlarda məşğulluq problemlərini həll etmişik. Beləliklə, biz qarşımızda duran bütün vəzifələrə nail olmuşuq, bu vəzifələri icra etmişik.

Eyni zamanda, biz bu gün növbəti illərdə görüləcək işlərlə bağlı fikir mübadiləsi aparacağıq və təkliflər səslənəcək ki, bundan sonra da pambıqçılıq uğurla inkişaf etsin. Pambıqçılıq bizim üçün ənənəvi kənd təsərrüfatı sahəsidir, ta qədim dövrlərdən Azərbaycan ərazisində pambıqçılıqla kəndlilər məşğul olmuşlar. Statistika isə 1913-cü ildən artıq pambıqçılıqda baş verən inkişafı nəzərə alır. 1913-cü ildə Azərbaycanda 100 min hektarda pambıq əkilmişdir və hektardan məhsuldarlıq cəmi 6 sentner təşkil edirdi. Ondan sonrakı dövrlərdə pambığın istehsalı artmışdır. Ancaq ən sürətli artım ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun fəaliyyəti nəticəsində nəinki pambıqçılıq, kənd təsərrüfatının bütün başqa sahələri də uğurla inkişaf etmişdir. Əgər statistikaya nəzər salsaq görərik ki, onun dövründə baramaçılıq, üzümçülük, pambıqçılıq, meyvəçilik, tərəvəzçilik pik həddə çatmışdır. Beləliklə, kəndlərdə yaşayan insanlar öz maddi durumunu yaxşılaşdırmış, evlər tikmiş, maşınlar, məişət texnikası almışlar. Bir sözlə, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdəki fəaliyyəti Azərbaycanı müttəfiq respublikalar arasında ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə ucaltmışdır. Bundan daha önəmli məsələ ondan ibarətdir ki, Azərbaycanda yaşayan insanların rifah halı böyük dərəcədə yaxşılaşdırılmışdır.

Məlumat üçün deyə bilərəm ki, 1969-cu ildə Heydər Əliyev birinci katib seçiləndə Azərbaycanda 200 min hektarda pambıq əkilmişdir və 300 min tona yaxın məhsul götürülmüşdür, yəni, məhsuldarlıq orta hesabla 15 sentner səviyyəsində idi. Ancaq 1980-ci illərin əvvəllərində həm məhsuldarlıq artmışdır, 30 sentnerə yaxınlaşmışdır, hətta bir neçə ildə 30 sentnerdən də üstün idi və pambıq tədarükü sabit surətdə təqribən 800 min ton səviyyəsində olmuşdur. 1981-ci ildə isə bu rəqəm 1 milyon tona qalxmışdır.

Heydər Əliyev Moskvaya gedəndən sonra bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatı sahəsində də, o cümlədən pambıqçılıqda vəziyyət tənəzzülə doğru getdi, üzümçülük demək olar ki, tamamilə sıradan çıxarıldı. Deyə bilərəm ki, bu da həm sovet

rəhbərliyinin, həm də o vaxt Azərbaycan rəhbərliyinin cinayəti nəticəsində baş vermiş hadisə idi. Çünki üzümçülüyün Azərbaycanda böyük ənənələri var idi. Heydər Əliyevin dövründə istehsal 2 milyon tona qalxmışdır. Yəni, Azərbaycan sovet məkanında ən çox üzüm istehsal edən respublika idi. Bizdən sonra gələn respublikalar heç 1 milyon ton üzüm istehsal edə bilmirdi. Bizdə isə istehsal 2 milyon ton idi. Təsəvvür etmək çətin deyil ki, bu, nə qədər böyük xeyir gətirirdi həm respublikaya, həm də kəndlilərə. Üzümçülüyə çox böyük ziyan vurulmuşdur və o vaxt bizim üzüm bağlarımız dağıdılırdı. Yəni, çox böyük xəyanətkar və cinayətkar siyasət aparılaraq demək olar ki, Azərbaycanın kənd təsərrüfatı məhv edilirdi. Əfsuslar olsun ki, bunu edənlər o vaxt Azərbaycan rəhbərliyində olan şəxslər idi.

Dediyim kimi, Heydər Əliyev 1982-ci ildə Moskvaya gedəndən sonra pambıqçılıqda tənəzzül dövrü başlamışdır, istehsal yavaş-yavaş azalırdı. Azərbaycan 1991-ci ildə müstəqilliyə qovuşanda pambıq istehsalı 500 min tona, 1993-cü ildə isə 280 min tona düşmüşdür. Bildiyiniz kimi, müstəqillik dövrünün ilk illəri çox ağır keçirdi, ölkə çox ağır vəziyyətdə idi. Ermənistan işğalı, vətəndaş müharibəsi, AXC-Müsavat cütlüyünün yarıtmaz, xəyanətkar fəaliyyəti nəticəsində ölkəmiz uçurum kənarına gətirilmişdir. Ölkədə total böhran - siyasi böhran, hərbi böhran, iqtisadi böhran hökm sürürdü, inflyasiyanın səviyyəsi 1000 faizdən çox idi, sənaye müəssisələri iflic vəziyyətdə, kənd təsərrüfatı dağılmış vəziyyətdə idi, ölkədə talançılıq, rüşvətxorluq, özbaşınalıq hökm sürürdü. AXC-Müsavat cütlüyünün başında olan xəyanətkar ünsürlər sanki düşmən kimi Azərbaycanı dağıdırdılar, parçalayırdılar, məhv edirdilər. Sanki onlar hansısa cinayətkarın əmrini icra edirdilər. Bunun nəticəsində əlbəttə ki, həm sənaye iflic oldu, kənd təsərrüfatı tamamilə dağıdıldı və həm də ölkə idarəolunmaz vəziyyətə düşdü. Yalnız xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə qayıdandan sonra vəziyyət sabitləşdi, Azərbaycan inkişaf yoluna gətirildi və bu gün biz bu inkişafın təzahürlərini həyatımızın bütün sahələrində görürük.

O vaxt ağır vəziyyətdən çıxmaq üçün iki əsas amil həyata keçirilməli idi. Onlardan biri xarici sərmayəni cəlb etmək idi və biz buna nail olduq. Bu il "Əsrin kontraktı"nın 25 illiyini qeyd edərkən bir daha bu kontraktın əhəmiyyəti və Ulu Öndərin bu sahədə gördüyü tarixi işlər haqqında mən öz fikirlərimi bölüşmüşdüm və bildirmişdim ki, biz ölkəyə milyardlarla dollar həcmində investisiya qoyulmasına nail olduq. Digər çıxış yolu özəlləşdirmə ilə bağlı idi. O vaxt çox ciddi iqtisadi islahatlar aparılmağa başlamışdır, torpaq kəndlilərə, fermerlərə verilmişdir. Bu, əlbəttə ki, düzgün addım idi. Ancaq o da həqiqətdir ki, sovet vaxtından qalan texnika demək olar sıradan çıxmışdır, aqrotexniki tədbirlərin görülməsi üçün müasir standartlara cavab verən təcrübə yox idi, gübrə, pestisidlər ilə bağlı problemlər özünü kifayət qədər kəskin büruzə verirdi. Yanacaq çatışmazlığı da böyük problem idi. Ona görə özəl qurumlar, kəndlilər və fermerlər pambığın istehsalını müasir səviyyədə təşkil etmək üçün böyük çətinliklər çəkirdilər. Kəndliləri bunda günahlandırmaq olmaz. Ancaq pambıqtəmizləmə zavodlarını özəlləşdirmiş, pambıqçılığı inkişaf etdirməyə söz vermiş özəl şirkətlərin fəaliyyəti əlbəttə ki, qənaətbəxş hesab oluna bilməz. Daha dəqiq desəm, onların fəaliyyəti ən pis qiymətə layiqdir. Demək olar ki, onların yarıtmaz fəaliyyəti nəticəsində Azərbaycanda pambıqçılıq məhvə doğru gedirdi, pambıq yetişdirən rayonlarda işsizlik geniş vüsət alırdı. Özəl qurumlar bu vəzifənin öhdəsindən gələ bilmədilər, lazımi səviyyədə sərmayə qoymadılar, pambıqtəmizləmə zavodlarını səmərəli işlədə bilmədilər və deyə bilərəm ki, bu məsələyə bütövlükdə çox biganə yanaşdılar. Beləliklə, pambıqçılıqda çox böyük tənəzzül yaşandı. Əslində biz bu gəlirli, bizim üçün ənənəvi olan əməktutumlu sahəni demək olar ki, itirirdik. Bir rəqəmi deyə bilərəm, 2015-ci ildə cəmi 18 min hektarda pambıq əkilmişdir və 35 min ton məhsul tədarük edilmişdir. Baxın, pambığın tədarükü 1981-ci ildəki bir milyon tondan 35 min tona düşdü.

Bilirsiniz, biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və bazar iqtisadiyyatının bütün təzahürləri Azərbaycanda vardır. Bir rəqəmi demək kifayətdir ki, bizim iqtisadiyyatımızın hazırda 85 faizi özəl sektorda formalaşır. Strateji dövlət müəssisələrindən başqa, bütün qalan müəssisələr özəl sektorda fəaliyyət göstərir. Bazar iqtisadiyyatının qanunları diktə edir ki, bazar liberallaşsın, iqtisadiyyata dövlət müdaxiləsi minimum səviyyəyə endirilsin və bu iqtisadi məsələləri bazar münasibətləri tənzimləməlidir.

Ancaq biz həyatda görürük ki, bu mənzərə ilə heç də hər zaman üzləşmirik. Xüsusilə müstəqilliyi yeni qazanmış ölkələrdə dövlət müdaxiləsi zəruridir. Əgər dövlət siyasəti olmasaydı, bu gün biz bu uğurlara nail ola bilməzdik. Əgər dövlət energetika, nəqliyyat, infrastruktur, kənd təsərrüfatına dəstək, sənayenin inkişafı sahələrində öz ciddi addımlarını atmasaydı, öz siyasətini ortaya qoymasaydı, bu gün hansı uğurlardan söhbət gedə bilərdi?! İnfrastruktura özəl sektor pul qoya bilərmi? Əlbəttə ki, yox. Üzümçülüyə, hansı ki, fermer gəliri ən azı 7 il gözləməlidir, dövlət dəstəyi olmadan kimsə vəsait qoya bilərmi? Pambıqtəmizləmə zavodlarının yenidən qurulmasına dövlət dəstəyi olmadan kim vəsait qoyar? Biz indi pambıq tədarükü üçün ən müasir texnika alırıq, - Amerika istehsalı olan "John Deere" kombaynları, - 400-dən çox kombayn

almışıq. Texnikanın alınmasına bütövlükdə 500 milyon manatdan çox vəsait xərcləmişik. Hansı özəl şirkət bunu öz üzərinə götürə bilər? Ona görə görəndə ki, biz pambıqçılıq sahəsini də itiririk və bu, böyük problemlərə gətirib çıxarar, mən dərhal göstəriş verdim, bu məsələ ilə özüm məşğul olmağa başladım. Gördüm ki, bu sahədə bazar iqtisadiyyatı prinsipləri işləmir, çox ciddi tədbirlər planı tutuldu və 2017-2020-ci illəri əhatə edən Dövlət Proqramı qəbul olundu. Biz Dövlət Proqramı əsasında pambıqçılığı dörd il ərzində demək olar ki, dirçəltdik və ən yüksək nəticələrə çatdıq.

Beləliklə, dövlət dəstəyi nəticəsində son üç il ərzində 15 min 700 texnika alınmışdır. Qeyd etdiyim kimi, 400-dən çox pambıqyığan kombayn almışıq, onların da böyük əksəriyyəti Amerikanın ən qabaqcıl şirkəti olan "John Deere"in daha məhsuldardır və keyfiyyətə görə ən yüksək standartlara cavab verən kombaynlarıdır. Bu, bizə imkan verdi ki, pambığın 87 faizini texnika ilə yığa bilək və əl əməyi aşağı düşdü. Ancaq bununla paralel olaraq, biz, əlbəttə ki, pambıqçılığı əməktutumlu sahə kimi inkişaf etdirərkən, ilk növbədə, məşğulluqla bağlı olan problemləri diqqət mərkəzində saxlamışıq və buna nail olmuşuq.

Suvarma tədbirləri. 100 min hektarda suvarma tədbirləri görülmüşdür. Hamımız yaxşı bilirik ki, bu il çox quraqlıq il olmuşdur və tarixdə bu dərəcədə quraqlıq heç birimizin yadında deyil. Ancaq buna baxmayaraq, pambıq tarlalarında su təminatı təşkil edilmişdir. Əlbəttə ki, əgər dövlət investisiyalar qoymasaydı, kanallar çəkməsəydi, meliorasiya və su idarəsinə vəsait ayırmasaydı, indi pambıq ya əkilməzdi, ya da əkilib tarlalarda qalacaqdı və yanacaqdı.

Pambıqla məşğul olan fermerlərə güzəştli kreditlər verildi. Pambıqtəmizləmə zavodlarında təmir-bərpa, sazlama işləri aparıldı. Eyni zamanda, Ucar rayonunda müasir texnologiya əsasında yeni pambıqtəmizləmə zavodu inşa edilmişdir. 2016-cı ildən pambığın hər kiloqramına görə istehsalçılara dövlət tərəfindən 10 qəpik subsidiya verilməyə başlanmışdır. 2015-ci ildə pambığın satınalma qiyməti 41 qəpik, 2016-2017-ci illərdə 50 qəpik idisə, 2018-ci ildən bu rəqəm 65 qəpiyə qaldırıldı və bu da çox həvəsləndirici amildir. Pestisidlər güzəştlə verilməyə başlanmışdır. Hər hektara güzəştlər 10 manatdan 50 manata qaldırıldı. Gübrələr üçün güzəştlər isə 100 manatdan 150 manata qaldırıldı. Bütün bu addımlar dövlətin bu sahəyə göstərdiyi diqqətin və önəmin təzahürüdür. Təsadüfi deyil ki, nəticə də özünü qısa müddət ərzində büruzə verdi.

Əlbəttə ki, pambıqçılığı inkişaf etdirərkən biz sosial amili də həmişə diqqət mərkəzində saxlamışıq. Çünki qeyd etdiyim kimi, pambıqçılıq əməktutumlu kənd təsərrüfatı sahəsidir. Hazırda Azərbaycanda 20 rayonda pambıq əkilir və bu rayonlarda 200 minə yaxın insan işlərə cəlb edildi. Yəni, pambıqçılığın bir neçə istiqaməti var və hər istiqamət üzrə minlərlə, on minlərlə yeni iş yerləri yaradıldı. Təsəvvür edin ki, 20 rayonda 200 minə yaxın iş yerinin yaradılması nə deməkdir. İndi bizim rayonların əhalisi orta hesabla təqribən 100-150 min, maksimum 200 min nəfər təşkil edir. Demək olar ki, hər rayonda orta hesabla 10 min insan ancaq pambıqçılıqla məşğul olur. Təbii ki, bu rayonlarda işsizliklə bağlı problemlər uğurla həll olunur. Eyni zamanda, bizim çox gözəl indikatorumuz var. Bildiyiniz kimi, sosial müdafiəni gücləndirmək üçün biz indi 40 minə yaxın ödənişli ictimai iş yeri yaratmışıq, dövlət tərəfindən maliyyələşir. İş tapa bilməyən vətəndaşlar bu ictimai iş yerlərində işlə təmin olunurlar. İndi pambıq yetişdirən rayonlarda artıq bu işlərə də tələbat azalır. Çünki insanlar gedib pambıqçılıqda daha böyük pul qazanırlar və beləliklə, öz maddi vəziyyətlərini yaxşılaşdırırlar.

Beləliklə, dörd il ərzində görülmüş kompleks tədbirlər nəticəsində biz pambıqçılığı dirçəltdik. Bəzi rəqəmləri gətirməklə mən bu sözləri təsdiqləyəcəyəm. Beləliklə, 2015-ci ildə, - o ildə ki, artıq mən bu sahəni itirdiyimizi gördüm, - 18 min hektardan 35 min ton pambıq tədarük edilmişdir. Hər hektardan məhsuldarlıq 18,8 sentner idi. 2016-cı ildə artıq 51 min hektarda pambıq əkildi və 89 min ton pambıq tədarük edildi. Yəni, 2016-cı il bizim pambıqçılıqla ciddi məşğul olduğumuz birinci ildir, hektardan məhsuldarlıq 17 sentnerdən bir qədər çox idi. 2017-ci ildə biz pambıq əkini sahələrini kəskin artırdıq. Onu da bildirməliyəm ki, sonra biz bəzi torpaqların düzgün seçilmədiyini gördük və o torpaq sahələrini azaltdıq. Ancaq əlbəttə ki, biz hər şeyi bəri başdan görə bilməzdik. Ona görə biz 2017-ci ildə 136 min hektarda pambıq əkdik və 207 min ton məhsul götürdük. Hektardan məhsuldarlıq isə 15,2 sentnerə düşdü, çünki bəzi torpaqlar pambıqçılıq üçün yararsız idi. 2018-ci ildə artıq əkin sahələri azalmağa başlamışdır və 132 min hektarda pambıq əkildi. Ancaq daha çox məhsul götürdük, 233 min ton. Hektardan məhsuldarlıq artdı və 17,6 sentnerə qalxdı. Bu il isə hesab edirəm ki, ən optimal variant təsdiqlənərək, 100 min hektarda pambıq əkildi və 294 min ton məhsul götürüldü. Hektardan məhsuldarlıq 29,4 sentner olmuşdur. Yəni, bu, doğrudan da tarixi nailiyyətdir.

Məndə 1980-ci illərin statistik məlumatları da var. Deyə bilərəm ki, ancaq tarixdə cəmi üç il Azərbaycanda hektardan məhsuldarlıq 30 sentnerdən çox olmuşdur. Bu, 1979-cu ildə 30,8 sentner, 1980-ci ildə 35,4 sentner və 1981-ci ildə 35,9 sentner təşkil etmişdir. Bütün tarix boyu cəmi üç il ərzində hektardan məhsuldarlıq 30 sentnerə yaxın olmuşdur və bu il biz bunu artıq görürük. Əminəm ki, bundan sonra görüləcək tədbirlər nəticəsində məhsuldarlıq daha da artacaq. İndi bu barədə burada məlumat veriləcək. Çünki indi pilot

layihələr var. Pilot layihələrdə pambıq müasir texnologiya əsasında əkilir və orada məhsuldarlıq daha çoxdur. Əgər biz indi pilot layihələri ölkə üzrə geniş yaysaq, əlbəttə ki, 100 min hektardan daha çox məhsul götürəcəyik.

Pambıqçılıq çox gəlirli kənd təsərrüfatı sahəsidir. Onu da xatırlayıram ki, mən 2015-ci ildə bu məsələ ilə özüm şəxsən məşğul olmağa başlayanda bəzi hökumət üzvləri hesab edirdilər ki, pambıqçılıq, ümumiyyətlə, Azərbaycandan çıxarılmalıdır. Bu, gəlirsiz sahədir və bunun heç bir perspektivi, gələcəyi yoxdur. Mən, sözün düzü, təəccüb etdim, çünki necə ola bilər ki, əsrlər boyu pambıq yetişdirilib, əsrlər boyu bizim kəndlər bu sahədə fəal olub. Bu, ənənəvi sahədir, böyük təcrübəmiz var, insanlar buna öyrəşiblər. Məgər sovet dövründə bilmirdilər ki, harada pambıq əkilə bilər, harada əkilə bilməz. Sovet dövründə hər şeyi bilirdilər. Dövlət Plan Komitəsi var idi, hər şeyi dəqiqliyi ilə bilirdilər harada nə əkilməlidir, harada nə tikilməlidir. Ona görə yenə də deyirəm, bizim baxışlarımız və çox məqsədyönlü siyasət pambıqçılığı gəlirli sahəyə çevirdi və artıq gəlirlər zənciri də yaradıldı. Bir də ki, pambıq ixracyönümlü məhsuldur. Mahlıcı satmaq üçün bazar axtarmaq lazım deyil, dünya birjalarında satılır. İndi hər bir ölkənin istehsalçıları qarşısında duran əsas məsələlərdən biri də bazara çıxışlardır. Çünki bazarlar da məhdudlaşır. Bir çox ölkələr öz tələbatını daxili imkanlar hesabına ödəməyə başlayıblar. İdxaldan asılılığı azaltmaq təkcə bizim siyasətimiz deyil, bir çox ölkələr bu yolla gedirlər. Bizim ənənəvi bazarlarımızın yerləşdiyi ölkələr əgər gələcəkdə öz tələbatını daxili resurslar hesabına təmin edəcəklərsə, biz haraya mal satacağıq və nəyi satacağıq. Pambıq o məhsullardandır ki, bunun üçün bazar axtarmaq lazım deyil. Birja var və birjada satılır. Özü də biz, - bu barədə də danışacağıq, - əgər yığımdan son məhsula qədər bu zənciri yaratsaq, - biz bunu yaratmalıyıq, - onda hər bir zəncirin sonunda əlavə dəyər formalaşacaq. Beləliklə, bu işlərə cəlb edilən əmək qüvvəsi daha da böyüyəcək və gəlir daha da artacaq.

Biz hazırda bu işin ilkin mərhələsindəyik. Ancaq buna baxmayaraq, deyə bilərəm ki, bu ilin doqquz ayında pambıqçılıq fermerlərə və şirkətlərə, ümumiyyətlə, Azərbaycana 111 milyon dollar gəlir gətiribdir. Yəni, 111 milyon dollar dəyərində məhsul, o cümlədən 87 milyon dollarlıq mahlıc, 22,5 milyon dollarlıq pambıq ipliyi və 2 milyon dollarlıq pambıq yağı ixrac edilib. Eyni zamanda, pambıqçılıq sənayesinin tullantılarından heyvan yemi kimi də istifadə olunur. Bu rəqəmlər onu göstərir ki, biz hazırda mahlıc ixrac edirik. Ancaq əsas vəzifə nəinki pambıq ipliyi, - bu, birinci hədəfdir, - əsas məsələ son məhsul ixrac etməkdir. Bunun üçün də bizim aidiyyəti qurumlar, hökumət, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi pambıqçılığın sənaye sahəsinə təkan verə biləcək müəssisələri yaratmaq üçün gərək fəal işləsinlər, investorları cəlb etsinlər və güzəştli kreditlər versinlər.

Qeyd etdiyim kimi, bu il məhsuldarlıq çox yüksək olubdur - rekord həddə. Ancaq bunu bütün rayonlara aid etmək mümkün deyil. Ona görə indi gətirəcəyim rəqəmlər hər bir rayon rəhbərliyi üçün siqnal olmalıdır. Çünki bu gün bu müşavirədə Prezident Administrasiyasının, mərkəzi icra orqanlarının nümayəndələri, iyirmi rayonun icra başçıları və şirkətlərin nümayəndələri iştirak edirlər. Beləliklə, bu il yeddi rayonda məhsuldarlıq 30 sentnerdən yuxarı olubdur. Bunlar ardıcıllıqla aşağıdakı rayonlardır: Tərtər - 34,8 sentner, Bərdə - 33,7 sentner, Salyan - 33,2 sentner, Neftçala - 31,6 sentner, Ağcabədi - 30,7 sentner, Saatlı - 30,4 sentner və Beyləqan - 30,3 sentner. Bu, onu göstərir ki, həm fermerlər, həm şirkətlər, həm də rayon rəhbərliyi bu işlərə çox məsuliyyətlə yanaşıblar və belə gözəl nəticələr əldə edilibdir. Üç rayonda məhsuldarlıq 30 sentnerə yaxındır - Biləsuvar rayonu – 29,5 sentner, Sabirabad rayonu – 29,2 sentner və Ağdam rayonu- 28,2 sentner. Yeddi rayonda məhsuldarlıq 20 sentnerdən çoxdur və bu rayonlar nəticə çıxarmalıdır. Üç rayonda isə məhsuldarlıq 20 sentnerdən azdır. Bax, bu rayonlarda çox ciddi təhlil aparılmalıdır, nə üçün, bunun səbəbi nədir? Bunun səbəbi olmalıdır. Ucar – 19,3 sentner, Hacıqabul – 14,4 sentner, Ağsu – 9,9 sentner. Hacıqabul və Ağsu rayonlarının icra başçıları dəyişdirildi, yeni icra başçıları təyin edildi. Onlar bu işləri geniş təhlil etməlidirlər və sonra məlumat verməlidirlər ki, məhsuldarlıq nə üçün çox aşağı səviyyədədir.

Ucar Rayon İcra Hakimiyyətinin başçısı məlumat versin, hazırda məhsuldarlıq nə üçün aşağı səviyyədədir?

Ucar Rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədov: Cənab Prezident, pambıqçılıq ənənəsi Siz qeyd etdiyiniz kimi yaddan çıxmışdı. İndi yeni pambıq növləri yetişdirilir, əkin sahələrinin seçimi aparıldı. Pilot layihələr rayonda tətbiq olundu və növbəti illərdə daha yüksək məhsul götürüləcək.

Prezident İlham Əliyev: Yox, növbəti illərdə, əlbəttə, daha yüksək məhsuldarlıq olacaq. Mən bunu soruşmuram, mən soruşuram, bu il nəyə görə məhsuldarlıq aşağı səviyyədə olub. Bu barədə məlumat verin.

Mənsur Məmmədov: Cənab Prezident, bütün aqrotexniki tədbirlər görüldü. Ucar torpağının xüsusiyyəti bir qədər çətinlik yaratdığı üçün məhsuldarlıq yüksək olmadı. Pilot sahələrdə yeni texnologiya ilə daha yüksək məhsul götürüldü və bu, göstərir ki, gələcəkdə məhsuldarlıq yaxşı olacaq.

Prezident İlham Əliyev: Buna fikir verin, bu,

dözülməz bir rəqəmdir. Əyləşin. Özü də qonşu rayonlarda məhsuldarlıq yüksəkdir. Misal üçün, Yevlax rayonunda 26,4 sentner və digər qonşu rayonlarda məhsuldarlıq daha yüksəkdir.

Mən artıq qeyd etdim ki, pambıqçılıq çox əmək-tutumlu sahədir. Bizim əsas vəzifələrimizdən biri vətəndaşları işlə təmin etməkdir və buna nail oluruq. Eyni zamanda, bildirməliyəm ki, bu il sosial sahədə görülmüş tədbirlər, aparılan islahatlar doğrudan da vətəndaşların maddi vəziyyətini böyük dərəcədə yaxşılaşdırdı. Bu, bir daha onu göstərir ki, bizim siyasətimizin təməlində Azərbaycan vətəndaşı dayanır. Bu il təşkil edilən və həyata keçirilən çox geniş sosial paket 4,2 milyon əhalini əhatə edib. Problemli kreditlər öz həllini tapıbdır, özü də problemli kreditlərlə bağlı olan məsələlər təkcə bizdə mövcud deyil. Demək olar ki, postsovet məkanında bir çox ölkələrdə eyni problemlər mövcuddur. Ancaq biz bunu vətəndaşlar üçün ən səmərəli şəkildə və ən məqbul formada ədalətli həll etdik. Devalvasiyadan sonra ağır vəziyyətə düşən vətəndaşların problemlərini biz həll etdik.

Müavinətlər artırıldı - bəzi müavinətlər 50 faiz, bəzi müavinətlər 2 dəfə artırıldı. Minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faizdən çox artırıldı. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB məkanında birinci yerdədir. Bu, statistikadır. Əlbəttə, mən bunu demişəm, bir daha demək istəyirəm, çox istəyirəm ki, maaşlar və pensiyalar daha sürətlə artsın. Ancaq buna nail olmaq üçün gərək bizim iqtisadi imkanlarımız da genişlənsin. İqtisadi imkanlar, o cümlədən hər bir sahədə işin səmərəli şəkildə qurulmasından asılıdır. Misal üçün, kənd təsərrüfatının bir çox sahələri var və vaxtilə o qədər də böyük fikir verilməyən sahələr indi dirçəlir. Sənaye istehsalı sahəsində. Bu il qeyri-neft sənayemiz 14 faiz artıbdır. Şəffaflıq sayəsində bu il büdcəyə vergi və gömrük orqanları tərəfindən plandan əlavə 1 milyard manat vəsait daxil olub. Ona görə bütün bu tədbirlər, islahatlar imkan verdi ki, biz bu böyük paketi həll edək. Bu, bir neçə milyard manata başa gəldi. Ancaq biz bunu etməliyik və edirik.

Pambıqçılıq, həmçinin yüngül sənayeyə də təkan verir. Mənim sərəncamlarımla Azərbaycanın bir neçə şəhərində sənaye zonaları, sənaye parkları yaradılır, o cümlədən Mingəçevir şəhərində yüngül sənaye parkı. Buna böyük ehtiyac var. Çünki Mingəçevir şəhərində işsizlik başqa şəhərlərdən daha ciddidir, bu da təbiidir, çünki şəhərdir və şəhərdə işsizlik adətən daha çox olur. Ona görə Mingəçevirdə işsizliyin aradan qaldırılması üçün biz onu bir sənaye şəhəri kimi inkişaf etdirməliyik. Artıq orada iki böyük iplik fabriki fəaliyyət göstərir, mən onların açılışında olmuşam. Bu, birinci mərhələdir. Fabriklərin sayı çox olmalıdır və biz çalışmalıyıq ki, pambığı maksimum dərəcədə emal edək. Çünki bugünkü emal səviyyəsi bizi qane edə bilməz.

Onu da bildirməliyəm ki, Azərbaycanda pestisid zavodu yaradılıb, bu da çox önəmli məsələdir. Mənim təşəbbüsümlə gübrə və polimer zavodları da fəaliyyət göstərir. Yəni, biz indi polimerdən hazır məhsul istehsal edə bilərik. Gübrələri xaricdən yox, daxili istehsalçılardan ala bilərik. Yəni, bütün bu addımlar bir məqsədi güdür ki, ölkəmiz daha da güclənsin, sürətlə inkişaf etsin və vətəndaşlar işlə təmin olunsunlar.

Pambıqçılıqla yanaşı, bizim üçün ənənəvi olan, ancaq müəyyən müddətdə bir qədər unudulmuş digər kənd təsərrüfatı sahələri də inkişaf edir. Onlardan biri baramaçılıqdır. Bu məsələ ilə mən məşğul olmağa başlayanda gördüm ki, cəmi 240 kiloqram barama tədarük edilmişdir. Ancaq sovet vaxtında nə qədər tədarük edilirdi?! Ona görə görülən tədbirlər nəticəsində biz həm tingləri aldıq və Qax şəhərində damazlıq stansiya yaradıldı, dövlət dəstəyi göstərildi. Artıq bu il 630 ton barama tədarük edildi. Bu, eyni zamanda, imkan verdi ki, Şəki ipək kombinatı tam gücü ilə işləsin. Orada yüzlərlə insan işlə təmin olundu. Baramaçılığın böyük gələcəyi var, çox gəlirli və çox da əmək tələb etməyən sahədir. Vətəndaşlar qısa müddət ərzində - bir ay, yaxud da ay yarım ərzində yaxşı pul qazana bilirlər.

Biz fındıqçılığı sürətlə inkişaf etdiririk. Bağların sahəsini kəskin artırmışıq, 30 min hektardan indi təqribən 80 min hektara çatdırırıq. Artıq biz fındıq istehsalı və ixracı sahəsində dünyada üçüncü yerə çıxmışıq. Bu da çox gəlirli sahədir və əlbəttə, təzə salınan bağlar hələ bar vermir. Hesab edirəm ki, bir neçə ildən sonra fındıqçılıq valyuta idxalı baxımından kənd təsərrüfatının əsas sahələrindən birinə çevriləcəkdir.

Əvvəlki dövrlərdə mənim sədrliyimlə çəltikçilik, sitrusçuluq, tütünçülük, çayçılıq üzrə müşavirələr keçirildi. Bu ənənəvi sahələr inkişaf edir. Biz siqareti ixracyönümlü məhsul kimi görürük. Bu il Sumqayıtda yeni siqaret fabriki açıldı, Bakıdakı fabrik yenidən quruldu. Biz həm idxaldan asılılığı azaldırıq, həm də böyük ixrac imkanı yaradırıq. Yəni, bütün bu sahələr bizim üçün ənənəvi sahələrdir. Sadəcə olaraq, dövlət diqqəti azalanda bu sahələr məhvə doğru gedirdi, o cümlədən üzümçülük. İndi mən bunu qeyd etdim, Ulu Öndərin vaxtında 2 milyon ton üzüm istehsal olunurdu, onlarla şərab zavodu fəaliyyət göstərirdi. Hamısı sıradan çıxdı, məhv edildi. O zavodların materialları satıldı, yəni, böyük bir cinayət törədildi və demək olar ki, bu sahə itib-batmışdı. Mən rəqəmlərə baxanda gördüm ki, bir neçə il bundan əvvəl cəmi 100 min ton üzüm istehsal olunurdu, yeni bağlar salınmırdı. Çünki əl vermirdi, gərək xərcləyəsən, 5-6 il gözləyəsən, məhsul götürəsən, sonra hara satasan? Şərab zavodları yox, emal yox, ona görə üzümçülük batıb gedirdi. Bir də ki, əlbəttə, Ulu Öndər

Azərbaycandan gedəndən sonra burada rəhbərlik etmiş şəxslər də bu cinayətin törədilməsində fəallıq göstərirdilər, üzüm bağlarını qırırdılar. Bu, böyük bir cinayətdir. Nə Ukraynada, nə Gürcüstanda, nə Moldovada, nə Ermənistanda bunlar olmadı. Ancaq burada, nəyə görə? Çünki buraya Qorbaçov tərəfindən cəza kimi bir yaramaz adam göndərildi, onun da əsas məqsədi Azərbaycanı məhv etmək idi və buna nail olmağa çalışırdı. Ancaq Azərbaycan xalqı imkan vermədi və cinayət törədəndən sonra 1990-cı ildə buradan qaçdı. Ondan sonrakı dövrdə - xüsusilə AXC-Müsavat antimilli qruplaşma hakimiyyətə gələndə onlar, ümumiyyətlə, başa düşmürdülər, anlamırdılar ki, kənd təsərrüfatı nədir. Onların məqsədi talançılıq idi, Ləl-Cavahirat Fondunu taladılar, orada bir dənə də əşya qalmamışdır, hamısını satdılar, neft bonuslarını oğurladılar. Səhv etmirəmsə, onların dövründə təqribən 20 və ya 30 milyon dollar dəyərində neft bonusu verilmişdi, oğurladılar. Sonra bunu axtarmağa başlayanda onun izi-tozu da qalmamışdı. Bir il ərzində milyardlarla dollar ziyan vurdular, taladılar, oğurladılar, öz ciblərini doldurdular, sonra da qorxaqcasına fərarilik edərək hakimiyyəti tərk etdilər, vəzifələrini dondurdular və bu gün də öz rəzil hərəkətləri ilə cəmiyyətdə ikrah hissi doğururlar. Onların bu qorxaqlığı, panika, isterika, paronoya və satqınlığı artıq heç kimə sirr deyil. Bax, bu idi real vəziyyət.

Ancaq bu gün biz ölkəmizin hərtərəfli inkişafına nail olmuşuq və bütün reytinqlər bunu göstərir. Bu yaxınlarda Azərbaycan dünyanın güclü ölkələri sırasına daxil edilib. Bu siyahıda cəmi 80 ölkə var və bizim bədnam qonşumuzun adı orada yoxdur. Bilmirəm onların adı hansı dəftərdə var, amma, hər halda, bunu artıq biz demirik, bunu mötəbər qurumlar deyir. Biz güclü dövlətlər sırasında 45-ci yerdəyik. Bir neçə inkişaf etmiş ölkəni qabaqlamışıq. Hələ mən Davos reytinqlərini demirəm, onu dəfələrlə demişəm. Bax, budur bugünkü Azərbaycan.

Ancaq əlbəttə ki, biz əldə edilmiş nailiyyətlərlə kifayətlənə bilmərik. Hazırda kənd təsərrüfatı sahəsində çox ciddi islahatlar aparılır, şəffaflıqla, subsidiyalarla bağlı yeni mexanizmlər tətbiq edilir. Əvvəlki dövrlərdə həm mərkəzi, həm də yerli icra orqanları tərəfindən subsidiyalarla bağlı böyük pozuntular var idi. Buna son qoyulur və son qoyulmalıdır. Bu sahədə və bütün başqa sahələrdə tam şəffaflıq olmalıdır, o cümlədən ödənişli ictimai iş yerlərinin yaradılması ilə bağlı. Bir neçə icra başçısı vəzifədən çıxarıldı və səbəblərdən biri də o idi ki, onlar kasıb vətəndaşlar üçün nəzərdə tutulan vəsaiti ora-bura xərcləyirdilər. O siyahılara ya öz qohumlarını yazdırırdılar, ya da ki, ümumiyyətlə, o vəsait ünvana çatmırdı. Belə siqnallar olub, onlar araşdırılır və daha da ciddi araşdırılacaq. İş təkcə inzibati cəza ilə məhdudlaşmayacaq və bunu hər kəs eşitsin, bilsin, burada oturanlar və burada olmayanlar. Ona görə hər yerdə şəffaflıq, dövlətə və xalqa, vətəndaşlara xidmət etmək əsas prinsip olmalıdır ki, vətəndaşlar dövlətin diqqətini daim hiss eləsinlər, necə ki, biz hər bir çətin anda vətəndaşın yanındayıq.

Bu il zəlzələ olmuşdur. Üstündən cəmi 10 ay keçib, bütün əsas tikinti işləri artıq başa çatıb. Minlərlə ev tikildi, təmir və bərpa edildi. Bəziləri deyir ki, indi vətəndaşlar gərək bu evləri özləri bərpa etsinlər, gərək sığortalasınlar. Əlbəttə, gərək sığortalasınlar. Mən də söz düşmüşkən bunu deməliyəm, o cümlədən ticarət obyektləri, onların hər biri sığortalanmalıdır ki, sabah bədbəxt hadisə, yanğın baş verəndə gedib sığorta şirkətinə müraciət etsin. Yoxsa ki, yanğın baş verir, günahkar da özüdür, sonra da gəlib deyirlər ki, dövlət bunun pulunu versin. Hansı ölkədə belə şey var? Hansı ölkədə dövlət özəl sahibkara hansısa bədbəxt hadisəyə görə təzminat ödəyir? Heç bir yerdə belə şey yoxdur. Hərə gedir öz əmlakını, öz mülkünü sığortalayır, bədbəxt hadisə baş verəndə sığorta şirkəti gəlib onun pulunu verir, vəssalam. Bizdə də belə olmalıdır. Mən bunu özəl şirkətlərə, ticarət obyektlərinə aid edirəm və xəbərdarlıq edirəm ki, əgər haradasa daşqın, yanğın nəticəsində nəsə yanır, batırsa, dövlətdən dəstək almağa ümid etmək lazım deyil. Düzdür, biz bəzi hallarda ən kasıb, ən yoxsul təbəqəyə kömək göstəririk. Amma altında böyük maşınlar, mülklər, villalar olan sahibkara dövlət nə üçün kömək etməlidir? Axı, bu, ədalətsizdir. Dövlət kimə kömək etməlidir, ehtiyacı olana. Pulu olan adam özü kasıba kömək etməlidir. Mən bunu sahibkarlara dəfələrlə demişəm, onların sosial məsuliyyəti olmalıdır. Pul qazanırlar, dövlət şərait yaradıb, harada belə şərait var? Ölkələr var ki, od içindədir. Bizim bölgəmizdə, Yaxın Şərqdə, Avropada, Asiyada, Latın Amerikasında müharibələr, münaqişələr, qanlı toqquşmalar, kütləvi etirazlar, polis zorakılığı, dağıntılar baş verir. Bizdə sabitlikdir, kim yaradıb bunu, biz, kim faydalanır, bütün vətəndaşlar, o cümlədən sahibkarlar. Rahat yaşayırlar, heç kim onlara dəymir, əksinə, Prezident həmişə onları dəstəkləyir. Getsinlər camaata, kasıba əl tutsunlar. Biz o insana kömək edirik ki, onun ehtiyacı var. Şamaxıda, Ağsuda, İsmayıllıda zəlzələ baş verdi. Biz necə biganə qala bilərdik, vətəndaşlar qışda donsunlar? Ona görə biz dərhal vəsait ayırdıq, bütün qurumları səfərbər etdik və 10 ay ərzində qış gələnə qədər onların evləri tikildi və təmir edildi. Bax, bu, bizim məsuliyyətimizdir, o insanlar ki, doğrudan da ehtiyac içindədirlər, o evləri özləri bərpa edə bilməzlər. İndi o evləri sığortalamaq üçün maarifləndirmə işləri aparılmalıdır. Ancaq hansısa biznesmenə, böyük mülklərə sahib olan varlı bir adama dövlət niyə kömək etməlidir? Qətiyyən elə şey ola bilməz və hər kəs nəticə çıxarsın.

Beləliklə, bu gün pambıqçılıqla bağlı məsələlər müzakirə olunarkən bir daha demək istəyirəm ki, mən görülmüş işlərə yüksək qiymət verirəm, bütün qurumlar fəal işləyiblər. Prezident Administrasiyası bu işləri koordinasiya edib. Kənd Təsərrüfatı Nazirliyi, yerli icra orqanlarının bir çoxu yaxşı nəticələr əldə ediblər, pis göstəriciləri olan rayonlar da nəticə çıxarmalıdır.

## *Pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər ilə bağlı müşavirədə İlham Əliyevin yekun nitqi*

Beləliklə, bir daha demək istəyirəm ki, bu ilin nəticələri məni çox sevindirir. Əsas məsələ ondadır ki, biz pambıqçılıqda da düzgün müəyyən edilmiş hədəflərin həyatda reallığa çevrildiyini görürük. Pambıqçılıq yenə də gəlirli, əməktutumlu sahəyə çevrilib və ölkə iqtisadiyyatına, o cümlədən makroiqtisadi vəziyyətin sabit qalmasına, manatın məzənnəsinin möhkəmlənməsinə və sabit qalmasına müsbət təsir göstərir.

Çünki sirr deyil ki, bizim əsas valyuta gətirən sahəmiz neft-qaz sektorudur. Əlbəttə ki, bu sektorun inkişafı daim diqqət mərkəzindədir və böyük uğurlar əldə edilib. Ancaq əsas vəzifəmiz qeyri-neft sənayesi və kənd təsərrüfatı hesabına iqtisadiyyatı şaxələndirməkdir. Bu il həm qeyri-neft sənayesi, həm də kənd təsərrüfatı əhəmiyyətli dərəcədə artıb. Qeyri-neft sənayesi 14, kənd təsərrüfatı isə 7 faizdən çox artıbdır. Əminəm ki, bu meyillər bundan sonra da davam etdiriləcək və beləliklə, biz kənd təsərrüfatını ən müasir standartlara uyğun şəkildə inkişaf etdirəcəyik.

Bir daha demək istəyirəm ki, biz gərək pambıqçılıqla bağlı məsələlər arasında mütərəqqi texnologiyalara daha böyük meydan verək. Çünki pilot layihələr icra edildi və məhsuldarlıq da çox yüksəkdir – təqribən 60 sentner. Ona görə hesab edirəm ki, gələn il biz bu pilot layihələrin sahəsini artırmalıyıq və Kənd Təsərrüfatı Nazirliyi bu məsələ ilə bağlı öz təkliflərini verməlidir.

Eyni zamanda, bu gün bir məsələ o qədər də diqqətdə olmadı, amma bu da çox vacib məsələdir, bu, toxum istehsalı məsələsidir. Biz lifsiz pambıq toxumu istehsalı zavodu işə salmalıyıq. İndi belə layihə var və hesab edirəm ki, işlərə gələn il start verilməlidir. Hər halda zavodun tikintisi bir il, bəlkə də il yarım çəkər ki, biz özümüzü bu keyfiyyətli toxumlarla təmin edək.

Tədarükçü şirkətlər bu il fermerlərə ödənilən vəsaiti çox operativ qaydada çatdırıblar. Əminəm ki, gələn il də belə olacaq. Yəni, indi hər gün, bəziləri bir neçə gündən bir öz əməkhaqqını alır. Hesablaşmalar dəqiq və ləngitmədən aparılmalıdır.

Pambıq istehsalı sahəsinə daha çox güzəştli kreditlər ayrılmalıdır. İqtisadiyyat Nazirliyinə göstəriş verilir ki, bu məsələlər təhlil edilsin. Gələn il təqribən 200 milyon manata yaxın güzəştli kreditlər nəzərdə tutulur və pambıqçılıq sahəsinə kifayət qədər vəsait ayrılmalıdır.

Bizim pambıq emalı zavodlarının fəaliyyəti bir daha nəzərdən keçirilməlidir. Çünki bu zavodların böyük hissəsi sovet vaxtında tikilib. Orada həm səmərəlilik aşağıdır, həm də keyfiyyət o qədər də lazımi səviyyədə deyil. Ona görə zavodların istehsal gücü dəqiqliklə hesablanmalıdır. Çünki indi bəyan edilən istehsal gücləri reallığı əks etdirmir. Pambıqtəmizləmə zavodlarının istehsal gücü pambığın artan həcmi ilə uzlaşmalıdır. Çünki əminəm ki, biz məhsuldarlığı, artıracağıq və indi rəqəm demək istəmirəm, amma hər halda gələn il 30 sentnerdən çox pambıq tədarükü gözlənilir. Belə olan halda 300 min tondan çox pambıq yığılacaq və bizim pambıqtəmizləmə zavodları bu həcmi götürə biləcək, yoxsa yox? Bu, birincisi. İkincisi, zavodlarda modernləşdirmə aparılmalıdır. Əgər lazım olarsa, dövlət maliyyə dəstəyi də göstərə bilər. Bu il Ucarda yeni pambıqtəmizləmə zavodu istifadəyə verilib. Mənə verilən məlumata görə, yüksək standartlara cavab verir. Özü də bu, özəl sektor tərəfindən inşa edilibdir. Bu, çox müsbət haldır. Hesab edirəm ki, özəl qurumlar bu sahəyə diqqət yetirməlidirlər. Bütövlükdə araşdırılmalıdır ki, prinsipcə, bizə yeni pambıqtəmizləmə zavodlarının tikintisi lazımdır, yoxsa yox? Əgər lazımdırsa, hansı həcmdə ki, dövlət tərəfindən veriləcək dəstək də bəri başdan hesablansın. Yeni iplik fabrikləri yaradılmalıdır. Çünki hələ ki, yığılan pambığın 40 faizi emal olunur. Bu, pis göstərici deyil. Ancaq çalışmalıyıq ki, mahlıc 100 faiz emal olunsun. Çünki bu, əlavə dəyər zənciri, iş yerləri yaradır. Sənaye istehsalı da artacaq. Ona görə yenə də özəl sektora müraciət edirəm ki, bu məsələyə diqqət yetirsin. Kifayət qədər pambığımız var. Ona görə iplik fabriklərinin tikintisi çox gəlirli sahəyə çevriləcək. Lazım olarsa, dövlət öz tərəfindən güzəştli kreditlərlə bu layihələri dəstəkləyə bilər. Ancaq iplik fabriklərinin tikintisi də bizim son hədəfimiz deyil. Son hədəf hazır məhsul istehsal etməkdir. Bu məqsədlə yeni toxuculuq, trikotaj fabrikləri tikilməlidir, yem, yağ fabrikləri yaradılmalıdır. Bütün bunlar bizim iqtisadiyyatımızı gücləndirəcək və əlavə minlərlə iş yeri yaradacaqdır.

Biz daxili tələbatı daxili resurslar hesabına təmin etməliyik. Biz indi pambığı tədarük edirik, onun böyük hissəsi - 60 faizi mahlıc, 40 faizi iplik kimi ixrac olunur. Sonra bu iplikdən istehsal edilən hazır məhsullar bizə idxal olunur və buna milyonlarla, on milyonlarla pul gedir. Ona görə bu sahədə daxili istehsal inkişaf

etməlidir və zəncir tipli bir tədarük-istehsal kompleksi yaradılmalıdır. Dövlət-özəl tərəfdaşlığı burada əsas rol oynayacaqdır.

Bütövlükdə bu işlərin mütəşəkkil şəkildə həyata keçirilməsi üçün Prezident Administrasiyası, Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, yerli icra orqanları və tədarükçü şirkətlər və digər şirkətlər, - hansılar ki, bu gün burada iştirak etmir, - birlikdə fəaliyyət planı tərtib etməlidirlər. 2020-ci il üçün çox geniş və müfəssəl yol xəritəsi tərtib edilib icra olunmalıdır. Belə olan halda pambıqçılıq Azərbaycanda daha sürətlə inkişaf edəcək, həm bu sahədə məşğul olan insanlara, həm də ki, dövlətə xeyir gətirəcəkdir. Sağ olun.

## *2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə İlham Əliyevin nitqi*

Əziz idmançılar, əziz dostlar.

Biz hər ilin sonunda idman nailiyyətlərinə yekun vururuq, idmançıları, idman mütəxəssislərini, veteranları mükafatlandırırıq. Bu il də istisna deyil. İlin sonunda bir daha görüşürük, eyni zamanda, gələcək planlar haqqında danışırıq, fikirlərimizi bölüşürük və beləliklə, Azərbaycanda idmanın inkişafı dayanıqlı xarakter alır.

Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idman nəticələrimiz, uğurlarımız, qələbələrimiz, eyni zamanda, idmana dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının icrası, əlbəttə ki, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar bizim fəaliyyətimizə çox yüksək qiymət verirlər.

Ən əsas məsələ ondan ibarətdir ki, Azərbaycanda idmanın kütləviliyi təmin edilir, idmanla məşğul olmaq istəyən gənclərin sayı kəskin artır, biz bunu görürük, izləyirik. Biz buna görə görkəmli idmançılarımıza minnətdar olmalıyıq. Ümumiyyətlə, hesab edirəm ki, idman sahəsində görülən işlər gəncləri də həvəsləndirir. Azərbaycan gənclərinin idmana böyük maraq göstərməsi bizi sevindirir. Əlbəttə ki, görkəmli idmançılarımızın uğurları bizim idman şöhrətimizi daha da yüksəklərə qaldırır. Bu baxımdan bu il də əlamətdar il olmuşdur. Bizim idmançılarımız beynəlxalq idman yarışlarında 775 medal qazanmışlar, onlardan 271-i qızıl medaldır. Bu, onu deməyə əsas verir ki, idmançılarımız ölkəmizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil ediblər və Azərbaycanın dövlət himnini dəfələrlə səsləndiriblər, bizim bayrağımızı yüksəklərə qaldırıblar.

İdman nailiyyətləri arasında şahmatçıların uğurlarını xüsusilə qeyd etmək istərdim. Çünki bu, onu göstərir ki, bizim gənclərimiz nəinki fiziki cəhətdən güclüdür, eyni zamanda, onların intellektual potensialı da çox yüksəkdir. Bizim görkəmli şahmatçımız Teymur Rəcəbov Dünya Kubokunun qalibi olmuşdur. Bu, tarixi hadisədir. On altı yaşadək yeniyetmələrdən ibarət şahmat komandamız Dünya Şahmat Olimpiadasının qalibi olmuşdur. Bu da onu təsdiqləyir ki, şahmata göstərilən diqqət, son illərdə rayonlarda şahmat məktəblərinin açılması öz nəticəsini verməkdədir. Mənim bölgələrə çoxsaylı səfərlərim çərçivəsində şahmat məktəblərinin açılışı da ənənəvi olaraq proqrama salınır. Demək olar ki, mən ölkəmizdə fəaliyyət göstərən əksər şahmat məktəblərinin açılışında iştirak etmişəm. Əfsuslar olsun ki, 1980-ci illərin sonlarında və 1990-cı illərin əvvəllərində bir çox şahmat məktəblərimizin təyinatı dəyişdirilmiş, o binalar özəlləşdirilmiş, orada ticarət obyektləri açılmışdır. Əlbəttə ki, bu, ovaxtkı rəhbərlik tərəfindən bizim intellektual potensialımıza vurulmuş böyük zərbə idi.

Ulu öndər Heydər Əliyev hakimiyyətə qayıdandan sonra şahmat məktəblərinin yenidən açılması prosesi başlamışdır və son illərdə bu proses geniş vüsət almışdır. Mənim göstərişimlə rayonlarda yaradılmış gözəl şahmat məktəbləri fəaliyyət göstərir və beləliklə, gənc şahmatçılar yetişir.

Əlbəttə, şahmat çox məşhur, populyar idman növüdür, o idman növüdür ki, insanların, uşaqların intellektual potensialını gücləndirir. Məhz mənəvi dəyərlərimizə bağlı və böyük intellektual potensiala malik olan gənclər bizim gələcəyimizi, müstəqil Azərbaycanın uğurlu gələcəyini təmin edəcəklər. Ona görə gənclər fiziki cəhətdən güclü olmalıdırlar. Onların intellektual potensialı yüksək səviyyədə olmalıdır. Onlar milli dəyərlərə, Vətənə bağlı olmalıdırlar. İdman vətənpərvərlik hisslərini böyük dərəcədə artırır. Hər bir idman qələbəsi, xüsusilə mötəbər beynəlxalq yarışlarda qazanılmış qələbə ölkəmizdə milli qüruru, milli ruhu yüksəldir. Ona görə idmanın hər bir ölkənin həyatında çox önəmli rolu var. Məhz buna görə son illər ərzində idmana çox böyük diqqət göstərilir. Mən Azərbaycan Milli Olimpiya Komitəsinin Prezidenti kimi 1997-ci ildə bu vəzifəyə ilk dəfə seçiləndən sonra Azərbaycanda idmanın inkişafı, idmanda kütləviliyin təmin edilməsi istiqamətində addımlar atmışam və bu addımlar bu gün özünü göstərir.

Aparıcı beynəlxalq idman qurumları Azərbaycanı idman ölkəsi kimi tanıyır. Bizim idman sahəsində ən böyük nailiyyətimiz keçən Yay Olimpiya Oyunlarında qazanılmış qələbədir. Medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerə layiq görülmüşdür. Bu, tarixi qələbədir və bu, təsadüfi qələbə deyil. Çünki ondan bir il əvvəl - 2015-ci ildə Bakıda

keçirilmiş Avropa Oyunlarında Azərbaycan komanda hesabında ikinci yerə qalxmışdır. Ona görə idman sahəsində qazandığımız uğurlar təsadüfi xarakter daşımır. Konseptual şəkildə ardıcıl işlər görülür, veteran idmançılara diqqət və qayğı göstərilir, onlar dövlət tərəfindən mükafatlandırılırlar. İdman mütəxəssisləri çox gözəl şəraitdə işləyirlər, idmançılar üçün də bütün şərait yaradılıb. Onların təlim-məşq toplanışları, beynəlxalq yarışlarda iştirakı və idmanla məşğul olmaları üçün yaxşı şərait yaradılıb. Hazırda bizim ancaq bölgələrdə 45 Olimpiya İdman Mərkəzimiz var. Bu il bir mərkəz Beyləqan şəhərində mənim iştirakımla açılıbdır. İki Olimpiya İdman Mərkəzi açılışa hazırdır - Yardımlı və Tərtər rayonlarında. İki Olimpiya Mərkəzinin tikintisi davam etdirilir - Goranboy və Neftçala şəhərlərində. Yevlax şəhərində Olimpiya Mərkəzinin layihələndirmə işləri başa çatıb və əminəm ki, yaxın zamanlarda onun inşası başlanacaq. Beləliklə, biz demək olar ki, hər bir rayonda müasir idman kompleksi istifadəyə verərək idmançılar üçün şərait yaratdıq. Bu, həm gənc idmançıların idman bölmələrində hazırlıq keçmələri, həm də şəhər və rayon sakinləri üçün gözəl imkandır.

Mən tövsiyə edərdim ki, hər bir vətəndaş idmanla məşğul olsun. Özü də həftədə, ayda bir dəfə yox, müntəzəm olaraq. Bunun çox böyük xeyri var və əgər belə olarsa, hər bir insan öz həyatında bunu görəcəkdir. Mən ümid edirəm ki, biz buna nail olacağıq. Çünki başqa sahələrdə mənim tövsiyələrim artıq həyatda öz əksini tapır. Bəlkə də indi siz yaxşı xatırlayırsınız ki, rayon mərkəzlərində və kəndlərdə yeni xəstəxanaların, tibb ocaqlarının açılışı zamanı mən dəfələrlə eyni məsələyə qayıdıb tövsiyə edirdim ki, hər bir vətəndaş ildə bir dəfə tibbi müayinədən keçsin və bilsin, onun sağlamlığı, səhhəti nə yerdədir. Əgər hər hansı bir xəstəliyin ilkin təzahürləri varsa, dərhal müalicə alsın və sağalsın. Bütün şəhərlərdə, rayonlarda müasir, özü də ən yüksək dünya standartlarına cavab verən tibb mərkəzlərimiz yaradılandan sonra artıq bu prosesə daha çox meyil göstərilir. Ondan sonra biz bunu mütəşəkkil qaydada icra etməyə başladıq. Artıq bir neçə ildir ki, böyük maarifləndirmə və təbliğat işləri apararaq vətəndaşların pulsuz müayinədən keçmələri üçün imkanlar yaratdıq. Bu il 5 milyondan çox Azərbaycan vətəndaşı pulsuz tibbi müayinədən keçibdir. Orada müayinədən keçən vətəndaşların əgər hər hansı bir xəstəliyi olarsa, dərhal müalicə edilir. Əgər rayon şəraitində buna imkan yoxdursa, Bakıya göndərilir və beləliklə, insanlar öz səhhətini qoruyurlar. Biz buna nail olmuşuq və deyə bilərəm ki, Azərbaycan bəlkə də dünyada dövlət tərəfindən bütün vətəndaşlara tibbi müayinədən keçmək şəraitinin yaradıldığı nadir ölkələrdən biridir. Əminəm ki, mənim hər bir insanın fiziki imkanlarına uyğun olaraq idmanla məşğul olması barədə tövsiyəm də həyatda öz əksini tapacaq. Onda hər bir insan görəcək ki, bunun nə qədər böyük faydası var.

Bizim idman şöhrətimizi yüksəklərə qaldıran görkəmli idmançılarımıza da tövsiyə edirəm ki, onlar da bu maarifləndirmə işlərində fəal iştirak etsinlər. Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, idman cəmiyyətləri, klublar idmanın kütləviliyini təmin etsinlər. Bilirsiniz ki, çoxdandır mənim təşəbbüsümlə biz ictimai istirahət zonaları yaradırıq. Artıq parklar, bağlar şəhəri olan Bakı bu baxımdan dünyada qabaqcıl yerlərdədir. Baxın, son vaxtlar Bakı şəhərində nə qədər ictimai istirahət zonaları yaradılıb. Sovet vaxtından qalan bütün ənənəvi parklar ən yüksək səviyyədə yenidən quruldu. Vaxtilə dağılmış, guya fəaliyyət göstərən, əslində, ekologiyamıza ziyan vuran sənaye müəssisələrinin yerində bir çox yeni parklar salındı. Sonra mənim göstərişimlə bu ictimai parklarda açıq havada idman qurğuları quraşdırılmağa başlanmışdır. İndi “Abad həyət” proqramı icra edilir. Artıq Bakı şəhərində onlarla həyət abadlaşdırılıb. Orada idman meydançaları, o cümlədən trenajorlar quraşdırılıb. İndi hər bir insanın açıq havada idmanla məşğul olması üçün imkanlar var. Uşaqlar, böyüklər orada futbol, başqa oyunlar oynayırlar, trenajorlarda məşq edirlər. Bu, kütləvi xarakter almalıdır. O halda millətimiz sağlam olacaq.

Ona görə görkəmli idmançılara müraciət edərək onları bu işə dəvət edirəm. Bizim mətbuat orqanları gərək bu sahədəki fəaliyyətini gücləndirsinlər. Düzdür, bizim bəzi televiziya kanallarında aerobika, başqa fiziki fəallıqla bağlı verilişlər var. Bu verilişlərdə vətəndaşlara göstərilir ki, idmanın hansı növünü, hansı hərəkətləri ev şəraitində edə bilər. Amma hesab edirəm ki, bu, kifayət deyil. İdman kütləvi xarakter almalıdır, ona görə yox ki, biz daha çox medallar qazanmaq əzmindəyik, - halbuki bu da vacibdir, - ona görə ki, bizim millətimiz sağlam olsun, xəstələnməsin. İdmanla məşğul olan insanlar, buradakı idmançılar bunu öz həyatlarında görürlər. Baxmayaraq ki, iş qrafikim çox gərgindir, mən idmanla müntəzəm, fasiləsiz məşğul oluram. Bəlkə Azərbaycanda məndən çox işləyən adam yoxdur, ancaq buna baxmayaraq, vaxt tapıb idmanla müntəzəm məşğul oluram və bunun xeyrini görürəm. Ona görə mənim tövsiyəm budur. Əminəm ki, yaxın gələcəkdə mənim bu tövsiyələrim əsasında konkret təkliflər olacaqdır, idman kütləviliyi ilə bağlı geniş proqram tutulacaqdır.

İndi bizim böyük şəhərlərdə idman komplekslərimiz var, ancaq kənd yerində bu, yoxdur. Düzdür, bəzi kəndlər şəhərlərə yaxın yerləşir və orada yaşayan uşaqlar, yeniyetmələr idman komplekslərinə gedə bilirlər. Ancaq bəzi ucqar kəndlər var. Ona görə kənd idmanının inkişafı üçün xüsusi proqram tərtib edilməlidir, buna diqqət verilməlidir. Ucqar kəndlərdə

yaşayan uşaqlar bəzi hallarda bilmirlər nə ilə məşğul olsunlar. Orada o bölgəyə uyğun olan formada idman qurğuları tikilməlidir, yarışlar keçirilməlidir, rayon yarışları. Nə üçün bizdə rayon yarışları keçirilmir? Hesab edirəm ki, bu, böyük boşluqdur, böyük qüsurdur. Rayon idman yarışları keçirilsin. Bu, həm idmanın inkişafına xeyir verər, həm də idmanın kütləviliyini təmin edər. Ona görə idmanla məşğul olan bütün qurumlara mənim tapşırığım bundan ibarətdir.

O ki qaldı, gələcək fəaliyyətimizə, Azərbaycanda bundan sonra da beynəlxalq idman yarışları keçiriləcək. Bu baxımdan bu il əlamətdar il olmuşdur. Bir neçə dünya, Avropa çempionatı keçirilmişdir, gimnastika üzrə, digər idman növləri üzrə. O cümlədən Avropa Gənclər Olimpiya Festivalı keçirilmişdir. Bakı şəhərinə Avropanın bütün ölkələrindən yeniyetmələr, gənclər gəlmişlər. Bildirməliyəm ki, bizim gənclərimiz də yaxşı nəticə göstərmişlər, komanda hesabında 4-cü yerə layiq görülmüşlər. Bu il Bakıda daha bir əlamətdar idman yarışı keçirilib. Futbol üzrə Avropa Liqasının final oyunu ilk dəfə olaraq Azərbaycanda, Bakı Olimpiya Stadionunda keçirilibdir. Bütün təşkilati məsələlər ən yüksək səviyyədə öz həllini tapıb, bunu da mən xüsusilə qeyd etmək istəyirəm. Çünki minlərlə xarici tamaşaçı, xarici qonaq gəlmişdir. Minlərlə qonağın bir gün, iki gün ərzində gəlməsi əlbəttə ki, bizim üçün müəyyən problemlər yarada bilərdi, ictimai nəqliyyatla, təhlükəsizliklə bağlı. Həmçinin hava limanında təyyarələrin, o cümlədən çarter təyyarələrin enişi ilə bağlı müəyyən problemlər ola bilərdi. Ancaq bütün müvafiq qurumlar, Təşkilat Komitəsi çox səmərəli işləyiblər. Ümumi rəyə əsasən, təşkilati məsələlərə görə Bakı Avroliqa final yarışı nümunə kimi göstərilir. Mən indi başqa şəhərlərdə buna oxşar yarışların keçirilməsi ilə bağlı bir söz demək istəmirəm, ancaq bizə gələn məlumata görə, hətta Çempionlar Liqasının final oyunları bəzi şəhərlərdə bu səviyyədə keçirilmir. Bizdə olan nizam-intizam, qayda-qanun, təşkilati məsələlər, könüllülərin fəaliyyəti, bütün aidiyyəti qurumların birgə fəaliyyəti bunu təmin edibdir.

Gələn il bizdə yenə də mötəbər idman yarışlarının keçirilməsi nəzərdə tutulur. Onların arasında bir nömrəli yarış futbol üzrə Avropa çempionatının dörd oyunudur, onlardan biri dörddəbir finaldır. Artıq tarixlər də bəllidir, hazırlıq işləri də aparılıb, xaricdən gələn çox böyük tamaşaçı auditoriyası olacaq. Əminəm ki, bu yarış da ən yüksək səviyyədə keçiriləcək və Azərbaycan öz imkanlarını, o cümlədən təşkilatçılıq qabiliyyətini bir daha göstərəcəkdir.

Ənənəvi olaraq Formula 1 yarışı keçiriləcəkdir. Futbol üzrə Avropa çempionatının oyunları ilə Formula 1 yarışı üst-üstə düşür. Ona görə təşkilati məsələlərlə məşğul olan bütün qurumların üzərinə əlavə məsuliyyət düşür. Gərək bütün bu işləri elə planlaşdıraq ki, bu iki önəmli tədbir bir-birinə maneçilik törətməsin. Ona görə indidən bütün işlər düzgün qurulmalıdır.

Formula 1 yarışına gəldikdə, deyə bilərəm ki, bu yarışın ölkəmiz üçün çox böyük faydası var. Birincisi, Formula 1 yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların arasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir. İkincisi, Formula 1 yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir, necə ki, bütün başqa şəhərlərə. Əgər kimsə deyirsə, bu, bizə ziyan vurur, o, ya bilmir, ya da ki, qəsdən işləri təhrif etmək istəyir. Əgər, bu, bizə ziyan vurursa, onda yaxşı, bizimlə bərabər bu yarışı keçirən 20-yə yaxın şəhərə də ziyan vurur, onlar da ziyana işləyirlər? Əlbəttə ki, yox. Formula 1 yarışının multiplikativ effekti çox böyükdür. Xaricdən gələn minlərlə qonaq burada pul xərcləyir. Bunun iqtisadi cəhətdən çox böyük səmərəsi var. Birinci Formula 1-dən sonra Azərbaycana kütləvi turist axını başlamışdır. Mən bu tarixləri dəqiq xatırlayıram. Çünki hər ay, yaxud da ki, hər rüb mənə turistlərin gəlişi ilə bağlı məlumat verilib. Beləliklə, birinci yarış keçiriləndən sonra turistlərin sayı 24 faiz artmışdır. Ondan sonrakı il daha 22 faiz, ondan sonrakı il isə daha 5 faiz. Nəhayət, bu il, artıq on bir ayda 11 faiz artmışdır. Tarixdə ilk dəfədir ki, Azərbaycana 3 milyondan çox turist səfər etmişdir. Mən tapşırıq vermişəm, aidiyyəti qurumlar hesablayırlar ki, bu turistlər nə qədər pul xərcləyiblər. Əlbəttə ki, biz bunu həm ödəmə kartları vasitəsilə dəqiq biləcəyik, eyni zamanda, ehtimal olunan pul sərfiyatını da, - bunun da hesablama metodologiyası var, - hər halda bu, milyardlarla manat səviyyəsindədir. Budur, turistlərin gəlişinin ölkə iqtisadiyyatına verdiyi töhfə.

İş yerlərinin yaradılması, xidmət və nəqliyyat sektorlarının inkişafı - bütün bunlar turizmlə bağlıdır. İndi ən inkişaf etmiş ölkələr, hansıların ki, böyük sənaye, kənd təsərrüfatı potensialı var, onlar da hər turist uğrunda mübarizə aparırlar. İnkişaf etmiş ölkələrdə, xüsusilə mənzərəli yerləri çox olan ölkələrdə turistlərin sayı on milyonlarla ölçülür və bundan çox böyük fayda görürlər. Bəzi ölkələrin turizm sektoru aparıcı iqtisadi sektordur. Əlbəttə, bizdə elə deyil. Ancaq bu sektorun inkişafı üçün Formula 1 yarışının xüsusi əhəmiyyəti vardır.

Əlbəttə, Yay Olimpiya Oyunlarına az vaxt qalıb. Hazırlıq son mərhələdədir. Əminəm ki, Azərbaycan idmançıları Tokio Olimpiya Oyunlarında Vətənimizi ləyaqətlə təmsil edəcəklər və bizim bayrağımız qaldırılacaq, himnimiz səslənəcək.

Mən bir daha bütün idmançıları, yüksək nəticələr qazanmış idmançıları nailiyyətləri münasibətilə təbrik edirəm. Azərbaycanın bütün idman ictimaiyyətinə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

## *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya azərbaycanlılarına müraciəti*

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Azərbaycan xalqının milli-mənəvi bütövlüyünü təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İlk dəfə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə qeyd olunmuş bu tarixi gün xarici ölkələrdə məskunlaşıb yaşayan milyonlarla soydaşımızın azərbaycançılıq məfkurəsi ətrafında sarsılmaz birliyinin və Vətənə sədaqətinin rəmzi kimi hər il xalqımız tərəfindən ruh yüksəkliyi ilə bayram edilir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra yaxın keçmişimizin bir çox tarixi sınaq anlarında mütəşəkkil birlik və həmrəylik nümayiş etdirərək, bütün sahələrdə böyük inkişafa və uğurlara nail olmuşdur.

Bu gün Azərbaycan dövləti müstəqil daxili və xarici siyasəti, artan beynəlxalq nüfuzu, iqtisadi, siyasi və hərbi gücü ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Bir çox qlobal transmilli və regional layihələrin təşəbbüskarı və iştirakçısı olan ölkəmiz dünyanın enerji təhlükəsizliyinə sanballı töhfələr verməklə, regionda mühüm tranzit və logistika mərkəzinə çevrilmişdir. Zəngin təbii resurslarımız və iqtisadi potensialımız Azərbaycanın geostrateji mövqelərinin daha da güclənməsinə etibarlı zəmin yaradır və biz bu istiqamətdə ardıcıl siyasətimizi davam etdirəcəyik.

Sosial-iqtisadi, siyasi-hüquqi sahələrdə və dövlət idarəetməsində həyata keçirilən sistemli islahatlar, milli müstəqillik ideallarına sadiq, müasir dünyagörüşlü gənclərimizin bu prosesə daha fəal cəlb edilməsi bizi inamla qarşıya qoyduğumuz inkişaf strategiyasının hədəflərinə yaxınlaşdırmaqdadır. Uğurlu siyasətin nəticəsidir ki, ölkədə möhkəm ictimai-siyasi sabitlik və milli-mənəvi həmrəylik təmin edilmiş, insanlarımızın maddi rifahı əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

Dünyanın ayrı-ayrı bölgələrində mürəkkəb etnosiyasi proseslərin, din və məzhəb qarşıdurmalarının, humanitar fəlakətlərin baş verdiyi bir vaxtda Azərbaycan sabitliyin, etnik-dini tolerantlığın və multikultural ənənələrin qorunub saxlanıldığı unikal məkandır. Müasir dövrdə insanları narahat edən sülh və təhlükəsizlik məsələlərinin, sivilizasiyalararası dialoq problemlərinin müzakirə edildiyi bir çox mötəbər beynəlxalq tədbirlərə, o cümlədən Dünya dini liderlərinin II Sammitinə, Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünə ev sahibliyi etməsi və növbəti üç ildə bu Hərəkata sədrliyin Azərbaycan Respublikasına keçməsi dövlətimizin beynəlxalq nüfuzunun bariz nümunəsidir. Təsadüfi deyil ki, bu gün dünyanın ən gözəl şəhərləri sırasında yer alan paytaxtımız Bakı qlobal miqyasda sülhün və əmin-amanlığın təminatı üçün önəmli çağırışlar mərkəzinə çevrilmişdir.

Dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycanda “Nəsimi İli”nin elan edilməsi ictimai-mədəni həyatımızın builki əlamətdar səhifələrindən biridir. “Nəsimi İli” çərçivəsində ölkəmizdə və onun hüdudlarından kənarda keçirilmiş rəngarəng tədbirlər Azərbaycan mədəniyyətinin ümumbəşəri əhəmiyyətinin daha bir nümayişi olmuşdur.

Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli və ərazi bütövlüyümüzün bərpası taleyüklü bir vəzifə olaraq qarşıda durur. Dövlətimizin iqtisadi-hərbi qüdrəti, beynəlxalq aləmdə getdikcə güclənən mövqelərimiz və fəal siyasi-diplomatik səylərimiz bu ağrılı problemin Azərbaycanın milli maraqlarına uyğun həlli üçün səfərbər edilmişdir. Son illər ordumuzun cəbhədə qazandığı uğurlar da göstərir ki, əzəli və əbədi Azərbaycan torpağı Qarabağın düşmən tapdağından azad ediləcəyi və tarixi ədalətin zəfər çalacağı gün uzaqda deyildir.

Azərbaycan Respublikası hazırda özünün parlaq və davamlı inkişaf dövrünü yaşayır. Dünyanın müxtəlif guşələrində məskunlaşan, lakin qəlbi daim Azərbaycan eşqi ilə döyünən soydaşlarımız da bu tarixi prosesdən kənarda deyil və onların xalqımızın tərəqqisində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində təqdirəlayiq xidmətləri yüksək qiymətləndirilməlidir.

Ümidvaram ki, harada yaşamalarından asılı olmayaraq, soydaşlarımız məskunlaşdıqları ölkələrin həyatına inteqrasiya ilə yanaşı, öz milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini, tarixi Vətənlə bağlılığı qoruyacaq, Azərbaycanın bu günü və aydın sabahı naminə əməl və əqidə birliyi, sarsılmaz həmrəylik nümayiş etdirəcəklər. Xarici ölkələrdəki çoxsaylı diaspor təşkilatlarımızın gələcəkdə də əzmkar iradə və yüksək vətənpərvərliklə bu amallar uğrunda çalışacağına, xalqımızın və dövlətimizin şərəfli adını daim uca tutacağına inanıram.

Bu yolda hamınıza uğurlar, cansağlığı, ailələrinizə xoşbəxtlik və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

# DÖVLƏT İDARƏÇİLİYİ
# PUBLIC ADMINISTRATION

UOT 323; UOT 32:93/94; UOT 32(092)

**ELMAN NƏSİROV**
**Azərbaycan Respublikası Milli Məclisinin deputatı,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor**
*e-mail: elmannasirov@yahoo.co.uk*

## İLHAM ƏLİYEV – DÜNYA SƏVİYYƏLİ İSLAHATÇI PREZİDENT

*"Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz"*

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

Tarix şəxsiyyətlər yetişdirir. Bu, aksiomdur. İsbata ehtiyacı olmayan digər həqiqət də ondan ibarətdir ki, şəxsiyyətlər də tarix yaradır. Burada qarşılıqlı asılılıq mövcuddur. Bu asılılığın unikallığı ondadır ki, tarix özünün mürəkkəb çağlarını yaşayarkən daha səxavətli olur. Dühalar doğulur. Onlar da tarixə borclu qalmırlar. Missiyaları xilaskarlıq olur. Tarixin, dövlətin və millətin xilaskarı missiyası. Həmin missiyanı müasir Azərbaycan dövlətçiliyi tarixində Ümummilli lider Heydər Əliyev yerinə yetirdi. Zəmanəmizin dühası ilk növbədə Azərbaycanın itirilmiş dövlətçiliyini bərpa etdi, ölkəni permanent xaos vəziyyətindən çıxartdı, vətəndaş müharibəsinin qarşısını aldı, ölkədə milli intibaha nail oldu, bütün sahələrdə dinamik inkişaf tendensiyalarının əsasını qoydu. Azərbaycanda siyasi sabitlik və inkişaf dövrü başlandı. Azərbaycan xalqı dövlətçilik qarşısında müstəsna və misilsiz xidmətlərinə görə Heydər Əliyevə əbədi olaraq minnətdardır. Həm də ona görə minnətdardır ki, Ulu öndərin şah əsəri olan müstəqil Azərbaycan artıq 16 ildir ki, etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Zəmanəmizin dühasından "Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",-qiymətini alan Prezident İlham Əliyev Azərbaycanın bugünkü və gələcək inkişafının təminatçısıdır. Cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan son 16 il ərzində özünün milli dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır.

Prezident İlham Əliyevin Azərbaycan tarixinə yeni missiya ilə qədəm qoymuşdur. Bu missiyanın fəlsəfəsi daha əvvəl «Əsl siyasət konkret, real iş görməkdən ibarətdir» deyərək ictimai fəaliyyətə başlayan cənab İlham Əliyevin 16 il öncə söylədiyi «Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəyəm» fikirləri ilə real məzmun kəsb etməyə başladı.

Bu mərhələnin başlanğıc nöqtəsi 2003-cü il 15 oktyabr tarixli prezident seçkilərində cənab İlham Əliyevin xalqın mütləq əksəriyyətinin səsini toplayaraq (76,86%) dövlətin ali rəhbəri seçilməsi ilə qoyuldu. Prezidentliyinin ilk 5 ili ərzində İlham Əliyevin dövlətçiliyimiz tarixində yeni missiyasının həll etməli

olduğu vəzifələrə Azərbaycanda bir çadır şəhərçiyinin belə qalmayacağı, məcburi köçkünlərin sosial müdafiəsinin təşkilinin əsas məsələ olacağı, yoxsulluğun aradan qaldırılması üçün daha səmərəli tədbirlər görüləcəyi, 600 min yeni iş yerinin açılması istiqamətində qısa zamanda real nəticələr əldə olunacağı, regionların iqtisadi inkişafı və aqrar islahatların ikinci mərhələsi ilə bağlı dövlət proqramları hazırlanacağı, sahibkarlığa dövlət qayğısının artıralacağı, transmilli layihələr çərçivəsində ölkənin yeni infrastrukturunun yaradılmasına nail olunacağı və s. daxil idi. İlham Əliyevin prezidentlik fəaliyyətinin qeyd edilən dövrü ərzində sadalanan bütün istiqamətlər üzrə nəzərəçarpacaq nailiyyətlər əldə olundu. 610 min yeni iş yerinin açılması, neft gəlirlərindən istifadə olunmaqla qeyri-neft sektorunun inkişaf etdirilməsi, sahibkarlığın inkişafına əlverişli şərait yaradılması, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsinin gücləndirilməsi, hər bir azərbaycanlı ailəsi üçün rifahın və təhlükəsizliyin təmin edilməsi, dövlət strukturlarının işinin səmərəli, dünya standartlarına uyğun şəkildə qurulması, rəhbər işçilərin məsuliyyətinin artırılması, milli birliyin və həmrəyliyin möhkəmləndirilməsi, beynəlxalq standartlara cavab verən demokratik parlament seçkilərinin keçirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə imkan verən müstəqil xarici siyasət kursunun yeridilməsi, Avropa və dünya strukturlarına inteqrasiyanın davam etdirilməsi həmin siyasətin real göstəriciləri hesab oluna bilər.

Növbəti seçkilərdə də xalqın mütləq əksəriyyətinin etimadı nəticəsində prezident seçilən İlham Əliyev iqtisadiyyatın bundan sonra da inkişaf etdirilməsi, siyasi islahatların keçirilməsi və ölkənin modernləşdirilməsini ölkəmizin qarşısında duran başlıca vəzifələr kimi müəyyənləşdirdi. İqtisadiyyatın şaxələndirilməsi, siyasi islahatlar, modernləşmə, enerji sektorunda asılılığın azaldılması, təhsil və güclü sosial siyasət ölkəmizin strateji xətti olaraq irəli sürüldü. Optimal məqsəd və vəzifələrin müəyyən edilməsi və onların yerinə yetirilməsi yollarının düzgün tapılması nəticəsində Azərbaycan hətta dünya iqtisadi-maliyyə böhranı illərində analoqu olmayan iqtisadi inkişaf tempinə nail ola bildi. Bu inkişaf kursu sistemli və davamlı xarakter kəsb edir.

Sabitlik, təhlükəsizlik və inkişaf bu mərhələni xarakterizə edən əsas meyarlardır. Sözün həqiqi mənasında son 16 il ərzində ölkəmizdə sabitlik və əmin-amanlıq hökm sürməkdədir. Azərbaycan bü gün müsəlman dünyasında bir sabitlik adası kimi məşhurdur. Təkcə sabitliyin olmaması kifayətdir ki, dövlət xaos və anarxiyaya yuvarlansın. Qonşu regionlarda və dünyada baş verən qanlı münaqişələr, toqquşmalar, müharibələr, risqlər və təhdidlər fonunda ölkəmizdə həyat tərzinə çevrilmiş sabitlik mühiti bizim tarixi nailiyyətimiz və sərvətimizdir. Sabitliyimiz təhlükəsizliyimizi şərtləndirir. Sabitlik və təhlükəsizliyimizin təminatçısı Azərbaycan xalqı və onun hakimiyyətlə olan monolit birliyidir. Səfərbər olunmuş cəmiyyət və vətəndaş həmrəyliyidir. Bu birliyin kökündə dayanan əsas amil xalqın Prezident İlham Əliyevə olan inamı, etimadı və etibarı ilə bağlıdır. Prezidentin xalqının sevgisini qazanmasını şərtləndirən əsas amil isə, onun hər hansı beynəlxalq siyasi dairənin və ya böyük dövlətin diqtəsi altında deyil, məhz öz xalqının mənafeyindən irəli gələn bir siyasəti həyata keçirməsidir.

Bu yolda iqtisadi müstəqillik həlledici amildir. İqtisadi müstəqilliyimiz siyasi müstəqilliyimizi şərtləndirir. Fikrimizi nəzəri mülahizələr, konkret faktlar və arqumentlərlə əsaslandırmağa çalışaq.

Bu, bir həqiqətdir ki, Prezident İlham Əliyev tərəfindən iqtisadiyyatın şaxələndirilməsi, siyasi islahatlar, modernləşmə, enerji sektorunda asılılığın minimuma endirilməsi, təhsil və güclü sosial siyasət ölkəmizin strateji xətti olaraq müəyyən edilmişdir. Optimal məqsəd və vəzifələrin müəyyən edilməsi və onların yerinə yetirilməsi yollarının düzgün seçilməsi nəticəsində Azərbaycan hətta dünya maliyyə-

iqtisadi böhranı illərində belə analoqu olmayan iqtisadi inkişaf tempinə malik olmuşdur.

2003-cü ildən indiyədək ölkəmiz öz müstəqilliyini daha da möhkəmləndirmiş, sosial-iqtisadi, siyasi-diplomatik və hərbi quruculuq sahələrində çox böyük uğurlara imza atmışdır. Ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft iqtisadiyyatı 2,8 dəfə, sənaye 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artmışdır [1]. 2004-cü ildə ölkənin valyuta ehtiyatları 1,8 milyard dollar təşkil edirdisə, hal-hazırda bu göstərici 50 milyard dolları ötmüşdür. Bu illər ərzində ərzində ölkə iqtisadiyyatına 270 milyard dollardan artıq sərmayə qoyulmuşdur ki, bunun da təxminən yarısının xarici investisiyalar təşkil edir [2].

Cənab İlham Əliyev hələ 16 il əvvəl bəyan etmişdi ki, prezident seçiləcəyi təqdirdə regionların inkişafına prioritet məsələ kimi baxacaqdır. Prezident İlham Əliyevin bu istiqamətdə atdığı mühüm addımlar onun sözü ilə əməlinin eyni gücə malik olduğunu növbəti dəfə təsdiqlədi. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı artıq 3 Dövlət Proqramı qəbul olunmuş və onların uğurlu icrası təmin edilmişdir. Növbəti 4-cü Dövlət Proqramının icrasına başlanılmışdır. İlk növbədə infrastruktur layihələrin icrasına start verilmişdir. Bu, bir həqiqətdir ki, energetika hər bir dövlətin iqtisadiyyatının bel sütunudur. Təsadüfi deyildir ki, cənab İlham Əliyev ölkəmizdə elektrik stansiyalarının mövcud olmasına "dövlətimizin uğurlu və sürətli inkişafının əsas amili kimi" yüksək qiymət vermişdir. 2003-cü ildən bəri 30 elektrik stansiyası tikilmişdir. Bu stansiyaların generasiya gücü 2500 meqavata bərabərdir. Məlumat üçün onu da qeyd edək ki, 2004-cü ilədək Azərbaycanda 9 elektrik stansiyası var idi və ölkəmiz elektrikə olan tələbatı əsasən idxal hesabına ödəyirdi. Hazırda isə özümüzü elektrik enerjisi ilə tam təmin edir və onun ixracını həyata keçiririk. Bu məqsədlə həm ölkə ərazisində, həm də 3 qonşu ölkə ilə – Rusiya, İran və Gürcüstanla elektrik xəttlərini birləşdirmişik. Gürcüstan vasitəsilə Türkiyəyə də elektrik enerjisinin ixracı imkanları yaranmışdır. Bu il elektrikm stansiyalarının generasiya gücünün 2900 meqavata çatdırılması nəzərdə tutulur [1].

2004-cü ildə ölkədə qazlaşdırmanın səviyyəsi cəmisi 51% təşkil edirdisə, hal-hazırda bu göstərici 95%-ə yaxınlaşmışdır. Bütün şəhərlər 100% qazla təmin edilmişdir [1].

16 il əvvəl ölkəmizdə əhalinin fasiləsiz olaraq içməli su ilə təminatı 26% səviyyəsində idi. Hazırda bu göstərici 67%-i ötübdür. Bakida 81%, bölgələrdə isə analoji göstərici 43%-ə bərabərdir. Bu sahəyə də perspektivdə böyük sərmayə qoyuluşu nəzərdə tutulur [1].

Oğuz-Qəbələ-Bakı kimi nəhəng su kəməri çəkilmiş, Ceyranbatanda dünyanın ən nəhəng sutəmizləyici qurğusu tikilib istifadəyə verilmişdir. Bu gün bu qurğudan çıxmaqla əhaliyə verilən sular keyfiyyətinə görə Dünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verir.

Ölkəmizdə 16 il ərzində geniş meliorativ tədbirlər həyata keçirilmiş, Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay kimi 4 iri su anbarı tikilmişdir. Son illər ərzində hər il təxminən 100 min hektardan çox suvarılmayan torpaqlara su xəttləri, kanallar çəkilmişdir.

Yol çəkilişi həm iqtisadi, həm də sosial layihədir. Son 16 il ərzində bu istiqamətdə çox böyük uğurlara imza atılmışdır. Təqribən 15 min km yol çəkilmişdir. 2017-ci ildə şərti olaraq "40 yol" adlandırılan layihə çərçivəsində 500-dən çox kəndin keyfiyyətli yola olan tələbatı ödənilmişdir. Möhtərəm Prezident İlham Əliyev sosial yönümlü dövlətin formalaşması və inkişafı kursunu həyata keçirir. Bu siyasətin mərkəzində Azərbayvcan vətəndaşı və onun sosial rifahı dayanır. Həmin siyasətin sayəsində ölkəmizdə işsizlik 5%, yoxsulluq isə 5,4%-ə enmişdir. Təsadüfi deyildir ki, 2020-ci lin dövlət büdcəsində də sosial xərclər bütün xərclərin 38, 5%-ni təşkil edir [3].

Ölkəmiz nümunəvi ictimai və sosial xidmət sahələrində innovativ yanaşmaları ilə dünyanın bir çox dövlətlərini qabaqlayır. Həmin nümunəvi xidmətin ən bariz nümunəsi olaraq ölkə başçısı cənab İlham Əliyevin təşəbbüsü isə 2012-ci ildə Azərbaycan Res-

publikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyinin təsis edilməsini və onun himayəsi altında fəaliyyət göstərən "ASAN xidmət" mərkəzlərini qeyd edə bilərik. Bu günədək ölkə üzrə "ASAN xidmət" mərkəzlərinə daxil olan müraciətlərin sayı 35 milyona yaxındır. 2019-cu ilin 9 ayı ərzində keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,4 faiz təşkil edib. Bu baxımdan "ASAN xidmət"in Birləşmiş Millətlər Təşkilatının 2015-ci il Dövlət Xidmətləri Mükafatına layiq görülməsi də təsadüfi sayılmamalıdır.

Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onu sosial rifahı dayanır. Dövlətimizin siyasəti sosial yönümlüdür və əhalinin həssas qruplarına xüsusi diqqəti ilə seçilir. Eyni məntiqlə Prezident İlham Əliyev şəhid ailələri, müharibə veteranları və əlillərinə daim xüsusi qayğı ilə yanaşır. 2018-ci il 11 aprel tarixində keçirilən president seçkilərində növbəti qələbə qazandıqdan sonra cənab İlham Əliyevin imzaladığı ilk Fərmanın – 2018-ci il 19 aprel tarixli Fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin onun növbəti prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi [4]. 2019-cu il 28 yanvar tarixli fərman isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Beləliklə, hər iki fərmanın icrası olaraq, 12268 şəhidin vərəsələrinə ödəmə verilməsi (bunun üçün 135 milyon manat vəsait ayrılıb) nəzərdə tutulub [5]. Ötən ilin noyabrın əvvəllərindən artıq 6200-ə yaxın şəhidin vərəsəsinə birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul olunub. 2019-cu il ərzində digər vərəsələr də birdəfəlik ödəmə ilə təmin ediləcəklər. 28 yanvar 2019-cu il tarixli Sərəncamla şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün mənzillərin alınması məqsədilə 35 milyon manat ayrıldı. "2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır", deyə bəyan edən Prezident cənab İlham Əliyevin bu sözləri onun uğurlu sosial islahatlar paketinin nailiyyətləri kimi, əhalinin rifah halının yaxşılaşdırılması sahəsində cari ilin ötən dövründə ciddi addımların atılması ilə real təsdiqini tapıb [5].

Prezident cənab İlham Əliyevin sosial islahatlar paketinin daha bir uğurlu nəticəsi 8 fevral 2019-cu il tarixli Sərəncamla ölkədə minimum əmək haqqının 2019-cu il martın 1-dən orta hesabla 40 faiz artırılaraq 180 manata çatdırılması oldu. 600 min (o cümlədən dövlət sektoru üzrə 450 min, özəl sektor üzrə 150 min) işçinin rifahına ciddi dəstək olan bu artım üçün illik 400 milyon manat əlavə vəsait ayrıldı. Dövlət başçısının imzaladığı 25 fevral 2019-cu il tarixli Sərəncam isə ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərdi. Sərəncamla 600 minədək şəxsə, o cümlədən 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlərin, Prezidentin aylıq təqaüdlərinin aprelin 1-dən orta hesabla 100 faiz artırılması təmin edildi, əlavə olaraq bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu. Sərəncamın icrası üçün əlavə olaraq illik 400 milyon manat ayrılması nəzərdə tutulur ki, bu da sosial müavinət və təqaüdlərin verilməsinə yönələn illik vəsaitin 2 dəfə artırılması deməkdir. Eyni zamanda, 2019-cu il 26 fevral tarixli Sərəncamla [4] məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinət 50 faiz artırılaraq 60 manata çatdırılmaqla, bu müavinəti alan 500 mindən çox məcburi köçkünün rifahına mühüm dəstək verildi. 14 fevral 2019-cu il tarixli Sərəncamla 110 minədək tələbənin təqaüdlərinin ciddi şəkildə artırılması da təmin olundu. Ölkədə vətəndaşların sosial problemlərinin həllini öz siyasətində prioriet kimi müəyyən edən Prezident cənab İlham Əliyevin 28 fevral 2019-cu il tarixli Fərmanı [4] devalvasiyanın təsirlərini aradan qaldırmağa və problemli kreditlərin həllinə də şərait yaratdı. Ölkənin sosial həyatı üçün olduqca mühüm olan, 800 mindən artıq insanın problemli kredit narahatlığını aradan qaldıran bu addım Azərbaycan Prezidentinin yüksək

humanizmini, onun daim ölkə vətəndaşının yanında olduğunu bir daha nümayiş etdirdi. 19 fevral 2019-cu il tarixli Fərman [4] isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafelərinin təmin olunmasına xidmət etməklə, Azərbaycanın sosialyönümlü dövlət siyasətinin əsasında humanizm prinsipləri dayandığının növbəti təsdiqi oldu.

Yuxarıda qeyd olunduğu kimi, Prezident İlham Əliyevin sosial siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bu amil ölkəmizdə dayanıqlı iqtisadi inkişafın nəticələrinin, əldə olunan iqtisadi dividendlərin ilk növbədə əhalinin güzəranının yüksəldilməsinə yönəldilməsi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasında real ifadəsini tapır. Bu baxımdan dövlət başçısının yeni sosial paketi kimi təqdim olunan 18 iyun 2019-cu il tarixli sərəncamları, minimum pensiyanın artırılması üçün yeni qanunvericilik təşəbbüsü vətəndaş rifahı naminə atılan mühüm yeni addımlardır. Bu sərancamlardan sonra Azərbaycanda minimum əməkhaqqının məbləği 2019-cu il sentyabrın 1-dən 40 faizədək artırılaraq 180 manatdan 250 manata çatdırılmışdır. Bununla da ölkəmizdə minimum əməkhaqqının məbləğinin yaşayış minimumunu (180 manat) 40 faizədək üstələməsi təmin edilmişdir. Yeni "Minimum aylıq əməkhaqqının artırılması haqqında" Sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq edir və bu istiqamətdə cari il ərzində artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir. Artımdan sonra Azərbaycan Respublikasında minimum əməkhaqqı MDB ölkələri arasında alıcılıq qabiliyyətinə görə 1-ci yerdə qərarlaşmışdır. Orta aylıq pensiya həcminə görə isə 3-cü yerdədir [4].

Beləliklə, ötən dövr ərzində Prezident cənab İlham Əliyevin sosial islahatlar paketi 4 milyon 200 min vətəndaşın rifahında əhəmiyyətli rol oynayan mühüm addımların atılmasına imkan verdi. Bu addımlar büdcə xərclərinin əlavə olaraq 3,7 milyard manat artmasını şərtləndirdi.

Ölkə əhalisinin ən həssas təbəqəsi olan, doğma yurdlarından didərgin salınmış soydaşlarımıza diqqət və qayğı, onların qarşılaşdıqları problemlərin aradan qaldırılması dövlət siyasətinin prioritetini təşkil edir.

2003-cü ildən bu günədək Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, onların məşğulluğunun təmin edilməsi ilə bağlı 70-dən çox fərman və sərəncam imzalamış, bir çox proqramlar qəbul edilmişdir. Dövlət səviyyəsində bu istiqamətdə atılan addımlarla yanaşı, Heydər Əliyev Fondu da fəaliyyətində qaçqın və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi diqqət yetirir.

Bütövlükdə, Prezident İlham Əliyevin rəhbərlyi ilə bu fəaliyyət iki istiqamətdə aparılır. Birincisi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin siyasi həlli tapılanadək müvəqqəti olaraq məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluğunun təmin edilməsidir. Bu sahədə aparılan işlər nəticəsində artıq 300 min qaçqın və məcburi köçkün yeni mənzillərə köçürülmüşdür, 103 yeni qəsəbə salınmışdır. Son bir ildə Bakı, Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində 5 yeni yaşayış kompleksi istifadəyə verilmişdir. 2018-ci ildə 5800-dən çox məcburi köçkün ailəsinin mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır. Cari ildə isə Bu il 6 mindən çox məcburi köçkün ailəsinə yeni mənzillərin verilməsi nəzərdə tutulmuşdur [4]. Heydər Əliyev Fondunun təşəbbüsü ilə ilk dəfə olaraq, özəl sektorun vəsaiti hesabına Bakı şəhərinin Qaradağ rayonu ərazisində 1026 mənzilli "Qobu Park" və 1300 yerlik "Qobu Park-2" yaşayış kompleksi inşa olunaraq istifadəyə verilmişdir [6]. Görülən fəaliyyətin nəticəsi olaraq, 16 il ərzində məcburi köçkünlər arasında yoxsulluq həddi 75 faizdən 12 faizədək azalmışdır.

Digər istiqamət isə dövlət qurumları və beynəlxalq təşkilatların iştirakı, onların rəy və təklifləri, beynəlxalq təcrübə nəzərə alınmaqla

"Böyük Qayıdış" proqramının hazırlanmasıdır. Bu istiqamətdə atılan ilk iki addım kimi, Cocuq Mərcanlı kəndini və əvvəllər Dağlıq Qarabağın inzibati ərazisi olmuş Tərtər rayonunun Şıxarx qəsəbəsini göstərmək olar. Dövlətin məqsədi odur ki, "Böyük Qayıdış" proqramı tam icra olunsun. Əminik ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu məsələ tam həllini tapacaq. Məcburi köçkünlər beynəlxalq hüquqda təsbit olunduğu kimi, könüllü surətdə və ləyaqətlə öz torpaqlarına qayıtmaq hüquqlarından istifadə edəcəklər.

Bu xeyirxah missiya-məcburi köçkün və qaçqınlara xüsusi həssaslıq və qayğı ilə yanaşılması siyasəti Prezident İlham Əliyevin ən yaxın məsləkdaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən də uğurla həyata keçirilir. Onun Birinci vitse-prezident təyin edildikdən sonra ilk görüşünü məcburi köçkünlərlə keçirməsi də bu qəbildən olan insanlara diqqət və qayğıdan xəbər verir. Məlum olduğu kimi, 2017-ci il martın 9-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr olunmuş müşavirə keçirilmişdi [7]. İlk müşavirənin, məcburi köçkünlərin sosial problemlərinə həsr edilməsi doğma yurdlarından didərgin salınmış soydaşlarımızda ata-baba ocaqlarına qayıdacaqlarına böyük inam yaratmışdır.

"Bilirsiniz, düşünürəm ki, rəhbərin mütləq, quru insan olması ideyası da müəyyən dərəcədə stereotipdir. Məsuliyyətli – bəli, prinsipial – bəli, iradəli – bəli. Quruluq, sərtlik vacib keyfiyyət deyil. Mənim üçün insanlarla işləmək bacarığı, sənin baxışlarını prinsipcə bölüşən, sənin ardınca getməyə hazır olan həmfikirlər komandası yaratmaq bacarığı daha vacibdir. Çünki onlar anlayırlar ki, sənin işlərin xeyirxahlığa yönəlib. Çox vacibdir ki, bəyan və elan edilənlər həqiqətən baş verənlərlə üst-üstə düşsün. Çünki insanlar hər şeyi görürlər, hər şeyi anlayırlar",- [8] deyən Mehriban xanım Əliyeva öz çoxtərəfli fəaliyyəti ilə üzərinə düşən olduqca mühüm vəzifələrin öhdəsindən məhz böyük məsuliyyəti, prinsipiallığı və iradəsi hesabına layiqincə gəlir. İnsanlarda ləyaqət, intellekt və mehribanlıq kimi 3 vacib keyfiyyəti xüsusi olaraq dəyərləndirən ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyeva özü həmin uca insani dəyərlərin daşıyıcısı olaraq ölkə və beynəlxalq ictimai fikirdə olduqca yüksək reytinqə malikdir. 2017-ci ilin 28 fevral tarixində Rusiyanın nüfuzlu "Rossiya-24" kanalına müsahibəsində bu xüsusda haqlı olaraq vurğulayır ki, "Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam." [8]. Hörmətli Mehriban xanım Əliyeva bu gün xoşbəxtdir ki, xalqın ümidini və inamını şərəflə doğruldur, öz misilsiz fəaliyyəti ilə ilə Prezident İlham Əliyevin gücünə güc qatır. Bu həqiqəti Xalqımız və Prezidentimiz görür və dəyərləndirir. Bu baxımdan cənab İlham Əliyevin dekabrın 20-də Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi görüşü çərçivəsində Sankt-Peterburq şəhərində fəaliyyət göstərən diaspor təşkilatlarımızın rəhbərləri ilə görüşündə hörmətli Mehriban xanım Əliyevanın dövlətçiliyimiz qarşısında, xüsusən də Azərbaycan-Rusiya əlaqələrinin inkişafı sahəsində göstərdiyi müstəsna xidmətlərinə verdiyi yüksək qiymət təsadüfi sayılmamalıdır: "Bu il Mehriban xanımın Rusiyaya çox uğurlu rəsmi səfəri baş tutdu. Səfər çox yüksək səviyyədə təşkil edildi. Prezident Vladimir Vladimiroviç Putin ilə görüşü, Prezident tərəfindən Mehriban Əliyevaya "Dostluq" ordeninin təqdim edilməsi, əlbəttə ki, böyük hadisədir. Biz bilirik ki, Rusiyanın Prezidenti prezident olmayan şəxsləri çox nadir hallarda qəbul edir. Bu istisna hal Rusiya Prezidentinin Azərbaycana münasibətinin təzahürüdür. Azərbaycanda da Rusiya Prezidentinə böyük hörmət var. İkitərəfli əlaqələrin inkişafında prezidentlərin, əlbəttə ki, xüsusi rolu vardır. Mehriban xanımın səfər çərçivəsində həm Baş

Nazirlə, həm də Federasiya Şurasının sədri ilə görüşləri olubdur. Əlbəttə ki, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun yenidən açılması tarixi hadisədir." [9]

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın qazandığı iqtisadi uğurlar beynəlxalq hesabatlarda da yüksək qiymətləndirilir. Dünya Bankının son "Doing Business" hesabatında ölkəmiz əlverişli biznes mühitinin formalaşması səviyyəsinə görə dünyada 25-ci mövqedədir. Həmin hesabatda ölkəmiz dünyanın ən islahatçı 20 ölkəsi sırasında yer almışdır. Olduqca yüksək nəticələrdir.

Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında ölkəmizlə bağlı əks olunan rəqəmlər bir daha sübut edir ki, Azərbaycan müasirləşən və sürətlə inkişaf edən ölkədir. Belə ki, hesabatda göstərilir ki, Azərbaycan mütəşəkkil cinayətkarlığa qarşı mübarizə səviyyəsinə görə dünyanın 141 ölkəsi arasında 18-ci yerdədir. Polis orqanlarına əhali tərəfindən inamın səviyyəsinə görə isə 30-cu mövqedədir. Hökumətin, yəni dövlətin və rəhbərliyin uzunmüddətli strategiyasına görə isə dünyada 10-cu yeri tutur. Prezident İlham Əliyevin təbirincə desək, "Bu onu göstərir ki, düşünülmüş uzunmüddətli siyasət Azərbaycanda ən yüksək səviyyədə həyata keçirilir." Rəhbərliyin islahatlara meyllilik səviyyəsinə görə isə ölkəmiz dünyada olduqca yüksək 5-ci yerə layiq görülmüşdür. Mülkiyyət hüquqlarının qorunmasına görə 37-ci, nəqliyyat infrastrukturuna görə, 31-ci, yol infrastrukturuna görə 27-ci, dəmir yollarının səviyyəsinə görə 34-cü, biznesə başlamaq baxımından 8-ci və elektrik enerjisinə əlçatanlıq səviyyəsinə görə dünyada 2-ci mövqeni qazanması Azərbaycanın sürətli və dinamik inkişafını xarakterizə edən göstəricilərdir [4]. Bu uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin, mənafelərini əks etdirdiyini bir daha göstərir.

Tarixinin ən böyük 2020-ci il dövlət büdcəsində gəlirləri 24,1 milyard manat, xərcləri isə 26,9 milyard manat təşkil edən ölkəmizdə gələn il üçün 3% iqtisadi artım nəzərdə tutulur. Qeyri-neft sektorunda isə bu artımın 3,8% olacağı proqnozlaşdırılır. Müqayisə üçün qeyd edək ki, ölkəmizin 2019-cu ilin 9 ayının sosial-iqtisadi inkişaf yekunlarına görə, qeyri-neft sektorunda artım 3%-dən, qeyri-neft sənayesində isə 15%-dən çox təşkil etmişdir [10]. Xarici borc ÜDM-nin 17%-ni təşkil etmişdir. Bu yüksək göstəriciyə görə, Azərbaycan dünya miqyasında 9 yerdə dayanır. Kənd Təsərrüfatında artımın 7%-ə bərabər olması bir daha təsdiqləyir ki, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı strateji xətti real nəticələr verməkdədir. Bu nəticələr cari ilin 19 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər ilə bağlı keçirilən müşavirədə [11] konkret faktlarla bir daha təsdiqlənmiş oldu. Bir daha məlum oldu ki, cənab Prezidentin müəllifi olduğu siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı dayanır. Bütün atılan addımlar bu məqsədə xidmət edir. Müşavirədə cənab İlham Əliyev vurğuladı ki, "100 min hektarda pambıq əkildi və 294 min ton məhsul götürüldü. Hektardan məhsuldarlıq 29,4 sentner olmuşdur. Yəni, bu, doğrudan da tarixi nailiyyətdir." Xarici bazaralara ixrac edilən Azərbaycan pambığından bu ilin 9 ayı ərzində ölkəmizə 111 milyon dollar gəlir daxil olmuşdur [11]. Nəzərə alsaq ki, cari ilin yanvar-oktyabr ayları ərzində ölkəmizin qeyri neft sektoru üzrə ixracı 1,6 milyard dollar təşkil etmişdir, bu halda pambıq satışından əldə edilən mənfəətin nə qədər böyük olduğunu təxmi etmək olar. Pambıq istehsalı və ixracı təkcə ölkəmiz üçün valyuta axını demək deyildir, bu, ilk növbədə işsizlik probleminin həllinə mühüm töhfə kimi dəyərləndirilməlidir. Bu xüsusda Prezident İlham Əliyevin müşavirədə səsləndirdiyi fikirlər böyük məna kəsb edir: "Hazırda Azərbaycanda 20 rayonda pambıq əkilir və bu rayonlarda 200 minə yaxın insan işlərə cəlb edildi. Yəni, pambıqçılığın bir neçə istiqaməti

var və hər istiqamət üzrə minlərlə, on minlərlə yeni iş yerləri yaradıldı. Təsəvvür edin ki, 20 rayonda 200 minə yaxın iş yerinin yaradılması nə deməkdir. İndi bizim rayonların əhalisi orta hesabla təqribən 100-150 min, maksimum 200 min nəfər təşkil edir. Demək olar ki, hər rayonda orta hesabla on min insan ancaq pambıqçılıqla məşğul olur. Təbii ki, bu rayonlarda işsizliklə bağlı problemlər uğurla həll olunur." [11].

Bu, bir həqiqətdir ki, dövlətin xarici siyasətinin onun daxili siyasətinin davamı olması da mütləq əksəriyyətin inandığı həqiqətlərdəndir. Məsələyə bu prizmadan yanaşdıqda Prezident İlham Əliyevin 16 il ərzində həyata keçirdiyi uğurlu daxili siyasət nəticə etibarilə Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi mənafeyinə xidmət göstərmişdir. Təkcə daxili siyasətdə deyil, xarici siyasətdə də varislik prinsipi qorunub saxlanılmışdır. Başqa sözlə, Prezidenti İlham Əliyev Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu coxvektorlu və balanslı xarici siyasət kursunu sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarına adekvat olaraq cevik, innovativ və hücum taktikasına əsaslanmaqla davam etdirir. Milli dövlətçilik maraqlarının müdafiəsi həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən bu siyasətin başlıca məzmununu təşkil edir. Həmin siyasətin uğurunu təmin edən çoxsaylı parametrlər sırasında birinci mövqedə dayanan amil Prezident İlham Əliyevin beynəlxalq siyasətin aktoru statusuna yüksəlməsi reallığı ilə bağlıdır. Bu statusuna tam adekvat olaraq İlham Əliyev həm daxili, həm də xarici siyasət kursunun həyata keçirilməsi prosesində dərin zəka, iti fəhm, analitik və innovativ düşüncə tərzi, sistemli analiz qabiliyyəti, prinsipiallıq və qətiyyət nümayiş etdirir. Hər dövlət başçısına nəsib olmayan bu unikal şəxsi keyfiyyətlərin daşıyıcı olan Prezient İlham Əliyev harada çıxış etməsindən və mövqe bildirməsindən asılı olmayaraq, şahmat dili ilə desək, həmişə ağ fiqurlarla oynayır və artıq start vəziyyətində qarşı tərəf və ya tərəflər üzərində ilkin üstünlüyünü təmin etmiş olur. Həmin "siyasi şahmat lövhəsi"ndə siyasət qrossmeysterinin-Prezident İlham Əliyevin rəqibinə "mat" elan etməsi labüddür. Bu zaman problemə sistemli və ardıcıl yanaşma tərzi, səlis və məntiqli ifadə üslubu, auditoriya ilə işləmək və onu ələ almaq qabiliyyəti, səs diapazonundan düzgün istifadə məharəti və nəhayət ecazkar cəzbetmə potensialı və bənzərsiz xarizması ilə dövlət başçısı ən qatı siyasi opponentlərini də "tərksilah" etməyə və onları "siyasi hipnoz" vəziyyətinə salmağa müyəssər ola bilir. Dəfələrlə bu həqiqətin şahidi olmuşuq. Həmin həqiqətlərdən bir neçəsi üzərində dayanaraq yuxarıda səsləndirdiyimiz fikir və mülahizələrimizi əsaslandıraq. Məlum həqiqətdir ki, 2009-cu ildə ABŞ başda olmaqla Qərb dövlətlərinin təzyiqi nəticəsində Türkiyə-Ermənistan sərhədlərinin açılması prosesi kritik mərhələyə daxil olmuşdu. Hətta iş o yerə gəlib çatmışdı ki, Qərb siyasi dairələri həmin il aprelin 6-7-də İstanbul şəhərində "Sivilizasiyalar alyansı" adlanan bir tədbir təşkil edib, orada ABŞ-ın yeni prezidenti Barak Obama və Dövlət katibi Hillari Klintonun Prezident İlham Əliyev ilə görüşünü keçirməyi hədəfləmişdilər. Məqsəd bu görüş çərçivəsində Azərbaycanın dövlət başçısının məlum məsələdə tutduğu güzəştsiz mövqeyinə təsir edib, onu istədikləri istiqamətdə dəyişməkdən ibarət idi. Azərbaycan Prezidenti İlham Əliyev dünyanın fövqəldövlətinin rəhbəri ilə görüşdən unikal diplomatik manevr hesabına faktiki olaraq imtina etdi. Bununla da hələ 23 yaşında ikən SSRİ Xarici İşlər Nazirliyinin məşhur Beynəlxalq Münasibətlər İnstitutunda diplomatiya ixtisasının incəliklərini tədris etməsinin təsadüfi olmadığını bir daha sübut etdi. Bununla da əslində bütün dünyaya nümayiş etdirdi ki, Azərbaycan öz miqyası etibarilə böyük dövlət olmasa da belə, lakin sözünün mənası və çəkisi, qətiyyəti, iradəsi böyükdür. Prezidenti və xalqı arasındakı birlikdə böyükdür. Son nəticədə, böyük dövlətlər arxasında xalqı dayanan Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsini nəzərə almaq məcburiyyətində qaldılar. Türkiyə-Ermənistan

sərhədləri bu günə kimi bağlıdır. Onların açılması bağlanmasına səbəb olan amillər aradan qaldırıldıqdan sonra mümkündür. Bu hər iki qardaş dövlətin rəhbərləri olan cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın zamanın sınağından şərəflə çıxmış ortaq mövqeyidir.

Prezident İlham Əliyevin bütün diplomatik addımları milli maraqlardan çıxış etməklə zərgər dəqiqliyi ilə hesablanmışdır və bir çox hallarda siyasi opponentlərin intellekti imkan vermir ki, onlara vaxtında düzgün adekvat reaksiya versinlər. Belə unikal və uzağagedən siyasi məqsəd daşıyan addımlardan birini Prezident İlham Əliyev 2011-ci ilin iyun ayında atdı. Azərbaycan Qoşulmamaq Hərəkatına üzv oldu. Bu xəbəri eşidən kimi radikal siyasi ünsürlər hay-həşir qaldırdılar ki, mövcud iqtidar Azərbaycanı Avroatlantik məkana inteqrasiya xəttindən uzaqlaşdırır. Bu az qala dövlətçiliyimizin itirilməsinə bərabərdir və s. Sonralar həmin ünsürlər öz aralarında etiraf etmək məcburiyyətində qalacaqlar ki, İlham Əliyevin bu siyasi gedişinin arxasında dayanan əsl mətləbi vaxtında dərk edə bilməyiblər. Mətləb isə ondan ibarət idi ki, mahir diplomat və dövlət xadimi olan İlham Əliyev Azərbaycanın dünyanın nəhəng universal beynəlxalq təşkilatı olan BMT TŞ-ya üzv olmasını əsas siyasi hədəf kimi müəyən etmişdi. Bu hədəf xarici siyasət fəaliyyətinin çeviklik əmsalının kəskin artımı hesabına reallaşa bilərdi. Bu halda tərkibində 193 dövlətin olduğu BMT-dən sonra sayca ikinci mövqedə dayanan Qoşulmamaq Hərəkatına (QH) (120 dövlət) üzvlük həmin məqsədin reallaşması üçün əlavə və geniş imkanlar pəncərəsi aça bilərdi. Elə belə də oldu. 2011-ci il oktyabrın 24-də BMT TŞ-ya keçirilən seçkilərdə QH üzvləri Azərbaycanın lehinə səs verdilər. Azərbaycan 155 səs ilə iki il müddətinə BMT TŞ-nın qeyri-daimi üzvü seçildi. Azərbaycan Respublikası müstəqilliyinin 20-ci ildönümündə tarixinin növbəti şanlı səhifəsini yazdı. Onun müəllifi boyük intellekt, iradə və qətiyyət sahibi olan Prezident İlham Əliyev idi.

Prezident İlham Əliyevin müəyyən etdiyi müstəqil xarici siyasət kursu dünyada bir-birinə qarşı duran qütblər tərəfindən də müsbət qiymətləndirilir. Azərbaycanın müxtəlif güc mərkəzlərindən bərabər məsafədə mövqe seçməsi, ikitərəfli münasibətlərdə bərabər hüquq, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə sadiq qalması, eyni zamanda ikitərəfli əməkdaşlığın heç bir halda üçüncü tərəfi hədəfə almaması reallığı beynəlxalq aləmdə dövlətimizə və onun rəhbərinə olan loyal münasibətin formalaşmasını şərtləndirən əsas amillərdir. Bu baxımdan 2017-ci ilin fevral ayında Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Valeri Gerasimov ilə ABŞ Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin rəhbəri, general Cozef Danfordun, həmin ilin sentyabr ayında general Valeri Gerasimov ilə NATO Hərbi Komitəsinin rəhbəri, general Peti Pavelin, 2018-ci ilin aprel və dekabr aylarıda general Gerasimov ilə NATO-nun Avropadakı Birləşmiş Hərbi Qüvvələrinin Baş komandanı Kertis Skaparatti, 2019-cu ilin iyul ayında Rusiyanın eyni ali hərbi rəhbərliyi ilə NATO-nun Avropadakı Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Tod Uolters arasında və nəhayət cari ilin noyabr ayında Rusiya Müdafiə nazirinin birinci müavini ordu generalı Valeri Gerasimov və NATO-nun Hərbi Komitəsinin sədri, Aviasiya Baş Marşalı ser Stüart Piç arasında görüşlərin Bakıda keçirilməsi təsadüfi sayılmamalıdır [4]. Beləliklə, Bakı 6-cı dəfədir ki, Rusiya ilə Qərb arasındakı ali hərbi danışıqlara evsahibliyi etmiş oldu. Heç şübhəsiz, bu seçim səbəbsiz deyildir. Əsas səbəb odur ki, Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil və qətiyyətli siyasət dünyanın əsas güc mərkəzləri tərəfindən ehtiramla qarşılanır.

Məhz iti fəhmi və diplomatik məharəti hesabına Prezident İlham Əliyevin son 16 il ərzində ölkəmizin və eləcə də Avropanın enerji təhlükəsizliyinin təminatı istiqamətində atdığı çoxkombinasiyalı siyasi gedişləri heyranlıq doğurur. Nəzərə alsaq ki, enerji təhlükəsizliyi dünyanın aparıcı dövlətlərinin milli təhlü-

kəsizlik strategiyasının həlledici elementi statusunda çıxış edir. Bu baxımdan bir sıra nüfuzlu ekspertlərin "müasir dünyanın siyasi mənzərəsi daha hərbi bloklara mənsubiyyətlə yox, enerji ehtiyatlarına malik olub-olmamaq bölgüsü ilə müəyyən ediləcək", – fikri təsadüfi sayılmamalıdır. Ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft diplomatiyasını uğurla davam etdirən cənab İlham Əliyev müxtəlif obyektiv və subyektiv çətinliklərin öhdəsindən gələrək 2006-cı ilə "Bakı-Tbilisi-Ceyhan, 2007-ci ildə "Bakı-Tbilisi-Ərzurum" kimi nəhəng neft və qaz marşrutlarının reallaşmasına nail oldu. Dövlət başçısının qeyd etdiyi kimi, "neft kəmərlərinin, xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi də tarixi hadisə idi. Təkcə ona görə yox ki, ilk dəfə olaraq Xəzər dənizinin nefti Aralıq dənizinin bazarlarına çıxarılırdı. Eyni zamanda, ona görə ki, bu kəmər yeni bir yol, yeni bir dəhliz açdı". Söhbət ilk növbədə "Cənub" qaz dəhlizindən gedir. Onun yaradılması istiqamətində ilk addım olaraq 2011-ci ildə Avropa Komissiyası ilə Azərbaycan arasında Strateji əməkdaşlıq və enerji sahəsində Anlaşma Memorandumu, növbəti ildə isə TANAP-ın çəkilişinə dair Azərbaycan və Türkiyə arasında tarixi saziş imzalandı. Bu prosesdə ən əsas həlqələrdən biri sərmayə qoyuluşu ilə bağlı idi. 2013-cü ildə bu məsələ də öz müsbət həllini tapdı. "Şahdəniz-2" layihəsinə investisiya qoyuluşuna dair qərar qəbul edildi. 2014-cü ildə isə "Cənub" qaz dəhlizinin Bakıda təməlqoyma mərasimi keçirildi. 2015-ci ildə Qarsda TANAP-ın təməlqoyma mərasimi oldu. 2016-cı ildə analoji addım TAP layihəsi ilə bağlı atıldı. Nəhayət, 2018-ci il mayın 29-da "Cənub" qaz dəhlizinin, iyunun 12-də isə TANAP-ın rəsmi açılış mərasimləri oldu. Cari ilin 30 noyabr tarixində isə TANAP-ın Avropa ilə birləşən hissəsinin açılışı oldu. TAP üzrə işlər 91% yerinə yetirilərək özünün yekun mərhələyə daxil olmuşdur.

Prezident İlham Əliyev "Cənub" qaz dəhlizi layihəsinin uğurunu təmin edən səbəblərdən bəhs edərkən xüsusi olaraq aşağıdakı amilləri ön plana çəkmişdir: "Birincisi, bu layihə enerji təhlükəsizliyi, enerji şaxələndirilməsi və azad rəqabəti özündə ehtiva edir. İkincisi, bu layihədə istehsalçı, istehlakçı və tranzit dövlətlər arasında balans yaratmağa nail olmuşuq. Yəni burada uduzan tərəf yoxdur. Üçüncüsü, siyasət və enerji bir-birindən ayrı olmalıdır. Enerji siyasi alət kimi istifadə edilməməlidir. Hesab edirəm ki, "Cənub" qaz dəhlizi sazişində göstərdiyimiz nümunə nümayiş etdirir ki, enerji ilə siyasət ayrılanda uğur əldə edilə bilər."

2017-ci il sentyabrın 14-də beynəlxalq ictimaiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində yeni və tarixi bir səhifə yazdığına şahidlik etdi. Həmin gün Azərbaycanın unikal enerji strategiyasının memarı olan Heydər Əliyevin adını daşıyan mərkəzdə "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni sazişin imzalanması ilə bu yataqların işlənilməsi 2050-ci ilə qədər uzadıldı.

Ölkəmizin uğurlarını gözü götürməyən, qarayaxma və iftiralarla dövlətimizin müsbət beynəlxalq imicinə kölgə salmaq istəyən ermənipərəst qüvvələr və onlarla əlbir olan bəzi siyasi dairələr iddialar irəli sürürdülər ki, Azərbaycanın nefti tükənmişdir və xarici neft şirkətləri tezliklə öz ölkələrinə qayıdacaqlar. Cənab Prezidentin çıxışında səslənən təkzibedilməz arqumentlər və yeni kontraktin imzalanması faktı əleyhdarlarımızın yuxusuna haram qatmış oldu.

Son 16 il ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə regionda çox böyük nəqliyyat layihələri icra olunmaqdadır. Şərq-Qərb nəqliyyat marşrutu artıq reallaşıbdır. 2017-ci ilin oktyabrında Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasından sonra artıq bu marşrut fəaliyyətdədir. Hazırda Şimal-Cənub nəqliyyat dəhlizinin yaradılması istiqamətində intensiv işlər görülməkdədir. Azərbaycan ərazisində bu dəhlizlə bağlı bütün işlər yerinə yetirilmişdir. Bu iki önəmli nəqliyyat dəhlizi yeni təşəbbüslərlə çıxış etmək üçün də imkanlar yaratmışdır. Belə ki, Bakıda Azərbaycan, Gürcüstan, Türkiyə və İranın xarici işlər nazirlərinin dördtərəfli formatda görüşü zamanı Cənub-Qərb nəqliyyat marşrutu ətrafında da məhsul-

dar müzakirələr aparılmışdır. Bu təşəbbüsün də müəllifi Prezident İlham Əliyev olmuşdur.

Prezident İlham Əliyevin uzaqgörən müdrik siyasəti sayəsində Azərbayacan son 16 il ərzində təkcə dünyanın enerji və nəqliyyat xəritəsini yenidən tərtib etmir, eyni zamanda dünyada ümumbəşəri dəyərlərin qorunması və təbliği istiqamətində fantastik nailiyyətlərə imza atır. Dünyada sivilizasiyalararası dialoq sahəsində ciddi problemlərin yaşanması, bu fonda konfliktlərin artması tendensiyasının müşayiət olunması, xüsusilə də islamofobiya kimi təhlükəli meyllərin bir sira dövlətlərin və digər subyektlərin siyasətində özünə geniş yer alması reallığında Azərbaycanın mədəniyyətlərarası dialoq məkanına çevrilməsi faktı da qlobal əhəmiyyət kəsb edən məsələdir. Bu məsələlərin həlli istiqamətində Azərbaycanın təcrübəsi digər ölkələr üçün örnək ola bilər.

"Multikulturalizm bizim adət-ənənəmizdir. Multikulturalizm-dövlət siyasəti və ictimai sifarişdir. Multikulturalizm bizim həyat tərzimizdir",-deyən Prezident İlham Əliyevin təşəbbüsü ilə bu il 10 illiyini qeyt etdiyimiz "Bakı prosesi"nin əsası qoyulmuşdur. Bu təşəbbüs BMT çərçivəsində yüksək dəyərləndirilmişdir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan paytaxtı iki illik fasilə ilə iki müxtəlif mədəniyyətin daşıyıcılarının böyük idman bayramlarına ev sahibliyi etmişdir. 2015-ci ildə tarixdə ilk dəfə olaraq I Avropa Oyunlarını keçirən Azərbaycan Respublikası, 2017-ci ildə IV İslam Həmrəylik oyunlarına ev sahibliyi etməklə mədəniyyətlər arasında unikal körpü rolunu oynamış və idman vasitəsilə sivilizasiyalararası barışıq və dialoqa böyük töhfə vermişdir. Eyni məntiqdən qaynaqlanaraq Prezident İlham Əliyev 2017-ci ili "İslam Həmrəylik İli" elan etmişdir. Cənab İlham Əliyevin islam həmrəyliyinə xidmət edən bu və digər təşəbbüsləri müsəlman dünyasında geniş rəğbət hissi ilə qarşılanmış və böyük siyasi rezonans doğurmuşdur.

Bu ilin 15 oktyabr tarixində Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşünün keçirilməsi və quruma sədrliyin Azərbaycana həvalə edilməsi, 25-26 oktyabr tarixlərində Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşünün keçirilməsi və Azərbaycana tərkibində BMT-yə üzv dövlətlərin 2/3-nin təmsil olunduğu bu nəhəng beynəlxalq quruma 3 il müddətinə sədrlik etmək hüququnun verilməsi, 14 noyabr tarixində Bakı şəhərinin Dünya dini liderlərinin II Bakı Sammitinə ev sahibliyi etməsi və digər mühüm tədbirlər, heç şübhəsiz, müəllifi Prezident İlham Əliyevin olduğu Azərbaycanın müstəqil və milli maraqlara söykənən fəal xarici siyasət kursunun böyük uğurları kimi qiymətləndirilməlidir.

Bu, bir həqiqətdir ki, əgər Ermənistanın Azərbaycana təcavüzü və etnik təmizləmə siyasəti olmasaydı Prezident İlham Əliyevin rəhbərliyi altında son 16 ildə həm daxili, həm də xarici siyasətdə qazandığımız uğurların miqyası daha da böyük olardı. Münaqişənin hələ də həllini tapa bilməməsi reallığına bamayaraq, Azərbaycanın son 16 il ərzində konfliktin həlli prosesində siyasi, diplomatik və hərbi üstünlüyünü təmin edilmişdir. Əvvəla, Ermənistanın bütün çoxsaylı cəhdlərinə baxmayaraq, heç bir beynəlxlaq subyekt, o cümlədən rəsmi İrəvanın özü də separatçı rejimin müstəqilliyini tanımamışdır. Bu, Azərbaycanın mühüm siyasi üstünlüyüdür. İkincisi, Ermənistanın separatçı rejimdə keçirdiyi son qondarma referendumun nəticələrini heç bir dünya dövləti və ya beynəlxalq təşkilat qəbul etməmişdir. Bu, əslində beynəlxalq birliyin Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi qəbul etməsinin bariz nümunəsidir. Bu, eyni zamanda Azərbaycanın diplomatik üstünlüyü deməkdir. Nəhayət, 2016-cı ildə Ermənistan silahlı qüvvələrinin aprel avantürası onların məğlubedilməzliyi haqqında mifin bir neçə gün ərzində Azərbaycanın şanlı ordusunun əks həmləsi ilə darmadağın edilməsinə gətirib çıxartdı. Bu qələbə Azərbaycan ordusunun hərbi-texniki təchizatı və döyüş ruhunun ən yüksək səviyyədə olduğunu bütün dünyaya nümayiş etdirdi. Deməli, münaqişənin tənzimlənməsi prose-

sində Azərbaycanın hərbi üstünlüyü də təmin edilmişdir. Bu, bir həqiqətdir ki, Azərbaycan ordusu dünyada ən güclü 50 ordu sirasındadır. Azərbaycan paytaxtında keçirilmiş son iki hərbi parad bu həqiqəti növbəti dəfə təsdiqlədi. Azərbaycanın milli hərbi sənaye kompleksi formalaşmışdır. Son illər ərzində ölkəmizdə 20 hərbi zavod tikilib istifadəyə verilmişdir. Bu zavodlarda 1200 adda hərbi təyinatlı məhsullar istehsal edilir. Bu məhsullar dünyanın müxtəlif ölkələrinə, o cümlədən Azərbaycanda keçirilən müdafiə sənayesi sərgilərində təqdim olunur və müsbət reaksiyalar doğurmaqdadır.

Ali Baş Komandan İlham Əliyevin təcavüzkar Ermənistan dövlətinə qarşı son 16 ildə tətbiq etdiyi dərinləşməkdə olan iqtisadi və nəqliyyat blokadası siyasəti, başqa sözlə, təcavüzkar ölkəyə münasibətdə istifadə olunan "taqətdənsalma taktikası" öz real nəticələrini verməkdədir. Ən mühüm nəticələrdən biri və bəlkə də, birincisi Ermənistanda inqilabın baş verməsi və 20 ildir ki, bu ölkədə bərqərar olmuş xunta rejiminə son qoyulmasıdır. İnqilabi proseslərin dalğasında hakimiyyətə gəlmiş Nikol Paşinyan hökuməti münaqişənin tənzimlənməsi istiqamətində sələflərinin buraxdığı kobud səhvlərdən nəticə çıxarmalı və konstruktiv davaranış tərzi nümayiş etdirməlidir. Bilməlidir ki, Ermənistanda bütün siyasi və iqtisadi fəlakətlərin əsasında dayanan əsas amil işğalçılıq siyasətidir. Onun davamı yeni Ermənistan hökumətini də Sarkisyanın sığınacaq tapdığı tarixin çirkli zibilxanasına yuvarlaya bilər, əksi isə tunelin sonu və işığın bərq vurması deməkdir. Seçim üçün tarix Ermənistana heç də intəhasız vaxt ayrılmayıbdır.

Təəssüf ki, Nikol Paşinyanın münaqişənin həlli ilə bağlı davranışı onun yaxın tarixi keçmişdən müvafiq nəticələr çıxarmadığını təsdiqləyir. O, öz sələfləri kimi daxili auditoriyaya ünvanlanmış populist, məsuliyyətsiz, ziddiyyətli və bir çox hallarda avantürist bəyanatlar verməkdə davam edir. Xüsusilə Nikol Paşintyanın cari ilin 5 avqust tarixində işğal altındakı Azərbaycan ərazisində-Xankəndində dar əhatədə səsləndirdiyi "Dağlıq Qarabağ Ermənistandır. Nöqtə" sərsəm fikri işğalçı ölkənin özündə belə qeyri-ciddi və populist mövqe kimi qarşılanmışdır. Azərbaycan xalqı isə görür ki, Prezident İlham Əliyev ən mühüm ümummilli problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində son dərəcə prinsipiallıq və qətiyyət göstərir. Sonuncu dəfə bu davranışı Soçidə "Valday" Beynəlxalq Diskusiya Klubunun plenar sessiyasında nümayiş etdirdi. Münaqişənin tarixi, Ermənistanın işğalçılıq siyasətinin humanitar fəlakət törətməsi, beynəlxalq hüququn işləməməsi, BMT TŞ-ının müvafiq qətnamələrinin kağız səviyyəsinə enməsi, təcavüzkar dövlətin yeni rəhbərliynin populist və məsuliyyətsiz bəyanatlar səsləndirməsi kimi həqiqətləri lazımi məqamda və yerdə dünya ictimaiyyətinə çatdırdı. Çıxışının sonunda isə Paşinyanın dar çərçivədə söylədiyi və daxili auditoriyaya ünvanlanmış "Dağlıq Qarabağ Ermənistandır. Nöqtə" sayıqlamasına qarşı "Dağlıq Qarabağ Azərbaycandır. Nida işarəsi" hökmünü irəli sürdü [4]. Cənab Prezidentin bu qətiyyətli mövqeyi Azərbaycanda böyük coşqu və ruh yüksəkliyi ilə qarşılanmışdır. Bu ümumxalq ruhunun məntiqi nəticəsi olaraq Yeni Azərbaycan Partiyasının Sədr müavininin İcra katibi, Baş nazirin müavini Əli Əhmədov "Dağlıq Qarabağ Azərbaycandır!" İctimai Hərəkatının yaradılması təşəbbüsü ilə çıxış etmişdir. Bu təşəbbüs cəmiyyətimiz daxilində, xüsusilə gənclər arasında böyük rezonans doğurmuşdur. Ermənistan isə matəm içindədir. Paşinyanın ən qatı silahdaşları belə onu böyük diplomatik məğlubiyyətdə qınayır, Azərbaycan Prezidentinin böyük uğurunu etiraf edirlər. Yaranan yeni reallıqda Ermənistanda da "Valday" məğlubiyyətindən irəli gələrək bir ictimai hərəkat formalaşmağa başlamışdır. Bu hərəkat "Dağlıq Qarabağ Ermənistandır" adlanmır. Onun adı "Paşinyandan xilas hərəkatı"dır.

Prezident İlham Əliyev hücum taktikasından istifadə edərək işğalçı Ermənistanın rəhbərliyinə siyasi kürsülərdən bir-birinin ardınca zərbələr vurmaqda davam edir. Azərbaycan Prezidentinin Valday Beynəlxalq

Diskussiya Klubunun sessiyasından sonra Aşqabadda MDB Dövlət Başçıları Şurasının iclasındakı çıxışı Ermənistana və bu ölkənin baş naziri Nikol Paşinyana növbəti tərs sillə oldu. Azərbaycan Prezidenti öz çıxışında ölkəmizin faşizm üzərində qələbə qazanmasında müstəsna xidmətləri barədə danışaraq vurğuladı ki, Bakı nefti olmasaydı, sovet ordusu düşmənə qalib gələ bilməzdi. Faktlarla və arqumentlərə istinad edərək danışan Prezident İlham Əliyev bunun qarşılığında MDB məkanında, xüsusən Ermənistanda faşizmin təbliğatının aparıldığını, faşizmə xidmət edən şəxslərin xatirəsinə abidə ucaldılmasının qəbuledilməz olduğunu təəssüf hissi ilə iclas iştirakçılarının diqqətinə çatdırdı. Prezident İlham Əliyev vurğuladı ki, 2016-cı ildə Ermənistan İrəvanın mərkəzində Böyük Vətən Müharibəsində faşistlərə yardım etmiş Qaregin Njdeyə 6 metr hündürlüyündə abidə ucaldılmışdır. Dövlət başçısı Qaregin Njdenin birbaşa faşistlərlə əməkdaşlıq etməsini konkret faktlarla sübut edərək 2011-2015-ci illərdə hazırlanmış 12 cildlik ensiklopediyanın 6-cı cildindən, habelə Rusiya XİN-in 2019-cu iln may ayında hazırladığı analoji məzmunlu hesabatdan sitatlar gətirdi [4]. Ensiklopediyanın Rusiyanın Müdafiə Nazirliyinin Kollegiyası tərəfindən, Müdafiə naziri Sergey Şoyqunun birbaşa rəhbərliyi ilə hazırlandığını və ciddi mənbə olduğunu vurğuladı. Azərbaycan lideri bununla da siyasi hoqqabazlıq edən Nikol Paşinyanı susdurdu, onun iddialarını darmadağın etdi. Dövlət başçısının bu çıxışından sonra erməni mətbuatı Nikol Paşinyanı kəskin tənqid atəşinə tutdu. Onu səriştəsiz, savadsız və populist siyasətçi adlandırdı. Prezident İlham Əliyevin isə lazımi yerdə və lazımi məqamda Azərbaycan həqiqətlərini ən yüksək tribunalardan səsləndirməyi bacaran xarizmalı lider kimi xarakterizə etdi.

Azərbaycan müxalifətinin radikal kəsimi-AXCP və özünü "Milli Şura" kimi təqdim edən siyasi qruplaşmalar yenə sevinmirlər. Qəmə batıblar. Revanşist düşüncələr girdabında boğulmaqdadırlar. Çarəni nəticəsinə özlərinin də inanmadıqları növbəti piket və mitinqlərdə axtarırlar. Xalq arxasında dayandığı öz Prezidentinin "Dağlıq Qarabağ Azərbaycandır. Nida işarəsi" siyasi ideyası ətrafında birləşib, milli birlik və həmrəylik nümayiş etdirir, müxalifət isə "hakimiyyət sevdası" ilə alışıb-yanır. Heç bir sosial bazaya malik olmayan və əslində xalq tərəfindən baykot edilən bu antimilli qruplaşmalar "çarəsizlik sindromu"nun doğurduğu psixoloji apatiya vəziyyətində qarşıdan gələn 9 fevral növbədənkənar parlament seçkilərini "baykot" etdiklərini qışqırırlar. Xalq onların hay-həşirinə qətiyyən məhəl qoymur. Xalqın üz döndərdiyi "psevdosiyasətçi"lər əslində bütün nəticələri və fəsadları etibarilə "siyasi yalquzaq" taleyi yaşamağa məhkumdurlar...

Bu iqtidar, bu da radikal müxalifət davranışı. Fərq göz qabağındadır. Bu fərqi dünya birliyi də görür və qəbul edir. Həm də möhtərəm Prezidentimiz İlham Əliyevin səsləndirdiyi "Azərbaycan tarixdə heç bir zaman indiki qədər güclü və qüdrətli olmayıb", -fikrini təsdiqləyirlər. Elə bu baxımdan təsadüfi deyildir ki, ABŞ-ın nüfuzlu "U.S.News & World Report" jurnalının açıqladığı 2019-cu ildə dünyanın ən güclü ölkələrinin reytinq siyahısında Azərbaycan 80 ölkə arasında 45-ci yerdə qərarlaşmışdır [12]. Bu möhtəşəm nəticəsi ilə Azərbaycan hətta bir neçə Avropa ölkəsini – Xorvatiya, Çexiya, Latviya, Rumıniya, Slovakiya, Sloveniya, Estoniya və Portuqaliyanı geridə qoymuşdur. Məlumat üçün qeyd edək ki, reytinq siyahı ABŞ-ın nüfuzlu Pensilvaniya Universitetinin "BAV Group & Wharton School" qrupunun analitikləri tərəfindən tərtib edilmişdir [12].

Beləliklə, yuxarıda apardığımız təhlil və analizlər o qənaətə gəlməyə əsas verir ki, dövlət iki halda beynəlxalq güclərin təzyiq obyektinə çevrilir. Birinci hal dövlət zəif olanda baş verir. Həmin dövlətin ilk növbədə ərazi bütövlüyü və suverenliyi böyük təhlükə altına düşür. Keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan analoji vəziyyəti yaşamışdır. İkinci hal isə, nə qədər paradoksal səslənsə də, dövlət güclü olanda labüdləşir. Azərbaycan bütün parametrlərə görə regional

gücə-liderə çevrilmişdir. Deməli, bu reallığı qəbul edə bilməyən beynəlxalq qüvvələrin və onların miskin əlaltısına çevrilmiş daxili qaragüruhçu seqmentin naqis planlarını alt-üst etmək üçün indi daha güclü milli həmrəyliyə sahib olmalıyıq. Son 16 il ərzində ölkəmizdə siyasi sabitlik və innovativ inkişafın, davamlı iqtisadi yüksəlişin, nizami və güclü ordu quruculuğu prosesinin, demokratik islahatların, müasirləşmənin, uğurlu xarici siyasətin və pozulmuş ərazi bütövlüyümüzün bərpası naminə fədakar mübarizənin təşəbbüskarı və təminatçısı olan Prezident İlham Əliyev ətrafında daha sıx və monolit birlik nümayiş etdirməliyik. Bu zamanın çağırışıdır!

**Ədəbiyyat:**

1. Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyevin giriş nitqi/ https://azertag.az/xeber/Regionlarin_2014_2018_ci_illerde_sosial_iqtisadi_inkisafi_Dovlet_Proqraminin_icrasinin_yekunlarina_hesr_olunan_konfrans_kechirilib__Prezident_Ilham_Aliyev_konfransda_istirak_edib__YENILANIB_1_VIDEO-1239150
2. Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü işə başlayıb/ https://president.az/articles/34578
3. Azərbaycan Respublikasının 2020-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2020-ci il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında / https://cabmin.gov.az/az/document/4037/
4. Nəsirov E.X. İslahatçı Prezident / http://xalqqazeti.com/az/news/37493
5. Prezident cənab İlham Əliyevin yeni Fərmanı birdəfəlik ödəmə veriləcək şəhid ailələrinin əhatə dairəsini daha da genişləndirdi/http://sosial.gov.az/post/1927
6. İlham Əliyev məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksinin açılışında iştirak edib / https://president.az/articles/34371
7. Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə müşavirə / https://mehriban-aliyeva.az/news/node/ 846700
8. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "Rossiya 24" telekanalına müsahibə verib/https://mehriban-aliyeva.az/site/activitiesNews/846659?part=activities&spart=interviews
9. İlham Əliyev Sankt-Peterburqda fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının rəhbərləri ilə görüşüb / https://president.az/articles/35272
10. İlham Əliyevin yanında iqtisadi müşavirə keçirilib/https://president.az/articles/34450
11. İlham Əliyevin yanında pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər ilə bağlı müşavirə keçirilib/https://president.az/articles/35252
12. Azərbaycan dünyanın ən güclü ölkələri sırasındadır / http://ikisahil.com/post/azerbaycan-dunyanin-en-guclu-olkeleri-sirasindadir

***Açar sözlər:*** *xarici siyasət, islahat, inkişaf, sabitlik, təhlükəsizlik*

**Elman Nasirov**
*Member of Parliament of the Republic of Azerbaijan,*
*Head of Institute of Political Researches*
*of the Academy of Public Administration*
*Under the President of the Republic of Azerbaijan,*
*Doctor in Political Sciences, Professor*

## PRESIDENT ILHAM ALIYEV – GLOBAL SCALE REFORMER

### SUMMARY

The paper considers the great and historical successes of Ilham Aliyev - the President of the Republic of Azerbaijan, in both internal and foreign policies, over the last 16 years, with specific facts and arguments. It obviously demonstrates that the stability, security and the development are the key criteria's, which characterize this 16-years period. In a larger sense, it should remarkably cite that, the stability and the trust have prevailed in our country over the last 16-years period. Nowadays, Azerbaijan is known as an island of stability in the Muslim world. It can be clearly observed that a simple lack of stability is pretty enough to disarrange the state into the chaos and anarchy. The atmosphere of stability that has become a way of life in our country, is our historic achievement and wealth against the backdrop of bloody conflicts, clashes, wars, risks and threats occurring in neighboring regions and all around the world. Briefly, our stability stipulates our security. The guarantee of the country stability and security is the Azerbaijani people and their monolithic alliance with the government, accordingly. Herewith, solidarity is the cohesion of the community and citizens. The principal factor, which is underlying on the basis of this unity is the trust of people, certitude and confidence to the President Ilham Aliyev.

What is remarkable that, this is the predominant reason why the President gains the love of his people, however, but not under the govern of any international political circle, whether a great state.

***Key words:*** *Foreign policy, reform, development, stability, security*

**Эльман Насиров**
*Депутат Милли Меджлиса Азербайджанской Республики,*
*Директор Института Политических Исследований*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор политических наук, профессор*

## ИЛЬХАМ АЛИЕВ - ПРЕЗИДЕНТ РЕФОРМАТОР МИРОВОГО УРОВНЯ

## РЕЗЮМЕ

В статье на основе конкретных фактов аргументированно обосновываются большие и исторические успехи, дсотигнутые Президентом Азербайджанской Республики Ильхамом Алиевым за последние 16 лет как в области внутренней, так и внешней политики. Здесь отмечается, что стабильность, безопасность и развитие являются основными критериями, характеризующими этот 16-летний период. В прямом смысле слова за последние 16 лет в стране продолжают царить стабильность и благополучие. Азербайджан сегодня известен в мусульманском мире как остров стабильности. Только отсутствие стабильности достаточно, чтобы государство погрузилось в хаос и анархию. На фоне кровавых конфликтов, столкнований, войн, рисков и угроз в стране превратившаяся в образ жизни страны, среда стабильности являются нашим историческим достижением и ценностью. Стабильность обуславливает нашу безопасность. Гарантом нашей стабильности и безопасности является азербайджанский народ и его монолитное единство с властью, мобилизованное общество и гражданская солидарность. Стоящий в основе этого единства основной фактор связан с верой и доверием народа Президенту Ильхаму Алиеву. Основным же фактором, обуславливающим завоевание Президентом любви своего народа является осуществление им политики, исходящей именно из интересов своего народа, нежели под диктовкой какого-либо международного политического круга.

***Ключевые слова:*** *внешняя политика, реформа, развитие, стабильность, безопасность*

# SOSİAL FƏLSƏFƏ
# SOCIAL PHILOSOPHY

UOT 101.316.34

**ETİBAR NƏCƏFOV**
**Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Fəlsəfə və Sosial Psixologiya kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor**
*e-mail: eanajafov@gmail.com*

## MULTİKULTURALİZMİN TƏDQİQİNƏ DAİR LİBERALİZM VƏ KOMMUNİTARİZM YANAŞMALARI

Məlum olduğu kimi, multikulturalizm sosial hadisə, cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin siyasət modeli, həmçinin insanların həyat tərzidir (2, p.103-112). Sosial hadisə kimi multikulturalizm cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin mövcud olduğunu göstərir.

Müasir ədəbiyyatda bir sosial hadisə kimi götürülən multikulturalizmə münasibətdə iki əsas fəlsəfi-nəzəri yanaşma vardır: liberalizm və kommunitarizm. Müasir siyasi fəlsəfənin mühüm cərəyanları olan liberalizm və kommunitarizm arasındakı mübahisə multikulturalizmə liberalizm və kommunitarizm yanaşmalarının mahiyyətini və fərqli cəhətlərini müəyyən edir. Buna görə də multikulturalizmə liberalizm və kommunitarizm yanaşmalarının mahiyyətini açıqlayarkən siyasi fəlsəfənin liberalizm və kommunitarizm nəzəriyyələrini təhlil etmək, onların arasında oxşar və fərqli cəhətləri göstərmək vacibdir.

### Multikulturalizmə liberalizm yanaşması

Liberalizm (latın dilindən tərcümədə "liber" azad deməkdir) fərdin hüquq və azadlıqlarını, qanunun aliliyini və qanun qarşısında hamının bərabərliyini təbliğ edən siyasi fəlsəfənin ən geniş yayılmış nəzəriyyələrindən biridir. Liberalizm cəmiyyətin bütün sahələrinə dövlətin müdaxiləsinin məhdudlaşdırılmasını, etnik, irqi, dini və digər mədəni mənsubiyyətlərindən asılı olmayaraq hər bir kəsin hüquqlarının (o cümlədən vətəndaş hüquqlarını və insan hüquqlarını) müdafiə olunmasını, azad bazar iqtisadiyyatını, demokratiyanı, sekulyarizmi, söz, mətbuat, din, vicdan və digər azadlıqlarını ön plana çəkir. Liberalizm fərdin icmaya, kollektivə münasibətdə üstünlüyünü göstərərək onu azad bir varlıq, bir dəyər kimi qələmə verir. Bu nəzəriyyə dövlətin rolunu fərdin fəaliyyəti və qarşısına qoyduğu məqsədlərə nail olmaq üçün lazımi şəraitin yaradılmasında görür.

Fərdin bir şəxsiyyət, subyekt kimi formalaşmasına dair məsələ liberalizm ilə ona əks olan digər fəlsəfi cərəyan- kommunitarizm arasında əsas fərqli cəhətlərdən birini təşkil edir. Liberalizm fərdin şəxsiyyət, subyekt kimi formalaşmasını müstəqil şəkildə, daha konkret desək, cəmiyyətdən kənarda baş verdiyini göstərir. O, fərdin öz seçimində azad olduğunu iddia edir.

Liberallar hesab edirlər ki, fərdlər və onların istəkləri bu və ya digər cəmiyyətə mənsub olmalarından əvvəl formalaşır. Fərdlərin subyekt olmaları yaşadıqları icmanın məqsədlərini bölüşdürmələrində deyil, onların azad fəaliyyət göstərmələrində, azadlıq, bərabərlik, qardaşlıq kimi universal dəyərləri

mənimsəmələrindədir. Liberallara görə, fərdin subyektə çevrilməsi üçün onun mənsub olduğu mədəniyyətə, etnik-mədəni dəyərlərə əsaslanması vacib deyil. Onlar hesab edirlər ki, ədalət prinsipləri, insanların hüquqları cəmiyyətdən kənarda müstəqil şəkildə formalaşır.

Liberalizmin əsas prinsipləri müasir Qərb ölkələrinin ictimai-siyasi və hüquqi reallığının əsasını təşkil edir. Liberalizm tərəfindən təbliğ olunan fərdin hüquq və azadlığı ideyası bu ölkələrin insanlarının mədəniyyətində və psixologiyasında dərin kök salmışdır.

Son zamanlar dünyada, o cümlədən Qərb ölkələrində liberalizmə qarşı tənqidi çıxışlara da rast gəlinir. Bu çıxışlarda liberalizm cəmiyyətdə sosial və mədəni parçalanma (dezinteqrasiya) proseslərinə səbəb olmaqda günahlandırılır. Lakin tənqidi çıxışlarla bərabər liberalizm fəlsəfəsinə münasibətdə yeni maraq oyanır. Müasir dövrdə bu marağın oyanmasında amerikalı filosof Con Roulzun xüsusi xidmətləri vardır.

Con Roulzun 1971-ci ildə nəşr etdirdiyi "Ədalət Nəzəriyyəsi" adlı əsərində irəli sürdüyü ədalət nəzəriyyəsi ilə müasir ictimai-fəlsəfi fikir tarixində liberalizmin mövqelərinin möhkəmlənməsinə böyük təsir göstərmişdir (13). Tanınmış Kanada filosofu Uil Kimlika Roulzun bu əsəri haqqında yazır: "Roulzun "Ədalət Nəzəriyyəsi"nin nəşr olunması ilə normativ siyasi fəlsəfə yenidən yarandı (8, p.11)." Bu əsərdə Roulz göstərir ki, azadlıq və ədalət arasında heç bir qarşıdurma yoxdur. Onlar bir-birilə sıx bağlıdır.

Multikulturalizmə liberalizm yanaşması liberalizm nəzəriyyəsinə uyğun olaraq fərdin öz seçimində azad olduğunu göstərərək onun bu seçiminə cəmiyyətdəki etnik-mədəni dəyərlərin təsir etmədiyini göstərir. Liberalizm universalizmin abstrakt formasını təbliğ edərək cəmiyyətdəki etnik-mədəni müxtəlifliyi, özünəməxsusluğu nəzərə almır. Ona əsasən, müxtəlifliyin, özünəməxsusluğun təbliğ olunması cəmiyyətdə desinteqrasiya proseslərinə səbəb olur. Liberallar etnik-mədəni mənsubiyyətindən asılı olmayaraq hər bir fərd tərəfindən eyni dəyərlərin mənimsənilməsi ideyasını müdafiə edirlər, yəni onlar hər bir etnik, dini, irqi və / və ya mədəni icma üçün özünəməxsusluğu yox, universallığı təbliğ edirlər. Bundan başqa liberalizm özünəməxsusluğa böyük önəm vermədiyi səbəbindən onun qorunmasına meyl göstərmir və buna görə də o, əsasən universallığı təbliğ edən assimilyasiya siyasətini multikulturalizm siyasəti ilə müqayisədə üstün tutur. Liberalizmin bəzi nümayəndələri hətta cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin, özünəməxsusluğunun qorunmasını belə zərərli hesab edirlər. Məsələn, liberalizm nəzəriyyəsinin tanınmış nümayəndələrindən biri britaniyalı filosof Barri Brayan cəmiyyətdə mövcud olan etnik-mədəni müxtəlifliyin içində qeyri-liberal dəyərlərin olmasını və onların liberalizmə əsaslanan Qərb cəmiyyəti üçün zərərli olduğunu qeyd edərək etnik-mədəni müxtəlifliyin qorunmasını təbliğ edən multikulturalizm siyasətini tənqid edir (3). Onun fikrincə, Qərb ölkələrində dövlət demokratik dəyərlərin yayılması ilə bərabər bura gətirilən qeyri-liberal dəyərlərə dözümlülük göstərməməlidir.

Lakin bu göstərilənlərə əsaslanaraq liberalizmin multikulturalizmə qarşı olduğunu söyləmək düzgün olmazdı. Belə ki, liberalizm nəzəriyyəsinin bir çox nümayəndələri multikulturalizmi cəmiyyətdə etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin ən səmərəli siyasət modeli hesab edirlər. Onlardan biri kanadalı filosof Vil Kimlikadır. Müasir dövrdə multikulturalizmə liberalizm yanaşması məhz Vil Kimlikanın adı ilə assosiasiya olunur. O, multikulturalizm siyasətinin ideoloqu kimi çıxış edir.

Kimlika multikulturalizmi müxtəlifliyin hüquqi və siyasi tənzimlənməsinə dair ideyalar sistemi, siyasət modeli kimi qələmə verir. O, hesab edir ki, multikulturalizm etnik və irqi iyerarxiyanın köhnə formalarını demokratik vətəndaşlığın yeni münasibətləri ilə əvəz etmək üçün Qərb ölkələrində meydana gələn

bir vasitə idi (9, p.1). Vil Kimlika multikulturalizmi çoxmədəniyyətli cəmiyyətlərdə olan etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin ən səmərəli siyasət modeli hesab edir.

Kimlikanın yaradıcılığının inkişaf dövrü multikulturalizmdən artıq bir çox Qərb ölkələrində imtina olunduğu bir vaxta təsadüf etdi. Buna görə də o, belə bir əlverişsiz şəraitdə öz əsərlərində multikulturalizmin bir tərəfdarı kimi ilk növbədə çalışır ki, onun müsbət bir hadisə, səmərəli siyasət modeli olduğunu göstərsin.

Kimlika 2012-ci ildə dərc olunmuş "Multikulturalizm: Nailiyyət, məğlubiyyət və gələcək" adlı əsərində müasir dövrdə Qərb ölkələrində multikulturalizmin tənqidçiləri arasında 4 mifin geniş yayılmasını qeyd edərək onları təkzib edir (9, p.2-3). Birinci mifə əsasən, guya multikulturalizm müxtəlifliyi geniş təbliğ etməklə cəmiyyətdə işsizlik və sosial izolyasiya kimi ciddi sosial problemlərə nəzər yetirmir. Kimlika bu mifa cavab olaraq qeyd edir ki, multikulturalizm insan haqlarını təşviq edərək demokratik vətəndaşlığın yeni münasibətlərini müdafiə edir. İkinci mifə əsasən, guya multikulturalizm siyasətindən onun səmərəsizliyi səbəbindən imtina olunur. Kimlika bu mifi də təkzib edərək göstərir ki, bu siyasət uzun illər bir neçə Qərb ölkəsində aparılmış və hətta son illər ərzində daha da güclənmişdir. Növbəti mifə görə, guya multikulturalizm siyasəti artıq iflasa uğramışdır. Bu mifə cavab olaraq Kimlika faktların əsasında multikulturalizm siyasətinin çoxmədəniyyətli Qərb ölkələrində tətbiq edilməsinin müsbət nəticələrinin olduğunu göstərir. Nəhayət, dördüncü mifə görə, vətəndaş inteqrasiya siyasətinin yayılması guya multikulturalizm siyasətini əvəz etmiş və onun köhnə olduğunu üzə çıxarmışdır. Kimlika multikulturalizmin vətəndaş inteqrasiya siyasətinin yeni formaları ilə nəinki ziddiyyət təşkil etmədiyini, hətta onlara uyğun gəldiyini göstərir. Bundan başqa o, qeyd edir ki, bu iki siyasətin birgə tətbiq edilməsi ölkənin sosial-iqtisadi inkişafına müsbət təsir göstərir.

Məlum olduğu kimi, 2010-cu illərin əvvəllərində Qərb ölkələrinin bir neçə dövlət başçısı (Böyük Britaniyanın sabiq Baş naziri Devid Kameron, Fransanın sabiq Prezidenti Nikola Sarkozi, Almaniyanın Kansleri Anqela Merkel) multikulturalizm siyasətinin müasir dövrdə səmərəsiz olması səbəbindən iflasa uğradığını rəsmi olaraq bəyan etmişlər (11, s.270). Onlar bu siyasətin səmərəsizliyini ölkələrində məskunlaşmış etnik və dini azlıqların cəmiyyətə inteqrasiya olunmaq istəmədikləri ilə əsaslandırırdılar. Kimlika Qərb ölkələrində multikulturalizmin iflasa uğramasını belə təsvir edir. Ötən əsrin 70-ci illərindən 90-cı illərinədək Qərb ölkələrində azlıqların hüquqlarının müdafiə olunması vasitəsilə etnik-mədəni müxtəlifliyin tanınması və tənzimlənməsi siyasəti həyata keçirilirdi. Bu siyasət həm ölkədaxili səviyyədə, həm də beynəlxalq münasibətlər sistemində təsdiq olunmuşdur. Lakin 90-cı illərin ortalarından başlayaraq Qərb ölkələri multikulturalizmdən imtina və ona qarşı reaksiyalarla, millət quruculuğu, ümumi dəyərlər və kimlik kimi ideyalarla, eləcə də unitar vətəndaşlıq, hətta assimilyasiya siyasətinə qayıdış çağırışları ilə üzləşdi. Kimlikanın fikrincə, müasir dövrdə multikulturalizmə qarşı çağırışlar əsasən titul xalq tərəfindən irəli sürülür. Titul xalq multikulturalizmin həddindən artıq irəlilədiyini bildirərək hesab edir ki, etnik-mədəni müxtəlifliyin qorunması onun təhlükəsizliyinə, həyat tərzinə ciddi bir təhdiddir (9, p.4).

Kimlika müasir dövrdə Qərb ölkələrində multikulturalizmin iflasa uğramasına dair söylənilən fikirləri, o cümlədən Qərbin bəzi siyasi liderlərinin söylədikləri fikirləri mübahisəli sayır. Belə ki, o, hesab edir ki, bu fikirlər müasir dövrdə multikulturalizmin missiyasını, həyata keçirdiyi eksperimentləri düzgün təqdim etmir. Bundan başqa multikulturalizmin tənqidçiləri eksperimentlərin bəzilərindən imtinanın səbəblərini şişirdirlər. Kimlika hesab edir ki, Qərb ölkələrində multikulturalizmlə bağlı bu cür mübahisəli

fikirlərin yayılması multikultural inteqrasiyanın bu ölkələr üçün mühüm seçim olması faktını gizlədir. Lakin Kimlika haqlı olaraq qeyd edir ki, multikultural vətəndaşlığın yeni modellərinin qəbul olunması ilə bağlı atılan addımların heç də hamısı uğurlu olmur. O, multikultural vətəndaşlığın, ümumiyyətlə multikulturalizmin qəbul olunmasını aşağıdakı şərtlərin yerinə yetirilməsi ilə əlaqələndirir: etnik münasibətlərə dövlət təhlükəsizliyi məsələsi kimi yanaşılmaması, insan haqlarının qorunması, sərhəd nəzarətinin möhkəmləndirilməsi, immiqrant qruplarının müxtəlifliyi, iqtisadi töhvələr: (9, p.5-6).

1. Etnik münasibətlərə dövlət təhlükəsizliyi məsələsi kimi yanaşılmaması. Kimlika hesab edir ki, hər bir ölkədə dövlət və azlıqlar arasındakı münasibətlərə dövlət təhlükəsizliyi məsələsi kimi deyil, sosial siyasət məsələsi kimi yanaşılmalıdır. Belə olmayan halda immiqrantlar dövlət təhlükəsizliyinə təhdid kimi qələmə veriləcəklər (məsələn, 2001-ci il 9 sentyabr hadisələrindən sonra ərəblərə və ümumiyyətlə müsəlmanlara olan münasibət) və nəticədə cəmiyyətdə multikulturalizmə dəstək azalacaq, eləcə də azlıqların tələblərinə əhəmiyyət verilməyəcəkdir;

2. İnsan haqlarının qorunması. Multikulturalizmin qəbul olunması belə bir fikrə əsaslanır ki, etnik və dini məsələlər insan haqlarının tərkib hissəsidir. Multikulturalizmə qarşı reaksiyaların əksəriyyəti əsassız olaraq mütləqləşdirilən belə bir fikirdən irəli gəlir ki, guya müsəlmanlar öz adət-ənənələrinə sadiq qalaraq Qərb ölkələrində geniş yayılmış liberal-demokratik dəyərlərə qarşı çıxırlar;

3. Sərhəd nəzarətinin möhkəmləndirilməsi. Ölkə vətəndaşları sərhəddə nəzarət zəif olduqda, multikulturalizmə şübhə ilə yanaşırlar. Çünki belə olan vəziyyətdə ölkə ərazisinə çoxlu sayda immiqrant və ya sığınacaq axtaranlar daxil olaraq vətəndaşların həyatına təhlükə yaradırlar;

4. İmmiqrant qruplarının müxtəlifliyi. Multikulturalizm həqiqi çoxmədəniyyətliliyə əsaslandıqda daha dayanıqlı olur, yəni Qərb ölkələrinə gələn immiqrantlar yalnız bir konkret ölkədən deyil, müxtəlif ölkələrdən olduqda burada daha rahat qarşılanırlar. Onlar konkret bir ölkədən olduqda, multikulturalizmin inkişaf perspektivləri zəif olur, çünki bu halda immiqrantlarla titul xalq arasında qarşıdurma üçün zəmin yaranır;

5. İqtisadi töhfələr. İmmiqrantların pənah gətirdikləri ölkənin iqtisadi inkişafında fəal rol oynamaları multikulturalizmin həmin ölkələrdə dəstəklənməsinə səbəb olan əsas amillərdən biridir.

Kimlika hesab edir ki, yuxarıda sadalanan şərtlərə əməl olunduqda, multikulturalizm risqsiz seçim kimi qəbul olunur və nəticə etibarı ilə ölkənin sosial-iqtisadi inkişafına müsbət təsir göstərir. Əks halda multikulturalizm cəmiyyət daxilində bir sıra problemlərin yaranmasının səbəblərindən biri kimi təqdim olunaraq tənqid atəşinə tutulur. Məsələn, son dövrdə bir sıra Yaxın və Orta Şərq ölkələrində (Suriya, İraq, Əfqanıstan) davam edən hərbi münaqişələr qeyd olunan şərtlərin əməl olunmasının qarşısında ciddi maneə yaratmışdır. Belə ki, bu ölkələrdən Avropa ölkələrinə kütləvi şəkildə qaçqınların gəlməsi dövlət rəsmiləri və yerli əhalinin multikulturalizmə münasibətdə mənfi münasibətlərinin formalaşması ilə nəticələnmişdir.

Qərb ölkələrində multikulturalizmdən imtina özünü ilk növbədə radikal sağçı millətçi siyasi partiyaların və hərəkatların dirçəlməsində göstərdi. Bununla bağlı avropalı tədqiqatçılar Rene Kuperus, Karl Duffek və Yohannes Kandel qeyd edirlər ki, Qərb ölkələrində multikulturalizmə qarşı hücum özünü "Danimarka daniyalılar üçün" kimi köhnə ideyanı təbliğ edən Danimarka Xalq partiyası və buna oxşar millətçi və populist sağçı siyasi hərəkatların dirçəlməsində büruzə verir (5). Onlar göstərirlər ki, müasir dövrdə Qərb ölkələrində multikulturalizmin səmərəsiz siyasət olmasına dair fikirləri hazırda Qərb ölkələri sağçı siyasi qüvvələrlə yanaşı vaxtilə

multikulturalizmi müdafiə edən Avropadakı sosial demokrat partiyalar kimi mərkəzçi-solçu qüvvələr də təbliğ edirlər. Lakin sağçılardan fərqli olaraq onlar multikulturalizmi yanlış bir ideologiya olduğuna görə yox, onun qarşısında duran məqsədlərə nail olmadığına görə tənqid edirlər. Mərkəzçi-solçulara görə, multikulturalizm özünü doğrulda bilmədi, çünki o, cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə nail olmadı, əksinə burada ciddi sosial problemlərin yaranmasına səbəb oldu. Buna görə yaranmış vəziyyətdə mərkəzi-solçu siyasi qüvvələr multikulturalizmdən üz çevirərək artıq "vətəndaş inteqrasiyası", "sosial birlik", "ümumi dəyərlər" və "ortaq vətəndaşlıq" ideyalarına üstünlük verirlər. Düzdür, mərkəzçi-solçular ilə radikal sağçıların vətəndaş inteqrasiyası konsepsiyaları bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Belə ki, mərkəzçi-solçular daha inkluziv milli identikliyi inkişaf etdirməklə yanaşı irqçiliyə və ayrı-seçkiliyə qarşı mübarizənin aparılmasının vacibliyini qeyd edirlər. Lakin buna baxmayaraq onlar multikulturalizmi etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin siyasət modeli kimi səmərəli olmadığına görə ondan imtina edərək cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tənzimlənməsinə dair yeni yanaşmanın zəruriliyindən söhbət açırlar. Ədəbiyyatda bəzi tədqiqatçılar bu yanaşmanı post–multikulturalizm yanaşması kimi səciyyələndirirlər (1; 2; 6). Post-multikulturalizm yanaşması özü-özlüyündə olduqca mücərrəd bir yanaşmadır, çünki onun əsas cəhətləri tam bəlli deyil. Post–multikulturalizm yanaşmasını təbliğ edənlər elə ümumi şəkildə bəyan edirlər ki, bu yanaşma, bir tərəfdən, klassik multikulturalizmin çatışmazlıqlarının aradan qaldırılmasına, digər tərəfdən isə millətçiliyin, ayrı-seçkiliyin bütün formalarının qarşısının alınmasına yönəlmişdir.

Britaniyalı tədqiqatçı-jurnalist Jasmin Alibhai-Braun "Multikulturalizmdən sonra" adlı əsərində, müasir multikulturalizmi 3S (sari, samosa və steeldrums, yəni polad qabal) kimi təqdim edir (1). Sari - ənənəvi hind qadın paltarı, samosa- hind qutabı, polad qabal isə yamaykalıların çaldığı ənənəvi alətdir. Bu əşyalar Böyük Britaniyada yaşayan hindlilərin və yamaykalıların etnik-mədəni dəyərlərini əks edən nümunələridir. Qərb ölkələrində multikulturalizmi tənqid edənlər hesab edirlər ki, multikulturalizm siyasətinin orada yaşayan azlıqların yalnız etnik-mədəni dəyərlərinin qorunması məsələsinə yönəlməsi onların sosial-iqtisadi və siyasi sahələrdə real üzləşdikləri problemlərin həll olunmasına kömək etmir. Sözügedən problemlərdən tənqidçilər azlıqlar arasında işsizliyin geniş yayılmasını, onların təhsil səviyyələrinin aşağı olmasını, yaşadıqları ölkələrdə dövlət dilinin pis bilmələrini və bütün bunların nəticəsində yaşadıqları cəmiyyətə zəif inteqrasiya olmalarını göstərirlər. Bundan başqa tənqidçilərə görə, azlıqların bəzi adət-ənənələri liberal-demokratik cəmiyyətin normalarına ziddir. Multikulturalizm siyasətinin tənqidçilərinin ümumi mövqeyini 5 fevral 2011-ci ildə 47-ci Münxen Təhlükəsizlik Konfransdakı çıxışında Böyük Britaniyanın sabiq Baş naziri Devid Kameron belə ifadə etmişdir: "Dövlət multikulturalizmi" doktrinası müxtəlif mədəniyyətləri öz adət-ənənələri ilə yaşamalarına dəstək verməklə cəmiyyətdə inteqrasiya proseslərinin qarşısını alır. Bunun nəticəsində müxtəlif icmalar, xüsusilə də, müsəlman icması cəmiyyətdəki liberal dəyərləri inkar edərək demokratik cəmiyyətimizin dəyərlərinə zidd olan dəyərləri təbliğ edirlər. Bu isə dini ekstremizmin baş qaldırması üçün şərait yaradır (4)".

Beləlikdə, multikulturalizm siyasətinin tənqidçiləri hesab edirlər ki, bu siyasətin aparılması azlıqların sadəcə olaraq etnik-mədəni dəyərlərinin qorunması ilə kifayətlənməməlidir. Çünki belə olan halda azlıqların öz adət-ənənələrinə sığınmaqları üçün şərait yaradılır. Bu isə öz növbəsində onların yaşadıqları cəmiyyətə inteqrasiya olmalarına mane olur. Bundan başqa multikulturalizm

siyasətinin azlıqların etnik-mədəni dəyərlərinin qorunmasına yönəlməsi onların cəmiyyətin siyasi, sosial-iqtisadi sahələrində fəal iştirak etməyə sövq etmir. Bu isə yenə də onların yaşadıqları cəmiyyətə inteqrasiya olmaları üçün obyektiv çətinliklər yaradır.

Kimlika dövlət tərəfindən azlıqların mədəniyyətlərinə müdaxilə olunmasının liberalizmin tələblərinə uyğun olmadığını qeyd edir. Buna görə də o, assimilyasiya siyasətinə qarşı çıxır. O, assimilyasiyanın qarşısının alınmasında hər bir fərdin öz mədəniyyətinə, etnik-mədəni dəyərlərinə sığınaraq mənsubluğunun saxlanılmasının mühüm rol oynadığını göstərir. Kimlika milli azlıqlara muxtariyyətin verilməsini çoxmədəniyyətli cəmiyyət üçün zərərli hesab edir. Lakin o, milli azlıqların qrup təmsilçilikləri ilə bağlı irəli sürdükləri tələblərini ədalətli sayır. Onun fikrincə, azlıqlar iki halda qrup təmsilçiliyi ilə bağlı haqlarını tələb edə bilərlər: 1. Yaşadıqları cəmiyyətdə təqibə məruz qaldıqda; 2. Qaldırdıqları qrup təmsilçiliyi məsələsi bütün azlıqların istəklərini əks etdirmədikdə (10, p.144-145).

Qrup təmsilçiliyi məsələsi ilə bağlı Kimlika müxtariyyət və qeyri-liberal mədəniyyətlər məsələləri arasında münasibəti təhlil edir. O, liberalizm yanaşmasının ideoloqu kimi muxtariyyət prinsipini bütün sahələrdə, o cümlədən siyasi, ictimai, xüsusi, mədəni sahələrdə müdafiə edir. Çünki onun fikrincə, məhz muxtariyyət liberal tolerantlığın mümkünlüyünü təmin edir. Bununla bağlı Kimlika qeyd edir: “Liberal tolerantlığın muxtariyyətlə bağlılığı onun fərqləndirici cəhətidir” (10, p.158).

Kimlika etnik-mədəni müxtəlifliyin tənzimlənməsi məsələsində nəinki multikulturalizm siyasətini müdafiə edir. O, həmçinin güclü multikulturalizm siyasətini dəstəkləyərək dövlət tərəfindən azlıqların etnik-mədəni dəyərlərinin qorunmasına köməklik göstərilməsinin vacibliyini qeyd edir. Bununla bağlı o, zəif multikulturalizm siyasətini tənqid edir.

Zəif multikulturalizm siyasətini müdafiə edən britaniyalı politoloq Çandran Kukatas multikulturalizm siyasətinin azlıqların etnik-mədəni dəyərlərinin qorunmasında vacib olduğunu qeyd etsə də, o, dövlətin bu məsələyə müdaxilə etməsinə qarşı çıxır. O, hesab edir ki, azlıqların özlərinin ənənəvi etnik-mədəni dəyərlərinin qorunması və ya titul xalqın mədəniyyətinin, dilinin öyrənilməsi məsələləri arasında sərbəst şəkildə seçim etmək imkanı olmalıdır. Kukatas azlıqlara belə sərbəstliyin verilməsi nəticəsində assimilyasiyaya getmələrinə, yəni titul xalqın mədəniyyətini, dilini öyrənəcəklərinə inanır (7, p.7). Kimlika isə Kukatasdan fərqli olaraq hesab edir ki, dövlət azlıqların etnik-mədəni dəyərlərinin qorunmasına köməklik göstərməlidir. Əks halda azlıqlar öz dəyərlərini qoruya bilməyəcəklər. Bu isə cəmiyyətdə inteqrasiya proseslərinin gedişinə mənfi təsir göstərəcəkdir.

Kimlika əsrlər boyu etnik-mədəni azlıqların assimilyasiya siyasətinə müqavimət göstərdiklərinə görə onu düzgün seçim saymır. Bundan başqa bu siyasət immiqrantlara münasibətdə də səmərəli deyil, çünki onların köçdükləri cəmiyyətə inteqrasiya olmalarının əsas şərtlərindən biri onların etnik-mədəni müxtəlifliyinin tanınması və qorunmasıdır (10, p.191).

Kimlikaya görə, assimilyasiya siyasətinə əks olan və milli azlıqların ayrılması ilə nəticələnən separatçı hərəkat da düzgün seçim deyil. Belə ki, parçalanmanın nəticəsində çoxluq kimi meydana gələn etnik qrup əvvəlki cəmiyyətdə olduğu kimi etnik-mədəni müxtəlifliyin tənzimlənməsinin yeni çağırışları ilə üzləşir. Bunun üçün liberal dövlət azlıq qruplarına cəmiyyətdəki digər qruplara bəslədiyi eyni münasibəti göstərməlidir. Bundan başqa dövlət bu qruplara daxil olan heç bir fərdin hüquqlarının məhdudlaşdırılmasına imkan verməməlidir (10, p.35-36). Bu isə yalnız multikulturalizm siyasətinin həyata keçirildiyi halda mümkündür.

**Multikulturalizmə kommunitarizm yanaşması**

Kommunitarizm (ingilis dilindən tərcümədə "community" icma deməkdir) bir fəlsəfi cərəyan kimi bu terminin etimologiyasına uyğun olaraq etnik, dini və ya digər icmanın, ümumiyyətlə cəmiyyətin insanın formalaşmasında əsas rol oynadığını qeyd edir. Kommunitarizmin nümayənləri hesab edirlər ki, liberalizm azadlıq ideyasını mütləqləşdirir. Bu səbəbdən onlar liberalizmi tənqid edirlər. Bundan başqa kommunitarianlar radikal kommunistlərin bərabərlik ideyasını da cəmiyyətin inkişafı üçün zərərli sayırlar. Çünki bu ideya konkret insanların bilik və bacarıqlarını, onların cəmiyyətin inkişafındakı rollarını nəzərə almır. Hamıya eyni yanaşır. Bu isə ədalət prinsipinə ziddir.

Kommunitarizm liberlizmdən fərqli olaraq fərdə münasibətdə cəmiyyətin, icmanın rolunu əsas tutur. O, hər bir fərdin şəxsiyyət kimi yalnız cəmiyyət, icma daxilində formalaşmasının və inkişaf etməsinin mümkünlüyünü qeyd edir. Kommunitarianlar liberalların cəmiyyətdən təcrid olan fərdin mövcudluğunu təkzib edərək hesab edirlər ki, hər bir fərdin dünyagörüşü, dəyərlər sistemi yalnız cəmiyyətdə formalaşır. Kommunitarizm qardaşlıq, birlik ideyalarını uca tutaraq liberalizmin fərdin azadlığı ideyasının mütləqləşdirilməsinə qarşı çıxır. Kommunitarianlar liberalizmi "fərdiçiliyə" həddindən artıq önəm verdiyi üçün tənqid edirlər. Onlar hesab edirlər ki, liberalizm fərdin fəaliyyətində cəmiyyətin, icmanın roluna, buradakı dəyərlər sisteminə lazımi qiymət vermir. Onlar cəmiyyətdə ədalətin bərqərar olmasını kollektivçilik, qardaşlıq münasibətlərinin inkişafında görür.

Kommunitarizm ilə liberalizm arasında olan qarşıdurmanın fəlsəfi-nəzəri əsası kommunitarizmin kollektivçiliyə, qardaşlığa, həmrəyliyə, liberalizmin isə fərdiçiliyə, universallığa əsaslanmalarındadır. Buna görə də kommunitarizm demokratik cəmiyyətin əsas atributlarından biri olan vətəndaş cəmiyyətinin qurulmasını liberalizm kimi fərdi şəxslərlə deyil, yerli icmaların, qeyri-hökumət təşkilatlarının yaxından iştirakı ilə mümkün olduğunu göstərir.

Yuxarıda qeyd olunduğu kimi, fərdin şəxsiyyət, subyekt kimi formalaşmasına dair məsələ liberalizm və kommunitarizm arasında əsas fərqli cəhətlərdən birini təşkil edir. Bu məsələyə dair liberalizmin mövqeyini tənqid edərək kommunitarizmin tərəfdarları göstərirlər ki, fərdin bir şəxsiyyət kimi formalaşması prosesində cəmiyyətdə mövcud olan ideyalar, təsəvvürlər, etnik, dini və mədəni dəyərlər mühüm, həlledici rol oynayır. Kommunitarianlar cəmiyyətdə baş verən proseslərə sosial determinizm nöqteyi-nəzərindən yanaşırlar. Bu məsələdə onların mövqeyi marksizmə yaxınlaşır.

Multikulturalizmə liberalizm yanaşmasını təhlil edərkən biz bu yanaşmanın cəmiyyətdəki etnik-mədəni müxtəlifliyə, özünəməxsusluğa önəm vermədiyini və əsasən assimilyasiya siyasətinə meyl göstərdiyini qeyd etmişdik. Liberalizm yanaşmasından fərqli olaraq, kommunitarizm yanaşması subyektlərin formalaşmasını konkret cəmiyyətlə, konkret etnik-mədəni dəyərlər sistemi ilə əlaqələndir. Buna görə də kommunitarizm liberalizmdən fərqli olaraq etnik-mədəni icmaların dəyərlərinin qorunmasını vurğulayan multikulturalizm siyasətini müdafiə edir. Kommunitarizm fərdlə münasibətdə icmaya, cəmiyyətə üstünlük verir. Bu məsələdə də onun mövqeyi marksizmə yaxınlaşır.

Multikulturalizm siyasətinə üstünlük verməklə kommunitarizm bir tərəfdən müxtəliflikləri qəbul etməyən abstrakt universalizmi rədd edir, digər tərəfdən isə o, etnik, dini zəmində icmalararası münaqişələrin qarşısını alır.

Müasir dövrdə multikulturalizmə liberalizm yanaşması Vil Kimlikanın adı ilə assosiasiya olduğu kimi multikulturalizmə kommunitarizm yanaşması kanadalı filosof, MakQill Universitetinin professoru Çarls Teylorun adı ilə assosiasiya olunur.

Çarls Teylorun bir neçə əsərində, xüsusilə 1994-cü ildə nəşr olunmuş "Multikulturalizm: Tanınma siyasətinin təhlili" adlı əsərində multikulturalizmə kommunitarizm yanaşmasının əsas müddəaları öz əksini tapmışdır (14). Çarls Teylora görə, fərdin şəxsiyyət kimi formalaşması cəmiyyətdə reallaşır. Fərd yaşadığı cəmiyyətdə onun mənsub olduğu mədəniyyəti, etnik-mədəni dəyərləri mənimsəyir. Və bunun nəticəsində onun dünyagörüşü, etik normaları formalaşır, o, subyektə, şəxsiyyətə çevrilir.

Fərdin subyekt, şəxsiyyət kimi formalaşmasında mədəniyyətin, etnik-mədəni dəyərlərin roluna yüksək önəm verən Teylor hesab edir ki, cəmiyyətdə məskunlaşan bütün xalqların, o cümlədən etnik azlıqların mədəniyyətləri, etnik-mədəni dəyərləri dövlət tərəfindən tanınmalı və qorunmalıdır. O, qeyd olunan əsərində yazır: "İdentikliyin müasir anlamda inkişafı müxtəliflilik siyasətinin yaranmasına səbəb oldu. Hər bir kəs özünün unikal identikliyinə görə tanınmalıdır" (14, p.42).

Tanınma dedikdə Teylor ilk növbədə fərdin mənsub olduğu mədəniyyəti, bu mədəniyyətin tərkib hissələri olan etnik, dini dəyərləri, dili nəzərdə tutur. Kommunitarizmin nümayəndəsi kimi Teylor liberalizmi və xüsusilə də onun şəxsiyyət haqqında nəzəriyyəsini tənqid edir. Teylor tərəfindən liberalizmə xas olan universalizmin tənqidi, fərdin şəxsiyyət kimi formalaşmasının yalnız cəmiyyətdə mümkün olmasına dair fikri öz mahiyyətinə görə sosial determinizm mövqeyi olaraq marksizmə yaxındır. Görünür, Teylorun fəlsəfi fikirlərinin formalaşmasına marksizm təsir göstərmişdir.

Teylor dövləti cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərə neytral münasibət bəslənməyə çağıran klassik liberalizmi tənqid edir. Teylora görə, dövlət cəmiyyətdəki etnik-mədəni müxtəlifliklərə biganə münasibət göstərsə, daha konkret desək, azlıqların etnik-mədəni dəyərlərini qorumasa, titul xalq azlıqlara qarşı ayrıseçkilik siyasətini yürütməkdə davam edəcəkdir. Buna görə də Teylor tanınma siyasətini tövsiyə etməklə qeyd edir ki, yalnız bu siyasətin aparılması şəraitində azlıqlar ayrıseçkiliyə məruz qalmayacaqlar və onların etnik-mədəni dəyərləri saxlanılacaqdır.

Beləliklə, siyasi fəlsəfənin liberalizm və kommunitarizm nəzəriyyələri arasındakı mübahisə multikulturalizmə liberalizm və kommunitarizm yanaşmaları arasında qarşıdurmanın məzmununu müəyyən edir. Bu qarşıdurma ilk növbədə fərdlə cəmiyyət arasında olan münasibəti əks edir.

Tanınmış fransız sosioloqu Mişel Vieviorka multikulturalizmə liberalizm və kommunitarizm yanaşmaları arasındakı qarşıdurmanın ictimai həyatda mədəni xüsusiyyətlərə, özünəməxsuslağa hörmətlə yanaşanlarla ona şübhə, qorxu ilə yanaşanlar arasında gedən mübahisədən doğduğunu qeyd edir (15, pp.896-897). Vieviorka birincilərə kommunitarizmin, ikincilərə isə liberalizmin nümayəndələrini aid edir.

Liberalizm hislərə və emosiyalara, kommunitarizm isə əqlə, idraka yüksək önəm verir. Kommunitarianlara görə, insanın subyekt kimi, şəxsiyyət kimi formalaşması onun mənsub olduğu icmanın etnik-mədəni dəyərlərinə arxalanmaqla baş verir. Liberallar isə bunun üçün fərdin mənsub olduğu icmanın məqsədlərini mənimsəməkdə ehtiyac olmadığını qeyd edirlər. Hətta əksinə, onlar bunu cəmiyyət üçün təhlükə hesab edirlər. Liberalizm "ədaləti" "xeyir"dən üstün tutur. Kommunitarizm isə "ədalət" və "xeyir" arasındakı seçimdə üstünlüyü ikinciyə verir.

Vieviorka hesab edir ki, ədəbiyyatda multikulturalizmə liberalizm və kommunitarizm yanaşmaları bir-birinə qarşı qoyulsa da bu yanaşmaların tərəfdarları ən azı bir məqamda razılaşırlar (15, p.896). Bu, fərdin formalaşmasına dair məsələ ilə bağlıdır. Kommunitarizmə görə, fərdin formalaşması cəmiyyətdəki mövcud mədəniyyətə arxalanmanın əsasında baş tutur. Bu mədəniyyət fərddə özünə hörmət və ləyaqət hissini formalaşdırır. Buna görə də kommunitarizm

milli azlıqların mədəniyyətlərinin, etnik-mədəni dəyərlərinin tanınmasının və qorunmasının vacibliyi qeyd edir. Eyni zamanda fərd formalaşma prosesində azadlıq ideyasını mənimsəyərək özünü subyekt kimi təqdim edir. Bu isə liberalizmin tələblərinə uyğun gəlir.

Vieviorkanın fikrincə, kommunitarizm və liberalizm arasındakı bu qarşıdurmanın dəf olunmasının iki yolu vardır. Birinci yol fransız sosioloqu Alen Turen tərəfindən təklif olunmuşdur. Turen hesab edir ki, kommunitarizm və liberalizm arasındakı mübahisə mədəni müxtəliflik məfhumu əvəzinə subyekt məfhumu üzrə getməlidir, çünki mədəni müxtəlifliyə münasibətdə kommunitarizm və liberalizm yanaşmaları ya qəbulolunmazdır, ya da ki, qənaətbəxş deyil. Buna görə də mədəni müxtəlifliyə dair subyekt və sosial hərəkat ideyalarını daxil etmək lazımdır. (15, p.898) İkinci yol isə nəzəri cəhətdən bu yanaşmaların bir-birindən fərqli olduqlarını qəbul etməklə yanaşı praktikada onların birgə tətbiq edilməsindən ibarətdir.

**Ədəbiyyat:**


1. Alibhai-Brown Y., After Multiculturalism. London: Foreign Policy Centre, 2000;
2. Alibhai-Brown Y., "Beyond Multiculturalism", Canadian Diversity 3, no.2 (2004): 51-54;
3. Barry B. Culture and Equality: An Egalitarian Critique of Multiculturalism. Cambridge: polity Press, 2001.
4. Cameron D., My war on multiculturalism // The Independent. February 5, 2011
5. Cuperus R., Dufek K. and Kandel J. eds. The Challenge of Diversity: European Democracy Facing Migration, İntegration and Multiculturalism. İnnsbruck: Studien Verlag, 2003.
6. Hollinger D., Post-ethnic America: Beyond Multiculturalism. New York: Basic books, 2006.
7. Kukathas C. Theoretical Foundations of Multiculturalism http://econfaculty. gmu.edu/pboettke/workshop/fall04/theoretical_foun dations.pdf
8. Kymlicka W., (1990). Contemporary political philosophy: an introduction. Oxford [England]: Clarendon Press. pp. 11.
9. Kimlicka, Will. Multiculturalism: Success, failure and future. Washington DC: Migration Policy Institute. 2012, p.1.
10. Kymlicka W. Multicultural Citizenship: A Liberal Theory of Minority Rights. Oxford: Clarendon Press, 1995, p.144-145.
11. Multikulturalizmə giriş. (Ali məktəblər üçün dərslik). (Ön sözün müəllifi və elmi redaktor: AMEA-nın həqiqi üzvü Ramiz Mehdiyev), Bakı, 2019, s.270.
12. Nəcəfov E.Ə. Multikulturalizmin mahiyyətinə dair. Dövlət İdarəçiliyi. Nəzəriyyə və təcrübə, Jurnal, N3 (51), 2015, s.103-112
13. Rawls J. A Theory of Justice. Cambridge, Massachusetts: Belknap Press of Harvard University Press, 1971
14. Taylor, Ch. Multiculturalism: Examining the Politics of Recognition. Princeton: Princeton University Press, 1994.
15. Wieviorka, Michel. Is multiculturalism the solution? // Ethnic and Racial Studies Volume 21 Number 5 September 1998, Routledge 1998, p.896-897.


***Açar sözlər:*** *multikulturalizmə liberalizm yanaşması, multikulturalizmə kommunitarizm yanaşması, Con Roulz, Vil Kimlika, Çarls Teylor, Çandran Kukatas, Mişel Vieviorka*

**Etibar Najafov**
*Head Adviser of the Department of Humanitarian Policy,
Diaspora, Multiculturalism and Religious Issues of the
Administration of the President of the Republic of Azerbaijan,
Chair of the Department of Philosophy and Social Psychology
of the Academy of Public Administration
under the President of the Republic of Azerbaijan,
Doctor of Philosophical Sciences, Professor*

# LIBERALISM AND COMMUNITARISM APPROACHES TO THE RESEARCH OF MULTICULTURALISM

## SUMMARY

The analysis provided within this paper clearly demonstrates the liberalism and communitarism approaches to the research of multiculturalism. Concurrently, the indicated approaches determine multiculturalism as a social phenomenon that reveals its essential features. Herewith, the features of both approaches are based on the theories of the liberalism and communitarism of political philosophy.

Based on such fundamental principles of liberalism as a democracy, human rights, the rule of law, freedom of speech, religion and belief, the liberal approach to multiculturalism considers the protection ethnic and cultural diversity as an integral part of human rights and freedoms. In addition, this approach notes the superiority of individual, in relation to the community, including ethnic, religious and linguistic groups to which it belongs to.

Regarding to the role of the state in protecting ethno-cultural diversity, the views of supporters of the liberalist approach to multiculturalism is differ. Representatives of weak multiculturalism (Chandran Kukathas) consider that the state should refrain from actively protecting ethno-cultural diversity in society. Furthermore, national minorities must decide whether they should integrate into the society, where they actually dwell. However, the representatives of strong multiculturalism (William Kimlicka) hold a different opinion on this issue. They presuppose that the state should care of preserving ethno-cultural diversity in society, including helping to minorities and maintain its ethno-cultural values, accordingly.

According to the communitarian approach to the analysis of multiculturalism, the society plays an essential role in the development of the individual, in converting him into a human. Forming the process of a worldview and developing the system of values take place namely in the society. Adherents of this approach criticize the liberalism, therefore it underestimates the role of ethno-cultural values in the human activity. They presume trues that the triumph of the justice in society is associated with the strengthening of relations of collectivism and the fraternity.

***Key words:*** *liberalistic approach to multiculturalism, communitarian approach to multiculturalism, John Rawls, William Kimlicka, Charles Taylor, Chandran Kukathas, Michel Wieviorka*

**Этибар Наджафов**
*Главный консультант отдела по Гуманитарной политике, вопросам диаспоры, мультикультурализма и религии Администрации Президента Азербайджанской Республики, заведующий кафедрой Философии и Социальной Психологии Академии Государственного Управления при Президенте Азербайжанской Республики, доктор философских наук, профессор*

# ПОДХОДЫ ЛИБЕРАЛИЗМА И КОММУНИТАРИЗМА К ИССЛЕДОВАНИЮ МУЛЬТИКУЛЬТУРАЛИЗМА

## РЕЗЮМЕ

Автор анализирует подходы либерализма и коммунитаризма к исследованию мультикультурализма. Указанные подходы характеризуют мультикультурализм как социальное явление, что позволяет выявить его существенные признаки, особенности обоих подходов основаны на теориях либерализма и коммунитаризма политической философии.

Основанный на таких основополагающих принципах либерализма, как демократия, права человека, верховенство закона, свобода слова, религии и убеждений, либералистический подход к мультикультурализму рассматривает защиту этнокультурного разнообразия как неотъемлемую часть прав и свобод человека. Кроме того, этот подход отмечает превосходство человека по отношению к общине, в том числе по отношению к этническим, религиозным и языковым группам, к которым он относится. Относительно роли государства в защите этнокультурного разнообразия, мнения сторонников либералистического подхода к мультикультурализму различны. Представители так называемого слабого мультикультурализма (Чандран Кукатас) считают, что государство должно воздерживаться от активной защиты этнокультурного разнообразия в обществе. Национальные меньшинства должны сами решить - следует ли им интегрироваться в общество, в котором живут. Представители сильного мультикультурализма (Уил Кимлика) придерживаются иного мнения по этому вопросу. Они считают, что государство должно заботиться о сохранении этнокультурного разнообразия в обществе, в том числе помогать меньшинствам сохранить свои этнокультурные ценности.

Согласно коммунитарному подходу к анализу мультикультурализма, общество играет ключевую роль в развитии индивида, превращении его в личность. Именно в обществе происходит процесс формирования мировоззрения и развития системы ценностей. Сторонники такого подхода критикуют либерализм, потому что он недооценивает роль этнокультурных ценностей в деятельности человека. По их мнению, торжество справедливости в обществе связано с укреплением отношений коллективизма и братства.

***Ключевые слова:*** *либералистический подход к мультикультурализму, коммунитарный подход к мультикультурализму, Джон Роулз, Уил Кимлика, Чальз Тейлор, Чандран Кукатас, Мишель Вьеворка*

# DÖVLƏT İDARƏÇİLİYİ
# PUBLIC ADMINISTRATION

UOT 323; UOT 32:316:37; 242.7

**ƏLİ HƏSƏNOV**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının müdiri, tarix elmləri doktoru, professor**

## İLHAM ƏLİYEV – QURUCU LİDER

Orta və yaşlı nəsil müstəqilliyin ilk illərinin necə ağır keçdiyini yaxşı xatırlayır. Belə ki, ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində baş qaldırmış erməni separatizmi 90-cı illərin əvvəllərində daha da aqressivləşmiş, Ermənistanın təcavüzü nəticəsində ölkə ərazisinin 20 faizi işğal edilmiş, bir milyona yaxın azərbaycanlı qaçqına və məcburi köçkünə çevrilmişdi. Eyni zamanda, SSRİ-nin süqutu ilə respublikanın ənənəvi iqtisadi və ticarət əlaqələri pozulmuş, maliyyə-iqtisadi və siyasi böhran dərinləşmişdi. Yalnız 1993-cü ildə Heydər Əliyev Azərbaycanda rəhbərliyə qayıtdıqdan sonra ölkə tədricən bu böhrandan çıxdı, ictimai-siyasi sabitlik, milli birlik və vətəndaş həmrəyliyi yaradıldı, cəmiyyət həyatının bütün sahələrində yenidənqurma prosesi başlandı. O altı ildir ki, müstəqil dövlətimizin qurucusu və banisi, ümummilli liderimiz Heydər Əliyev aramızda yoxdur, lakin onun ideyaları, siyasi irsi, yaratdığı dövlətçilik ənənələri, şah əsəri olan, uğrunda mübarizə apardığı, ağır faciələrdən, siyasi, sosial-iqtisadi və mənəvi-psixoloji böhrandan xilas etdiyi müstəqil və demokratik Azərbaycan Respublikası inkişaf edir və yeni-yeni uğurlar qazanır, Azərbaycan xalqı təhlükəsizlik şəraitində, rifah içində yaşayır.

Ümummilli liderin siyasi kursunun yeganə düzgün yol olduğunu yəqin edən Azərbaycan xalqı 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə bu siyasətin layiqli davamçısı kimi İlham Əliyevi dəstəkləyərək, 76,8 faiz səslə Prezident seçdi. Bu tarix həm də ilk dəfə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təməli qoyulan, 1991-ci ildən isə yenidən bərpa edilən milli demokratik dövlətçilik tariximizin xüsusi mərhələsinin başlanğıcı kimi xarakterizə oluna bilər.

İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasət, seçkiqabağı təşviqat dövründə səsləndirdiyi "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" vədinə sadiq qalması qısa müddətdə ona xalq arasında geniş populyarlıq, sonsuz inam və güclü etibar qazandırdı. Elə bu səbəbdən 2008, 2013 və 2018-ci illərdə keçirilən növbəti prezident seçkilərində də İlham Əliyev azərbaycan xalqının böyük dəstəyi ilə yenidən inamlı qələbə qazandı.

Siyasətşünasların qənaətinə görə, Azərbaycanda Heydər Əliyev siyasi kursunun davam etməsi və ölkənin onun müəyyən etdiyi inkişaf yolu ilə getməsinin qarantı rolunda məhz "ümummilli liderin özü qədər inandığı və yüksək liderlik keyfiyyətlərinə güvəndiyi" İlham Əliyev çıxış edə bilərdi. Sonrakı proseslər də sübut etdi ki, müasir Azərbaycan dövlətinin xilaskarı və banisi Heydər Əliyev öz seçimində qətiyyən yanılmayıb və onun siyasi kursunun davamçısı olan Prezident İlham Əliyev öz ölkəsini sonrakı dinamik inkişaf yoluna çıxara bilmiş, yeni idarəçilik modeli ortaya qoyaraq Azərbaycanın qurucu lideri kimi özünü təsdiq etmişdir.

İlham Əliyev 2003-cü ildən başlayaraq, ilk növbədə ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi, siyasi plüralizmi, demokratik təsisatları və vətəndaş cəmiyyəti institutlarını daha da möhkəmləndirmiş, əhalinin təhlükəsizliyini, insanların hüquq və azadlıqlarının qorunmasını və ölkənin əmin-amanlığını təmin etmişdir. Bununla yanaşı, haqqında bəhs olunan dövrdə ölkənin dayanıqlı sosial-iqtisadi inkişafı, transmilli layihələrin reallaşdırılması, ictimai və mənəvi həyatın modernləşdirilməsi, təsərrüfat və turizm infrastrukturunun genişləndirilməsi, şəhər və kəndlərin, xidmət və infrastrukturların yenilənməsi və s. sahələrdə geniş yenidənqurma işləri həyata keçirilmişdir. Görülən işlər qısa zaman kəsiyində vətəndaşların rifah halının getdikcə yüksəldilməsinə, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, bazar iqtisadiyyatına çətin uyğunlaşan şəhid ailələrinə, müharibə veteranları və əlillərə, qaçqın və məcburi köçkünlərə, elm və təhsil işçilərinə qayğının artırılmasına, ordu quruculuğuna, elmin, təhsilin, mədəniyyətin, səhiyyənin inkişafına, milli-mənəvi dəyərlərin, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanması və inkişaf etdirilməsinə, gənclər və idman siyasəti sahələrində yeni-yeni uğurların qazanılmasına şərait yaratmışdır. Bununla yanaşı, İlham Əliyevin Prezident olduğu dövr ərzində digər əsas daxili inkişaf parametrləri – makroiqtisadi sabitlik, iqtisadi islahatların aparılması, sosial və mənəvi təminat sisteminin dinamikasının təmin edilməsi, müsbət demoqrafik vəziyyətin qorunması, miqrasiya və urbanizasiya proseslərinin dövlətin nəzarəti altında saxlanması, dövlət idarəçiliyinin effektivliyi və digər bir çox sahələr üzrə də Azərbaycan region ölkələri arasında ön sıralara çıxa bilmişdir. Keçirilmiş islahatlar və qazanılmış uğurlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də etiraf edilib və edilməkdədir.

İlham Əliyev bütün bu uğurlara necə nail oldu, hansı şəxsi və siyasi keyfiyyətləri onun qurucu lider imici qazanmasına səbəb olmuşdur?

Bu məqalədə İlham Əliyevin 16 illik prezidentlik fəaliyyəti dövründə onunla çiyin-çiyinə çalışan bir köməkçi olaraq müşahidə etdiyim bəzi siyasi portret cizgiləri haqqında şəxsi mülahizələrimi oxucuların diqqətinə təqdim edəcəyəm.

Əvvəlcə siyasi ədəbiyyatda lider təsnifatına qısa nəzər salmaq istərdim. Görkəmli alman sosioloqu Maks Veberə görə, siyasi lider üçün üç əsas xüsusiyyət həlledicidir:

- Fədakarlıq (özünü işinə və amallarına həsr etmək);
- Öz amalı və işi qarşısında məsuliyyət hissi daşımaq;
- Yüksək daxili inam və təmkin qabiliyyətinə malik olmaq, reallıqların təsiri və təzyiqinə qarşı təmkinli davranmaq, hadisələrin fövqünə qalxa bilmək.

Onun fikrinə görə, hər bir siyasətçi bu keyfiyyətlərə nə qədər çox malik olursa, o lider mövqeyinə daha çox yaxınlaşır və yüksəlir.

Tanınmış amerikalı alim, dünyada siyasi psixologiya üzrə aparıcı mütəxəssislərdən sayılan Marqaret C. Herman isə siyasi liderləri belə təsnif edir:

- Lider-bayraqdar: bu tip liderlərin öz orijinal siyasi hədəfləri olur və həmin hədəflər naminə insanları öz arxasınca aparmaq bacarığına malik olurlar;
- Lider-xidmətçi: bu tip liderlər öz ardıcıllarının maraqlarını dəqiq ifadə edərək, həmin maraqları məsuliyyətlə realizə etmək qabiliyyətinə malik olurlar.

Qeyd olunur ki, xidmətçi liderlər öz xalqının maraqlarının ardıcıl ifadəçisi kimi çıxış edərək, qətiyyətli və mütəşəkkil formada həmin maraqları müdafiə və təmin edirlər. Praktikada belə liderlər seçicilərinin ehtiyac və tələblərini, inamlarını və gözləntilərini daim öyrənir və nəzərə alaraq fəaliyyət göstərirlər. Məhz xalq-seçici və onun maraqları bu tip liderlər üçün əsas fəaliyyət istiqaməti və məqsədlərini formalaşdırır.

Siyasətşünaslıq və sosiologiya elmində əlavə olaraq, öz xalqının tarixində xüsusi rol oynayan islahatçı və inqilabçı lider anlayışları da mövcuddur. Belə liderlərə xalqının,

dövlətinin gələcək taleyi üçün dəyişikliklərin gərəkliliyini dərk edərək, ya inqilabi yolla, ya da inandırma yolu ilə, tədrici islahatlar həyata keçirməklə, ictimai ideallara, milli-mənəvi dəyərlərə söykənməklə hərəkət etmək xasdır.

Əlbəttə, politoloqlar bütün bu sıralamada qeyd olunan lider tiplərini nəzəri baxımdan təsnif edirlər, lakin real siyasi müstəvidə isə bəhs olunan liderlər bu və ya digər tiplərə aid edilsə belə, onlar digər qrupa aid olan liderlərin də müxtəlif keyfiyyətlərini az, yaxud çox formada özündə daşıyır, sadəcə bu keyfiyyətlərdən hansının daha çox üstünlük təşkil etməsinə görə bu və ya digər tipə aid edilir.

İlham Əliyevin publik siyasi fəaliyyəti Yeni Azərbaycan Partiyasının proporsional siyahısına rəhbərlik etməsi ilə başlayıb. Bu, artıq onun özünü Heydər Əliyev siyasi irsinin davamçısı kimi gördüyünün açıq şəkildə ifadəsi idi. Bununla da o zaman mediada İlham Əliyevin hakimiyyətə hansısa yeni partiya və ya siyasi qüvvə ilə gələcəyi haqda spekulyativ müzakirələrin də əsassızlığını nümayiş etdirdi.

Prezident kimi fəaliyyətə başladıqdan sonra da ilk çıxışlarında o, Heydər Əliyevin daxili və xarici siyasət kursunu davam etdirəcəyini, ölkəni tədricən, amma davamlı islahatlar yolu ilə inkişaf etdirəcəyini bəyan etmişdi. Bu vədə əməl olunduğunu biz keçən müddətdə təkcə siyasətə baxışda deyil, həyatın bütün sahələrində siyasi varisliyə, milli ənənələrə və mənəvi dəyərlərə münasibətdə müşahidə etdik. İlham Əliyev eyni zamanda, təkcə Heydər Əliyevin daxili və xarici siyasət kursunu davam etdirməklə kifayətlənmədi, korrektə və islah edilməsi vacib olan bütün sahələrdə mütləq islahatlar apardı, müasir dünya nizamının və transmilli tərəfdaşlıq əlaqələrin yeni çağırışlarına adekvat reaksiya verərək, inamla gələcəyə doğru irəlilədi.

İlham Əliyev Azərbaycanın inkişafını necə təsəvvür etdiyini bu il fevralın 1-də Bakı Konqres Mərkəzində Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında çıxışı zamanı yığcam olaraq belə ifadə etmişdir: “Biz islahat naminə islahat aparmırıq. Biz məqsədyönlü, düşünülmüş addımlar atırıq ki, ölkəmizin inkişafına yeni təkan verək, həll olunmamış problemləri həll edək, nöqsanları, xoşagəlməz halları, çatışmayan məqamları aradan götürək və bunu edirik...”.

Bu fikirlər İlham Əliyevin islahatçı yanaşmasını digər postsovet ölkələrində, eləcə də 1990-cı illərin əvvəllərində Azərbaycanda müşahidə etdiyimiz ”rəngli inqilabi dəyişiklik” platforması tərəfdarlarının yanaşmasından köklü şəkildə fərqləndirir. “Rəngli” – qanlı inqilabların liderləri özlərinə qədər mövcud olan idealları, siyasi, bəzən də mənəvi irsi inkar edir, cəmiyyətin kökündən yenidən qurulmasını, dilin, dinin, ölkənin adının, əlifbasının dəyişdirilməsini, bir sözlə, hər şeyin məhv edilib sıfırdan başlamasını tərcih edirlər. Prezident İlham Əliyevin islahatlar kursunda belə eksperimentlərə, nihilist yanaşmalara yer yoxdur. İslahatların yeni mərhələsinə start verilməsi də “rəngli inqilab”ların təklif etdiyi yol deyil, 1930, 1980 və 2000-ci illər Türkiyəsində, Konrad Adenauer Almaniyasında, 1980-1990-cı illərin Məhazir Məhəmməd Malayziyasında, 60-70-ci illərdə Sinqapur və Cənubi Koreyada, eləcə də qansız-rəngsiz inkişaf yolu keçmiş digər ölkələrdə müşahidə etdiyimiz köklü islahatlar yoludur.

Əlbəttə ki, biz bu yazıda qarşımıza dərin psixoloji siyasi portret yaratmaq məqsədi qoymadığımızdan liderlik haqda bu tanıtma ilə kifayətlənirik.

İlham Əliyevi xarakterizə edən keyfiyyətlər, əlbəttə, təkcə bir lider tipinə xas deyil. Yuxarıda da qeyd edildiyi kimi, dünyanın müasir siyasi səhnəsində yer alan liderlər adətən bir neçə siyasi portret tipinə aid keyfiyyətlərin daşıyıcısı olur, lakin onlarda adətən bu və ya digər lider obrazının ümdə xüsusiyyətləri daha qabarıq nəzərə çarpır. İlham Əliyevin prezidentliyi, daha əvvəl isə YAP-ın proporsional sistem üzrə seçki siyahısına və Azərbaycan parlamentindəki YAP qrupuna, AŞPA-da Azərbaycan nümayəndə heyətinə rəhbərliyi və Azərbaycan Respublikasının baş naziri kimi fəaliyyəti onu qurucu-islahatçı lider tipinə aid etməyə əsas

verir. Bunu bizim İlham Əliyevin keçdiyi siyasi bioqrafiyaya, fəaliyyətinin xarakteristikasına, özünəməxsus leksikonuna aid təqdim etdiyimiz nümunələr də təsdiqləyir.

Azərbaycançılığı əvvəl qurucusu olduğu Yeni Azərbaycan Partiyasının, daha sonra Azərbaycan dövlətinin əsas ideologiyasına çevirmiş, dövlətçiliyimizin xilaskarı, dünya azərbaycanlılarına layiq olduqları ucalıqların hədəflərini müəyyən etmiş Heydər Əliyevin timsalında Azərbaycan siyasəti parlaq bayraqdar lider tipinə şahidlik etmişdir. Məhz buna görə də biz dövlətimizin xilaskarı olan Heydər Əliyevi "Ümummilli lider" olaraq qəbul edirik. Adətən bayraqdar liderləri onların ideallarını yeni dövrə uyğunlaşdıraraq ardıcıl həyata keçirən qurucu liderlər əvəz edir. İlham Əliyev də öz çıxışlarında dəfələrlə "mən xalqın xidmətçisiyəm", "hər bir məmur xalqının xidmətçisi olmalıdır", xalqın üzləşdiyi ən çətin anlarda – zəlzələ, təbii daşqınlar vaxtı "sizə xidmət etməyə gəlmişəm" deyərək, hakimiyyəti xalqa layiqli xidmət vasitəsi kimi dəyərləndirmiş, hökumətin öz fəaliyyəti ilə bağlı mütəmadi olaraq xalq qarşısında hesabat verməsini, görülən işlər barədə ictimaiyyətin hərtərəfli məlumatlandırılmasını da demokratik idarəetmənin zəruri tələbi kimi önə çəkmişdir. Dünya azərbaycanlılarının həmrəylik günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində də bildirir ki, "mən son 15 il ərzində Prezident kimi çalışmışam ki, xalqa ləyaqətlə xidmət edim. Bundan sonra da çalışacağam ki, Azərbaycanın inkişafı, Azərbaycanın gücləndirilməsi, xalqın rifahının artması üçün əlimdən gələni əsirgəməyim. Mənim bir amalım var: güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək".

ABŞ-ın Berkli (Kaliforniya) Universitetinin sosiologiya və hüquq üzrə professoru Filipp Selznik "İdarəçilikdə liderlik. Sosioloji interpretasiya" əsərində qeyd edir ki, qurucu liderlik innovasion ideyaların inkişafı naminə birgə fəaliyyət konsepsiyasına əsaslanan liderlik üslubudur.

"The Servant Leader" (xidmətçi lider) kitabının müəllifləri Kennet Hartli Blanşard (K.Hartley Bllanchard) və Fil Hodces (Phil Hodges) hesab edirlər ki, liderlik nə idarəçiliyə, nə gücə bağlı deyil; lider başqalarının özləri üçün müəyyən etdiyi baxışlar çərçivəsində daha yaxşı yaşamasına çalışır, onların baxışları isə bütövlükdə cəmiyyətin xoşbəxtliyini nəzərdə tutur. Qurucu lider qısamüddətli deyil, uzunmüddətli hədəflər naminə çalışır, cəmiyyətə davamlı faydası olacaq addımlar atır və bir qayda olaraq uğurlar qazanır, yeni ideyaların, fikirlərin meydana çıxmasına şərait yaradır, ardıcıllarının, seçicilərin, xalqın mənafeləri naminə çalışır, onun hakimiyyətinin əsas qayəsi qurmaq, yaratmaq, insanlara xidmət etmək olur.

Azərbaycanda son on altı ildə reallaşdırılan regionların inkişafı, yoxsulluğun azaldılması, xaricdə təhsil, transmilli enerji və nəqliyyat dəhlizləri, qeyri-neft sektorunun inkişafı və s. sahələrdə qəbul edilib həyata keçilmiş uzunmüddətli proqramlar, icra edilməkdə olan strateji transmilli layihələr məhz qurucu və xidmətçi lider olan İlham Əliyevin xalqa xidmətinin çox uğurlu nümunələridir.

Xalqın mütləq əksəriyyətinin etimadı ilə 2003-cü ildə prezident seçilmiş İlham Əliyev "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam" deyərkən sadəcə vəd vermirdi, xalqa xidmətin gələcək strategiyasını nümayiş etdirirdi. Azərbaycana rəhbərlik etdiyi 16 il ərzində İlham Əliyev bu vədə, bu strateji xəttə sadiq qalaraq dini, etnik, sosial mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın hər bir vətəndaşının prezidenti oldu. Xalqının maraqları, rifahı, xoşbəxt gələcəyi üçün əzmlə çalışdı, milli mənafelərimizin müdafiəsi üçün beynəlxalq platformalarda ən ağır şərtlər altında belə öz qurucu mübarizəsindən geri çəkilmədi. Dövlətimizin suverenliyi, müstəqilliyi naminə aparılan, reallaşdırılan bütün təşəbbüslərin önündə getdi.

Bu illər ərzində yenilənən Azərbaycanın iqtisadi bazası köklü surətdə dəyişdi, ölkədə böyük iqtisadi irəliləyişlərə nail olundu. Ötən müddət ərzində iqtisadiyyat 3,4 dəfə; sənaye 2,7, kənd təsərrüfatı 1,5 dəfə artıb; ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya

qoyulub – bu, müstəqillik dövründə Azərbaycana qoyulan bütün investisiyaların 93 faizini təşkil edir və onun təxminən yarısı daxili mənbələrin payına düşür. Valyuta ehtiyatlarımız 49 milyard dolları keçib. Ölkədə 2 milyondan çox yeni iş yeri yaradılıb. Bu dövr ərzində maaşlar və pensiyalar 10 dəfəyə qədər artıb. Biznes mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü siyasət həyata keçirilib, təkcə güzəştli şərtlərlə sahibkarlara verilən kreditlərin məbləği 2 milyard manatı ötüb.

16 il ərzində Azərbaycanın sosial-mədəni və təsərrüfat infrastrukturu başdan-başa yenilənib. Paytaxt küçələrindən tutmuş ən ucqar bölgələrə qədər nəqliyyat şəbəkəsi inkişaf edib; 15 min kilometrdən çox yol çəkilib, 450-yə yaxın körpü inşa olunub. Paytaxtda 4 yeni metro stansiyası istifadəyə verilib, bir neçə stansiyada yenidənqurma işləri həyata keçirilib. Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı – Ələt Dəniz Ticarət Limanı fəaliyyətə başlayıb. Ölkədə 3100-dən çox məktəb, 650-dən çox tibb müəssisəsi inşa edilib, yaxud əsaslı təmir edilib. İnfrastrukturun yenidən qurulması işi yüzlərlə tarixi binalarda, teatr və muzeylərdə, o cümlədən, bütün ali təhsil ocaqlarında həyata keçirilib. Paytaxtda müasir tələbələrə uyğun inşa edilən idman sarayları, stadionlar illərdir əhaliyə xidmət göstərir. Bunlarla yanaşı, respublikanın bütün bölgələrində vətəndaşlara xidmət edən sosial mərkəzlər, Olimpiya Kompleksləri istifadəyə verilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilib, 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı–Tbilisi–Ərzurum qaz kəməri istifadəyə verilib. 2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq Cənub Qaz Dəhlizinin təməli qoyulub. 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, həmin il iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi keçirilib. Prezident İlham Əliyevin təşəbbüsü ilə Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb. Respublikada 7 hava limanı yenidən qurularaq istifadəyə verilib. Bakının Heydər Əliyev Beynəlxalq Aeroportu dünyanın “5 ulduz”lu 9 əsas hava limanı sırasına daxil olub. Beləliklə, ölkəmiz nəhəng enerji və nəqliyyat qovşağına çevrilmişdir. Azərbaycan artıq dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulub.

İlham Əliyev hakimiyyətinin ilk illərindən yerin təkindəki qara qızılı yerin üstündəki milli sərvətə – insan kapitalına çevirməyi hədəfləyən ciddi proqramlar qəbul edilib, həmin proqramlar uğurla icra edilməkdədir.

Azərbaycan 2008 və 2015-ci illərin dünya böhranından minimal itkilərlə çıxa bilib, bu böhranlar zamanı əhalinin iqtisadi kataklizmlərə həssas, liberal iqtisadiyyata çətin uyğunlaşan qruplarının müdafiəsi üçün ciddi addımlar atılıb. Son bir il ərzində həmin addımların ardıcıl olaraq xalqda, cəmiyyətdə hansı ruh yüksəkliyi yaratdığını, cəmiyyətin İlham Əliyev iqtidarı ətrafında necə konsolidasiya olduğunu, xalq-dövlət vəhdətinin necə gücləndiyini hər kəs müşahidə edir. Bir zamanlar hiperinflyasiya girdabında olan Azərbaycan bu gün daha böyük fəlakətlər vəd edən, iqtisadi kollaps təhlükəsi yaradan ümumdünya böhranlarından nəinki şərəflə çıxmış, həm də aztəminatlı təbəqəni qorumaq, cəmiyyətin orta sinfinin genişlənməsi yönündə uğurlu tədbirlər həyat keçirmişdir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan sadəcə xarici sərmayələr üçün cəlbedici ölkə deyil, özü də yaxın ölkələrə və Avropa dövlətlərinə sərmayə qoyur, transmilli nəqliyyat və enerji layihələrinin təşəbbüskarı, sərmayəçisi kimi çıxış edir. Azərbaycanın qardaş Türkiyədə rekord məbləğdə – 10 milyard dollar investisiya qoyuluşu nəzərdə tutulan layihələrdə həlledici söz sahibi olması, qürurverici reallıqdır. “Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları” adlı bir az əvvəl dərc edilmiş yazımda son 16 ilin

iqtisadi-sosial uğurları haqqında geniş bəhs edildiyindən bu göstəricilərin üzərində təkrarən ətraflı dayanmaq istəmirəm. Sadəcə qeyd etmək istərdim ki, qazanılmış bütün bu uğurlar, nailiyyətlər sözün mütləq mənasında tarixi xidmət sayılmalıdır.

Prezident İlham Əliyev milli-mənəvi dəyərlərin qorunmasına, mədəniyyət və incəsənətin inkişafına konseptual yanaşma nümayiş etdirir və öz rəhbər qayğısını əsirgəmir. Bu il martın 1-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşü göstərilən qayğının daha bir əyani təzahürü idi.

Beləliklə, İlham Əliyevi mənsub olduğu xalqın və dövlətin liderinə çevirmiş əsas fərdi keyfiyyətlər üzərində fikirlərimi cəmləşdirmək istəyirəm.

İlham Əliyev həddən artıq sədaqətli insandır; o öz əqidəsinə, inandığı işə, xalqına, dövlətinə, partiyasına, qəbul etdiyi ideyalara, ümummilli lider tərəfindən ona əmanət edilmiş siyasi irsə, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə həmişə sədaqət nümayiş etdirib. Öz məsləkindən, amallarından, davamçısı olduğu siyasi kursdan zərrə qədər geri çəkilməyib. Onun Prezident kimi həyata keçirdiyi bütün işlər ümummilli liderin ideyaları, Azərbaycan xalqının əsas maraq və mənafeləri üzərində qurulub.

İlham Əliyev prezidentlik dövründə həmişə qlobal və sistemli düşüncə tərzinə malik olduğunu nümayiş etdirib. Həm ölkə daxilində gördüyü işlər, həm də yürütdüyü xarici siyasət, onun təşəbbüsü ilə gerçəkləşən əksər əməkdaşlıq platformaları, həyata vəsiqə alan beynəlxalq və regional layihələr qarşıdan gələn on illər, yüz illər sonra da Azərbaycana, Azərbaycan vətəndaşlarına fayda gətirəcək, dövlətimizin qüdrətlənməsinə xidmət edəcəkdir.

İlham Əliyev zəngin idarəçilik təcrübəsinə malik, dövlət və xalq üçün aydın hədəflər müəyyən edən, o hədəflərə nail olmaq üçün ciddi siyasi iradə nümayiş etdirən, çevik qərarlar qəbul edə bilən, xalqı səfərbər edərək dinamik və ardıcıl fəaliyyət göstərən, bacarıqlı təşkilatçı, aydın təfəkkürlü rəhbər, məqsədyönlü və novator tipli siyasətçi, uzaqgörən siyasi liderdir. Onun yüksək intellektual potensialı, geniş təfəkkürü və dövlət idarəçiliyi sahəsində çoxillik təcrübəsi dünyanın sürətlə dəyişən reallıqları şəraitində çevik və optimal qərarlar qəbul etməyə imkan verir.

Dünyanın bir çox ölkələrində neft ehtiyatları var, amma karbohidrogen ehtiyatları ilə zəngin olan bütün ölkələr bu zənginlikdən öz ölkəsindəki yoxsulluğu azaltmaq, ölkəni inkişaf etdirmək, insan kapitalı yetişdirmək naminə istifadə edə bilməyib. Neft bəzən onun sahibi olan ölkələrə dağıntı, fəlakət və vətəndaş müharibəsi gətirir. Azərbaycan isə neft amilindən istifadə edərək özünün təhlükəsizliyini, inkişafını, vətəndaş məmnunluğunu təmin edib.

İlham Əliyev olduqca praqmatik və realist siyasi liderdir. O, həyata keçirdiyi siyasətin nəticələrini əvvəlcədən hesablayır, fəaliyyətinin aydın konturlarını cızır. Azərbaycan dövləti qısa və uzunmüddətli proqramlarla idarə olunan, proqnozlaşdırıla bilən bir siyasət yürüdür. İlham Əliyev müəyyən etdiyi hədəfləri, verdiyi vədləri proqramlaşdırıb həyata keçirir. Formalizm, populizm, qeyri-real vədlər, cari, situativ hədəflər naminə dövlətin enerjisinin sərf edilməsi, gündəlik siyasi tələblər haqqında düşünmək İlham Əliyev idarəçiliyinə yad xüsusiyyətlərdir. Cənab Prezident öz çıxışlarında populist vədlərin, volyuntarist qərarların regionumuzdakı bəzi ölkələrin nümunəsində necə mənfi fəsadlar verməsini daim qeyd edir. Beləliklə, İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət əhalinin rifah halının daim yüksəldilməsinə hesablanmışdır.

İlham Əliyev olduqca qətiyyətli və güclü siyasi iradəsi olan liderdir. O, Azərbaycan naminə planlaşdırdığı siyasəti, proqram və layihələri həyata keçirmək üçün böyük əzm, titanik iradə nümayiş etdirir, bəzən qeyri-mümkün görünən ideyaları gerçəyə çevirməyi bacarır. Onun rəhbərliyi ilə icra olunan strateji kurs Azərbaycanın beynəlxalq nüfuzunun və rolunun durmadan yüksəldilməsinə yönəlib.

Prezident İlham Əliyevin liderlik keyfiyyətləri – dərin zəkası, böyük erudisiyası, qlobal düşüncəsi, intellekti, çevik qərar qəbul etmək bacarığı müasir dünya nizamında Azərbaycanın yerini, nüfuzunu, çəkisini müəyyən edir. İlham Əliyevin təşəbbüsləri, reallaşdırdığı proqram və layihələr ölkəyə xarici investisiyaların cəlb edilməsi üçün ciddi zəmin yaradıb. Dünyada siyasi və iqtisadi vəziyyətin heç də ürəkaçan olmadığı indiki zamanda Azərbaycan davamlı tərəqqi nümayiş etdirir.

Yüksək peşəkarlıq və diplomatik məharət İlham Əliyevin siyasi karyerasındakı əsas fərqləndirici xüsusiyyətlərdən biridir. Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında və MDB dövlət başçılarının Aşqabad toplantısında səsləndirdiyi beynəlxalq hüquqa əsaslanan sərt, qətiyyətli və məntiqli çıxışlar bir lider olaraq İlham Əliyevin diplomatik məharətinin göstəricisi sayıla bilər. Prezidentin öz dili ilə ifadə etsək: “bu gün regionla bağlı elə bir məsələ yoxdur ki, o məsələdə Azərbaycanın rəyi, mövqeyi, rolu nəzərə alınmasın”.

Dünyada elə liderlər var ki, yalnız idarə etdiyi dövlətin qüdrətindən, fövqəl gücündən çıxış edərək, daim beynəlxalq təhlükəsizliyi təhdid altında saxlayır, beynəlxalq ədaləti öz ölkəsinin, bəzən də ona yaxın olan bu və ya digər transmilli qrupların xeyrinə pozmaqdan çəkinmir. Lakin elə liderlər də var ki, idarə etdiyi ölkənin iqtisadi, hərbi, coğrafi və ya demoqrafik resurslarından asılı olmayaraq öz liderlik keyfiyyətləri, siyasi əzmi və qətiyyəti ilə dünyanın ədalət tərəzisinin şərin lehinə əyilməsinin qarşısını alır, daha ədalətli qərarların qəbul edilməsinə nail olur. İlham Əliyev məhz belə liderlərdəndir. Ərazicə və əhali resurslarına görə kiçik olan Azərbaycan İlham Əliyevin siyasətinin gücüylə hazırda bütün dünyada öz maraqlarını təmin etməyi bacarır. Onun səyləri, uğurlu diplomatik kursu sayəsində, demək olar ki, bütün beynəlxalq təşkilatlar Azərbaycan haqq işini müdafiə edən qərar və qətnamələr qəbul etmişdir. Bəzən onun qətiyyətli addımları opponentlər tərəfindən ciddi riskli mövqe kimi dəyərləndirilir. Məsələn, Türkiyə ilə Ermənistan arasında Sürix protokolları ilə bağlı İlham Əliyevin nümayiş etdirdiyi qətiyyətli mövqeyin hədəfinə çatmayacağı iddia olunurdu, çünki o protokolların arxasında həm ABŞ, həm Rusiya, həm də Avropa İttifaqının müəyyən dairələri dayanırdı. Lakin İlham Əliyev Türkiyə elitasının, Türkiyə ictimaiyyətinin rəyini düzgün zondaj edə bildiyindən, Ermənistan rəhbərliyinin kiçik bir bəhanə ilə sazişdən geri çəkilməyə hazır olduğunu hesablaya bildiyindən nümayiş etdirdiyi qətiyyətli mövqe həm də olduqca rasional, soyuqqanlı hesablamalara söykənirdi.

Qeyd etmək yerinə düşər ki, belə uzaqgörənlik, yüksək siyasi fəhm bacarığı cənab İlham Əliyevə ümummilli liderdən miras qalmışdır. Vaxtilə, onun BTC haqda qərarını istər ölkə daxilindəki, istərsə də xaricdəki opponentlər kəskin tənqid edirdilər. Lakin zaman ümummilli liderin nə qədər haqlı olduğunu ortaya çıxardı. Bu gün Azərbaycanı nəqliyyat-tranzit mərkəzinə, Avropanın əsas alternativ enerji mənbəyinə çevirən, Türkiyə-Azərbaycan dostluğunu “filoloji romantika”dan əsası Heydər Əliyevin zamanında qoyulmuş, bu gün isə BTC, BTQ, TAP, TANAP, “Petkim” və s. layihələrlə real iqtisadi zəmin üzərində “bərkimiş tərəfdaşlığa” çevirən İlham Əliyev siyasətidir.

İlham Əliyev islahatçı, novator liderdir. O, həyatımızın hər bir sahəsində – təhsildə, iqtisadiyyatda, kənd təsərrüfatında, elmdə, mədəniyyətdə, şəhərsalmada, Azərbaycanın xarici siyasətində yenilikçi, islahatçı yanaşma tətbiq edir. Dünyada baş verən dəyişikliklərin, cərəyan edən proseslərin məntiqindən çıxış edərək Azərbaycanın davamlı inkişafını, sabitliyin qorunmasını təmin edən qərarlar qəbul edərək həyata keçirir.

Dünya praktikasından bilirik ki, aparılan islahatlar bir çox hallarda sosial və siyasi gərginliklərlə müşayiət olunur. Bunun fəsadlarını bəzi qonşu ölkələrdə, eləcə də Avropada müşahidə edirik. Azərbaycanda

siyasi və iqtisadi islahatlar əhalinin, xüsusən aztəminatlı təbəqənin mənafeləri nəzərə alınmaqla həyata keçirilir, vergi islahatlarında, qiymət və tarif siyasətində bu təbəqənin xeyrinə diferensial yanaşma tətbiq edilir.

İlham Əliyev yüksək siyasi mədəniyyətə malik, hakimiyyətin əxlaqını nümayiş etdirən humanist bir liderdir. Prezident olaraq ilk çıxışlarında qeyd etdiyi kimi, aradan keçən müddət ərzində "hər bir azərbaycanlının prezidenti" olmağı bacarmış, hər zaman siyasi rəqiblərinə qarşı yüksək əxlaqi davranış sərgiləmiş, siyasi mübarizənin əxlaq çərçivəsində aparılmasının tərəfdarı olmuşdur. Prezident seçkiləri zamanı siyasi rəqiblərinə üstün imkanlar təmin etmək üçün hətta seçkiqabağı təbliğatdan da imtina etmişdir. Bu gün bəlli mərkəzlərin təhriki ilə həm Azərbaycanın bəzi siyasi müxalif qüvvələri, həm xaricdə yaşayan azərbaycan əsilli antidövlət qrupları, həm də xarici nəşrlər vasitəsilə aparılan qaralama, şər, böhtan kampaniyası qarşısında İlham Əliyevin nə qədər yüksək ləyaqətlə və təmkinlə davrandığını hamı görür. Onun şəhid ailələri, təbii fəlakətdən əziyyət çəkən vətəndaşlarla görüşlərdə nümayiş etdirdiyi humanist davranış məmur-vətəndaş münasibətlərinin, lider-xalq əlaqələrinin çox gözəl bir nümunəsidir.

Belə yüksək siyasi mədəniyyət Azərbaycan dövlətinin qonşularla münasibətlərində də həmişə özünü büruzə verib. Bu və ya digər təşviq və təzyiqlərə baxmayaraq, indiyə qədər Azərbaycan hər hansı bir dövlətə qarşı platsdarm rolu oynamamışdır. Ermənistanda baş verən son hakimiyyət dəyişiklikləri və dövlət aparatının iflic olduğu məqamlarda belə, Azərbaycan tərəfi fürsətcil davranışdan yayınmışdır. Nəticədə bu gün Azərbaycan regionda sülh, əməkdaşlıq və dialoq platforması kimi tanınır, beynəlxalq etimadın artmasına öz töhfələrini verir. 2017-ci ildən etibarən Bakıda ABŞ və Rusiya, NATO və Rusiya hərbi rəhbərliyinin görüşlərinin keçirilməsi ənənəvi hal almışdır, Rusiya ilə Türkiyə arasında gərginliyin azaldılmasına Azərbaycanın verdiyi dəstək artıq hər iki ölkənin müxtəlif səviyyəli siyasətçiləri tərəfindən dilə gətirilmişdir. İlham Əliyevin siyasi iradəsi təkcə Azərbaycanı sabitlik, tərəqqi adasına, regional cazibə mərkəzinə çevirməmişdir, bu gün Azərbaycan həm də regionda sülhün, asayişin, bərabərhüquqlu tərəfdaşlığın qarantıdır. Onun dünya miqyasında yürütdüyü uzaqgörən siyasət, Azərbaycan xalqının maraq və mənafelərini qətiyyətlə müdafiə etməsi ölkəmizi regionda və beynəlxalq aləmdə mühüm amilə çevirmişdir. Azərbaycanı daxildən təhdid edən heç bir narahatedici məsələ qalmamışdır, dövlətimizin ətrafında formalaşmış xoşməramlı mühit, yürüdülən komplimentar siyasət isə xaricdən gələn təhdidləri önləməyə imkan verir.

İlham Əliyev həddindən artıq humanist və insansevər siyasətçidir. Onun siyasətinin təməlində insan, vətəndaş amili, insanların firəvan, təhlükəsiz həyatı dayanır. İlham Əliyev insanları sevir, insanlara xidmət etməkdən zövq alır. Ümumbəşəri ədalətin, dünyada sülhün, təhlükəsizliyin təmin olunması üçün gərgin mübarizə aparır. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü və sədrliyi dövründə qaldırdığı məsələlər, onun təşəbbüsü ilə beynəlxalq qurumlarda qəbul olunmuş qətnamələr, başladılmış "Bakı prosesi", Bakını "humanitar Davos" kimi tanıdan çoxsaylı beynəlxalq təşəbbüslər dövlətimizi beynəlxalq dialoqun, əməkdaşlığın və tərəfdaşlığın, sülhün və təhlükəsizliyin əsas müdafiəçilərindən birinə çevirmişdir. 2019-2022-ci illərdə dünyanın 120 ölkəsinin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik edərkən də Azərbaycan bu siyasətini davam etdirəcək.

Prezident İlham Əliyev bir siyasi lider və dövlət başçısı olaraq opponentlərinin əksər hallarda qərəzli və əsassız səciyyə daşıyan reaksiyalarına vaxt itirmir, ancaq milli hədəflərə yönəlmiş strategiyasını maksimum effektlə gerçəkləşdirmək üçün çalışır, bu və ya digər addımların zamanlanmasını dəqiq hesablamalarla həyata keçirir. Kreativ-qurucu liderliyin əsas xüsusiyyətlərindən biri də elə budur.

Prezident İlham Əliyevin regionların inkişafı, gənclərin təhsili, insan kapitalına dövlət sərmayəsi qoyması, vətəndaşın sosial haqlarını, sosial müdafiəsini önə çəkməsi, vətəndaşların sağlamlığının qorunması ilə bağlı konseptual siyasət, milli mənəvi dəyərlərin qorunması, yeni nəsillərin öz tarixi irsinə sədaqət ruhunda böyüdülməsinə xüsusi diqqət yetirməsi, Azərbaycanın işğalçı Ermənistan istisna olmaqla bütün qonşu ölkələrlə qarşılıqlı faydalı əlaqələr qurması Prezidentin uzaqgörən, müdrik, peşəkar siyasətçi xüsusiyyətini qabarıq şəkildə nümayiş etdirir.

Prezident İlham Əliyevin siyasəti xalq tərəfindən geniş dəstəyə malikdir. Yerli və ayrı-ayrı xarici qurumlar tərəfindən aparılan monitorinqlər, keçirilən rəy sorğuları bu dəstəyin mövcudluğunu təsbit edir. Ötənilki prezident seçkilərinin nəticələri, eləcə də bu il Fransanın nüfuzlu "Opinion Way" şirkətinin və Strateji Tədqiqatlar Mərkəzinin apardığı rəy sorğularının nəticələri xalqın İlham Əliyev siyasətinə yüksək etimadının nümayişi oldu. "Davos İqtisadi Forumunun apardığı sorğuya əsasən, siyasətçilərə ictimai etimad" adlanan kateqoriyada Azərbaycan dünyada 20-ci yeri tutur, bu, İlham Əliyevin şəxsinə və iqtidarına xalqın böyük etimadının beynəlxalq etirafı kimi qəbul edilməlidir.

Əminəm ki, siyasi kursunun varisi olduğu Ümummilli lider Heydər Əliyev kimi İlham Əliyevin şəxsiyyəti, eləcə də xalqa, dövlətə xidmətə, onun təsisatlarının təkmilləşdirilməsinə, iqtisadiyyatın inkişafı və sosial rifahın təmin olunmasına həsr edilmiş fəaliyyəti elmi-politoloji, tarixi-fəlsəfi araşdırmaların obyektinə çevriləcək, dərindən tədqiq olunacaq. Onu xarakterizə edən liderlik xüsusiyyətləri öyrəniləcək və gənc nəslə çatdırılacaq.

**Ədəbiyyat:**


1. Azərbaycan Prezidenti İlham Əliyevin "Rossiya-24" televiziya kanalına müsahibəsi // "Azərbaycan" qəzeti, 31 dekabr 2019-cu il.
2. Azərbaycan Prezidenti İlham Əliyevin yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibəsi // "Azərbaycan" qəzeti, 24 dekabr 2019-cu il.
3. Azərbaycan Prezidenti İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə nitqi // "Azərbaycan" qəzeti, 27 noyabr 2019-ci il.
4. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında nitqi // "Azərbaycan" qəzeti, 12 yanvar 2019-ci il.
5. Azərbaycan Prezidenti İlham Əliyevin Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclasda nitqi // "Azərbaycan" qəzeti, 22 sentyabr 2018-ci il.
6. Azərbaycan Prezidenti İlham Əliyevin Xəzəryanı dövlətlərin başçıları Aktau Zirvə toplantısında nitqi // "Azərbaycan" qəzeti, 13 avqust 2018-ci il.
7. Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə Bakıda təntənəli hərbi paradda nitqi // "Azərbaycan" qəzeti, 27 iyun 2018-ci il
8. Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Əskişəhər şəhərində TANAP layihəsinin açılış mərasimində nitqi // "Azərbaycan" qəzeti, 13 iyun 2018-ci il
9. Azərbaycan Prezidenti İlham Əliyevin Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində nitqi // "Azərbaycan" qəzeti, 30 may 2018-ci il
10. Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışında çıxışı // "Azərbaycan" qəzeti, 6 may 2017-ci il.
11. Azərbaycan Prezidenti İlham Əliyevin V Qlobal Bakı Forumunun açılışında çıxışı // "Azərbaycan" qəzeti, 17 mart 2017-ci il.
12. İlham Əliyev - On beş illik prezidentlik dövrünün uğur salnaməsi (2003-2018). Bakı: Zərdabi LTD, 2018.- 184 s.
13. Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri: keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı: XXI-YNE, 2005, 464 s.
14. Mehdiyev R.Ə. "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti. Bakı: Şərq-Qərb, 2008, 216 s.
15. Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: Zərdabi, 2016, 700 s.
16. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Bakı: "Zərdabi LTD", 2015, 1048 s.
17. http://www.heydar-aliyev.org
18. http://www.president.az
19. http://www.heydar-aliyev-foundation.org
20. http://www.aliyev-heritage.org
21. http://www.azerbaijan.az
22. http://www.cabmin.gov.az
23. http://www.meclis.gov.az
24. http://www.mfa.gov.az
25. http://www.azstat.org
26. http://www.eco.gov.az
27. http://www.preslib.az


***Açar sözlər:*** *dövlət müstəqilliyi, dövlət idarəçiliyi, sosial-iqtisadi inkişaf, makroiqtisadi sabitlik, siyasi plüralizm, vətəndaş cəmiyyəti, xarici siyasət, enerji təhlükəsizliyi*

**Ali Hasanov**
*Professor of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Doctor of Science in History*

## ILHAM ALIYEV - FOUNDING LEADER


### SUMMARY

Firstly, the paper is analyzed in details the ideological foundations of the national development policy of National Leader Heydar Aliyev, based on the independent statehood of Azerbaijan. It studies the concept of a strong state, reflected in the state doctrine of Heydar Aliyev, as well as its economic, political, social and moral foundations.

The paper notes that the President Ilham Aliyev is a very successful and dynamic continuing this policy during 16 years of his presidency, based on a platform of civil solidarity. Herewith, the foundation of which was laid by the National Leader Heydar Aliyev, who has strengthened internal public and the political stability, ensured the security of the population, the fundamental rights and freedoms of the people, the peace of the country has achieved a gradual increase of the prosperity of citizens.

It is necessary to articulate the fact that, Azerbaijan takes the first place in the former Soviet Union. Along with this, the paper cites that the ration of durable socio-political stability reigned on the basis of the national civil unity, also support the majority of power politics, in recent time.

The paper notes that, Azerbaijan has strengthened its position at the top of three among countries of the region over the last 16 years. Additionally, it discusses that, in terms of internal development parameters of macroeconomic stability, a dynamically developing economy, the dynamics of the social and moral security system, a positive demographic situation, state control over the migration and urbanization processes and at last the effectiveness of the public administration.

The paper scientifically determines that, Azerbaijan is recognized as a State with an independent position and herewith, its international authority is steadily increasing. A more important aspiration is that owing to the foreign policy of the President Ilham Aliyev.

Furthermore, the paper highlights Azerbaijan achievements in the economic sphere on the basis of certain facts, which paid particular attention to the implementation of huge transnational energy and transport projects in Azerbaijan under the leadership of the President Ilham Aliyev.

In addition, the paper justifies the consistent policy of strengthening democratic institutions, also ensuring political pluralism and together with this, consolidation civil society institutions in Azerbaijan over the last 16 years. It is interesting to take note of the fact that the funds are allocated annually from the budget to finance. Needless to point that, activities of the political parties actively participate on the elections in the country, which conducted freely, transparent and in the democratic conditions. Thus, in connection with all of these, it indicates the formation of the political pluralism and multi-party democratic, political system in Azerbaijan, accordingly.


***Key words:*** *state independence, public administration, socio-economic development, macroeconomic stability, political pluralism, civil society, foreign policy, energy security*

**Али Гасанов**
*Профессор Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики, доктор исторических наук*

## ИЛЬХАМ АЛИЕВ – ЛИДЕР СОЗИДАТЕЛЬ

### РЕЗЮМЕ

В начале статьи подробно анализируются идеологические основы политики национального развития общенационального лидера Гейдара Алиева, построенной на независимой государственности Азербайджана. Изучается понятие сильного государства, отраженное в государственном учении Гейдара Алиева, его экономические, политические, социальные и нравственные основы.

В статье отмечается, что Ильхам Алиев, очень успешно и динамично продолжающий эту политику, за 16 лет президентства, опираясь на платформу гражданской солидарности, основа которой была заложена общенациональным лидером Гейдаром Алиевым, еще более укрепил внутреннюю общественно-политическую стабильность, обеспечил безопасность населения, основные права и свободы граждан, спокойствие в стране, добился постепенного повышения благополучия граждан.

Также подчеркивается, что по коэффициенту прочной общественно-политической стабильности, воцарившейся на основе внутреннего национального гражданского единства, поддержки большинством населения политики власти в современный период, Азербайджан занимает первое место на постсоветском пространстве.

По внутренним параметрам развития – макроэкономической стабильности, динамично развивающейся экономике, динамике системы социального и морального обеспечения, позитивной демографической ситуации, государственному контролю за процессами миграции и урбанизации, эффективности государственного управления и др. Азербайджан за последние 16 лет укрепил свое место в первой тройке среди стран региона.

Научно обосновывается, что благодаря внешней политике Президента Ильхама Алиева, опирающейся на национальные интересы, Азербайджан признан как государство, отличающийся независимой позицией, неуклонно повышается его международный авторитет. На фактах широко анализируются успехи Азербайджана в экономической сфере, а также доводится до внимания осуществление в стране под руководством Президента Ильхама Алиева гигантских транснациональных энергетических и транспортных проектов.

Также обосновывается проведение в Азербайджане за последние 16 лет последовательной политики по укреплению демократических институтов, обеспечению политического плюрализма, усилению институтов гражданского общества. При этом отмечается, что для финансирования деятельности политических партий, активно участвующих в выборах, проводящихся в стране в свободных, прозрачных и демократических условиях, ежегодно выделяются средства из бюджета, и это свидетельствует о формировании и развитии в Азербайджане политического плюрализма и многопартийной демократической политической системы.

***Ключевые слова:*** *государственная независимость, государственное управление, социально-экономическое развитие, макроэкономическая стабильность, политический плюрализм, гражданское общество, внешняя политика, энергетическая безопасность*

# R E G İ O N L A R
# R E G I O N S

UOT 330.34; 330.35

**VİDADİ İSAYEV**
**Bərdə rayon İcra Hakimiyyətinin Başçısı**
*e-mail: mail@berde-ih.gov.az*

## BƏRDƏ AZƏRBAYCANIN UĞURLA İNKİŞAF EDƏN RAYONLARINDAN BİRİDİR

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulan və Cənab Prezidentimiz İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun uğurla həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində davamlı olaraq ölkəmiz inkişaf edir, böyük tədbirlər həyata keçirilir, sosial proqramlar reallaşdırılır, xalqımız sabitlik və əmin-amanlıq şəraitində yaşayır.

Ulu öndərimiz Heydər Əliyevin bütün bölgələrə olduğu kimi Bərdə rayonuna da xüsusi qayğısı olmuşdur. Aqrar rayon olan Bərdə rayonu qədim tarixə, zəngin ənənələrə malikdir.

Uzun illər Bərdə Azərbaycanın ən geridə qalmış rayonlarından biri olmuşdur. Sovet hakimiyyəti illərində də rayon iqtisadi cəhətdən zəif inkişaf etmiş, su, yol, məişət problemləri ciddi çətinliklər törətmişdir.

Ulu öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda siyasi rəhbərliyə gəlişi bütün respublikamızda olduğu kimi Bərdənin də həyatında mühüm dəyişikliklərlə müşahidə olunmuşdur.

1970-1980-cı illər Bərdənin tarixində intibah dövrü oldu, uzun illərdən yığılıb qalmış problemlərin həll edildi.

Ulu öndər Heydər Əliyev Azərbaycana siyasi rəhbərliyi dövründə 14 dəfə (28 may 1974, 12 avqust 1975, 7 oktyabr 1976, 3 sentyabr 1977, 26 avqust 1978, 3 oktyabr 1978, 11 sentyabr 1979, 5 sentyabr 1980, 2 oktyabr 1980, 4 sentyabr 1981, 3 sentyabr 1982, 26 iyul 1993, 10 aprel 1994, 8 oktyabr 1998) Bərdə rayonunda olmuşdur. Bərdəyə səfərləri zamanı kolxozçular, fəhlələr və ziyalılara görüşən Heydər Əliyev onların problemləri ilə yaxından tanış olmuş, bütün insanlara kömək etmiş, onlara mənəvi dayaq olmuşdur. Heydər Əliyevin rəhbərliyi ilə pambıqçılıqla bağlı zona müşavirələrinin çoxu məhz Bərdədə keçirmiş, hər gəlişi ilə Bərdəyə yüksəliş, bərdəlilərə firavanlıq gətirmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Bərdə pambıqçılıq rayonu kimi təkcə respublikamızda deyil, keçmiş SSRİ-də böyük şöhrət qazanmışdır. 1981-ci ildə rayonumuzda 28 min hektar sahədə pambıq əkilmiş, ölkə üzrə tədarük olunan 1 milyon ton pambığın 126 min tonu Bərdə rayonunun payına düşmüşdür. Bu respublikada ən yüksək göstərici idi.

Ulu öndər Bərdə pambıqçılarının bu uğurunu böyük nailiyyət kimi dəyərləndirmişdir.

Bərdənin iqtisadiyyatı məhz həmin vaxtdan inkişafa başlamış, böyük infrastruktur layihələri həyata keçirilmiş, rayon mərkəzi şəhər kimi formalaşmışdır.

1998-ci ilin oktyabr ayında Azərbaycan Respublikası Prezidentliyinə namizəd olarkən Ulu öndər Bərdəyə gələrək seçicilərlə görüşdü. Heydər Əliyevin həmin görüşdəki tarixi çıxışı hərarətlə, alqışlarla qarşılandı.

Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı olan Heydər Əliyevin ideyaları bu gün də yaşayır və əbədi olaraq yaşayacaqdır. Onun şah əsəri sayılan Müstəqil Azərbaycanın hər bir guşəsində qurub-yaratdığı tarixi quruculuq işləri əbədiyaşar tariximiz və qürur mənbəyimizdir.

Heydər Əliyev siyasi məktəbinin yetirməsi, dünya diplomatiyasının ən nüfuzlu şəxslərindən olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün öz uğurlu siyasəti ilə xalqımızı işıqlı və xoşbəxt gələcəyə aparır.

Bu gün bərdəlilər Ümummilli liderimiz Heydər Əliyevin onlara qarşı olan sevgi və qayğısını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevdən görürlər.

Ölkə rəhbəri cənab İlham Əliyev 9 dəfə Bərdə rayonuna səfər etmişdir.

Cənab Prezidentin Bərdə rayonuna səfərləri həmişə rayonun ictimai-siyasi həyatında mühüm hadisəyə çevrilmiş, yeni-yeni obyektlərin istifadəyə verilməsi ilə yadda qalmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2012-ci il 07 oktyabr tarixdə rayonumuza tarixi səfəri zamanı rayonumuzda aparılan abadlıq və quruculuq işləri ilə şəxsən yaxından tanış olması rayonun həyatında böyük hadisə olmuşdur. Bu səfər zamanı cənab Prezidentimiz Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə tər gül dəstələri düzərək yeni tikilmiş “Qəhrəmanlar” parkının və illik gücü 6,8 min ton olan çörək zavodunun açılışlarını həyata keçirmiş, Mərkəzi istirahət parkı, Nüşabə parkı və Bayraq meydanı ilə tanış olmuş, 2013-cü il 10 oktyabr tarixdə səfəri zamanı məcburi köçkünlər üçün yeni tikilmiş 886 mənzilli yaşayış məhəlləsinin açılışını həyata keçirmiş, 2014-cü il 06 avqust tarixli səfəri zamanı Ümummilli liderin adını daşıyan parkda aparılan yenidənqurma işləri ilə tanış olmuş, 2015-ci il 12 mart tarixli səfəri zamanı məcburi köçkünlər üçün yeni tikilmiş 588 ailəlik yaşayış məhəlləsinin, “ASAN xidmət”i Mərkəzinin, 1 saylı Uşaq incəsənət məktəbinin, sahəsi 54 hektar olan Heydər Əliyev adına park-bulvarın, 15,5 km uzunluqda Mollaisalar-Vəliuşağı-Mollaəhmədli-Sərkarlar kəndlərarası avtomobil yolunun açılışını həyata keçirmiş, “Bərdə” türbəsinin bərpasının gedişi ilə tanış olmuşdur.

Azərbaycan Respublikasının davamlı inkişafını təmin etmək məqsədi ilə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə hazırlanmış və qəbul edilmiş regionların inkişafına dair Dövlət proqramları digər bölgələr kimi Bərdə rayonunda da müsbət nəticələrini göstərmişdir.

Rayon üzrə 2019-cu ildə yerli gəlir və xərclər 16 milyon 592 min 862 manat məbləğində müəyyənləşdirilmişdir. 2019-cu il ərzində ümumi məhsul 458240,7 min manata çatmışdır. Ümumi məhsul buraxılışının 65,1 faizi istehsal sahələrində, o cümlədən 3,3 faizi sənayedə, 58,2 faizi kənd təsərrüfatında, 3,6 faizi tikintidə olduğu halda 39,4 faizi xidmət sahələrində, o cümlədən 1,5 faizi nəqliyyatda, 0,3 faizi rabitədə, 33,1 faizi isə ticarətdə olmuşdur.

Rayonun sosial-iqtisadi inkişafı proqramının həyata keçirilməsi nəticəsində 2019-cu il ərzində 7408 nəfər işlə təmin olunmuşdur ku, bundan 2092 nəfəri daimi işlə təmin olunandır. Həmçinin 212 nəfər özünəməşğulluq proqramına cəlb edilmişdir.

2019-cu il ərzində rayonun qazlaşdırılması işi davam etdirilmiş, rayonun Hacıəhmədli kəndinə təbii qaz verilmişdir. 2011-ci ildə rayon mərkəzinin 50 faizi və kəndlərin 10 faizi qazlaşdırılmışdırsa bu gün yaşayış məntəqələrinin 98,2 faizi və ev təsərrüfatlarının 99,2 faizi qazlaşdırılmışdır. Rayonun 111 yaşayış məntəqəsindən 109-u hazırda təbii qazla təmin olunur. Cəmi 112 evdən ibarət Təhlə və Məşədiibişli kəndlərinin qazlaşdırılması üçün aparılan işlər başa çatdıqdan sonra rayon üzrə qazlaşma 100 faizə çatacaqdır.

Rayonun elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görülür. Hazırda rayonun elektrik şəbəkəsinin güc qurğuları yaxın 30 il ərzində əhalinin və iqtisadiyyatın fasiləsiz olaraq elektrik enerjisi ilə təchiz edilməsinə qabildir.

Ötən illər ərzində rayonun 17 yaşayış məntəqəsində elektrik şəbəkələri yenidən qurulmuş, abonentlərin elektrik xətlərinə SMART tipli sayğaclar quraşdırılmışdır və bu işlər davam etdirilir.

2019-cu ildə elektrik şəbəkəsində xidmət işləri ilə yanaşı şəbəkənin yenidən qurulması

işləri davam etdirilmiş, 35/10 kv-luq Mustafaağalı yarımstansiyasında 10 kv-luq 4 saylı hava xəttinin qüsurlu xətt və şin ayrıcları yenisi ilə əvəz edilmiş, 35 kv-luq Seyid Yusifli hava xəttində 6 ədəd qüsurlu dayaq metal dayaqla əvəz edilmiş, 10 kv-luq hava xətlərində 74 ədəd dayaq dəmir-beton dayaqla, 4,5 km xətt AS-50 markalı naqillə, 365 ədəd qüsurlu izolyator, 63 ədəd qüsurlu traves, 0,4 kv-luq 42,5 km naqillər SİP kabellə və 245 ədəd ağac dayaq metal dayaqla əvəz edilmiş, yeni yaşayış massivlərində 450 ədəd 0,4 kv-luq metal dayaq, 15,2 km 4x35 markalı SİP kabel, 1146 metr 4x16 markalı kabel çəkilmiş, 669 abonentə sayğac quraşdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncam və tapşırıqlarına əsasən Bərdə rayonunda əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması məqsədi ilə Nifçi, Məşədiibişli, Kafarlı və Hacıbəyli kəndlərdə 3 ədəd sutəmizləyici qurğu quraşdırılmış, hər kənddə su şəbəkəsi tikilmiş, küçələrdə 34 bulaq inşa edilmiş, Arabaçılar və Hacılar kəndlərində 2 ədəd subartezian quyusu qazılmış və su şəbəkəsi tikilmiş, küçələrdə 55 ədəd bulaq inşa edilmişdir. Bu layihələrdən 3100 nəfərdən çox sakin yararlanmışdır.

Həmçinin Azərbaycan Kənd İnvestisiya Layihəsi çərçivəsində 27 kənddə 77,7 km su xətləri çəkilmiş, küçələrdə 172 bulaq inşa edilmişdir.

Rayonumuzda yol infrastrukturunun yenidən qurulması istiqamətində xeyli işlər görülmüşdür.

Azərbaycan Respublikasının möhtərəm Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə Bərdə rayonunun ərazisindən keçən Yevlax-Tərtər və Mingəçevir Bəhramtəpə avtomobil yolları müasir tələblər səviyyəsində yenidən qurulmuşdur.

Ölkə prezidentinin 18.07.2011-ci il tarixli Sərəncamı ilə 24 min nəfər əhalinin yaşadığı 14 yaşayış məntəqəsini birləşdirən 22,2 km uzunluqda Alpout-Mustafaağalı-Qaratəpə-Nazırlı, 14.08.2014-cü il Sərəncamı ilə 10 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən 15,5 km uzunluqda Mollaisalar-Vəliuşağı-Mollaəhmədli-Sərkarlar, 13.03.2015-ci il Sərəncamları ilə 15 min nəfər əhalinin yaşadığı 17 yaşayış məntəqəsini birləşdirən 25 km uzunluqda Yeni Daşkənd-Umudalılar, 26.03.2018-ci il tarixli Sərəncamı ilə 15,4 min nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən 17,5 km uzunluqda Muğanlı-Körpüsındıran avtomobil yolları yenidən qurulmuş, 18.05.2018-ci il tarixli Sərəncamı ilə Bərdə şəhəri ərazisində Tərtər çayı üzərində qəzalı vəziyyətə düşmüş körpünü sökülərək yeni körpü tikilmişdir.

Bunlarla yanaşı ölkə rəhbərinin tapşırığı əsasında Bərdə-Əyricə avtomobil yolunun Tərtər çayı üzərindəki qəzalı vəziyyətdə olan körpü sökülərək yenidən tikilmişdir.

Azərbaycan Kənd İnvestisiya Layihəsi çərçivəsində rayonun 76 kəndinin 355,9 km daxili yolları qum-çınqılla əsaslı təmir edilmişdir.

Həmçinin 2019-cu ildə 23,7 km uzunluqda kəndlərarası yollar asfaltlaşdırılmış, 22,8 km uzunluqda kəndlərarası yollar qum-çınqıl verilərək asfaltlaşdırılmaq üçün hazırlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə 2019-cu ildə "Azərxalça" ASC-nin regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsi tikilmiş, hazırda Yaş baramanın qəbulu məntəqəsinin tikintisi başa çatmaq üzrədir və yaxın günlərdə Qarğıdalı emalı müəssisəsinin tikintisinə başlanılacaqdır.

Azərbaycan Respublikasının Prezidentinin 13 mart 2015-ci il tarixli Sərəncamı ilə rayonun yaşayış fonduna daxil olan çoxmənzilli yaşayış binarının əsaslı təmiri ilə əlaqədar 3,0 milyon manat vəsait ayırmış və Sərəncama uyğun olaraq 60 ədəd çoxmənzilli yaşayış binalarında əsaslı təmir işləri aparılmış və binaların dam örtükləri dəyişdirilmişdir. Eyni zamanda ölkə Prezidentinin 04 oktyabr 2018-ci il tarixli Sərəncamı ilə 3 ədəd çoxmənzilli yaşayış binasının dam örtükləri dəyişdirilərək istifadəyə verilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 26.03.2018-ci il tarixli Sərəncamı əsasında Bərdə şəhərində abadlıq-quruculuq işləri

2019-cu ildə davam etdirilmiş, Ü.Hacıbəyov, Sənaye, S.Vurğun, Koroğlu, S.Zöhrabbəyov küçələrində 3300 metr səki tikilmiş, 76 ədəd 2 lampalı gecə işıqlandırma dirəkləri quraşdırılmış, 330 metr dəmir məhəccərli divar tikilmiş və ağlay daşla üzlənmiş, 10500 kv. metr sahə asfalt-betonla tikilmiş, 2940 kv. metr səkiyə tamet üzlük döşənmiş, 3676 metr hasar ağlay və qaya daşı ilə üzlənmiş, 12328 kv. metr hasar suvanmış, 1500 kv. metr sahədə yaşıllıq zolağı salınmış, 320 ədəd ağac, 5300 ədəd gül kolu əkilmişdir.

Rayonumuzda Qarabağ əlilləri və şəhid ailələri üçün 2 ədəd 36 mənzilli və 1 ədəd 24 mənzilli 4 mərtəbəli yaşayış binaları tikilərək onların istifadəsinə verilmişdir. Respublika Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən rayonumuzda 20 Qarabağ müharibəsi əlili üçün tikintisinə başlanılmış fərdi yaşayış evlərində son tamamlama işləri görülür və yaxın günlərdə evlər əlilərin istifadəsinə veriləcəkdir. Bu il isə daha 20 nəfər Qarabağ müharibəsi əlili və şəhid ailələri üçün fərdi yaşayış evlərinin tikintisi nəzərdə tutulmuşdur.

Həmçinin qəzalı evləri olan sakinlər üçün 14 mənzilli 1 yaşayış binası inşa edilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 14.08.2017-ci il tarixli Sərəncamı ilə "Bərdə" türbəsi bərpa edilmiş, qədim Torpaqqala tarixi abidəsi təmir edilmiş, 12.02.2018-ci il tarixli Sərəncamı əsasında 100 yerlik müasir uşaq bağçası-körpələr evi tikilmişdir.

Azərbaycan Respublikası Prezidentinin diqqət və qayğısı ilə rayonda 7200 şagird yerlik 21, o cümlədən Heydər Əliyev Fondunun təşəbbüsü ilə 480 şagird yerlik 2 məktəb və Yeni Daşkənd kənd tam orta məktəbi üçün yeni tədris korpusu, 1 musiqi məktəbi tikilmişdir.

Həmçinin 856 şagird yerlik 10 modul tipli məktəb tikilmiş, 1630 şagird yerlik 3 tam orta məktəb əsaslı təmir edilmiş, 400 yerlik əlavə korpus tikilmişdir.

Hazırda Heydər Əliyev Fondu hesabına 624 şagir yerlik Bərdə şəhər 4 saylı tam orta məktəb və 1150 şagird yerlik Bərdə şəhər 2 saylı tam orta məktəb tikilir. Cari ildə 1200 şagir yerlik Bərdə şəhər 3 saylı tam orta məktəbin tikintisinə başlanacaqdır.

Qarabağ müharibəsi şəhidlərinin adlarının əbədiləşdirilməsi üçün ardıcıl işlər aparılır. 2019-cu ildə Milli Qəhrəman Səfiyar Behbudovun qəbrinin üstü yenidən götürülmüş, "Azərbaycan Ordeni" ilə təltif edilmiş şəhid Sərhəd Zöhrabbəyovun adına olan küçə yenidən qurulmuşdur.

Azərbaycan Respublikasının Prezidentinin sədrliyi ilə 2017-ci ilin iyun ayında keçirilən müşavirədə ölkə rəhbəri rayon İcra Hakimiyyəti başçılarının qarşısında rayona yatırılan investisiyaların artırılmasına diqqət yetirilməsinə dair tapşırıq vermişdir.

Sahibkarlara rayonda yaradılmış münbit şərait nəticəsində 2017-2019-cu illərdə Bərdə rayonu üzrə cəlb edilmiş özəl investisiya layihələrinin ümumi dəyəri 41 milyon 962 min manat təşkil etmiş, bundan indiyədək 38 milyon manat vəsait xərclənmişdir. Layihələr heyvandarlıq komplekslərinin tikintisi, aqroparkların salınması, istehsal və xidmət obyektlərinin yaradılması olmuşdur.

Respublika Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 2019-cu il ərzində Bərdə rayonunun 111 sahibkarına 1306,5 min manat məbləğində kredit verilmiş və nəticədə 133 yeni iş yeri yaradılmışdır.

Qeyri-neft sektorunun inkişafı ilə əlaqədar Regionların Sosial-iqtisadi İnkişafı Dövlət Proqramına uyğun olaraq rayonumuzda aqrar sektorun inkişafına diqqət daha da artırılmışdır.

Rayonda əkinçiliyin inkişaf etdirilməsi üçün ardıcıl tədbirlər görülməsi davam etdirilir. 2019-cu ildə Məmmədli kəndi ərazisində 1000 hektardək əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Kür çayı üzərində üzən nasos stansiyası qurulmuş, 5,1 km təzyiqli su xətti çəkilmiş, transformator yarımstansiyası qurulmuş, elektrik xətti inşa edilmiş, obyektdə son tamamlama işləri gedir. Bunlarla yanaşı 2019-cu il ərzində suvarma kanalları 1123 min kub metr, açıq dren kanallar 645,51 min kub metr lildən təmizlənmiş, 306,64 min kub metr

torpaq işi görülmüş, Tərtər çayının yatağında 80 min kub metr tənzimlənmə işləri aparılmış, 0,3 km nasos stansiyalarının novları, 1,9 km beton kanallar, 10 ədəd subartezian quyusu, 23 ədəd borulu keçid əsaslı, təmir edilmiş, 18 ədəd subartezian quyusu qazılmışdır. Hazırda daha 27 ədəd subartezian quyusunun qazılması üçün iş aparılır.

Rayonumuzda 2019-cu ildə taxıl istehsalının artırılması sahəsində müvafiq tədbirlər görülmüş, 11642 hektar sahədə taxıl, o cümlədən 9041 hektar sahədə buğda və 2601 hektar sahədə dənlik arpa əkilmiş, tarlalardan 50170 ton taxıl, o cümlədən 40052 ton buğda, 10118 ton arpa yığılmış, taxılın hər hektardan məhsuldarlığı 43,1 sentner, o cümlədən buğdanın hər hektardan məhsuldarlığı 44,3 sentner, arpanın məhsuldarlığı 38,9 sentner olmuşdur.

Taxılın toxumçuluğuna daha ciddi diqqət yetirilmiş, toxum fonduna 8104 tondan çox dən ayrılmış, çeşidlənərək 5421 tonadək yüksək reproduksiyalı toxum əldə edilmişdir.

Bu il rayonda 26173 hektarda yonca 145 hektarda kartof, 2549 hektarda tərəvəz, 1104 hektarda bostan, 278 hektarda günəbaxan, 214,2 hektarda şəkər çuğunduru becərilmişdir.

Sahələrdən 1430,5 ton kartof, 137745 ton tərəvəz, 28709 ton bostan məhsulları, 597,7 ton günəbaxan, 6455 ton şəkər çuğunduru yığılmışdır.

Rayonumuzda 2019-cu il üçün 10140 hektar sahədə pambıq əkilmişdir. Becərmə işləri aqrotexniki qaydalara uyğun aparılmış, sahələrdə bol məhsul yetişdirilmişdir. Tarlalardan 34190,5 ton məhsul istehsal olunmuş, hər hektardan 33,7 sentner məhsul götürülmüşdür.

2015-ci ilə nisbətən 2019-cu ildə pambıq əkini sahəsi 9 dəfə, pambıq istehsalı 11 dəfə artmışdır.

2019-cu ildə kənd təsərrüfatı sahəsində 38 min nəfərdən çox, təkcə pambıqçılıq sahəsində isə 20 min nəfərə yaxın sakinimiz işə cəlb edilmişdir.

Pambıqçılıqdan rayona 22,9 milyon manatdan çox vəsait daxil olmuş, həmçinin sonda subsidiya hesabına 3,4 milyon manat vəsait də daxil olacaqdır ki, bu da ümumilikdə 26,3 milyon manat vəsait edir. Bu vəsaitin 21 milyon manatı əmək adamlarının xalis qazancıdır.

Rayonda 7,5 min tonluq pambıq qəbulu məntəqələri və ümumi illik gücü 45 min ton olan iki pambıq emalı zavodu fəaliyyət göstərir. 2018-ci ildə pambıq emalı zavodunun biri tam yenidən qurularaq istifadəyə verilmişdir.

Ölkə rəhbərinin tapşırığı ilə baramaçılığın inkişaf etdirilməsi məqsədi ilə ümumilikdə 472650 ədəd tut tingi əkilmiş, 2019 ildə 251 kümçüyə 1000 qutu ipək qurdu verilmiş, rayon üzrə 36 ton 104 kiloqram barama tədarük edilərək “Azəripək” MMC-yə satılmışdır. Bu da əvvəlki ildəki göstəricidən 11571 kiloqram çoxdur.

Rayonumuzda iqtisadiyyatın aparıcı sahəsi olan aqrar sektorun innovativ inkişafını təmin etmək məqsədi ilə 2000 hektar dövlət fonduna məxsus sahənin əkin dövriyyəsinə cəlb edilməsi və ərazidə pambıq aqroparkı yaradılması üçün işlər aparılır.

Rayonda heyvandarlığın və quşçuluğun inkişaf etdirilməsi sahəsində məqsədyönlü tədbirlər görülür. Son illər rayonun Mehdili, Mollalı, Türkmən və Çələbilər kəndində iri heyvandarlıq kompleksləri tikilib istifadəyə verilmiş, 2019-cu ildə rayonun Ərəblər kəndində 30 min başlıq quş əti istehsalı müəssisəsi yaradılmış, Cəyirli kəndi ərazisində 520 başlıq quşçuluq fermasının yenidən qurulmasına başlanmışdır.

Hazırda iri buynuzlu mal qaranın sayı artırılaraq 95607 başa, qoyun və keçilərin sayı 141849 başa çatmış, heyvandarlıq məhsulları istehsalının dinamik artımına nail olunmuş, 2019-cu ildə 2018-ci illə müqayisədə ət istehsalı 4 faiz, süd istehsalı 0,7 faiz, yumurta istehsalı 3,4 faiz artmışdır.

Son zamanlar rayonumuzda arıçılıq təsərrüfatı da inkişaf etməkdədir. 2019-cu ildə rayon üzrə 344 sahibkara məxsus 7591 arı ailəsi vardır. 7591 arı ailəsinə görə 2019-cu ildə 75910 manat subsidiya verilmiş, Bakı

şəhərində keçirilən arıçılıq məhsullarının sərgi-satış yarmarkasında rayondan 5 ton bal, 40 kq arı südü, 10 kq vərəmun, 10 kq çiçək tozunun nümayiş etdirilmişdir.

2019-cu ildə kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahələrinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi qaydasına uyğun olaraq 34 kənd ərazi komissiyası üzrə əkin sahəsi və çoxillik əkinlərinin becərilməsinə görə 2080,172 min manat yardım 35236 istehsalçıya ödənilmişdir. 2020-ci ilin məhsuluna görə 2019-cu ildə payızlıq əkinləri üçün bu günə kimi 28 min hektar sahədə şum çıxarılmışdır.

Rayonumuzda 75 ümumtəhsil məktəbi vardır ki, bunlardan 60-ı tam orta, 10-u ümumi orta, 5-i ibtidai məktəb və 2 məktəbdənkənar məktəbdir. Ümumilikdə məktəblərdə təhsil alan 22160 nəfər şagirdin təlim-tərbiyəsi ilə 2964 nəfər müəllim məşğul olur. 2018-2019-cu tədris ilində ümumtəhsil məktəblərini bitirmiş 1183 nəfərdən 744 nəfəri ali məktəblərə qəbul olunmaq üçün elektron qaydada ərizə vermiş, bunlardan 561 nəfəri və ya 75,4 faizi ali məktəblərə, 120 nəfəri və ya 16,1 faizi isə orta ixtisas məktəblərinə qəbul olunmuşlar. Ali məktəblərə qəbul olunanlardan 115 nəfəri və ya 20,5 faizi 500 baldan çox, 34 nəfəri və ya 6,1 faizi 600 baldan çox yüksək nəticə göstərmişdir.

Dövlət Proqramına uyğun olaraq rayonumuzda son zamanlar 7200 şagird yerlik 21, o cümlədən Heydər Əliyev Fondunun təşəbbüsü ilə 480 şagird yerlik 2 məktəb və Yeni Daşkənd kənd tam orta məktəbi üçün yeni tədris korpusu, 1 musiqi məktəbi tikilmişdir. Həmçinin 604 şagird yerlik 8 modul tipli məktəb tikilmiş, 1630 şagird yerlik 3 tam orta məktəb əsaslı təmir edilmiş, 400 yerlik əlavə korpus inşa edilmişdir. Hazırda 1150 şagird yerlik şəhər 2 saylı, Heydər Əliyev Fondu hesabına 624 şagird yerlik şəhər 4 saylı tam orta məktəbləri tikilir, 12 peşə ixtisası üzrə kadr hazırlayacaq 1000 yerlik Bərdə Regional Peşə liseyi inşa olunur.

Dövlət başçısı cənab İlham Əliyevin tövsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə Azərbaycanın ümumtəhsil məktəblərinin 9-11 sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında ölkəmizin müxtəlif bölgələrinn tur aksiyaları keçirilmişdir. 2019-cu ildə həmin tur aksiyalarında rayonumuzun 40 nəfər məktəblisi "Vətənimizi tanıyaq" layihəsi çərçivəsində respublikamızın Masallı, Lənkəran və Astara rayonlarına səfər etmişdir.

Rayonun ərazisində 31 uşağ bağçası-körpələr evi, 1 uşaq bağçası fəaliyyət göstərir ki, həmin bağçalarda 1600 uşağın təlim-tərbiyəsi ilə 175 pedaqoji işçi məşğul olur. Bağçaların 9-u şəhər, 23-ü isə kənd ərazisində fəaliyyət göstərir.

Rayonumuzda digər sahələr kimi səhiyyə sahəsində də xeyli işlər görülmüş və görülməkdədir.

Son illər Uşaq xəstəxanasının 60 çarpayılıq korpus tikilmiş, Mərkəzi xəstəxananın Doğum evi əsaslı təmir edilmiş və müasir avadanlıqlarla təchiz edilmişdir. Rayonda əhaliyə göstərilən səhiyyə xidməti ilə 252 həkim, 843 nəfər orta ixtisaslı tibb işçiləri xidmət göstərir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən 2019-cu il 12 fevral tarixdən rayonda əhalinin tibbi müayinədən keçirilməsinə başlanılmış, 172 idarə, müəssisə və təşkilatların işçiləri və 111 yaşayış məntəqələrinin sakinləri daxil olmaqla 134474 nəfər tibbi müayinədən keçmiş, tibbi müayinənin nəticəsi ilə əlaqədar müvafiq tədbirlər görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən "DOST İş Mərkəzi" MMC-nin vasitəsi ilə rayonumuzda haqqı ödənilən ictimai işlərə 480 nəfər işaxtaran vətəndaş cəlb edilmişdir.

Bundan əlavə 50 nəfər rayon Elektrik şəbəkəsində, 86 nəfər Tərtər regional qaz idarəsində, 8 nəfər Azərenerji ASC-də işləyir.

Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 7 aparel tarixli Sərəncamı əsasında əhalinin özünəməşğulluğunun təmin edilməsi üçün tədbirlər görülmüş, 2017-2019-cu illərdə

rayon Məşğulluq Mərkəzinə müraciət etmiş vətəndaşlardan 303 nəfərə aktivlər verilmiş, onların 8 nəfəri xidmət, 295 nəfəri iri və xırda buynuzlu heyvanlarla təmin edilmişlər. Hazırda bu işlər davam etdirilir.

Regionların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi nəzərdə tutan Azərbaycan Respublikasının Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın layiqincə yerinə yetirilməsi üçün bütün qüvvə və bacarığımızı sərf etməklə rayonumuzu ölkəmizin digər rayonları kimi inkişaf etdirəcək, qabaqcıl rayonlardan birinə çevirəcəyik.

***Açar sözlər:*** *sosial-iqtisadi inkişaf, dövlət proqramları, kənd təsərrüfatı, abadlıq-quruculuq*

**Vidadi Isayev**
*Head of the Barda district of Executive Authority*

## BARDA IS ONE OF THE MOST SUCCESSFULLY DEVELOPED AREAS OF AZERBAIJAN

### SUMMARY

The paper determines the successful continuation by the President Ilham Aliyev of the large-scale construction and reconstruction processes, which have initiated by the National Leader Heydar Aliyev, accordingly. In addition to aforementioned, the creation of the traditions is modernizing and together with that also further strengthening the State and thenceforward, established a condition for the development of the regions to protect an independent statehood of Azerbaijan. The state programs to the regional development adopted by the Head of the State - His Excellency Mr. Ilham Aliyev, in order to ensure balanced and long-term development of the country's economy, as in the other regions, demonstrated its positive outcomes in the Gazakh and also assured the socio-economic development of the region.

As a result of the implementation of orders and decrees approved by Ilham Aliyev, new infrastructures have been founded; entrepreneurship and agriculture have been developed; the modern industrial and agricultural enterprises have been established; new job places have been opened; the population prosperity has grown; new roads have been built. It is also necessary to articulate the fact that the visits of the President Ilham Aliyev to the Barda region have been pretty fruitful, the decrees signed by the Head of the State, herewith, founded the conditions for the socio-economic development of the region.

***Key words:*** *socio-economic development, State Programs, agriculture, landscape rebuilding*

**Видади Исаев**
*Глава Исполнительной Власти Бардинского района*

## БАРДА - ОДИН ИЗ НАИБОЛЕЕ УСПЕШНО РАЗВИТЫХ РАЙОНОВ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

Успешное продолжение Президентом Ильхамом Алиевым начатых общенациональным лидером Гейдаром Алиевым широкомасштабных строительно-реконструкционных процессов, создание традиций защиты независимой государственности Азербайджана, модернизируясь и еще более укрепление государства, создало условие и для развития регионов.

Осуществление Государственных программ по региональному развитию, принятые главой государства господином Ильхамом Алиевым для обеспечения сбалансированного и продолжительного развития экономики страны, как и в других регионах, показало реально положительные результаты и в Бардинском районе, обеспечило социально-экономическое развитие района.

В результате реализации Указов и Распоряжений Президента Ильхама Алиева, в районе созданы новые инфраструктуры, развиты предпринимательство и сельское хозяйство, созданы современные промышленные и аграрные предприятия, открыты новые рабочие места, выросло благосостояние населения. Визиты Президента Ильхама Алиева в Бардинский район дали свои плоды. Указы, подписанные главой государства, создали условия для успешного социально-экономического развития региона. В итоге сегодня Бардинский район превратился в один из самых благоустроенных и развитых регионов страны.

***Ключевые слова:*** *социально-экономическое развитие, государственные программы, сельское хозяйство, благоустройство*

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ
## HİSTORY OF INTERNATIONAL RELATIONS

UOT 327; 339.9

**MARZIYE MEMMEDLI**
**Karabuk University, Faculty of Economics and Administrative Sciences, Department of Economics, Assist. Prof. Dr.**
*e-mail: marziyememmedli@karabuk.edu.tr*

**AYŞEGÜL ACAR**
**Karabuk University, Safranbolu Tourism Faculty, Department of Tourism Administration, Res. Assist. Dr.**
*e-mail: aysegulacar@karabuk.edu.tr*

# BREAKING POINT IN TOURISM AS A TOOL OF SOFT POWER

After the Cold War, States stopped seeing power as a phenomenon based solely on material and concrete resources and recognized the existence and importance of other ways to change the behavior of other states (32, s.7). While capabilities and the military were considered to be the most dynamic force used by the state to achieve what was desired during the Cold War, in the 20th century, which is considered to be the age of information and communication, soft power tools based on values such as directing public opinion, science, image, media, education, culture, art began to gain acceptance. The concept of soft power, defined as "the ability of a country to shape its environment by creating new processes in the interests of a country," has been acquired in the international relations literature by Joseph Nye. Jr., a US political scientist (10, s.15). According to Nye, culture perceived as attractive by other countries, foreign policies considered legal or ethical by other societies, and political values accepted inside and outside the country are the three main tools that constitute the soft power of a country (10, s.15). In addition, the temperate approach in foreign policy, participation in aid activities to other countries, suggesting common tourist activities, promotion and marketing of countries with tourist activities are considered as soft power tools of countries. There is no doubt that international tourism is one of the most effective means of promotion for a country, defined as a way for nation-states to express their culture and values to the outside world. In this context, there is no doubt that tourism is regarded as an important indicator of the soft power of countries as both an affected and affecting tool in public diplomacy. In this study, it is claimed that the change experienced by the foreign policy in the changing world after the Cold War increased the potential for tourism to be used as a soft power in foreign policy. In addition, in the study, it will be focused on soft power tools, which are gaining momentum mainly through tourism, negatively affect the interests of regional and global powers. Countries whose interest conflict will not abstain from using their own soft powers to destroy or weaken each other's soft powers. Likewise, if the policies implemented by countries whose soft power is gaining momentum are aimed at regional and global powers or aimed at the soft power of regional and global powers, it will be inevitable that soft power wars will occur in public diplomacy (30, s.37). The states that use tourism as a tool of soft power will undoubtedly create a perception of insecurity

through actions that seem likely such as terrorism, political instability and war, and their effectiveness will be reduced by breaking soft power.

In this context, in this study, events such as terrorism and political instability will be discussed as the breaking point of tourism, which is considered a soft power tool in foreign policy, creating security weakness across the country and will be supported by micro-and macro-level examples and statistics, and the study will attempt to take a critical approach to soft power wars and contribute to both tourism and international relations literature.

**The Concept of Soft Power**

The power seen as an effective factor in the existence of discipline in international relations plays an important role in Marxism, feminism, idealism and critical approaches. Furthermore, possibility of the concept often is espoused by a realist approach. Although power is the most fundamental concept referenced in international relations theories and international analyses, there is no definitive agreement on the content of power and how it can be measured (28, s.11). Hans Morgenthau, who describes power as both a form of relationship and the ultimate goal of international politics and a means to achieve the ultimate goal, likens the main goal of international relations to the search for power and the struggle for power (8, s.68). Power, according to Kalevi, J. Holsti, is the ability of a state or country to direct or influence the actions of the opposing state or country in its own interests through methods such as coercion, persuasion, reward and punishment (6, s.201). The end of the Cold War period and the resulting globalization triggered the transformation of the international system, resulting in far-reaching changes in the nature of the international policy. Traditional diplomatic channels have been replaced by new diplomatic channels, which have led to changes in the perception and practice of the power concept that states use as an important tool in their international relations (32, s.17). In the new order, which is considered to be an age of information and communication, "power has ceased to be seen as a phenomenon based on material and concrete resources on the part of states, and actors have realized the existence and importance of other ways to direct the behavior of other states" (32, s.18). In other words, the foreign political success achieved by hard power, defined as the ability of an actor to exercise his military and economic means to dominate the behavior of another actor or actors, is not a sustainable success. It has been seen by states that soft power tools based on values such as science, image, media, education, culture, art, and directing public opinion in the opposite direction help create long-term sustainable political successes (27, s.40). In this context, the concept of soft power, defined as "if I can make you want what I want, then I don't have to force you to do what I want to do", was introduced to the international relations literature by Joseph S.Nye Jr, a US political scientist and theorist (10, s.15). According to Joseph S. Nye, soft power arises "when a country allows other countries to want what they want "through" intangible sources of power such as culture, ideology and institutions" (11, s.29). Joseph S. Nye Jr first addressed the concept of soft power in his book "Bound to Lead: The Changing Nature of American Power" in 1990. In his work, Nye stated that the United States is the largest country in the world in terms of soft power resources. According to Nye, the organizations leading the international system, the multi-polar global system and the increasing and guiding influence of the media have left the military capacity of states behind, followed by the advent of asymmetric warfare methods and the decline of the effectiveness of the classical armies have demolished the importance of

hard/brute power and made soft power visible. Nye, who suggests co-operation rather than coercion, sees soft power as "the ability to obtain what one wants by means of pulling towards himself, rather than using force or giving money". In this context, it would not be wrong to say that soft power "is the capacity of the actor in question to present his or her own national interests to cover the national interests of the actor he or she leads, and to apply them in a way that pleases the other actors." Fundamentally, soft power is the ability of a state to direct the preferences of other states by means of persuasion and attraction in an indirect way by cooperating with them in accordance with their own preferences (10, s.14). If the actors are convinced to adopt the other actor's goals without being subjected to any threat, it can be mentioned that there is a soft power that can influence the masses without forcing them to do anything, creating public opinion and changing attitudes (11, s.29).

bir fəaliyyət həyata keçirilir. Kollektiv hökm vermənin metodu isə prosesə qatılacaq olan şəxslərin düşüncələrinin qarşılıqlı olaraq bildirə bilmələrini, beləliklə də subyektlərin bir-birlərinin düşüncələrini öyrənə və birlikdə düşünə bilmələrini ifadə edən ziddiyyət metodudur. Lakin bu cür ziddiyyət bir "fikir alış-verişini" xatırladır [10, s.128]. Başqa bir müəllif də qeyd edir ki, cinayət prosessual hüququn və bunun ifadəsini formalaşdıran əsas qanunun (CPM-in) ali məqsədi insan hüquqlarının pozuntusuna yol vermədən həqiqətə nail olmaqdır [11, s.33].

Heç şübhəsiz ki, cinayət mühakimə icraatının ən mühüm konstitusion-hüquqi əsaslarından biri Konstitusiyanın 63-cü maddəsinin III və IV hissələrində nəzərdə tutulmuş tələblərdir. Ümumiyyətlə, beynəlxalq hüquq və milli hüquqda yer alan tənzimləmələrə nəzər saldıqda görə bilərik ki, cinayət mühakiməsində maddi həqiqətin araşdırılmasına bir çox məhdudlaşdırılmalar qoyulmuşdur. Dolayısı ilə, müasir cinayət mühakiməsinin məqsədinin nə bahasına olursa-olsun maddi həqiqətin araşdırılması olmadığı ortaya çıxmışdır. Buna görə də cinayət mühakiməsinə maddi həqiqətin araşdırılması baxımından bir sıra məhdudlaşdırılmalar gətirilmişdir. Bunlardan da ən vacibi hüquqazidd dəlillərin mühakimə zamanı istifadə edilməməsidir.

Müasir cinayət mühakiməsində sübutların əldə edilməsində nəzərdə tutulan məhdudlaşdırmaların adlandırılması mövzusunda fərqli yollar izlənilir. Hüquqazidd yollarla əldə edilən hər bir dəlilin cinayət mühakiməsində istifadə edilib-edilməyəcəyi isə əsas məsələ kimi çıxış edir. Bu baxımdan da bu cür sübutların adlandırılmasının 2 növü təklif olunur:

- Hüquqazidd yollarla əldə edilən dəlillərin heç bir şərtlə istifadə edilə bilməyəcəyi fikrini müdafiə edənlər "hüquqazidd sübutlar" kimi;
- Digər yanaşmanın tərəfdarları, yəni bu cür əldə edilən dəlillərin müəyyən şərtlər daxilində cinayət mühakimə icraatında istifadə edilə biləcəyi fikrini müdafiə edənlər isə "sübut qadağaları" kimi [12].

Cinayət mühakiməsinin məqsədi tarixi dövr ərzində müəyyən dəyişikliklərə uğramışdır. İlk dönəmlərdə təqsirliliyi əvvəlcədən qəbul edilmiş şəxsin cəzalandırılması bir məqsəd idi. Buna görə cinayət mühakiməsi də bu məqsədə uyğunlaşdırılmışdır. Bu dönəmdə hüquqazidd yollarla əldə edilmiş sübut anlayışı mövcud deyildi. Bu səbəbdən də sübutlar hansı formada əldə edilmələrindən asılı olmayaraq, sübut kimi qiymətləndirilərək istifadə edilirdi. Müasir dövrümüzdə isə cinayət mühakiməsinin məqsədi maddi həqiqətin araşdırılmasıdır. Ancaq maddi həqiqətin hansı yolla olursa-olsun araşdırılmayacağının qəbul olunması hüquqazidd dəlillərin də qiymətləndirilməsinə gətirilən bir qadağadır.

Müqayisəli hüquq baxımından hüquqazidd sübutların dəyərləndirilməsində iki fərqli sistem mövcuddur. Sübutun hansı hallarda hüquqazidd hala gələcəyi və hüquqazidd sübutların dəyərləndirilməsi məsələsində Qitə Avropası hüquq sistemi ilə Anqlo-Amerikan hüquq sistemi bir-birindən fərqli prinsiplər mənimsəmişdirlər.

Türkiyə Anayasa Məhkəməsi bir qərarında qeyd edir ki, hüquqaziddlik ən başda milli sistemimiz içərisində qüvvədə olan bütün hüquq qaydalarına ziddlik anlamına gəlir. Bu çərçivədə, Anayasaya, üsuluna uyğun olaraq qəbul edilmiş beynəlxalq müqavilələrə, qanunlara və digər hüquqi aktlara ziddiyət təşkil edən bütün hərəkətlər hüquqaziddlik anlayışı içərisində yer alır [15].

Hüquqazidd sübutların qiymətləndirilməsi ilə əlaqədar 3 yanaşma özünü göstərir:

- Mütləq qəbul;
- Mütləq rədd;
- Dəyişkən.

Hüquqazidd dəlillərin dəyərləndirilməsi ilə bağlı irəli sürülən ən qədim yanaşma mütləq qəbul yanaşmasıdır. Bu yanaşmanı müdafiə edənlərin arqumentlərini əsaslandırdıqları məntiqi təməl belədir: "Cinayət mühakimə-

sinin əsas məqsədi maddi həqiqəti aşkara çıxarmaq olduğuna görə maddi həqiqəti aşkara çıxarmağa əlverişli olan hər şey sübut olaraq qiymətləndirilə bilər". Dolayısı ilə, maddi həqiqətin üzə çıxarılmasına yarayan bütün dəlillər hakimin daxili inamının formalaşmasında nəzərə alınmalıdır. Bu yanaşma ilə əlaqədar ikinci əsas arqument cinayət mühakiməsinin məqsədində ittiham edilən cinayəti araşdırmaqla sərhədlənmiş olmasıdır. Bu arqumentə görə, hakim şəhər avtobusunda iclas keçirən və ödənişi ödəmədən avtobusa minən hər kəsi mühakimə edən bir şəxs deyildir. Hakim cinayət mühakiməsi əsnasında təsadüfən qarşılaşdığı bütün cinayətləri araşdırmaq və səbəbkarları cəzalandırmaq vəziyyətində olan şəxs də deyildir. Əgər dəlilin əldə edilməsində hüquqaziddlik varsa, bu vəziyyət mübahisənin həlli üçün dəlilin istifadəsinə mane olmamalıdır, lakin bu cür hüquqaziddliyin başqa bir məhkəmənin qarşısında mübahisə edilməsi mümkündür. Bunun səbəbi işə baxan məhkəmənin əsl mübahisə haqqında dəlili görməzdən gəlməsinin mümkün olmamasıdır. Bu arqumentə qarşı cinayət mühakiməsinin əxlaqi yönünü görməzdən gəldiyi və cinayətin aşkarlanması kimi bir məqsədlə olsa belə, ədalət orqanının ədalətsiz yollara üz tutmasının mühakimənin legitimliyinə kölgə salınmasına etiraz edilmişdir. Digər vacib arqument isə cinayətlərin açılmasında ictimai mənafeyin mövcudluğu ilə bağlıdır [12].

Amma, fikrimizcə, bu yanaşma ilə razılaşmaq olmaz. Çünki bu yanaşmanın mahiyyəti hüquq dövlətini zəiflədici və dövlət güclərini özlərini hüquqla məhdudlaşmış hesab etməyərək məsuliyyətsiz davranışlara təşviq edən bir əks-təsir yaradır.

Mütləq rədd yanaşması hüquqazidd dəlillərin dəyərləndirilməsini mütləq olaraq rədd edir. Bu yanaşma dəlillərin dəyərləndirilməsi baxımından müxtəlif meyarlara əsaslanaraq istisnaların qəbul edilməsini, bu şəkildə hüquqazidd dəlillərin bir qisminin sübut kimi dəyərləndirilə bilməsini də zərərli hesab edir. Mütləq rədd yanaşmasını təsdiqləyən bir çox əsaslar irəli sürülmüşdür. Bunlardan birincisi, etibarlılıq əsaslandırılmasıdır. "Etibarlılıq" ifadəsinə görə, cinayət mühakiməsində şübhə oyandıran şərtlər altında alınmış bir etirafa güvənmək olmaz, bu etirafın verdiyi məlumat yanlış daxili düşüncəyə səbəb ola bilər. Mütləq rədd yanaşmasının təməli olaraq irəli sürülən digər arqument qoruma nəzəriyyəsi olaraq adlandırılır. Əsas hüquq və azadlıqların pozulması nəticəsində bir dəlil əldə edildiyi təqdirdə, bu dəlilin dəyərləndirmə qadağasına tabe etdirilməsi əsas hüquq və azadlıqların qorunmasını təminat altına almış olacaqdır. Hüquqazidd dəlillərin dəyərləndirilmə qadağasını formalaşdıran bu arqument xüsusən qitə Avropası hüququnun əsaslandığı bir arqumentdir. Bu arqumentin məntiqi nəticəsi budur ki, təqsirləndirilən şəxsin əsas hüquqları pozularaq əldə edilən sübut təqsirləndirilən şəxsin əleyhinə istifadə edilə bilməz. Yəni təqsirləndirilən şəxsin hüquqları pozularaq əldə edilən dəlil onun lehinədirsə, burada bir problem yoxdur. Əks halda, hüquqları pozularaq vəziyyəti ağırlaşan təqsirləndirilən şəxsi onun lehinə olan sübutdan məhrum etmək onu daha pis vəziyyətə salacaqdır. Bu nəticə isə qəbuledilən deyildir. Bu səbəblə də qoruma nəzəriyyəsi nə qədər də mütləq rədd yanaşmasının əsasını təşkil edən nəzəriyyələrdən olsa da, o, nisbi (dəyişkən) yanaşmaya doğru yönəlmişdir. Mütləq rədd yanaşmasını müdafiə edənlərin digər bir arqumenti isə uzaqlaşdırma, yaxud səlahiyyətli şəxslərin intizamlı olmağa təşviq edilməsidir. Buna görə, hüquqazidd dəlillərin dəyərləndirmədən kənar buraxılmasının səbəbi səlahiyyətli şəxsləri hüquqazidd yollara baş vurmaqdan uzaqlaşdırmaqdır.

Digər bir yanaşma olan nisbilik yanaşması hüquqazidd dəlillərin qiymətləndirilməsi məsələsində konkret hadisənin xüsusiyyətlərinə görə bir nəticəyə varmağın zəruriliyini vurğulayır. Buna görə bəzi hüquqazidd dəlillər

yekun qərarda nəzərə alına bilər, bəziləri isə alınmaya bilərlər. Bunun müəyyən edilməsi səlahiyyəti isə məhkəməyə aid olacaqdır. Bu yanaşma hüquqazidd dəlillərin qiymətləndirilməsində mütləq qəbul və mütləq rədd nəzərdə tutan yanaşmaların radikallıqlarının yol aça biləcəyi ədalətsiz vəziyyətlərə mane ola biləcəyi kimi, ədalətin fərdiləşdirilməsi ehtiyacını da qarşılayacaqdır. Bu yanaşma üçün ən ciddi tənqid ondan ibarətdir ki, hansı hallarda hüquqazidd sübutların nəzərə alınacağı, hansı hallarda isə nəzərə alınmayacağı mövzusunda bir qətilik olmadığına görə bu, özbaşınalığa və subyektiv qiymətləndirmələrə yol açacaqdır. Burada qitə Avropası hüquq düşüncəsində mövcud olan "hakim üçün mübahisəli bir məsələdə seçim hüququnun verilməsinin özbaşınalıqla eyni mənada olması" fikrinin də az rolu yoxdur [12].

AR Konstitusiyasının müvafiq normasını təhlil edərkən görürük ki, qanunvericiliyimiz hüquqazidd sübutlara dair mütləq rədd yanaşması mövqeyini ifadə edir.

Cinayət mühakimə icraatının vəzifələrindən biri cinayətləri tezliklə açmaq, cinayət təqibi ilə bağlı bütün halları hərtərəfli, tam və obyektiv araşdırmaqdır. Cinayətlərin açılması bir tərəfdən onu törətmiş şəxslərin cəzalandırılmasına imkan verirsə, digər tərəfdən həmin şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını alır, eləcə də, xəbərdaredici vasitə kimi başqalarının cinayət törətməkdən çəkinmələri üçün əhəmiyyət daşıyır. Lakin cinayətlərin tezliklə açılması cinayət təqibi ilə bağlı bütün halların tam, hərtərəfli və obyektiv araşdırılması nəticəsində mümkündür.

Cinayətlərin tezliklə açılmasının əhəmiyyətli olmasının digər səbəbi də gecikmiş ədalətin əslində ədalətsizlik olması da ola bilər.

Cinayətin üstü o vaxt açılmış sayılır ki, işin araşdırılması gedişində cinayət tərkibinin obyektini və obyektiv cəhətini xarakterizə edən hallar müəyyən edilsin, konkret şəxsin cinayətin törədilməsində təqsirli olmasını təsdiq edən kifayət qədər sübutlar toplansın, cinayətin törədilməsi üçün əsas fərziyyədən başqa, bütün digər fərziyyələr rədd edilmiş olsun [5, s.50].

Deməli, cinayətlərin üstünün açılması sübutetmə predmetin daxil olan halların sübutlara əsasən müəyyən edilməsi nəticəsində baş verir. Sübutetmə predmetinə daxil olan halları isə CPM-in 139-cu maddəsinə əsasən 2 əsasla təsnifləşdirmək olar:

- Qəti şəkildə müəyyən edilmiş sübut edilməli hallar;
- Cinayət təqibinin üzrə icraatın xüsusiyyətlərinə əsasən meydana çıxan sübut edilməli hallar (CPM-in 139.0.6-cı maddəsi).

Cinayət təqibi ilə bütün halların hərtərəfli, tam və obyektiv araşdırılmasını qarşı-qarşıya qoymaq olmaz. Cinayətin tezliklə açılması vəzifəsi ilə cinayət təqibi zamanı bütün halların hərtərəfli, tam və obyektiv araşdırılması kompleks şəkildə çıxış etməli və bir-birini tamamlamalıdır.

CPM-in 139-cu maddəsində təsbit edilmiş halların sübut edilməsi ilə, fikrimizcə, bütün hallar tam və hərtərəfli şəkildə araşdırılmış sayılmır. Çünki araşdırılmalı olan halların dairəsi daha genişdir. Bu zaman sübutların kifayətliliyi meyarından istifadə edilir.

CPM-in 146-cı maddəsinə əsasən cinayət təqibi üzrə toplanmış sübutların kifayət etməsi dedikdə, müəyyən edilməli hallar üzrə mümkün sübutların elə bir həcmi nəzərdə tutulur ki, onlar sübutetmə predmetinin müəyyən edilməsi üçün mötəbər və yekun nəticəyə gəlməyə imkan versin.

Türkiyədə aparılan bir sıra təcrübələr maraqlı nəticələr ortaya çıxarmışdır. Belə ki, müsahibə alınan hakimlərin əksəriyyəti cinayət işlərində meydana gələn konkret hadisənin sübut edilməsinə yarayacaq hər cür dəlilin sübutetmə vasitəsi olaraq istifadə edilə biləcəyini, çünki hər işin özünəməxsus şərtləri olduğu və işin hadisədən sonra icraatına başlandığından hakimin qənaətə gələ bilməsi üçün sübutların heç bir şəkildə həddlərinin müəyyən edilə bilməyəcəyi yönündə fikir-

ləşdiyi müşahidə edilmişdir. Mühakimə icraatında əsas məqsədin maddi həqiqətə çatmaq olduğu ifadə edilmişdir. Qərarın çıxarılması anına qədər sübutların təqdim edilməsinin və ya araşdırılmasının qarşısında hər hansı bir maneə olmamalıdır. Ancaq bir hakim qeyd etmişdir ki, hökm vermək üçün kifayət qədər sübut əldə edildiyi zaman mühakimə icraatını lüzumsuz yerə uzatmamaq məqsədilə başqa dəlilləri də araşdırmağa gərək yoxdur. Hakim burada cinayətin əldə edilmiş sübutlarla sübut edilməsi halında, yəni hüquqi faydası olmayan və işin nəticəsinə təsir etməyəcək sübutların araşdırılması ilə işin uzadılmasının ədaləti gecikdirməkdən başqa bir şey olmadığını söyləməyə çalışmışdır [8, s.408].

Kommentariya müəllifləri qeyd edirlər ki, işin araşdırılması və məhkəmədə baxılıb həll edilməsinə münasibətdə keçmişdə baş vermiş fakt kimi cinayət əməlinin bütün halları sübutların köməyilə müəyyən edilir. Cinayət işi və ya digər materiallar üzrə əhəmiyyət kəsb edən halların müəyyən edilməsi üçün kifayət edən sübutların cəmi sübutetmə həddini xarakterizə edir [5, s.445].

Sübutların kifayət etməsinin müəyyən edilməsi hakimin səlahiyyətinə aid olan bir məsələ olduğundan bu zaman hakimlərin subyektiv fikirlərinin işin tam və hərtərəfli araşdırılması ilə bağlı müxtəlifliklərə yol açması normaldır. Belə ki, bir hakim baxımından kifayət görünən sübutlar, başqa bir hakim tərəfindən kifayət hesab edilməyə bilər [14, s.161]. Doğrudur, CPM-in 146.3-cü maddəsi də sübutların kifayətliliyinin hansı nəticələrin meydana çıxmaması üçün vacib olduğunu vurğulayır. Lakin biz də sübutların hər hansı həddlə məhdudlaşdırılmaması fikrini dəstəkləyirik.

CPM-in 340 və 342-ci maddələrində məhkəmə istintaqının təzələnməsi imkanı nəzərdə tutulmuşdur. 342.3-cü maddəyə əsasən, təqsirləndirilən şəxs son sözündə elan edilmiş ittihamın məhkəmədə hərtərəfli, tam və obyektiv baxılması üçün mühüm əhəmiyyətə malik olan yeni halları barədə məlumat verdikdə, məhkəmə, məhkəmə istintaqını təzələyir. Bu müddəanı təhlil etdikdə aydın olur ki, əgər təqsirləndirilən şəxs son sözündə bu cür məlumatı vermiş olmasaydı, məhkəmə əldə edilmiş sübutlarla və müəyyən edilmiş hallarla kifayətlənərək yanlış yekun qərar çıxaracaqdı.

Bu məsələ ilə bağlı digər problem isə CPM-in 337-ci maddəsində təsbit edilmiş sübutların tədqiqatının məhdudlaşdırılması ilə bağlıdır. Burada qanunvericinin məhdudlaşdırılma ilə bağlı 2 fərqli istiqamət müəyyən etdiyinin şahidi oluruq. Düzdür, belə bir normanın müəyyən edilməsində məqsəd məhkəmə istintaqının yersiz uzadılmasına yol verməməkdir. Dövlət ittihamçısı tərəfindən sübutların tədqiqinin məhdudlaşdırılması barədə vəsatət qaldırdıqda məhkəmə tərəfləri dinlədikdən sonra ya vəsatəti təmin edir, ya da ki tədqiq edilməmiş sübutların irəli sürülmüş ittihamın məhkəmədə hərtərəfli, tam və obyektiv araşdırılması üçün mühüm əhəmiyyətə malik olduğunu hesab etdikdə isə onu rədd edir. Bu müddəanın mövcudluğu məqsədəuyğundur və öz məqsədinə xidmət edir.

CPM-in 337.2-ci maddəsinə əsasən, müdafiə tərəfi də məhkəmə istintaqının məhdudlaşdırılması barədə təşəbbüs irəli sürə bilər. Bunun üçün aşağıdakı şərtlər tələb olunur:

- məhkəmə istintaqında hələ tədqiq edilməmiş və tədqiq edilməsindən imtina edilən sübutlar müdafiə tərəfini təmsil edən proses iştirakçılarının təqdim etdiyi və ya onların vəsatəti əsasında tələb edilmiş sübutlar, yaxud cinayət işini (və ya məhkəməyədək sadələşdirilmiş icraatı) başlamış şəxs tərəfindən cinayət işinə (məhkəməyək sadələşdirilmiş icraat materiallarına) əlavə edilmiş sübutlar olmalıdır;
- həmin sübutların məhkəmə istintaqında tədqiq edilməsindən imtinanı müdafiə tərəfinin həmin sübutlarla müəyyən ediləcək halın prosessual mənafeyinə toxunduğu bütün iştirakçıları müdafiə etməlidir [5, s.988].

CPM-in 337.2-ci maddəsinə əsasən, müdafiə tərəfinin həmin normada göstərilmiş hər hansı bir sübutun tədqiqindən imtina etməsi hər bir halda qəbul edilməlidir. Qanunvericinin bu cür müddəanı müəyyən etməkdə məqsədi aydın deyildir. Fikrimizcə, bu müddəa mütləq şəkildə dəyişdirilməlidir. Çünki müdafiə tərəfi üzərində edilən təzyiqlər nəticəsində bu cür vəsatətin verilməsi halında bir sıra problemli nəticələr meydana çıxır:

- məhkəmə həmin vəsatəti qəbul etməli olur;
- ədalətin təmin edilməsi pərdəsi altında ədalətsizlik edilir;
- işin hallarının hərtərəfli, tam və obyektiv araşdırılması vəzifəsi yerinə yetirilməmiş qalır.

İşdə iştirak edən şəxslərin hüquq və qanuni mənafelərinin müdafiəsi üçün əhəmiyyətli olan bütün halların hərtərəfli, tam və obyektiv tədqiqi aparılmadan iş üzrə həqiqətin müəyyən edilməsi, işin həll edilməsi mümkün deyildir. İşin hallarının hərtərəfli və tam araşdırılması və qiymətləndirilməsi törədilmiş cinayətin bütün minimum versiyalarının yoxlanılması və qiymətləndirilməsi, həmin versiyanı həm təsdiq, həm də rədd edən bütün halların ciddi araşdırılması deməkdir [3, s.6]. Qeyd edilənlərdən belə bir nəticəyə gəlirik ki, sübutların kifayət hesab edilməsi üçün qanunverici daha dəqiq kriteriyalar müəyyən etməli və bunun subyektiv fikirlərdən asılı olmasının qarşısını almalıdır.

Silahların bərabərliyi prinsipinə AİHM tərəfindən bir tərəfi prosesin digər tərəfi qarşısında zəif duruma salmayacaq şərtlərdə, hər bir tərəfin sübutları da daxil olmaqla, mövqeyini ortaya qoymaq üçün ağlabatan bir imkana malik olması kimi anlayış verilmişdir [6].

Qeyd edilənləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, cinayət prosesinin iştirakçısı olan vəzifəli şəxslər üzərlərinə düşən vəzifələri icra etmək üçün bütün fəaliyyətlərində CPM-in normalarını rəhbər tutmalıdırlar. Bu normalara əsasən cinayəti törətməkdə şübhəli olan şəxslərə işgəncə verilməsi, onların ləyaqətləri alçaldıla bilməz. Heç kəs cinayəti törətməkdə şübhəli olduğuna görə cəzalandırıla bilməz. Cinayət prosesi gedişində sübutlar ancaq qanunvericilikdə müəyyən edilmiş qaydada toplanmalı, rəsmiləşdirilməli və qiymətləndirilməlidir. Konstitusiya prinsipinin ziddinə olaraq heç kəsin üzərinə cinayət törətməkdə təqsirsiz olmasını sübut etmək vəzifəsi qoyula bilməz. Cinayət prosesinin gedişində həmin prosesin iştirakçıları onlara verilmiş səlahiyyətlərdən istifadə edib insan hüquq və azadlıqlarını pozmamalı, onları əsassız yerə məhdudlaşdırmamalıdır.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində sübutlarla bağlı məsələləri tənzimləyən bir sıra normaların təkmilləşdirilməsinə ehtiyac vardır. Həmin normaların təkmilləşdirilməsi istiqamətində aşağıdakı addımların atılması daha məqsədəmüvafiq olar:

1.CPM-in 4.3 və 141.2-ci maddələrini qarşılıqlı təhlil etdikdə müəyyən məsələlər aşkara çıxarılır. Belə ki, CPM-in 4.3-cü maddəsinə əsasən, ədalət mühakiməsi həyata keçirilərkən sübutların mümkünlüyü həmin anda qüvvədə olan Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin müddəalarına uyğun olmalıdır. Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin yeni qəbul edilmiş müddəası sübutların mümkünlüyü şərtlərini əhəmiyyətli dərəcədə dəyişirsə, yeni müddəalara uyğun gəlməyən sübutlar ittihamın əsasını təşkil edə bilməz. CPM-in 141.2-ci maddəsinə əsasən isə, cinayət prosesinin tərəfləri cinayət təqibi üzrə əhəmiyyət kəsb edən hər hansı halı tədqiq etmədən onun mövcudluğu və ya müəyyən qiymət verilməsi barədə razılığa gələ bilərlər. Cinayət təqibi üzrə icraatın materiallarında olan sübutlara əsasən məhkəmə bu halların mövcudluğu və ona verilmiş qiymətin qanunla ziddiyyət yaratmadığını qəbul etdikdə, belə

razılıq hökmün və ya digər qərarın əsası kimi qəbul edilə bilər. Bu halda sübutların tədqiq edilmədən müəyyən olunmuş halları cinayət prosesinin digər iştirakçılarına deyil, yalnız razılığa gələnlərə münasibətdə müəyyən edilmiş hesab olunur.

CPM-in 141.2-ci maddəsinin 2-ci cümləsində istifadə edilən "qanunla ziddiyyət yaratmadığını qəbul etdikdə" və CPM-in 4.3-cü maddəsinin 1-ci cümləsindəki "həmin anda qüvvədə olan Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin müddəalarına uyğun olmalıdır" ifadələri arasında bir qədər uyğunsuzluq vardır. Belə ki, əgər sübutların mümkünlüyünün cinayət-prosessual qanunvericiliyin müddəalarına uyğun olması tələb olunursa, tərəflər arasında razılığa gəlinən hər hansı halın mövcudluğu və ona verilmiş qiymətin də məhz qanunla deyil, bütövlükdə cinayət-prosessual qanunvericiliklə ziddiyyət yaratmaması müəyyən edilməlidir. Lakin bu məsələnin üzdə olan tərəfidir. Onun daha dərininə vardıqda bu cür imkanın tərəflərə verilməsinin əslində ədalət mühakiməsinin məqsədlərindən müəyyən qədər kənara çıxılmasına səbəb ola biləcəyini anlamış olarıq. Belə ki, həqiqətin müəyyən olunması məqsədini realizə etmək üçün həyata keçirilməli olan tam, hərtərəfli və obyektiv araşdırmaların aparılmaması və sadəcə müəyyən yoxlanışların keçirilməsi mümkün deyildir (çünki CPM-in 144-cü maddəsinin tələbləri tam olaraq gözlənilmir). Doğrudur, bu hal cinayət mühakimə icraatının tezliyinə müsbət təsir göstərmiş olur. Lakin onun yalnız cinayət prosesinin razılığa gələn iştirakçılarına münasibətdə müəyyən edildiyini nəzərə alsaq, digər iştirakçılara münasibətdə yenə də müəyyən tədqiqatların aparılması zəruri olacaqdır. Burada isə razılaşmadan fərqli məsələlər də ortaya çıxa bilər.

2. CPM-in 4.3-cü maddəsinə əsasən, ədalət mühakiməsi həyata keçirilərkən sübutların mümkünlüyü həmin anda qüvvədə olan Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin müddəalarına uyğun olmalıdır. Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin yeni qəbul edilmiş müddəası sübutların mümkünlüyü şərtlərini əhəmiyyətli dərəcədə dəyişirsə, yeni müddəalara uyğun gəlməyən sübutlar ittihamın əsasını təşkil edə bilməz. Bu müddəa ilə Konstitusiyanın 149-cu maddəsinin VII hissəsini qarşılıqlı müqayisə etdikdə bir sıra problemlər meydana çıxır. Belə ki, CPM-in 4.3-cü maddəsindən belə nəticə hasil olur ki, cinayət-prosessual qanunvericiliyin yeni qəbul edilmiş müddəası sübutların mümkünlüyü şərtlərini əhəmiyyətli dərəcədə dəyişərsə, belə dəyişiklik təqsirləndirilən şəxsin vəziyyətini yaxşılaşdırarsa və ya pisləşdirərsə və cinayət-prosessual qanunvericiliyin əvvəlki müddəasına uyğun toplanmış sübutlar yeni müddəaya uyğun gəlməzsə, həmin sübutlar ittihamın əsası kimi çıxış edə bilməz. Kazual olaraq düşünsək, əgər təqsirləndirilən şəxsin xeyrinə toplanmış sübutlar sübutların mümkünlüyü şərtlərinin əhəmiyyətli dərəcədə dəyişməsi nəticəsində onun vəziyyətini pisləşdirirsə, bu cür sübutlar ittihamın əsasını təşkil edə bilməz. Halbuki, həmin sübutlar toplanılan zaman həmin anda qüvvədə olan sübutların mümkünlüyü şərtləri gözlənilmişdir və sonradan bu mümkünlük şərtlərini əhəmiyyətli dərəcədə dəyişən normanın qüvvəsinin məhz geriyə də şamil edilməsi ilə, yəni onun qəbul edilməsindən əvvəl toplanılan sübutlar üçün də keçərli olmasına görə təqsirləndirilən şəxsin vəziyyəti pisləşmiş və əgər belə demək mümkündürsə, onun hüquqlarını məhdudlaşdıran aktın qüvvəsi geriyə şamil edilmişdir. Bu isə Konstitusiyanın 149-cu maddəsinin VII hissəsinin tələbləri ilə ziddiyyət təşkil etmiş olacaqdır. Buna görə də, fikrimizcə, CPM-in 4.3-cü maddəsinin 2-ci cümləsinin aşağıdakı redaktə də verilməsi daha məqsədəmüvafiqdir:

"Azərbaycan Respublikası cinayət-prosessual qanunvericiliyinin yeni qəbul edilmiş müddəası sübutların mümkünlüyü şərtlərini əhəmiyyətli dərəcədə dəyişirsə, yeni müddəaların cinayət prosesi iştirakçısının hüquqi vəziyyətini pisləşdirdiyi hallar istisna olmaqla, yeni müddəalara uyğun gəlməyən sübutlar ittihamın əsasını təşkil edə bilməz".

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası. http://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. http://www.e-qanun.az/code/14
3. İbayev V.. Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin Kommentariyası. Cinayət mühakimə icraatının vəzifələri, əsas prinsipləri və şərtləri. Bakı: Qanun, 2004, 769 s.
4. Könül Hüseynova. İbtidai istintaqda sübutların mümkünlüyü. Bakı: Nurlan, 2008, 208 s.
5. Mövsümov H., Kərimov B.C., Hüseynov Ə.H.. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası. Bakı: Digesta, 2016, 1335 s.
6. Dombo Beheer BV v. The Netherlands. 27.10.1993.
7. Ferhat Karabulut, Ersin Karapazarlıoğlu, Hamza Tosun. Ceza muhakemesinde delil kavramı ve kovuşturma sürecinde hakimlerin delil algısı. Türkiye Barolar Birliği Dergisi, 2015, cilt 28, sayı 120, 2015, 385-422 s.
8. Hakan Karakehya. Ceza muhakemesinin amacı. İUHFM, Cilt LXV, sayı 2, 2007, 121-141 s.
9. Mehmet Yavuz. Ceza muhakemesinde ispat sorunu. TAAD, sayı 9, 2012, 151-176 s.
10. Mahmut Koca. Ceza muhakemesi hukukunda deliller. Ceza Hukuku Dergisi, Cilt 1, sayı 2, 2006, 207-225 s.
11. Feridun Yenisey. Ceza muhakemesi hukukunda (hukuka uygun bir şekilde elde edilmiş) delil. Ceza Hukuku Dergisi, cilt 2, sayı 4, 2007, 5-60 s.
12. Fahrettin Demirağ. Açıklamalı ceza muhakemesi kanunu. Türkiye Barolar Birliği. 1. Baskı, 2007, 950 s.
13. Hakim Zekeriye Yılmaz. Adli kontrol. Ankara Barosu Dergisi, 2006-1, 33-62 s.
14. Kerem Osmanoğlu. Ceza muhakemesi açısından hukuka aykırı delillerin değerlendirilmesi. Ceza Hukuku Dergisi, Cilt 7, sayı 18, 2012, 137-172 s.
15. T.C.Anayasa Mahkemesi 1999/2 – 2001/2 E-K.
16. Yarg. CGK., 30.10.2014, 2013/8-119, 2014-448.
17. Yarg. CGK., 03.06.2014, 2013/10-642, 2014-302.
18. https://www.researchgate.net/publication/334401623_CEZA_MUHAKEMESININ_AMACI


***Açar sözlər:*** *cinayət prosesi, sübutlar, sübutetmə, ədalət mühakiməsi, insan hüquqları və azadlıqları*

**Asif Gadirov**
*Associate Professor of the Department of Law*
*of the Academy of Public Administration*
*under the President of the Republic of Azerbaijan, PhD in Law*

# CERTAIN ASPECTS THAT ENSURING THE PROTECTION OF THE CONSTITUTIONAL RIGHTS AND FREEDOMS OF A HUMAN AND A CITIZEN WHILE GATHERING EVIDENCES IN THE CRIMINAL PROCESSES

## SUMMARY

The analysis provided within this paper clearly demonstrates that the constitutional legal basis for the protection of the constitutional rights and freedoms of the individuals and citizens, whilst gathering evidences in the criminal processes. It considers that the subjective approaches should be avoided as much as possible in order to thoroughly protect human rights and freedoms while receiving an investigation and also evaluating evidence in the criminal proceedings.

Furthermore, it is remarkably to cite that the prosecutor and the court are obliged to take their conviction into account in the process of evaluating evidences. However, this inner conviction cannot be based on the subjective judgement.

Otherwise, the constitutional rights of the accused may be violated, in different circumstances. Thenceforward, the paper determines that it was conducted a comparative analysis of the aforementioned queries.

***Key words:*** *criminal process, evidence, proof, justice, human rights and freedoms*

**Асиф Гадиров**
*Доцент кафедры Права Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по праву*

## НЕКОТОРЫЕ ОСОБЕННОСТИ ОБЕСПЕЧЕНИЯ ЗАЩИТЫ КОНСТИТУЦИОННЫХ ПРАВ И СВОБОД ЧЕЛОВЕКА И ГРАЖДАНИНА ПРИ СБОРЕ ДОКАЗАТЕЛЬСТВ В УГОЛОВНОМ ПРОЦЕССЕ

### РЕЗЮМЕ

В статье подробно проанализированы конституционно-правовые основы защиты конституционных прав и свобод человека и гражданина при сборе доказательств в уголовном процессе. Было установлено, что следует максимально избегать субъективных подходов для тщательной защиты прав и свобод человека при получении, расследовании и оценке доказательств в ходе уголовного разбирательства.

Конечно, прокурор и суд также должны учитывать свои убеждения при оценке доказательств. Однако это внутреннее убеждение не может быть основано на субъективном суждении. В противном случае конституционные права обвиняемого могут быть нарушены в некоторых отношениях. Был проведен сравнительный анализ упомянутых в статье вопросов.

***Ключевые слова:*** *уголовный процесс, доказательства, доказательство, справедливость, права и свободы человека*

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR
## INTERNATIONAL RELATIONS

UOT 323.28; UOT 327

**AKİF MARİFLİ**
**tarix üzrə fəlsəfə doktoru**
*e-mail: akif.marifli@gmail.com*

# BEYNƏLXALQ TERRORÇULUĞA QARŞI QLOBAL KOALİSİYANIN YARANMASININ HƏRBİ-SİYASİ ZƏRURƏTİ

Beynəlxalq təhlükəsizlik bütün dövlətlər tərəfindən qəbul edilən beynəlxalq hüquq normalarına əsaslanan beynəlxalq münasibətlər sisteminin bir parçasıdır. Terror problemi istisnasız bütün ölkələrə birbaşa və ya dolayı ilə təsir edir. Bu isə onların səylərini birləşdirmək və problemin həlli üçün ən effektiv mexanizmlər araşdırmasına təkan verir. Son bir neçə onillikdə dünya ictimaiyyəti terror təşkilatlarının artan fəaliyyəti və onun dağıdıcı nəticələrinin intensivləşməsi ilə bağlı narahatlıqlarını ifadə edir. Beynəlxalq əməkdaşlıq terrorizmə qarşı mübarizə və onun səbəblərinin aradan qaldırılması üçün vahid bir strategiya hazırlamaq, kəşfiyyat və digər ixtisaslaşdırılmış məlumatları bölüşmək sahəsində anti-terror fəaliyyətinin zəruri elementidir. Terrorizmin dünyanın müxtəlif bölgələrində öz xüsusiyyətləri var və buna görə norma və strateji müddəaları yerli şəraitə uyğunlaşdırmaq lazımdır. Beynəlxalq terrorizm dövlətləri bu təhlükəyə qarşı birgə mübarizə ehtiyacı ilə qarşılaşdırmışdır. Qeyd etmək lazımdır ki, müasir dünyada terrorizm qlobal bir fenomen halına gəlib. Belə şəraitdə dövlətlər terror təşkilatlarına qarşı mübarizədə vahid bir cəbhə kimi çıxış etmək, bir-birinə bu yolda hər cür dəstəyi göstərmək və terrorizmlə mübarizə üçün qanunvericiliyin inkişaf etdirilməsinə məcbur olurlar.

Antiterror fəaliyyətinin prioritet istiqamətlərindən biri beynəlxalq hüquq normalarının inkişafıdır. Bu günə qədər Birləşmiş Millətlər Təşkilatının və onun ixtisaslaşmış qurumlarının himayəsi altında terrorizmə qarşı mübarizə və dünyanın bütün ölkələrinin iştirakına açıq olan 16 beynəlxalq saziş (11 konvensiya və 5 protokol) hazırlanmışdır. Bunlara aşağıdakılar daxildir:

1) 1963-cü il Tokio Konvensiyası;

2) 1970-ci il təyyarələrin qeyri-qanuni ələ keçirilməsinin qarşısının alınması üzrə Lahey Konvensiyası;

3) 1971-ci il Mülki aviasiya təhlükəsizliyinə qarşı qanunsuz əməllərə qarşı mübarizə haqqında Konvensiyası;

4) 1973-cü il Diplomatik agentlər, o cümlədən Beynəlxalq Mühafizə olunanlara qarşı cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyası;

5) 1979-cu il Girov götürülməsinə qarşı Beynəlxalq Konvensiyası;

6) 1980-cı il Nüvə materialının fiziki mühafizəsi haqqında Konvensiyası;

7) 1988-ci il Dənizkənarı marşrutun təhlükəsizliyinə qarşı qanunsuz əməllərin qarşısının alınması haqqında Konvensiyası;

8) 1991-ci il plastik partlayıcı maddələrin markalanması haqqında Konvensiya;

9) 1997-ci ildəki terrorçuluq ilə mübarizəyə dair Beynəlxalq Konvensiya;

10) 1999-cu il Terrorizmin maliyyələşdirilməsinin qarşısının alınmasına dair Beynəlxalq Konvensiyası;

11) 2005-ci il Nüvə terrorçuluq aktlarının qarşısının alınması üzrə Beynəlxalq Konvensiyası (9, s.66).

Beynəlxalq Konvensiyaların hazırlanması ilə yanaşı, Birləşmiş Millətlər Təşkilatı terrorizmlə mübarizədə strateji istiqamətləri və prinsipləri müəyyənləşdirmək işinə böyük diqqət yetirir. Beləliklə, 1994-cü ildə BMT Baş Assambleyasının A / RES / 49/60 saylı qətnaməsi Terrorizmin aradan qaldırılması üçün tədbirlər haqqında Bəyannaməni qəbul etmişdir. Bu sənəd dünyanın bütün dövlətlərini terror aktlarının qarşısını almaq və nəticələrini aradan qaldırmaq üçün mümkün olan hər şeyi etməyə səsləyir və bu məsələ ilə məşğul olan müxtəlif beynəlxalq hüquqi sənədlərin müəyyən müddəalarını ümumiləşdirir (21; 51).

2006-cı ildə BMT-nin Terrorizmə Qarşı Mübarizə Strategiyasının (71) qəbul edilməsi mühüm bir faktdır və bu hazırda terrorizmə qarşı mübarizə üçün əsas beynəlxalq sənəddir. Strategiya bir qətnamə və fəaliyyət planını ehtiva edir. Bu sənədlərə əlavə olaraq terrorizmin qarşısının alınmasına kömək edən beynəlxalq konfransların bir çox regional konvensiyası və yekun sənədləri var. Bunlara, 1987-ci ildə qəbul edilən Terrorizmin qarşısının alınması üzrə Cənubi Asiya Regional Əməkdaşlıq Assosiasiyasının (SAARC) Regional Konvensiyası (38; 61), 1997-ci ildə Nyu Yorkda qəbul olunmuş Terror Partlayışları ilə mübarizə üzrə Avropa Konvensiyası (16), 1999-cu ildə qəbul olunmuş Terrorizmlə Mübarizə haqqında Afrika Birliyi Konvensiyası (53), 1999-cu ildə qəbul olunmuş Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin Terrorizmə Qarşı Mübarizə haqqında Sazişi (66), 2001-ci ildə qəbul olunmuş Terrorizmlə mübarizə, separatçılıq və ekstremizm haqqında Şanxay Konvensiyası (63), 2006-cı ildə qəbul olunan Avropa Şurasının Terrorizmin Qarşısının Alınması Konvensiyası (29) və 2005-ci ildə qəbul olunan Avropa Şurasının Terrorizmin Maliyyələşdirilməsinə Qarşı Mübarizə Konvensiyasını (12) misal gətirmək olar.

Beləliklə, mövcud konvensiyalar və digər beynəlxalq hüquqi aktlar terrorizmlə mübarizənin bütün sahələrini əhatə edir. Hazırda terrorizmə qarşı mübarizə üçün beynəlxalq hüquqi çərçivə dövlətlərin hərəkətlərini koordinasiya etmək və birləşdirmək üçün imkan yaradan kifayət qədər aydın bir struktura malikdir. Ancaq beynəlxalq konvensiyaların qəbul edilməsi terrorizmi məğlub etmək üçün kifayət deyil, beynəlxalq hüquq normaları yalnız həyata keçirilməli olan real hərəkətlərin əsasları və strateji istiqamətləri ilə tənzimlənir.

Terrorizmə qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq müxtəlif ixtisaslaşmış beynəlxalq təşkilatların fəaliyyətinin yaradılması və saxlanılması kimi mühüm bir istiqamətdə həyata keçirilir. Bəlkə də bunlardan ən vacibi 2001-ci ildə 1373 saylı qətnaməyə uyğun olaraq yaradılan BMT Terrorizmlə Mübarizə Komitəsidir (CTC). Komitənin əsas məqsədi 1373 saylı qətnamənin icrasını təmin etməkdir: 1) terrorizmin maliyyələşdirilməsi; 2) terror aktları ilə məşğul olan şəxslərlə bağlı hər hansı vəsaitin qarşısını almaq; 3) heç bir formada terrorçu qruplara maliyyə dəstəyi verməmək; 4) sığınacaq verilməsi, terrorçulara yardım və ya dəstək verilməsinin qarşısını almaq; 5) terror aktlarını törətmək və ya planlaşdırmaq istəyən qruplarla bağlı digər hökumətlərlə məlumat mübadiləsi; 6) bu cür hərəkətlərdə ittiham olunan şəxslərin istintaqında, aşkarlanmasında, həbs edilməsində, ekstradisiyası və təqib olunmasında digər hökumətlər ilə əməkdaşlıq etmək (13).

Terrorizmlə mübarizənin əsas sahələrini müəyyənləşdirməkdə böyük rol oynayanlardan biri də dünya iqtisadiyyatının təxminən 65% -ni təmsil edən və tərkibində 8 nəhəng dövlətləri – Kanada, Fransa, Almaniya, İtaliya, Yaponiya, Rusiya, Birləşmiş Krallıq və ABŞ birləşdirən Böyük Səkkizlər Qrupu – G8-dir. G8-nin bu sahədə əsas sənədi 2006-cı ilin 16 iyulunda Sankt-Peterburqda qəbul edilmiş “Terrorizmə qarşı mübarizə üzrə G8 sammitinin bəyannaməsi”dir (33). Terrorizmə qarşı mübarizədə beynəlxalq və milli qanunvericiliyin təkmilləşdirilməsi və icrası, enerji və nüvə obyektlərinə

terror hücumlarının qarşısının alınması, terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə səylərinin artırılması, vətəndaş cəmiyyəti ilə məhsuldar dialoqun inkişafı prioritet sahələrdir (32).

Hazırda antiterror fəaliyyətinin əsas subyektlərindən biri, 194 üzvü (2018-ci ilin məlumatı) olan İNTERPOLdur (40). Antiterror fəaliyyəti Müstəqil Dövlətlər Birliyinin prioritet sahələrindən biridir. MDB çərçivəsində terrorizmin qarşısının alınması məqsədilə, 21 iyun 2000-ci il tarixində Müstəqil Dövlətlər Birliyi Dövlət Başçıları Şurasının Antiterror Mərkəzi qurulmuşdur. Antiterror Mərkəzi Müstəqil Dövlətlər Birliyinin daimi ixtisaslaşmış orqanıdır və MDB üzvü olan dövlətlərin beynəlxalq terrorizmlə mübarizə və ekstremizmin digər təzahürləri ilə mübarizə sahəsindəki koordinasiyasını və qarşılıqlı fəaliyyətini təmin etmək məqsədi daşıyır. Mərkəzin fəaliyyətinin hüquqi statusu, əsas vəzifələri, funksiyaları, komponentləri və təşkilati əsasları MDB Dövlət Başçıları Şurasının 1 dekabr 2000-ci il tarixli qərarı ilə təsdiq edilmiş Müstəqil Dövlətlər Birliyinin Terrorla Mübarizə Mərkəzi haqqında Əsasnamə ilə tənzimlənir (20).

Beynəlxalq təşkilatlarla birgə dünyanın demək olar ki, bütün ölkələri terrorizmlə mübarizə üçün məsul olan öz milli strukturlarını təsis ediblər. Beləliklə, hazırda beynəlxalq terrorizmlə mübarizədə əməkdaşlıq, beynəlxalq qanunvericiliyin vahid normalarının işlənib hazırlanması, onları milli qanunvericiliyin normalarına uyğunlaşdırılması birgə səy və təşəbbüslərinin koordinasiyası çərçivəsində həyata keçirilir. Artıq terrorizmə qarşı mübarizə sisteminin çərçivəsi formalaşmışdır və buna görə də beynəlxalq hüquq normalarının və beynəlxalq təşkilatların effektiv fəaliyyətini təmin edilməsinin zəruriliyi meydana çıxmışdır.

Bütün bunlarla yanaşı terrorizmlə mübarizədə ikitərəfli əlaqələrin də böyük rolu vardır. Dövlətlərarası əməkdaşlığın ən tipik nümunələrindən biri də Asiya regionundan, Əfqanıstandan terrorist təhdidlərə qarşı Rusiya-Amerika və Rusiya-Hindistan iş qruplarının fəaliyyətidir (10). Rusiya və Hindistan bu sahədə hərbi-texniki əməkdaşlıq qurmuş və S-400 Triumf havadan müdafiə raket sistemləri ilə Hindistanın təmin edilməsi haqqında müqavilə imzalanmışdır (34).

Amerika Birləşmiş Ştatları Suriya ilə bağlı məsələlərə ilk gündən həssas yanaşaraq, bu sahədə Rusiya ilə əməkdaşlığa üstünlük verir. Dövrün Pentaqon sözçüsü polkovnik-leytenant Mişel Baldanza, ABŞ hərbçilərinin Rusiya ilə bu əməkdaşlıqda maraqlı olduqlarını bəyan etmişdi: “Bu, Suriya hava məkanından istifadə edən bütün tərəflərin qəza və baş verə biləcək fövqəladə hallardan qorunması və qarşısının alınması üçün çox faydalıdır. Biz ümüd edirik ki, Rusiya Müdafiə Nazirliiyi də bu əməkdaşlıqda maraqlıdır” - deyə Baldanza bildirib.

Qeyd etmək lazımdır ki, son illərdə aparıcı Qərb ölkələri ekstremizm və terrorizmlə mübarizədə bir sıra ikitərəfli və çoxtərəfli müqavilələr imzalamışlar.

Müasir antiterror koalisiyasının formalaşması məsələsi isə müəyyən tarixi və siyasi inkişaf xüsusiyyətlərinə malikdir. Məlum 11 sentyabr 2001-ci il hadisəsindən dərhal sonra ABŞ-ın təşəbbüsü ilə beynəlxalq antiterror koalisiyası formalaşdı. Lakin bu faciəli hadisələrdən on il əvvəl amerikalılar artıq bu strategiyadan Küveytin azad edilməsi zamanı istifadə etmişlər. Ancaq 1990-1991-ci illərlə müqayisədə, mövcud reallıqlar bir sıra fərqləndirici xüsusiyyətlərə malikdir. Birincisi, anti-İraq koalisiyasının miqyası məhdud idi. Əməliyyat zonası Küveyt, İraq və Fars körfəzi daxil olmaqla qonşu dövlətlərin ərazisini əhatə etmişdir. İkincisi, zaman parametrləri ilə, bu ittifaqın işləməsi Küveyt torpaqlarının azad edilməsi üçün əməliyyatın şərtləri ilə ciddi şəkildə müəyyən olunmuşdur. Üçüncüsü, onun fəaliyyətinin məqsədi tək hədəf Bağdad rejimi ilə məhdudlaşmışdı. Nəhayət, dördüncü olaraq,

onların vəzifələri baxımından, anti-İraq alyansının hərəkətləri sülhməramlı əməliyyat xarakteri daşıyırdı.

### İŞİD təhlükəsi beynəlxalq hərbi-siyasi əməkdaşlığın motivi kimi

Müasir dövrdə beynəlxalq antiterror koalisiyasının fəaliyyət istiqamətlərində bir sıra dəyişikliklər olmuşdur. Qərbin və eləcə də Rusiyanın, habelə digər dünya dövlətlərinin diqqət mərkəzində İŞİD təhlükəsi dayanmaqdadır. 2014-cü ilin iyun və iyul aylarında İslam Dövləti qrupunun əldə etdiyi uğurlara cavab olaraq bəzi dövlətlər Suriyada və İraqda, sonra Liviyada davam edən vətəndaş müharibəsinə müdaxilə etməyə başladılar.

Suriyada baş verən hadisələrlə bağlı danışanda ilk olaraq onu demək olar ki, Bəşər Əsədin böyük səhvi (və ya zəifliyi) İslam Dövlətinin yenidən güclənərək geri qayıtmaq imkanının olacağını hesablamaması olmuşdur. Hadisələrin gedişi bunun göstəricisidir. İraqdan Suriyaya transfer edilərək böyük miqdarda silahla təhciz edilən İŞİD silahlıları, İraqdakı qələbələrindən bir impuls dalğası qazanaraq Dər əs Zur ətrafında bütün nəzarəti ələ keçirdilər. 2014-cü ilin yanvar-mart tarixləri arasında Suriya hökumət qüvvələri ilə aralarında olan hərbi əməliyyatlardan və həmçinin mart ayında ABŞ-ın Suriyanın şərqində İslam Dövlətinə vurduğu son həmlədən sonra demək olar ki, Suriyadakı ərazilərin təxminən yarısından çıxan İslam Dövləti kifayət qədər gücləndi və daha çox qüvvə, maliyyə və silah ilə konsalidasiya (möhkəmlənmək) edilərək iyul ayında yenidən əməliyyatlara başladı və bu dəfə Suriyada daha geniş ərazilərə nəzarət etmək fürsətini qazandı (44). Lakin bu uzun sürmədi. İŞİD-ə qarşı beynəlxalq əməkdaşlıq sahəsində birgə koalisiya yaradıldı. Belə ki, 5 sentyabr 2014-cü ildə Barak Obama Suriya və İraqda İslam dövlətinin qarətçiliyinə qarşı Amerikanın reaksiyasını artırdığını bəyan edərək bu təşkilatın ləğvinə kömək edəcək ən azı 9 müttəfiqi bir araya gətirmiş və on il qabaq sələfi Corc Buş tərəfindən hazırlanan terrorla mübarizəni əks etdirən hərbi strategiya planlarını onların diqqətə çatdırmışdı. Obama ABŞ və müttəfiqlərinin əvvəllər Yaxın Şərqi bürümüş və Əl-Qaidəni bir zamanlar kölgədə qoyan Süni silahlılardan ibarət qrup olan İŞİD-i necə məhv edə biləcəyi mövzusuna dair ən geniş açıqlamasında Amerika Hava Hücumunun gücünə güvəndiyini söyləmiş və İŞİD tərəfindən işğal edilmiş əraziləri geri qaytarmaq üçün mülayim suriyalı üsyançı qrupları gücləndirməyin və bölgədəki mövcud hökumətlə əlaqələri möhkəmləndirərək birgə mübarizəyə qoşulmağın zəruriliyini bildirmişdi (28). Koalisiya ilk öncə qonşu dövlət olan İraqın quru qüvvələrinə hərbi yardım, hərbi məsləhətçilər və quru qüvvələri üçün təlim bazalarının yaradılması ilə kömək etdi. Qısa zamanda ABŞ-ın hava dəstəyi ilə Kürd və İraq qüvvələri Mosul barajının nəzarətini bərpa edə bildi. 2014-cü il sentyabrın 10-da Obama ABŞ-ın Suriyadakı hava hücumlarına başlayacağını elan etdi (50).

Təbii ki, Barak Obama üçün İŞİD-ə qarşı mübarizə aparmaq üçün koalisiya toplamaq, qlobal səhnəyə ilk gəlişilə İraqdakı müharibəyə qarşı çıxan bir prezident kimi xüsusilə vacib idi. Çünki o siyasi səhnədə tək görünmək istəmirdi və bunun üçün Yaxın Şərqdə siyasi kursunun əsas prioritetlərindən biri də məhz müttəfiqlər toplamaq və əməliyyatları birgə həyata keçirtmək istəyi idi.

ABŞ dövlət katibi Con Kerri 4-5 sentyabr 2014-cü il tarixlərində NATO-nun Uelsdə keçirilən zirvə görüşü çərçivəsində Avstraliya, Kanada, Danimarka, Fransa, Almaniya, İtaliya, Türkiyə və Birləşmiş Krallıq nazirləri ilə görüşündə (48), onları İŞİD-ə qarşı hərbi və maddi cəhətdən mübarizəyə dəstək verməyə çağırdı. ABŞ-ın dövlət katibi Con Kerri və ABŞ müdafiə naziri Chuck Hagelin verdiyi açıqlamaya görə, doqquz ölkə İraq və Suriyadakı İŞİD-ə qarşı koalisiya qüvvələrinin təchi-

zat və hava dəstəyi ilə təmin etmək missiyasını öz üzərlərinə götürdülər (49). 2015-ci ildə ABŞ Konqresi İŞİD ilə mübarizə aparmaq üçün 1,6 milyard dollar ayırdı. (11; 15).

Türkiyə və kürdlər arasında bufer rolu oynayan və nəzəri cəhətdən hər ikisinə müttəfiq olan Amerika qüvvələri oktaybr ayının əvvəlində sərhəddən geri çəkilməyə başladılar. Lakin, ABŞ 2014-cü ildə İslam Dövlətinin ardından sürətlə yayılmağa başlayan "xilafət"ə qarşı Suriya Demokratik Qüvvələri (SDF) ilə müttəfiq olaraq müharibədə Suriyaya dəstəyini davam etdirdi. Ağ Ev daha sonra ABŞ qüvvələrinin ölkəni tamamilə tərk etdiklərini elan etsə də, lakin onlar sadəcə şərqə doğru yerlərini dəyişərək, o vaxtdan bəri hələ də kürdlərin nəzarətində olan ərazilərdəki neft quyuları ətrafında öz mövqelərini daha da möhkəmləndirdilər. Biz neft yataqlarını nəzarətdə saxlamaq istəyirik və kürdlərlə bu mövzuda müzakirələr aparacayıq – deyə Tramp bəyan etmişdir (65; 67). Lakin Rusiya Müdafiə Nazirliyi, Amerikanın bu addımının ciddi narahatlıq yaratdığını belə xarakterizə etmişdir: "Vaşinqtonun bu hərəkəti, Suriyanın şərqindəki neft yataqlarının ələ keçirilməsi və silahlı nəzarətə götürməsi, sadəcə olaraq, beynəlxalq dövlət quldurluğundan başqa bir şey deyildir (72)".

2014-cü ilin iyul ayında Beynəlxalq Strateji Araşdırmalar İnstitutunun məlumatına görə, İran Sukhoi Su-25 təyyarələrini, Hizbullah isə buna uyğun olaraq İŞİD-in hərəkətlərini izləmək üçün İraqa təlimatçı və məsləhətçilər göndərdi. 2014-cü ilin avqustunda ABŞ və İran ayrı-ayrılıqda İraqdakı İŞİD hədəflərinə qarşı hava hücum kampaniyasına başladılar. Qısa vaxt ərzində ABŞ-ın rəhbərlik etdiyi koalisiyaya qoşulan ölkələrin sayı on dördə çatmış və bu ölkələr İraqda və Suriyada İŞİD-ə qarşı çoxsaylı havadan zərbələr endirmişlər. 2015-ci ilin sentyabr ayında Rusiya qüvvələri, Suriya hökumətinin icazəsi ilə İŞİD, Əl-Nusra Cəbhəsi və Azad Suriya Ordusuna (FSA) qarşı minlərlə bombardman əməliyyatları həyata keçirmişlər (5).

2015-ci ilin sentyabr ayının sonunda Rusiya, İraq, İran və Suriya Bağdadda "Yaxın Şərqdəki vəziyyət haqqında cari məlumatları toplamaq, müzakirə və təhlil etmək, həmçinin ilk növbədə İslam Dövləti ilə mübarizə aparmaq üçün" ortaq bir məlumat mərkəzi yaratdılar (4). 30 sentyabr 2015-ci il tarixində Rusiya Dəməşqin rəsmi tələbi ilə Suriyada hərbi əməliyyata başlamış və Suriya müxalifətinin nəzarəti altındakı bölgələri bombalamışdır (6; 30; 59; 60). Rusiyanın Suriyadakı əməliyyatları İordaniya və İsrail ilə koordinasiya mövzusunda razılaşmalar əldə etdikləri də gündəmin həssas mövzusu olmuşdur. Belə ki, 18 sentyabr 2015-ci ildə Rusiya xarici işlər naziri Sergey Lavrov İordaniyanın partayxtı Əmman şəhərində rəsmi səfərdə olarkən bəyan etmişdi ki, Rusiya və İordaniya "xüsusi iş mexanizmi" çərçivəsində Suriyada birgə hərbi əməliyyatların koordinasiyasını həyata keçirəcəkləri barədə razılığa gəliblər. Düşünürük ki, antiterror mübarizəsində iştirak edən digər dövlətlər də bu mexanizmə qoşula bilər - deyə Lavrov əlavə etmişdi (57). İsrailin baş naziri Binyamin Netanyahu 19 sentyabr 2015-ci ildə Moskvaya rəsmi səfəri zamanı Suriya üzərində hərbi əməliyyatlar zamanı nəzarətin koordinasiyasında Rusiyaya dəstək olacaqlarını bəyan etmişdir. Netanyahu Putin ilə görüşdən sonra jurnalistlərə açıqlamasında bildirmişdi ki, bizim görüşün məqsədi Əsədin islamçı hakim üsyançılara qarşı mübarizə apardığı Suriyada İsrail Müdafiə Qüvvələri (IDF-Israel Defense Force) bölmələri ilə Rusiya qüvvələri arasında "anlaşılmazlıqların qarşısını almaq" və baş verə biləcək vətəndaş müharibəsinin qarşısını birgə almaqdır (68).

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, İngilis hərbi jurnalı "Janes" 2015-ci ilin oktyabrında Moskvanın Suriyadakı hərbi əməliyyatlar üçün təxmini gündəlik xərclərinin 2,4 milyon ilə 4 milyon dollar arasında olduğu bir araşdırma nəşr etmişdi. Qeyd olunur ki, xərclərə silahların, raketlərin və bombaların

dəyəri, hərbi əməliyyatlarda istifadə olunan avadanlığın saxlanması və insan resurslarının dəyəri daxildir. Tədqiqata görə, Rusiya hərbi təyyarəsinin bir saatlıq uçuş qiyməti 12 min dollara bərabərdir. Həmçinin bildirilir ki, Rusiya Suriyadakı Xmeimim bazasında işləyən rus zabitləri üçün aylıq maaş və bonuslara, həmçinin onlara verilən ərzaq və digər xidmətlərə təxminən 440 min dollar xərcləyir. Maraqlı fakt odur ki, Suriyadakı Rusiya Hərbi Dəniz Qüvvələrinin gəmilərindən atılan bir raketin dəyəri, İngilis jurnalı 1,2 milyon dollar olaraq qiymətləndirir (19; 59).

Hava hücumlarının başlamasından sonrakı aylarda İŞİD həm İraqda, həm də Suriyada işğal etdiyi əraziləri itirməyə başladı (3). Hava zərbələri nəticəsində artan mülki ölümlər 2015 və 2016-cı illərdə kəskin şəkildə artmağa başladı (22; 35). 2016-cı ilin ortalarında ABŞ və Rusiya hava hücumlarını birgə koordinasiya etməyi planlaşdırsalar da lakin bu nəticə vermədi (47; 55; 56).

14 mart 2016-cı il tarixində Rusiya Prezidenti Vladimir Putin davam edən atəşkəsin müvəffəqiyyətinə və Suriya hökumətinin daha da təhlükəsizliyinə istinad edərək Suriya ərazisindən qismən çıxarılacağını elan etdi (31). 2017-ci ilin dekabr ayında artıq İŞİD uzun sürən əməliyyatlardan sonra İraqın bütün ərazilərində geri çəkildi və buradakı nəzarətini tamamilə itirdi, Suriya ərazisinin isə təxminən 5% hissəsinə nəzarəti əlində saxlaya bildi (46). 10 dekabr 2017-ci ildə Vladimir Putin, Rusiya hərbi qüvvələrinin Suriyadan çıxarılması barədə əmr verdi, lakin qoşunların tam çıxarılmasının davam edəcək vəziyyətdən asılı olacağını bəyan etmişdir (45; 54). Qeyd etmək lazımdır ki, 2015-ci ildə Rusiya Suriyaya hərbi müdaxiləyə başlamazdan əvvəl prezident Bəşər Əsəd Suriya ərazisinin yarısına çətinliklə nəzarət edirdi, qiyamçılar, cihadçılar və kürd qüvvələri ölkənin böyük hissəsini zəbt etmişdilər. Lakin, Rusiyanın səyi və dəstəyi nəticəsində Suriya itirilmiş torpaqlarının böyük əksəriyyətini geri qaytara bildi.

9 dekabr 2017-ci ildə İraq İŞİD-lə mübarizədə qalib gəldiyini elan etdi və İraqda müharibənin başa çatdığını bildirdi (41; 42). 23 mart 2019-cu ildə İŞİD, Bağuz Favqani Döyüşünü uduzduqdan sonra Suriyada tamamilə məğlub edildi (2).

Məlum olduğu kimi, Türkiyə İŞİD birləşmələrinin məhvinə yaxından dəstək olmuşdur. Əvvəla qeyd etmək lazımdır ki, 2011-ci il "Ərəb Baharı"nın başlanmasından əvvəl, hansı ki, suriyalılar Əsəd rejiminə qarşı kütləvi şəkildə etirazlara başladıqları zaman kürdlərin əksəriyyəti Dəməşq və Hələbin böyük şəhərlərində, həm də Türkiyə ilə həmsərhəd olan üç ərazidə - qərbdə Afrin, mərkəzi Koban və şərqdə Kamışlıda yaşayırdılar. Təbii ki, PPK-nın qeyd olunan Türkiyə ərazilərində möhkəmlənməkdə olan mövqeyi və burada gələcək üçün mövcud olan potensial terror təhlükəsinin önlənilməsi Türkyə siyasi kursunun əsas proritetlərindən biri idi.

Burada sual yaranır - Türkiyəyə hərbi əməliyyat niyə lazım idi?

Türkiyə hakimiyyəti "Suriyanın Demokratik Qüvvələri" nə qarşı hərbi əməliyyat keçirmək və Suriya sərhədi boyunca 480 kilometr uzunluğunda və Suriyaya doğru 32 kilometr genişlikdə bir təhlükəsizlik zonası yaratmaq niyyətini rəsmi şəkildə də bəyan etmişdir və bu regionun təhlükəsizliyi baxımından mütləq zəruri idi.

Suriya qüvvələri 2012-ci ilin iyun ayında bir Türkiyə qırıcı təyyarəsini vurduqdan sonra Suriya ilə Türkiyə arasındakı gərginlik xeyli dərəcədə pisləşdi. Bundan başqa həmin ilin oktyabrında sərhəd toqquşmaları baş verdi (25; 36; 69). Lakin 2015-ci ilin 23 iyulunda Türkiyənin 60 elit Xüsusi Təyinatlı Qüvvələrin (Özel Kuvvetler Komutanlığı - ÖKK) əməliyyat qruplarının Suriya-Türkiyə sərhəddinin 9 kilometrliyində yerləşən Suriyaya məxsus Əlibəyli-Ayyasə kəndinə girərək oranı İŞİD yaraqlılarından geri almışlar (1; 26). Məlumata görə, bir saatdan çox davam edən

Qeyd etmək lazımdır ki, idarəetmədə e-hökumətin tətbiqi xidmət sektorunun daha əlçatan olmasına, şəffaflığın təmin olunmasına, vətəndaş məmnuniyyətinə nail olunmasına xidmət edir. Ümumiyyətlə dövlət xidmətlərinin elektronlaşdırılması dünyada e-dövlət anlayışının meydana çıxması ilə nəticələnmişdir.

“Elektron Hökumət” – müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsininə şərait yaradır [10]. Azərbaycanda tətbiq olunan “Elektron Hökumət” beynəlxalq təcrübədən çıxış edir. Yaradılmış sistemə uyğun olaraq vətəndaş və dövlət qurumları arasında münasibət və əlaqələr asanlaşdırılır və “bir pəncərə” prinsipi tətbiq edilir.

Azərbaycanda “Elektron Hökumət”in formalaşdırılmasının əsasında Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)” təsdiq edilməsi haqqında Sərəncamı [1], “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” 23 may 2011-ci il tarixli Fərmanları durur. Məhz bu fərman və sərəncamlarla dövlət orqanlarının əhaliyə beynəlxalq standartlara uyğun elektron xidmətlər göstərməsi sahəsində hüquqi baza formalaşmışdır.

E-hökumət elektron idarəetmənin tərkib hissəsi olaraq idarəetmədə vətəndaşların iştirakını təşviq etmək məqsədilə hökumətin,

vətəndaş cəmiyyətinin, siyasi institutların İKT-dən istifadə etməsidir. Həmçinin e-hökumət səmərəli idarəçiliyin təmin olunmasının mühüm vasitəsidir. Elektron hökumət elektron idarəetmənin alt sistemi kimi nəzərdən keçirilə bilər [9, s.2].

"Elektron hökumət" Portalı bizim cəmiyyətdə yenilikdir və bir çox dövlət qurumları tərəfindən təqdim olunan e-xidmətlər ilkin tətbiq mərhələsindədirlər. Hazırda "elektron hökumət" portalında 38 dövlət qurumu özünün 272 elektron xidmətini təqdim edir. Məlumatların keyfiyyətinə, tamlığına və düzgünlüyünə də birbaşa qurumlar özləri cavabdehdirlər.

Azərbaycanda dövlət idarəçiliyinin xidmət sektorunun mühüm komponentlərindən birini təşkil edən Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun fəaliyyətində İKT-nin tətbiqi müasir tələblər səviyyəsində qurulmuşdur. Dövlət Agentliyi dövlət qurumları tərəfindən həyata keçirilən xidmətlərin elektron formada təşkili və təkmilləşdirilməsi məqsədi ilə aşağıdakıları həyata keçirir:

1. dövlət qurumlarının malik olduqları informasiya sistemləri ilə tanış olmaq, göstərilən xidmətlərin elektron formada təşkili ilə bağlı aidiyyəti qurumlarla birgə tədbirlər görmək;

2. elektron xidmətlərin göstərilməsi üzrə texniki normaların, standartların və tələblərin müəyyənləşdirilməsi ilə bağlı təkliflər hazırlamaq;

3. dövlət qurumlarında elektron xidmətlərin təşkili və göstərilməsi, habelə dövlət qurumlarının informasiya sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirmələr aparmaq və nəticəsi barədə arayışlar, hesabatlar hazırlamaq;

4. elektron xidmətlərin göstərilməsi üzrə dövlət qurumlarına metodik və əməli köməklik göstərmək;

5. dövlət qurumlarının elektron xidmətləri barədə vətəndaşlardan daxil olan irad və təklifləri təhlil edərək aidiyyəti dövlət qurumlarına məlumat göndərmək [11].

Göründüyü kimi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi xidmət sektorunda geniş sferanı əhatə edən funksiyaları və əlaqələndirməni təmin edir. Qurumun fəaliyyətində İKT-nin tətbiqi dövlət idarəçiliyinin xidmət sektorunun təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Dövlət idarəçiliyinin xidmət sektorunda İKT-nin tətbiqi işinin sürətləndirilməsində "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı Fərmanın mühüm rolu vardır [2]. Fərmanda göstərilir ki, Azərbaycanda dövlət idarəçiliyinin müasir prinsiplər əsasında həyata keçirilməsi məqsədi ilə informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması dövlət siyasətinin prioritetlərindən birinə çevrilmişdir.

Dövlət idarəetməsində islahatların dərinləşdirilməsi, xüsusilə dövlət idarəçiliyinin xidmət sektorunun təkmilləşdirlməsi və bu sahələrdə İKT-nin imkanlarından istifadənin zəruriliyi Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da yer almışdır. 27 oktyabr 2018-ci il tarixdə dövlət orqanlarında (qurumlarında) qabaqcıl informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması və rəqəmsal idarəçiliyin tətbiq edilməsi və bu sahədə həyata keçirilən tədbirlərin daha yüksək səviyyədə davam etdirilməsi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zərurilyindən doğaraq Azərbaycan Respublikası Prezidenti tərəfindən "Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında" Fərman imzalanmışdır [6]. Fərmanla Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında kargüzarlığın aparılması işinin səmərəli təşkili üçün "Elektron sənəd dövriyyəsi sistemi" yaradılmışdır.

### Dövlət idarəçiliyinin xidmət sektorunda aparılan islahatların nəticələri

Azərbaycan Respublikasında dövlət idarəçiliyinin xidmət sektorunun təkmilləşdirilməsi üzrə görülmüş tədbirlərdən bəhs edərkən ilk növbədə 2012-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması xüsusi olaraq qeyd edilməlidir. Bununla bağlı Prezident Fərmanında göstərilir ki, Agentliyin yaradılmasında əsas məqsəd dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılmasının, vətəndaşlara göstərilən xidmətlərin daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsinin, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinin, vətəndaş məmnunluğunun təmin olunmasının zəruriliyini nəzərə alaraq, dövlət orqanları tərəfindən göstərilən xidmətlərin təkmilləşdirilməsi, elektron xidmətlərə keçidin sürətləndirilməsindən ibarət olmuşdur [3].

Agentliyin nəzdində fəaliyyət göstərən ASAN xidmət mərkəzləri dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsini təmin edərək dövlət idarəçiliyinin xidmət sektorunda səmərəliliyin yüksəldilməsində və vətəndaş məmnuniyyətinə nail olunmasında mühüm rol oynamaqdadır.

Agentlik mərkəzi və ya yerli icra hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının, dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin (bundan sonra – dövlət qurumları) əməkdaşlarının fəaliyyətinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət qurumlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi, bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi həyata keçirilir [11].

Qeyd edək ki, ASAN Xidmətin tətbiqi nəticəsində, vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalması, vətəndaşlara münasibətdə etik qaydalara, nəzakətli davranışa əməl edilməsinə nail olunması; peşəkarlıq səviyyəsinin artırılması; şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi; elektron xidmətlərdən daha geniş istifadə olunması; bu sahədə aparılan institusional islahatların səmərəliliyinin artırılmasına nail olunmuşdur [12].

Dövlət idarəçiliyinin xidmət sektorunda həyata keçirilən mühüm və innovativ institusional tətbir olaraq ASAN Xidmət müxtəlif beynəlxalq səviyyələrdə də yüksək dəyərləndirilməkdədir. Belə ki, 2014-cü ildə qlobal miqyaslı konsaltinq və audit şirkəti olan “Pricewaterhouse Coopers” (PwC) tərəfindən dünyanın 18 iri şəhərində aparılmış “Dövlət və bələdiyyə xidmətlərinin göstərilməsi mərkəzinin müqayisəli təhlili” adlı araşdırmasına əsasən, dünyanın yalnız bir neçə şəhərində vətəndaşlar rahat şəkildə və vaxt itirmədən istədikləri sənədləri əldə edə bilirlər. Aparılan araşdırma zamanı sosial innovasiyaların operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik, etik davranış qaydalarına nəzarət və həmçinin dörd qiymətləndirmə meyarı (xidmətlərin əlyetərliliyi, rahatlıq, növbələrin idarə olunması, əks-əlaqə) nəzərə alınıb. “ASAN xidmət” dünyada ilk üçlüyə daxil olub [10].

Dövlət idarəçiliyinin xidmət sektorunda atılan mühüm institusional addımlar sırasında Azərbaycan Respublikasında dövlət strukturlarında və dövlət xidmətlərinin həyata keçirilməsində innovativ həllərin tətbiqi ilə bağlı dövlət siyasətinin tərkib hissəsi olaraq 14 mart 2018-ci il tarixdə Prezident İlham Əliyevin "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində “Elektron Hökumətin İnkişafı Mərkəzi” publik hüquqi şəxs yaradılması da qeyd olunmalıdır [5].

Xidmət sferasında məğulluq məsələləri də mühüm yer tutur və bu sahədə dövlət siyasətinin günün tələblərinə uyğun şəkildə qurulmasını zəruri edir. Bu mənada Prezident

İlham Əliyevin 9 avqust 2018-ci il tarixli "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanın xüsusi əhəmiyyəti vardır [6].

Fərmana əsasən yaradılan DOST Agentliyi və mərkəzləri ölkəmizdə məşğulluq, əmək, sosial müdafiə və təminat sahələrində idarəçilik və əhaliyə xidmətlər sisteminin innovativ əsaslar üzərində inkişafına, tam keyfiyyətli mərhələyə daxil edilməsinə hesablanıb. "DOST" mərkəzləri əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər aidiyyəti sahələrdə xidmətlərin "bir pəncərə" prinsipi üzrə təkmil və sistemli, sadələşdirilmiş, eyni zamanda, bir-biri ilə əlaqələndirilmiş şəkildə, tam şəffaf, operativ və vətəndaşlarla açıq iş şəraitində əhaliyə təqdim etməyə imkan verəcəkdir . "DOST" mərkəzinə müraciət edən vətəndaşın hansı sosial təminat növü ilə təmin edilmək hüququnun olub-olmadığı elektron məlumat bazalarında onunla bağlı məlumatların operativ araşdırılması nəticəsində dərhal müəyyənləşəcək.

Ölkədə əhalinin məşğulluq problemlərinin həll olunması, bu sahədə özünüinkişaf layihələrinə dəstək istiqamətində mühüm dövlət siyasəti həyata keçirilir. Bu siyasətinin həyata keçirilməsi məqsədilə dövlət tərəfindən innovativ layihə olan ABAD publik hüquqi şəxsi yaradılmışdır.

Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmət) tabeliyində olan "ABAD" publik hüquqi şəxs Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 23 sentyabr 2016-cı il tarixli Fərmanı ilə yaradılıb [4]. Fərmana əsasən, Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək vermək məqsədilə sosialyönümlü layihələr həyata keçirən "ABAD" (Ailə Biznesinə Asan Dəstək) mərkəzləri yaradılır.

Azərbaycanda vətəndaşların ən çox müraciət etdikləri xidmət sferalarından biri də əmlak məsələləri ilə bağlıdır. Bu sahədə xidmətlərin təkmilləşdirilməsi, vətəndaşlara yüksək səviyyəli xidmətin təşkili ölkədə dövlət idarəçiliyinin müasir tələblər səviyyəsində qurulması istiqamətində qarşıda duran mühüm məsələlərdən biri olmuşdur. Məhz bu sferada atılan mühüm innovativ addımlar xidmət sektorunda təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu mənada Əmlak Məsələləri Dövlət Komitəsinin yeni Əmlak Xidmətləri Məkanının istifadəyə verilməsi vacib institusional qərarlardan hesab edilməlidir.

Ümumiyyətlə dövlət idarəçiliyinin xidmət sektorunda islahatlarının aparılması üçün əsas amil yalnız davamlı iqtisadi inkişaf deyil, dövlət və yerli icra hakimiyyəti orqanlarının cəmiyyət qarşısında məsuliyyəti, dövlət, biznes və cəmiyyət arasında inamın yaradılması, onların arasında səlahiyyətləri məhdudlaşdırması və möhkəmləndirilməsi olmalıdır.[13, s.38] Hazırkı mərhələdə dövlət idarəetməsi sahəsində davam etdirilən islahatların əsas qayəsini vətəndaşların məmnunluğunun təmin edilməsi, insan faktorunun əsas götürüldüyü müasir idarəetmə modelinin formalaşdırılması təşkil edir. Qurulan yeni modeldə "dövlət qulluğu" anlayışı "cəmiyyətə, xalqa qulluq" mənasını ifadə edir, vətəndaşla məmur arasındakı münasibətlərdə yeni düşüncə tərzi formalaşdırılır. Əhaliyə dövlət xidmətlərinin istehlakçısı kimi, onun məmnunluq səviyyəsinə isə dövlət orqanlarının fəaliyyətinin qiymətləndirilməsi meyarı kimi yanaşılır.

**Ədəbiyyat:**

1. "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı"nın (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 11 avqust 2010-cu il.
2. "Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikasi Prezidentinin Fərmani. Bakı şəhəri, 23 may 2011-ci il.
3. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 13 iyul 2012-ci il.
4. "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 2016.
5. "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 14 mart 2018
6. "Dövlət orqanlarında (qurumlarında) daxili idarəetmə proseslərinin elektronlaşdırılması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 27 oktyabr 2018
7. "Azərbaycanda yaradılmış "ASAN xidmət" beynəlxalq şirkət tərəfindən yüksəkdəyərləndirilib".https://azertag.az/xeber/Azerbaycanda_yaradilmis_ASAN_xidmet_beynelxalq_sirket_terefinden_yuksek_deyerlendirilib-884112
8. Мартынова Е.И. Особенности формирования и развития общественного (государственного) сектора сферы услуг // Научное сообщество студентов : материалы IX Междунар. студенч. науч.–практ. конф. (Чебоксары, 31 мая 2016 г.). В 2 т. Т. 2 / редкол.: О.Н. Широков [и др.] – Чебоксары: ЦНС «Интерактив плюс», 2016. – С. 208.
9. Chesbrough H.Open Innovation: The New Imperative for Creating and Profiting from Technology. Harvard Business School Press, 2003.
10. www.e-gov.az/az/az/content/read/2
11. http://vxsida.gov.az/az/page/agentlik-haqqinda
12. https://asan.gov.az/az/about

***Açar sözlər:*** *Azərbaycan, dövlət idarəçiliyi, xidmət sektoru, vətəndaş, cəmiyyət, elektron hökumət*

**Khayyam Mammadov**
*PhD Candidate of the Academy of Public Administration under the President of the Republic of Azerbaija.*

## INNOVATIVE IMPROVEMENT OF THE SERVICE SECTOR IN PUBLIC ADMINISTRATION IN AZERBAIJAN

### SUMMARY

The research paper is devoted to the problem of improving the service sector. The paper examines appropriately the functions of the public administration as well as the quality of the service that are constantly updated and improved, in accordance with the requirements of the time, community development. It is also necessary to articulate the fact that the reforms being implemented in this area, applied innovations have vital importance for the society and citizens. Moreover, it considers that the changes in the public sector affect the political, social, economic and cultural life of the country. The paper identifies that the improvement policy in public administration, especially in the service sector, contributes to the further promotion of the social security and the standard of living of citizens. Nowadays, Azerbaijan is currently pursuing a consistent policy to improve the service sector of the public administration, especially for citizens.

***Key words:*** *Azerbaijan, public administration, service sector, citizen, society, e-government*

**Хайям Мамедов**
*Диссертант кафедры Государственная служба и кадровая политика Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ИННОВАЦИОННОЕ СОВЕРШЕНСТВОВАНИЕ СЕКТОРА УСЛУГ В ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ В АЗЕРБАЙДЖАНЕ

### РЕЗЮМЕ

Научная статья посвящена проблеме совершенствования сферы государственных услуг в Азербайджанской Республике. Отмечается, что функции государственного управления, качество услуг постоянно обновляются и совершенствуются в соответствии с требованиями времени и развития общества. Реформы, проводимые в этой области, применяемые инновации имеют жизненно важное значение для общества и граждан. Также изменения в государственном секторе оказывают влияние на политическую, социально-экономическую и культурную жизнь страны.Политика совершенствования государственного управления, особенно в сфере услуг, способствует дальнейшему улучшению социального обеспечения и уровня жизни граждан. Также обосновывается, что в настоящее время в Азербайджане проводится последовательная политика по улучшению сектора услуг в сфере государственного управления, особенно для граждан.

***Ключевые слова:*** *Азербайджан, государственное управление, сфера услуг, гражданин, общество, электронное правительство*

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ
## HİSTORY OF INTERNATIONAL RELATIONS

UOT 32:93/94

**ŞAİQ ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının dissertantı**
*e-mail: aliyev-ays@mail.ru*

# BEYNƏLXALQ NƏQLİYYAT VƏ LOGİSTİK LAYİHƏLƏRİN CƏNUBİ QAFQAZIN NƏQLİYYAT-KOMMUNİKASİYA SİSTEMİNİN İNKİŞAFINA TƏSİRİ

Dövlətlər arasında xarici iqtisadi əlaqələrin genişlənməsi beynəlxalq nəqliyyat sisteminin yaradılmasına, xüsusən də əsas tranzit yükdaşımaların həyata keçirildiyi beynəlxalq nəqliyyat koridorlarının yaranmasına və inkişaf etməsinə şərait yaratmışdır. Beynəlxalq ictimaiyyətin məqsədi rüsumları azaltmaq, logistik mərkəzlərində üstünlüklər və təkmilləşdirilmiş xidmət sektoru yaratmaq və yüklərin çatdırılma müddətini azaltmaqla nəqliyyat prosesini “asanlaşdırmaq”dır. Bununla yanaşı, qlobal nəqliyyat və logistika xidmətləri bazarında nəqliyyat və logistika şirkətləri ilə dövlətlərin nəqliyyat sistemləri arasında tranzit axınları üçün aktiv mübarizə gedir. Buna görə daxili nəqliyyat və logistika şirkətləri təkcə dəniz daşıyıcıları ilə deyil, həm də Orta Asiya ölkələrinin nəqliyyat dəhlizlərindən istifadə edən operatorlarla olduqca sərt rəqabət aparmalı olurlar. Çin və Avropa Birliyi arasında tranzit yük axınlarına xidmət göstərmək üçün Cənubi Qafqaz regionunun coğrafi yerləşməsi bu sahədə ciddi rəqabət aparan şirkətlərin maraq dairələrinə daxildir.

Məlum səbəblərdən Cənubi Qafqaz regionu Rusiya imperiyasının tərkibində yerləşdiyindən onilliklərlə dünya iqtisadi proseslərindən, o cümlədən tranzit və logistik layihələrdən kənar qalmışdır. SSRİ dağıldıqdan sonra uğursuz formada Cənubi Qafqaz dövlətlərində baş verən mürəkkəb iqtisadi və siyasi şəraitin mövcudluğu qlobal layihələrə qoşulma prosesini ləngitmişdir. Son 30 ildə sürətli şəkildə investisiyaların axını, regionda aparıcı dövlətə çevrilən Azərbaycan Respublikasının enerji resursları dünya dövlətlərinin maraqlanması, neft bazarında konyukturaya malik olması, regionda iqtisadi fəallıq və sahibkarlığın aktivləşməsi Cənubi Qafqazın əhəmiyyətini artırmışdır.

Qara dəniz və Xəzər dənizinə çıxışı olan, yeni müstəqillik qazanmış Cənubi Qafqaz dövlətlərinin xarici iqtisadi münasibətlərinin inkişafı üçün geniş imkanlar formalaşmağa başlamışdır. Beynəlxalq ticarətdə ən geniş yayılmış nəqliyyat növü dəniz nəqliyyatıdır. Nəqliyyatın bu növü beynəlxalq yükdaşımalarının təxminən 65%-ni təmin edir. Bu baxımdan region dövlətlərinin beynəlxalq nəqliyyat layihələrində iştirakı mühüm hesab olunur. Qeyd etmək lazımdır ki, daşımaların əsas növünü maye (duru) və qabsız yüklər, daha doğrusu dəniz daşımalarının həcminin təxminən 40%-ni təşkil edən yanacaq-xammal məhsulları təşkil edir. Yerdə qalan 60% isə əsas yüklərin (hazır sənaye malları, istehlak təminatlı əmtəələr, ərzaq) payına düşür.

Beynəlxalq daşımaların ümumi həcminin təxminən 15-17%-i dəmiryolu nəqliyyatının üzərinə düşür. O, bir qayda olaraq qurudaxili daşımalar üçün istifadə olunur. Son 30-40 ildə dəniz nəqliyyatına ciddi rəqib kimi hava nəqliyyatı meydana çıxmışdır. Yerdəyişmələrdə olan sürətə görə avia nəqliyyatın üstünlüyünü nəzərə alsaq, o, beynəlxalq sərnişin

daşımalarında liderdir. Sürətli, geniş gövdəli təyyarələrin tətbiqi ilə daşıma qabiliyyəti kifayət qədər yüksəlmişdir. Yalnız 1985-2005-ci illərdə beynəlxalq hava əlaqələrində daşımaların həcmi iki dəfədən çox artmışdır. Hal hazırda maya dəyərinə görə nəqliyyatın bu növü ən bahalılardan biridir. Ona görə də, ümumdünya yükdaşımalarının ümumi həcmində onun payı 6%-i güclə ötür (3, s.35).

Bir çox Avropa və Asiya dövlətləri beynəlxalq nəqliyyat dəhlizlərinin öz ərazilərində olmasına çalışırlar. Regionun iri dövlətləri Rusiya, İran və Türkiyə də bu sahədə böyük addımlar atmaqdadır. Xarici əmtəənin region bazarlarına daxil olma həcmi artmaqdadır. Eyni zamanda Cənubi Qafqaz dövlətlərində istehsal olunan məhsulun rəqabət qabiliyyətinin aşağı səviyyədə olması da bu sahənin inkişafı üçün şərait yaradır.

1998-ci ildə Bakıda keçirilən tarixi İpək Yolunun Bərpası Konfransının keçirilməsi, Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi üzərində beynəlxalq layihələrlə əlaqədar olaraq çoxtərəfli razılaşmanın olması Cənubi Qafqazda nəqliyyat kommunikasiya layihələrinin perspektivdə daha da fəal olması üçün geniş şərait yaratmışdır. TRASECA, Cənub Qaz dəhlizi, Şimal Qaz dəhlizi, Yeni İpək yolu layihəsi, Bakı Beynəlxalq Limanı, Porti Gürcüstan Beynəlxalq limanı və bir çox layihələr regionun perspektivdə siyasi və iqtisadi inkişafını təmin edə biləcək layihələrdir. TRASECA nəqliyyat dəhlizinin region üçün əhəmiyyəti aşagıdakılardır:

- Avropada, Qara dəniz regionunda, Qafqazda, Xəzər regionunda və Asiyada iqtisadi əlaqələrin, ticarət və nəqliyyat əlaqələrinin inkişafına kömək edir.
- Beynəlxalq yol, dəmir yolu və dəniz yoluna çıxışı təmin edir.
- Yol hərəkəti təhlükəsizliyi, yükün əhəmiyyəti və ətraf mühitin mühafizəsinə nəzarəti təmin edir.
- nəqliyyat sahəsində nəqliyyat siyasətini və hüquqi strukturunu uyğunlaşdırır.
- nəqliyyat əməliyyatları arasında bərabər rəqabət yaradır.

TRASECA dəmir yolu, dəniz, yol və hava nəqliyyatını əhatə edən çox modlu nəqliyyat dəhlizini əhatə edir. Bu, regionda ticarət və nəqliyyatın yaxşılaşdırılması və Orta Asiya və Qafqaz ölkələrinin bu nəqliyyat dəhlizi ilə Avropa və dünya bazarlarına çıxma ehtimalını artırır.

İpək Yolu layihəsi çərçivəsində dünya iqtisadiyyatında müxtəlif nəqliyyat şəbəkələri inkişaf etdirilməklə Trans-Avropanın nəqliyyat şəbəkələri və TRASECA kimi layihələr başa çatdıqda xarici ticarətin həcminin üç dəfə artacağı, dövlətlərin yerli məhsulların xarici ölkələrdə rəqabət qabiliyyətini artacağı nəzərdə tutulmuşdu.

Region üçün digər beynəlxalq nəqliyyat layihəsi - Bakı-Ələt beynəlxalq limanın tikilişi Azərbaycan Respublikasının bu sahədə rəqabətlilik qabiliyyətini daha da artırmışdır. 2011-ci ilin fevral ayında beynəlxalq logistik mərkəzin verdiyi hesabatda Cənubi Qafqazın beynəlxalq nəqliyyat infrastrukturunun inkişafındakı fəaliyyəti və inkişafı haqqında geniş məlumat verilmişdir (18).

TRASECA Beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində digər bir layihə, Cənubi Qafqazda salınmış yeni dəmir yolu xətti - Bakı-Tiflis-Qars dəmir yolu xətti tikilişi də regionun nəqliyyat sektorunun inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi, Azərbaycan, Türkiyə və Gürcüstanın ölkə başçılarının birgə təşəbbüsüdür. Layihənin həyata keçirilməsi ilə birlikdə Avropa ilə Türkiyəni, Uzaq Şərq və Cənubi Qafqazla əlaqələndirəcək fasiləsiz bir dəmir yolu şəbəkəsi qurulması gözlənilir. Cənubi Qafqazın geosiyasi əhəmiyyətinə töhfə verən ən böyük amillərdən biri onun enerji resurslarıdır. Regionda bu sahədə lider olan və əlverişli coğrafi şəraitdə yerləşən Azərbaycan Respublikasının enerji resurslarının tranziti üçün

beynəlxalq nəqliyyat və logistik layihələrin reallaşdırması mühümdür.

2015-ci ildə OPEK tərəfindən açıqlanan məlumatları nəzərə alaraq 201 trilyon kubmetr (966 milyard dollarla qiymətləndirilən) dünya üzrə təsdiqlənmiş təbii qaz ixracatı həyata keçirilmişdir. Bu təbii qaz ehtiyatlarının regionlara görə bölgüsünə nəzər salsaq, hesabatda Yaxın Şərq ərazisi satışların lideri olaraq göstərilir. İraq, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri ilə 79 trilyon kubmetr (430 milyard dollar ) ümumi təsdiq edilmiş təbii qaz ehtiyatı həmin regionun payına düşür. Tək başına Orta Şərq, demək olar ki, dünyanın təsdiqlənmiş təbii qaz ehtiyatlarının təxminən 40% -ni təşkil edir. Ölkələr arasında 2015-ci ildə təbii qaz ehtiyatlarının təxminən 50 trilyon kubmetrinin Rusiyanın payına düşdüyü göstərilir (13, s.68).

Ümumiyyətlə, 2020-ci ilə qədər TEN-T layihələri baxımından 30 layihə tamamlanması planlaşdırılır. Bunlar əsasən aşağıdakılardır:

- Berlin-Verona / Milan-Bologna-Naples-Messina-Palermo dəmir yolu xətti;
- Paris-Brüssel-Köln-Amsterdam-London sürətli dəmir yolu xətti;
- Cənub-Qərbi Avropa sürətli dəmir yolu xətti;
- Şərq sürətli dəmir yolu xətti (12);

Yuxarıda adı çəkilən layihələrin həyata keçirilməsi texnologiyası, nəqliyyat və logistik əlaqələrin inkişafına və dövlətlərarası sərhədlərin aradan qaldıran bir fenomen olaraq təsirini göstərir. Bu prosesləri iqtisadi baxımından qloballaşma proseslərlə uyğunlaşmaq vacibdir.

Birləşmiş Millətlər Təşkilatının UNECE və UNESCAP komissiyaları 2002-ci ildə Avro-Asiya Nəqliyyat Əlaqələri (EATL) adlı layihə hazırlamışlar (13) UNECE və UNESCAP-ın Avropa-Asiya nəqliyyat layihəsi 4 əhəmiyyətli dəhliz müəyyən etmişdir:

1. Şərqi Avropa (Pan-Avropa dəhlizləri 4, 7, 8, 9) - Qara dəniz-Qafqaz-Xəzər dənizi-Orta Asiya

2. Cənub Koridor: Cənub-Şərqi Avropa (Pan-Avropa 4 nömrəli dəhliz) -Türkiyə-İran və İrandakı qollar:

- a. Mərkəzi Asiya-Çin
- b. Cənubi Asiya-Cənub-Şərqi Asiya / Cənubi Çin

3. Şimal-Cənub Dəhlizi: Şimali Avropa (Pan-Avropa No.9 dəhlizi) –

4. Rusiya Federasiyası və onun filialları:

- a. Qafqaz-Fars körfəzi
- b. Orta Asiya-Fars körfəzi (12).

Beynəlxalq tranzit layihələrin həyata keçirlməsində bir sıra çətinliklər ortaya çıxır. Bu çətinliklər regionda mövcud geostrateji proseslərdən irəli gəlir. Yaxın Şərqdə geosiyasi gərginliyin getdikcə daha da yüksəlməsi, Avropada maliyyə böhranının davam etməsi, İran məsələsinin aktuallığını saxlaması və Cənubi Qafqazda münaqişələrin həll edilməməsi kifayət qədər düşündürücü vəziyyət yaratmışdır. Bunların fonunda böyük dövlətlərin regionla bağlı atdığı addımlar yeni geosiyasi məqamların meydana çıxmaqda olduğunu təsdiqləyir.

22 iyul 2013-cü ildə İranla Çin arasında imzalanmış yeni saziş maraq doğurur. Pekində İranın daxili işlər naziri Mustafa Məhəmməd Nəccarla Çin ictimai təhlükəsizlik naziri Qo Şenkun iki ölkənin təhlükəsizlik sahəsində əməkdaşlıq etməsi barədə razılığa gəliblər. Ekspertlər hesab edirlər ki, burada söhbət daha çox Avrasiya məkanında əməkdaşlıqdan gedir (1).

Burada bir cəhəti vurğulamaq lazımdır. İran və Çin geosiyasi aspektdə Rusiyanın müttəfiqləridirlər. Ancaq Cənubi Qafqazda heç də bütün məsələlər üzrə onların mövqeləri üst-üstə düşmür. Moskva regiondakı ənənəvi nüfuzunu saxlamaq üçün Tehran və Pekinlə də mübarizə aparmalı olur. Xüsusilə, müsəlman ölkəsi olan İranın bölgədə təsirinin artmasından Kreml çəkinir. Məsələn, İran Tacikistana bir neçə ay əvvəl Rusiyanın geosiyasi nüfuz dairəsindən çıxmağı təklif edib. Əvəzində, onun təhlükəsizliyinə təminat verdiyini bildirib. Eyni zamanda, Moskva dini radikalizmin yüksəlməsi nəticəsində ölkə daxilində separatizmin güclənməsindən ehtiyatlanır. Hələlik Moskva

Tehranın həmin istiqamətdəki fəaliyyətini müəyyən sərhədlər daxilində saxlaya bilir. Onu da deyək ki, rəsmi Tehran Kremlin ona S-300 zenit-raket kompleksini satmaqdan imtina etməsindən inciyib. Bunlara görə, Cənubi Qafqazda Rusiya ilə İran arasında müəyyən fikir ayrılığı ortaya çıxıb (22, s.99).

Moskvanın Pekinlə geosiyasi əməkdaşlığı, əsasən, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində baş verir. Burada iki ölkə arasında nüfuz uğrunda gizli mübarizə gedir. Həmin kontekstdə Mərkəzi Asiya və Cənubi Qafqazda da liderlik iddiaları özünü göstərir. Rusiya Çinin güclü maliyyə və iqtisadi potensialının onu ənənəvi nüfuz məkanlarından sıxışdırması ehtimalının olduğunu göz önünə alır. Şübhə yoxdur ki, bütün bunlara görə, Kreml Pekinlə Tehran arasında təhlükəsizliklə bağlı əməkdaşlığın gedişini diqqətlə izləyəcək.

Ekspertlər bu gedişatdan belə nəticə əldə edirlər ki, Cənubi Qafqazda yeni geosiyasi konfiqurasiya yarana bilər. Doğrudur, belə bir qənaətə gəlmək müəyyən dərəcədə tələsik nəticə çıxarmaq demək olardı. Lakin hadisələrin bu istiqamətdə inkişaf edəcəyini istisna etmək üçün də elə bir əsas yoxdur. Üstəlik, Cənubi Qafqaza başqa böyük dövlətlərin təsiri getdikcə artır. Həmin kontekstdə bir neçə məqam üzərində dayanmağa ehtiyac vardır.

Regionda nəqliyyat dəhlizlərinin mövcudluğu və inkişafında Türkiyənin iştirakını xüsusi olaraq qeyd etmək lazımdır. Belə ki, əlverişli coğrafi şərait olmaqla yanaşı boğazlara sahib olan Türkiyənin İpək Yolu və Avropa Nəqliyyat şəbəkələri layihələrində tranzit bir keçid mərkəzi olduğu görülməkdədir. Nəqliyyat dəhlizlərinin Türkiyədən keçməsi, xarici ticarətin artmasına və regionun iqtisadiyyatına müsbət təsir göstərməsinə gətirib çıxarır. Xüsusilə, iki qitənin əlaqə nöqtəsini meydana gətirən Türkiyənin, belə bir vəziyyətdə əldə edəcəyi strateji mövqeyi, ölkəyə Avropa Birliyi üzvlüyü, ya da bunun kimi inteqrsiya əhəmiyyətli bir güc qazandıracaq.

Orta Asiya, Xəzər-Qara dəniz hövzəsinin və Cənubi Qafqazın dünyaya açılan nəqliyyat-kommunikasiya sistemində ən mühüm həlqələrdən birini Azərbaycan Respublikası təşkil edir. Azərbaycanın dəniz, avtomobil yolları və dəmir yolu nəqliyyatı müstəqillik illərində ciddi yenidənqurmaya məruz qalmış və demək olar ki, əksər xarici ölkələrlə bu respublikanı bağlayan nəqliyyat-tranzit infrastrukturları yenidən qurulmuş, və yaxud təzəsi ilə əvəzlənmişdir. Hazırda Azərbaycanı Gürcüstan və Qara dənizlə birləşdirən Bakı-Tbilisi avtomobil və dəmir yolu, Bakı-Astara dəmir və avtomobil yolu, Bakı-Biləsuvar və Naxçıvan-Culfa avtomobil, dəmir yolu, Türkiyə ilə Gürcüstan vasitəsi ilə mövcud avtomobil yolu və Bakı-Tbilisi-Qars dəmir yolu, Orta Asiya ilə Azərbaycanı birləşdirən Bakı-Türkmənistan, Bakı-Qazaxıstan bərə daşımaçılığı, Abşeron logistik mərkəzi və s. bu ölkəyə imkan verir ki, Avropa ilə Asiya arasındakı nəqliyyat-kommunikasiya əlaqələrində öz strateji mövqeyini qoruyub saxlasın və davam etdirsin. Avropa İttifaqının xətti ilə 1993-cü ildən reallaşdırılan TRASECA layihəsinin mərkəzinin Azərbaycan olması da məhz onun bu əlaqələrdə oynadığı rol və malik olduğu mərkəzi mövqe ilə bağlıdır (12).

Azərbaycan geosiyasi və geoiqtisadi anlamda Şərq-Qərb, Şimal-Cənub nəqliyyat, kommunikasiya və tranzit-keçid əlaqələrinin mərkəzində yerləşir, beynəlxalq "açar", transmilli "körpü-bağlayıcı" mövqeyinə malikdir (5, s.245). Əvvəla, Azərbaycan Gürcüstanla birlikdə Cənubi Qafqazın, Rusiya, Qazaxıstan və İranla birlikdə isə Xəzər hövzəsinin əsas tranzit infrastrukturlarına sahibdir. Bu da öz növbəsində ölkənin nəqliyyat-yol və ötürücü-keçid infrastrukturlarını müəyyən standartlara salmağı tələb edir. İkincisi, əhəmiyyətli coğrafi ərazi xarakteristikasına, beynəlxalq nəqliyyat-tranzit imkanlarına malik olması ona inkişaf üçün ciddi geosiyasi və geoiqtisadi üstünlüklər qazandırmaqla yanaşı,

nəqliyyat siyasətinin təmin edilməsində özünə məxsus problemlər də yaradır.

Azərbaycanın qoşulduğu və yaxından iştirak etdiyi Transavrasiya, Traseca, Transqafqaz, Şimal-Cənub beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi s. transmilli layihələr geosiyasi, geoiqtisadi və nəqliyyat-tranzit əlaqələrinin genişlənməsindəki roluna görə ölkənin milli maraqlarının təmin edilməsi sahəsində mühüm əhəmiyyətə malikdir (6, s.334). Azərbaycan üçün geosiyasi və geoiqtisadi cəhətdən ciddi transmilli nəqliyyat-dəhliz əhəmiyyəti kəsb edən layihələrdən biri TRASECA hesab olunur. Bir çox dünya və region dövlətləri, Avropa İttifaqı ölkələri və beynəlxalq təşkilatlarla müştərək geoiqtisadi layih ələrə qatılaraq, Şərqlə Qərbi birləşdirən qədim "İpək Yolu"nun üzərində qurulan bu transmilli layihədə onun iştirakı xüsusi regional əhəmiyyət daşıyır. Bu layihə Azərbaycanın Avropa ilə öz strateji geoiqtisadi əlaqəsi qurmaq üçün mühüm layihədir (5, s.335). 1993-cü ilin may ayında 8 postsovet respublikasının (Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan və Ermənistan) iştirakı ilə Brüssel şəhərində Avropa Komissiyasının TRASECA proqramının yaradılmasına dair konfrans keçirilmişdir ki, bunun da əsas təşəbbüskarları Azərbaycan və Gürcüstan olmuşdur. Konfransın yekunlarına əsasən, TRASECA nəqliyyat-kommunikasiya proqramının əsası qoyulmuş və iştirakçı dövlət rəhbərlərinin imzaladığı "Brüssel Bəyannaməsi" qəbul edilmişdir. Ötən illər ərzində TRASECA proqramı çərçivəsində Azərbaycanın yaxından iştirakı ilə "Nəqliyyatın idarə edilməsinin treninqi", "Nəqliyyatın hüquqi və tənzimləyici çərçivəsi", "TRASECA nəqliyyat dəhlizində vahid tarif siyasətinin tətbiqi", "Sərhəd-keçid qaydalarının sadələşdirilməsi", "Qafqaz dəmir yollarının bərpası" və onlarla digər texniki yardım və investisiya layihələri həyata keçirilmişdir. Keçən müddətdə çərçivəsində çoxtərəfli sazişin şərtlərinin həyata keçirilməsi məqsədi ilə Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafı istiqamətində mühüm işlər görülmüşdür.

Azərbaycan mühüm geosiyasi, geostrateji və geoiqtisadi əhəmiyyət kəsb edən bu Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin, demək olar ki, lokomotivi hesab olunur. Onun maliyyə dəstəyi nəticəsində həm Türkiyə sərhədindən Gürcüstana, həm də Gürcüstandan Azərbaycan sərhədinə qədər tikilməsi və modernləşdirilməsi nəzərdə tutulan dəmiryol layihəsi artıq reallaşmağa başlayıb. Yaranan maliyyə problemləri də birbaşa Azərbaycanın köməyi ilə həll olunmuşdur. Məsələn, Azərbaycan dəmir yolunun Gürcüstandan keçən hissəsinin tikintisinə 220 milyon ABŞ dolları həcmində kredit ayırıb. İllik 1 faizlə 25 il müddətinə verilən bu krediti Gürcüstan dəmir yolu işə düşəndən sonra özünün tranzit gəlirləri hesabına ödəyəcək. Bakı-Tbilisi-Qars dəmir yolu xətti üzrə beynəlxalq layihənin həyata keçirilməsi və Bosfor boğazında sualtı dəmir yolu keçidinin inşası Transavropa və Transasiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini, yük və sərnişinlərin birbaşa olaraq Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çıxarılmasını təmin etməyi nəzərdə tutur. Bu layihə Azərbaycanın dövlət müstəqilliyi və iqtisadi suverenliyinin möhkəmlənməsinə, xarici iqtisadi əlaqələrinin genişlənməsinə xidmət etməklə yanaşı, həm də region ölkələrinin tranzit potensialının artmasına, Avropaya inteqrasiya proseslərinin sürətlənməsinə, Avropa Qonşuluq Siyasəti çərçivəsində regional geoiqtisadi əməkdaşlığın inkişafına xidmət etməlidir. Layihənin həyata keçirilməsi iqtisadi səmərəlilik, sürət və vaxt tezliyi, təhlükəsizlik və etibarlılıq baxımından da böyük əhəmiyyətə malikdir. Gələcəkdə Avropa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmir yolu vasitəsi ilə ən yaxın marşrutla, daha sərfəli

qiymətlərlə, qısa zaman çərçivəsində hər iki istiqamətdə daşınması və s. imkanlar transmilli intermodal və konteyner daşımalarının həcmini artıracaqdır.

Strateji yol xəritələrində 2020-ci ilədək region üzrə tranzit ticarət həcmini artıraraq Azərbaycanın aşağıdakı göstəricilərə müvafiq pay əldə etməsi hədəflənmişdir:

- Orta Asiya və Qara dəniz marşrutu üzrə 40 faiz;
- Orta Asiya və Avropa marşrutu üzrə 25 faiz;
- Çin və Avropa marşrutu üzrə 3 faiz;
- Rusiya və İran marşrutu üzrə 40 faiz;
- İran və Qara dəniz marşrutu üzrə 25 faiz (8).

Gələcəkdə Şimal-Cənub və Bakı-Tbilisi-Qars nəqliyyat dəhlizlərinin inteqrasiyası nəzərdə tutulur. Azərbaycan hər iki layihədə fəal iştirakçıdır. Bundan Azərbaycanla yanaşı, Gürcüstan, Türkiyə, Avropa ölkələri, Çin, Qazaxıstan və digər Orta Asiya respublikaları istifadə edəcəklər (8).

2019-cu il yanvarın 22-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi Çinin trilyon dollarlıq baxışı" mövzusunda sessiya keçirmişdir.(3) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanımı Mehriban Əliyeva sessiyada iştirak ediblər. Sessiyanın gedişi zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edərək Azərbaycanın coğrafi vəziyyətindən faydalanaraq əsasən infrastruktura, yəni, daxili infrastruktura və Azərbaycanın beynəlxalq məqsədlərdən birinə çevrilməsinə imkan verəcək infrastruktura sərmayə yatırmağa çalışıldığını qeyd etmişdir. Prezident öz çıxışında yolların, magistralların, hava limanlarının tikintisi, qazlaşdırmanın aparılması, elektrik enerjisinin generasiyası üçün ölkə daxilində infrastruktura sərmayə yatırımının əhəmiyyətindən danışmışdı. Nəqliyyat infrastrukturuna da sərmayə yatırımının xüsusi olaraq qeyd edən Prezident, Azərbaycana yüklərin Şərqdən Qərbə, Şimaldan Cənuba və Cənubdan Şimala nəqlinə imkan verəcəyini də qeyd etmişdi. Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizi təşəbbüsünün fəal üzvü olması onun regionda xüsusi rolunu daha da artırır. Son zamanlarda aktual olan və Çin hökumətinin tez-tez səsləndiridyi "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəklədiyini xüsusi olaraq qeyd edir. Azərbaycan özündən şimalda və cənubda yerləşən ölkələrə bu layihəyə qoşulmaq üçün imkanlar yaradır. Azərbaycan həm Şərq-Qərb və həm də Şimal-Cənub nəqliyyat dəhlizlərinin üzvü olan yeganə ölkədir (9, s.2). Bu sahədə Azərbaycan Respublikasında dövlət dəstəyi ilə dəmir yolu sistemlərimizin müasirləşdirilməsi, Xəzərin sahilində 25 milyon tona qədər yük daşımaq gücündə olan ən böyük dəniz limanının tikintisi, Avropa və Asiya arasında çatışmayan bağlantının yaradılması ilə bizi Türkiyə və Avropa ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun inşası və digər iri həcmli işlər görülmüşdür. Bu layihələrin həyata keçirilməsi nəticəsində yükdaşımaların həcminin artması da müşahidə olunur. Belə ki, yalnız Şimal-Cənub dəhlizi vasitəsilə keçən il ondan əvvəlki illə müqayisədə on dəfə çox yük daşınıb.

Dünya Bankının ən son "Doing Business" hesabatına əsasən Azərbaycan dünya üzrə 35-ci pillədədir və mövqeyimizi rekord göstərici olan 32 pillə yaxşılaşdırmışıq. Biz Dünya Bankının bu proqramında on ən çox islahatçı ölkələr arasındayıq (9, s.2).

Dörd ölkə ilə həmsərhəd (Gürcüstan, İran, Türkiyə və Azərbaycan) olan Cənubi Qafqazın başqa bir dövləti Ermənistanın nəqliyyat sahəsində inkişafına mane olan məsələ apardığı işğalçı siyasəti olmuşdur. Dünya ticari və beynəlxalq nəqliyyat layihələrinə İran yalnız Gürcüstan vasitəsilə (Poti limanı, Batumi) həyata keçirir. Bu liman vasitəsilə də dəmir yolu və avtomobil yolu ilə əlaqələri formalaşdırır. İrəvan –Poti dəmir yol xəttinin uzunluğu 687 km , avtomobil yolu isə 2750 km

təşkil edir. 1993-cü ildən Türkiyə ilə sərhədlərin bağlanması Ermənistanın nəqliyyat sektorunun inkişafına mənfi təsir göstərir. Regionda bütün beynəlxalq nəqliyyat və logistik layihələrin əsas iştirakçıları olan Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti ilə sərhədlərin bağlı olduğu bir vaxtda İran və Gürcüstanla münasibətlərinin daha da möhkəmləndirməsi həyati məsələdir (20, s.84).

"Azad Ticarət Zonası yaxın gələcəkdə beynəlxalq yükdaşıma və Avropa-Asiya logistika zəncirlərində aparıcı rol oynamaqla yanaşı, həm də yerli istehsalın təşviqi, "Made in Azerbaijan" brendinin dünya üzrə tanınmasına müstəsna xidmət göstərəcəkdir." (9, s.5). Bu fikirləri tarix elmləri doktoru, professor Əli Həsənov "Şərq-Qərb", "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri və Azərbaycanın geoiqtisadi maraqları" adlı elmi məqaləsində vurğulayıb.

Ancaq bunlar Ermənistanın dəqiq geosiyasi mövqeyə malik olduğunu ifadə etmir. Erməni analitiklərin özləri etiraf edirlər ki, "...rəsmi İrəvan dağınıq geosiyasi mövqe nümayiş etdirir" (21, s.25). Reallıqda rəsmi İrəvan regiona güclü təsir etməkdə olan Rusiya, ABŞ və Avropa İttifaqına özünün regionda önəmli olduğunu göstərməyə çalışır. Özlüyündə belə bir mövqe Cənubi Qafqazda ciddi geosiyasi risklər meydana gətirir. Çünki böyük dövlətlərin bölgədəki maraqları ilə süni surətdə oynamaq həmişə təhlükə mənbəyidir.

Həmin kontekstdə son vaxtlar Rusiya-ABŞ-İran "geosiyasi üçbucağı"nda baş verən bir sıra proseslərə nəzər salaq. Moskva və Tehran Qazaxıstana bəzi iradlar bildirirlər. Onlar Əfqanıstandan çıxarılan Amerika hərbi sursatının Aktau limanı vasitəsi ilə Cənubi Qafqaza daşınmasında strateji məqsəd görürlər.

Mərkəzi Asiya, Qafqaz və Yaxın Şərqdə təhlükəsizlik məsələləri üzrə ixtisaslaşmış tədqiqatçı-jurnalist Coşua Kuçera vurğulayır ki, Rusiyanın Orta Asiyadakı strateji önəmli dövlətlərdən biri olan Qazaxıstanla münasibətləri zəifləyə bilər (21). Moskva ilə Tehranın Xəzərdə hərbi təlimlər keçirmək haqqında razılığa gəlmələri arxasında da məhz bu məqam durur. Hadisələrin bu cür gedişi Cənubi Qafqazda yeni səviyyədə geosiyasi qarşıdurmalara gətirib çıxara bilər. Mümkündür ki, həmin aspektdə Rusiya-Çin-İran geosiyasi "üçbucağı" meydana gəlsin.

Bunların fonunda Türkiyədə baş verən hadisələrin Cənubi Qafqaza təsiri son dərəcə düşündürücü görünür. Konkret desək, bəzi dairələr bundan istifadə edib, regionda geosiyasi balansı dəyişmək niyyətinə düşə bilərlər. Bu tendensiya bütövlükdə Cənubi Qafqaz üçün təhlükə mənbəyidir.

Görünür, bu mərhələdə bir çox məqamlar Gürcüstanın geosiyasi seçimindən asılı olacaqdır. Rəsmi Tbilisi Moskva ilə əlaqələri inkişaf etdirməkdə tam maraqlı olduğunu bir daha vurğulayıb. Baş nazir Bidzina İvanişvili Almaniyanın "Deutsche Welle" ("Alman dalğası") radiosuna verdiyi müsahibədə deyib ki, Rusiya ilə əməkdaşlığı dərinləşdirməkdə maraqlıdır (14). Gürcüstan buna nail olsa, regionda Rusiyanın mövqeyi daha da möhkəmlənəcək. O halda Ermənistanın hansı geosiyasi xəttə üstünlük verəcəyi məlumdur. İrəvan Moskvadan daha çox təminat almaqla Qərbdən imtina edə bilər.

**Ədəbiyyat:**


1. Adıgözəlov Kamal. Cənubi Qafqaz: yeni geosiyasi oyunlar və konfiqurasiyalar. http://newtimes.az/az/politics/1968/ (26.01.2020)
2. Nəqliyyat haqqında Azərbaycan Respublikasının Qanunu; Azərbaycan Respublikasının Nəqliyyat Sektorunun İnkişafı Strategiyası //http://www.mot.gov.az
3. Prezident İlham Əliyev Davosda "Bir kəmər, bir yol" təşəbbüsünün inkişaf etdirilməsi: Çinin trilyon dollarlıq baxışı" adlı sessiyada iştirak edib. http://xalqqazeti.com/az/news/13865
4. Bədəlov Ə.M., Ağayev A.M., Tağızadə S.J. "dünya iqtisadiyyatı" Bakı, 2005. S. 35
5. Əli Həsənov Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti, Bakı 2016, s.245
6. Əli Həsənov "Geosiyasət" Bakı -2010, 601, s.335
7. BAKI-TBİLİSİ-QARSAzərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV(Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında giriş nitqindən. 10 yanvar 2018-ci il)https://ady.az/az/read/index/1/43
8. "Şərq-Qərb", "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri və Azərbaycanın geoiqtisadi maraqları". Əli Həsənov. Xalq qəzeti . 25 sentyabr 2019-cu il, s.5.
9. "Dəniz" qəzeti , 25 yanvar 2019-cu il № 5-8 (9287) səh 2
10. Dünyada kanitlanmış doqalqaz reservleri. 93 http://enerjienstitusu.com/2016/07/05/dunyada-kanitlanmis-dogalgaz-rezervlerinin-en-fazla-bulundugubolge-ortadogu/ (15.08.2017) (götürülüb 07 may, 2019
11. Putin əcnəbi KİV-lərə "xarici agent" statusu verən qanunu imzaladı – Siyahıya kimlər düşür?https://www.mia.az/w269749/...
12. Doç. Dr. Beyhan İNCEKARAAsya ve Avrupa arasındaki ulaştırma koridorları ve dünya ekonomisi için önemi https://www.dunyabulteni.net/dubam-dogu-asya/asya-ve-avrupa-arasindaki-ulastirma-koridorlari-ve-dunya-ekonomisi-h426871.html (götürülüb,28 mart, 2019)
13. Hasan Yılmaz, "Irak'ta Muhalefet ve ABD'nin Irak Politikası", Avrasya Dosyası, Cilt: 6, Sayı: 3, 2003, s. 68-69.
14. Future EU transport infrastructure policy to focus on TEN-T corridors
15. http://www.railwaygazette.com/news/policy/single-view/view/eu-transport-infrastructure-policy-to-focus-on-ten-t-corridors.html (götürülüb,16 mart, 2019)
16. Mirotin L.B. Transport logistics. Textbook, Moscow: Exam, 2002. 511 s
17. Nikiforov V.S. Multimodal transport and transport logistics. Textbook, Moscow: Translit, 2007. 324 s.
18. Trade Logistics improving in developing countries, but more needs to be done Global Rankings 2011https://lpi.worldbank.org/international/global/2011
19. Международные центры логистики для Западных стран ННГ и Кавказа в Армении, Азербайджане, Грузии, Молдове, Украине Заключительный отчет – Приложение 5 Технико-экономическое обоснование отобранных проектов Азербайджан: МЛЦ в новом Бакинском морском торговом порту в п.Алят Февраль 2011.
20. Ашот Егизарян. Армения : Основы транзита для страны не имеющией выхода к морю. Центральная Азия и Кавказ. Том 17 выпуск 4, 2014. S. 84

21. Сусанна Петросян. Нечеткость геополитических ориентиров Армении // "Вестник Кавказа", 8 iyul 2013

22. Джошуа Кучера. Россия и Иран проведут совместные военно-морские учения на Каспии // "EurasiaNet" 3 iyul 2013

***Açar sözlər:*** *dünya iqtisadiyyatı, logistika, beynəlxalq layihələr, Cənubi Qafqaz, ticari əlaqələr.*

**Shaig Aliyev**
*PhD candidate, the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## AN IMPACT OF INTERNATIONAL TRANSPORT AND LOGISTICS PROJECTS ON THE DEVELOPMENT OF THE TRANSPORT COMMUNICATION SYSTEM IN THE SOUTH CAUCASUS

### SUMMARY

Nowadays, with the expanding of international trade, commodity circulation and also the trade-economic relations between the countries play a substantial role. The paper considers that the transport expenditures, thus which play a significant role among the public expenses carried out by the countries. However, it plays an essential role in terms of the contribution of the profit from the transport revenues to the national economy, accordingly. The income from the various transport networks in the Silk Road Project, Trans-European transport networks and TRASECA have a significant impact on the economy of the South Caucasus. The principal aim of this paper is that the international transport projects and logistics are the one of the essential areas of the economic processes in the modern world. The paper emphasizes the location of the South Caucasus between the East and West as well as the development of the transit routes. Meanwhile, the paper presents the facts that analyse the transport sector, which has a significant impact on the development of political and economic processes in the region.

***Key words:*** *world economy, logistics, international projects, South Caucasus, trade unions*

**Шаиг Алиев**
*Диссертант кафедры Истории Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## ВЛИЯНИЕ МЕЖДУНАРОДНЫХ ТРАНСПОРТНЫХ И ЛОГИСТИЧЕСКИХ ПРОЕКТОВ НА РАЗВИТИЕ ТРАНСПОРТНО-КОММУНИКАЦИОННОЙ СИСТЕМЫ ЮЖНОГО КАВКАЗА

### РЕЗЮМЕ

Сегодня с распространением международной торговли товарооборот и торгово-экономические отношения между странами играют важную роль. Транспортные расходы, занимающие значительную роль среди государственных расходов, осуществляемых странами, играют также важную роль с точки зрения вклада прибыли от транспортных доходов в национальную экономику. Доход от различных транспортных сетей в рамках проекта Шелкового пути, а также трансевропейских транспортных сетей и ТРАСЕКА оказывает значительное влияние на экономику Южного Кавказа.

Основную тему статьи составляют международные транспортные проекты и логистика, являющиеся одной из основных областей экономических процессов в современном мире. Здесь особо подчеркивается расположение Южного Кавказа между Востоком и Западом и развитие транзитных маршрутов. Автор представляет факты и анализирует транспортный сектор, который оказывает существенное влияние на развитие политических и экономических процессов в регионе.

***Ключевые слова:*** *мировая экономика, логистика, международные проекты, Южный Кавказ, торговые отношения*

# SOSİAL VƏ PEDAQOJİ PSİXOLOGİYA
# SOCIAL AND PEDAGOGICAL PSYCHOLOGY

UOT 348.35

**ФАРАХ АДИГЕЗАЛОВА**
**Докторант кафедры Социальная и педагогическая психология**
**Бакинского Государственного Университета**
*e-mail: farahadi@mail.ru*

## МЕТОДИКИ, ПРИМЕНЯЕМЫЕ ДЛЯ ЭКСПЕРИМЕНТАЛЬНОГО ИССЛЕДОВАНИЯ ЖИЗНЕННЫХ ПЕРСПЕКТИВ ЛИЧНОСТИ

Жизненный путь – это особенный, динамический единый процесс. При исследованиях пути этот процесс обособлялся посредством временных категорий будущего, прошлого и настоящего. А конкретно биографический масштаб психологического времени в полной мере воплощается через соотношения жизненного пути и самого индивида.

Работы таких психологов, как В.Г.Осеева, Я.Д.Ларентьева, В.И.Ковалева, А.А.Кроника, И.С.Лысенко, А.Б.Ордова, Т.Котле, К.Левина и др. посвящены изучению структуры психологического времени. Также ими была рассмотрена жизненная перспектива в роли элемента жизненного пути человека. Все эти исследователи объясняли жизненную перспективу с точки зрения концепций собственных разработок, или же развивая подходы предшественников, а также отмечая главные цели и роли этого феномена в психологии.

Существует три категории психологического времени – настоящее, будущее и прошлое. Исследовав разнообразные работы и концепции к осознанию проблемы жизненного пути в психологии (а также психологического времени), А.А.Кроник отмечает еще три масштаба психологического времени:

1. Биографический – этот масштаб контролируется в целом самим временем жизни, а также тем, как человек ощущает ее продолжительность. Возникает взаимосвязь между всеми тремя категориями времени, а потому встает вопрос и об индивидуальном времени самого субъекта. Индивидуальное время нельзя отождествлять с формальным течением. Если брать контекст психологической науки, то это – индивидуальное время, переданное через ощущения.
2. Исторический – человек начинает переживать и ощущать те ситуации, которые имели место до его появления, а также все то, что произойдет после окончания его жизненного пути
3. Ситуативный – реализуется непринужденное ощущение и восприятие недлительных промежутков времени [4].

Е.Л. Головаха основывала свои идеи на исследованиях С.Л.Рубинштейна, Н.А.Логиновой и прочих психологов, которые вычленяли события в качестве элементарных аспектов жизненного пути, и создала концепцию причинности и цели в сфере жизненного пути человека. С другой стороны, эти же исследователи замечали, что важным является не столько исследования ситуаций по отдельности, а их взаимовлияния и связи друг с другом, а также их роль на жизнь человека в целом. Ведь у разных людей похожие ситуации несут различную жизненную ценность. Исследователи полагают, что различные

жизненные ситуации могут быть по отношению друг к другу как следствием, так и причиной, или же средством и целью. Главной характеристикой индивидуального образа жизненного пути становятся именно такие целевые и причинные взаимоотношения между различными аспектами индивидуальной схемы между жизненными ситуациями [3]. Как отмечал А.А. Кроник, субъективная картина жизненного пути - это «психический образ, отражающий социально обусловленные пространственно - временные характеристики жизненного пути (прошлого, настоящего и будущего), его этапы, события и их взаимосвязи» [4,с. 149]. По мнению исследователя, подобный образ исполняет в течению долгого времени роль регулятора жизненного пути субъекта с жизнью значимых для самого субъекта людей. И среди всего многообразия субъективных и объективных аспектов, которые детерминирует настоящий жизненный путь субъекта, именно образ жизненного пути личности, по мнению А.А.Кроника и Е.И.Головахи, занимает главенствующую роль. И психологическое время индивида становится динамичным осознанием и ощущением индивидуальной картины жизненного пути, а межситуационная связь «причина-следствие» и «цель-средство» становятся элементом измерения психологического времени человека[3].

Существует особый тип связи в причинно-целевой гипотезе, с помощью которого устраняется проблема отношения и связи прошлого, настоящего и будущего. Это реализованные связи – соединение событий произошедшего в жизненном пути. И их общность определяет сущность психологического прошлого. Существуют и актуальные связи, которые являются элементами психологического настоящего. Их осуществление уже началось, и они организуют взаимосвязь между прошлым и будущем временем. Третий тип связей называется потенциальными связями, их реализация еще не была совершена, она планируется, и она также будет скреплять планируемые ситуации хронологического будущего. Проблема психологического возраста человека становится предметом изучения А.А.Кроника и Е.И.Головахи. Они рассматривали ее в рамках субъективных особенностей психологического времени человека. У человека имеется собственное отношение к возрасту, и насколько он соотносится или не соотносится с хронологическим. И на этом уровне возникает уникальный возрастной срез, который называется психологическим возрастом. Это все происходим в биографическом масштабе, соответствущий хронологическим связям между главными ситуациями в жизни человека. Отношение психологических категорий времени в индивидуальном образе жизненного пути определяет уровень осуществления психологического времени. Человек ощущает свой «внутренний возраст» и для него он выделяется от хронологического, природного и общественного возрастов. А.А.Кроник и Е.И.Головаха в своих работах отдельно отмечают, что психологический возраст стоит включать при создании возрастных этапов жизненного пути зрелой личности и учитывать все виды вышеперечисленных возрастов для создания фаз и периодов развития человека [4;5].

Биографический жизненный кризис человека можно опознать по мнению Е.И.Головахи с помощью показателя, насколько настоящий возраст человека соответствует психологическому. А.А.Кроник добавлял, что так же можно выявить и адекватность формирования личности человека. Именно несовпадение ожиданий индивида о его настоящем, будущем и прошлом, а также уровень этих несоответствий помогают выявить биографические кризисы жизненного пути [4;5].

Р.А.Ахмеров, будучи последователем концепции отношения биологического возраста с психологическим, считал, что главный симптом подобных биографических кризисов – это потеря смысла жизни, а также неспособность человека реализовать себя. Подобные коллапсы воспринимаются исследователями как результат искажения индивидуального образа жизненного пути человека [ 3].

Все вышеперечисленные авторы выделяют различные типы биографического кризиса, а именно:

1) Кризис опустошенности – наступает, когда по разным причинам актуальность имеющихся связей, которые соединяют прошлое, настоящее и будущее, слишком слабо обозначаются. При этом, человек может уже быть в полной мере самореализованным, иметь большое количество жизненных достижений, но при этом он слабо мотивирован ставить перед собой новые задачи и строить конкретные планы.

2) При кризисе бесперспективности взаимосвязь между планами о будущем, целями и мечтами слабо осознается. Лучший способ обозначить подобный кризис можно словами «дальше будет лишь хуже». Вроде бы все имеется для реализации своих жизненных перспектив, он деятелен и активен, но при этом найти тот путь, с помощью которого он сможет совершенствовать различные области жизнедеятельности. Не получается самоопределяться.

3) Кризис нереализованности – между ситуациями в жизни связь определяется слабо. Психологический возраст уступает биологическому. Причем может и значительно. У индивида снижается самооценка, все его предыдущие достижения перестают представлять ценность для него самого. А все то, что происходило в прошлом перестает быть важным и полезным с позиции нынешнего времени или грядущих планов [3].

4) При утрате же смысла кризис демонстрирует, что биологический возраст может существенно отставать от хронологического (Р.А.Ахмеров и А.А.Кроник) [3;5].

Существуют три типа связей между событиями – это реализованные, актуальные, а также потенциальные. По мнению авторов, только если представлены все существующие виды взаимосвязи, индивидуальную картину пути позволено считать сбалансированной. Потому что в такой ситуаций, если индивид захочет обратиться к любому моменту своей жизни из любой временной категории, он всегда найдет там что-то важное и исключительное для себя. Все, что не случалось бы в его жизни, начинает обрастать смыслом. Исследователи полагают, что существование гармонии в жизненном путь, показывает, что у него были заслуги и успешные результаты деятельности в прошлом, что он динамичен и постоянно действует для реализации планов в настоящем, а также что у него имеются адекватные ожидания и надежды на свое будущее [ 8].

Когда личность сталкивается с кризисными, опасными для психологического здоровья ситуациями, при наличии огромного стресса, все это может привести к возникновению вышеперечисленных биографических кризисов. Большое количество исследований связаны с именами О.С.Гуровой, Т.Чи Зунгом, Л.Н.Юровой и другими психологами, исследовавшими проблемы искажения образа жизненного пути. Происходит трансформация хронологической ориентации человека. И это искажение образа пути отрицательно влияет на психическое здоровье индивида, его психологическую самореализацию, а также на регулирование жизненного времени [ 2].

П.П.Горностай, развивая результаты исследований Е.И.Головахи, Е.И.Ахмерова и А.А.Кроника, а также прочих исследователей, опиравшихся на гипотезу об

индивидуальном времени, привел в качестве примера различные варианты искажения хронологических и ценностных ориентаций человека, пережившего кризисные события, ставшими поворотными моментами в жизни. Все эти искажения в ценностях касаются трех главнейших областей жизненного времени: «В силу жизненных обстоятельств в каждой из этих сфер могут происходить нарушения ценностно-временных отношений». Подобные нарушения есть ничто иное, как потенциальный когнитивный диссонанс, который может касаться любого промежутка времени, а именно:

1) Фрустрация настоящего – разрушена связь между ретроспективой (прошлыми событиями) и перспективой (планируемыми).

2) Фрустрация прошлого – человек переживает, что он прожил жизнь абсолютно бесполезно. Разрушились хронологические ретроспективы человека и произошла деструкция ценностей, которые когда-то выражали смысл жизни человека.

3) Фрустрация будущего – деструкция перспектив человека. Происходит когда человек не способен реализовать желаемое, либо возникли непреодолимые препятствия на пути реализации. Например, утрата заработка или же серьезная болезнь привели к возникновению критического положения [5].

Индивидуальное формирование личности и ее жизненного пути происходит во всех типах времени – как в природном, объективном, так и субъективном, психологическом. Потому анализ психологических исследований демонстрирует отсутствие сомнений во взаимной связи вышеперечисленных категорий. Потому теоретически можно избежать имеющихся различий в работах сторонников системного подхода, а также разработках, основанных на их идеях, в сфере изучения жизненного пути.

Жизненный путь стоит изучать в рамках его системности и комплексности. Он включает в себя большое количество связанных аспектов и элементов, которые объективно отражают трансформации личности в течение всей ее жизни, а также действия и результаты творческой деятельности. Кроме того, отражаются и субъективные проявления контроля человека самого жизненного процесса, например осознание жизненных событий, ценности жизни, ее смысл, а также рефлексия. Отдельно в субъективных проявлениях стоит отметить время жизни, которое проходя сквозь сознание человека занимает существенное место и становится в рамках биографического масштаба психологическим временем.

Комплексность психологического времени отражается в большом количестве уровней. Три масштаба – биографический, отражающий субъективную картину жизненного пути, исторический и ситуативный отражаются в этой структуре и становятся ее элементами. Кроме того, биографический масштаб это часть структуры жизненного пути. Все вышеперечисленные системы пересекаются в определенной точке. Там же и возникают термины временной транспективы и перспективы, которые становятся частями индивидуального образа жизненного пути. Наиболее близкое понятие, отражающее это пересечение можно выразить словами «как человек рассматривает свое прошлое и будущее в момент настоящего».

В результате анализа представленных работ можно сделать вывод о том, что практически все авторы, использующие термины «субъективная картина жизненного пути», «временная трансспектива», «временная перспектива», выделяют в их структуре психологическое прошлое, психологическое настоящее и психологическое будущее. В рамках этого исследования мы будет внимательно изучать и обследовать

психологического будущее человека, в рамках «жизненная перспектива», «будущая временная перспектива», «индивидуальные представления о будущем».

Перспектива будущего индивида имеет существенно важную функцию - помочь человеку организовать свою деятельность, а также контролировать собственное время. По мнению К.А.Абульхановой, когда мы рассматриваем определение психологического будущего стоит выделить три типа перспектив. Жизненная, психологическая и личностная сильно отличаются друг от друга, и их стоить выделять обособлено. Личностная перспектива помогает человеку становиться зрелым, учится организовывать образ жизни. Индивид психологически может воспринимать свое будущее сквозь призму настоящего, развивает свой потенциал. Общность условий среды, а также различных обстоятельств формирует жизненную перспективу. Тот человек, у кого гармоничные связи с другими индивида, у кого есть опора в жизненном пути, тот сможет оптимально продвигаться на всем жизненном пути. При этом эти отношения должны иметь «возрастающую ценность». В зависимости от типа индивида, меняется и психологическая перспектива. Она ответственна за умение анализировать и предвидеть свое будущее [1].

В своей гипотезе жизненного пути К.Л.Абульханова соотносит ее с понятием жизненной перспективы. Это потенциал, умения человека, которые естественно обобщаются в нынешнем времени и реализуются в грядущем [2].

Время жизни способно организоваться само, как и деятельность человека. Современные психологи отмечают необходимость исследования перспектив в жизни человека, учитывая данное знание, в рамках целостного смыслового аспекта.

По результатам исследований работ В.Ф. Серенковой необходимо уделить внимание изучению планирования будущего, а также таких его аспектов, как действенность, временность и ценностность в своем единстве [3].

По словам П.П. Платонова «Жизненная перспектива – это образ желанной и осознаваемой как возможной своей будущей жизни при условии достижения определенных целей» [7, с.24]. Впрочем, нельзя утверждать, что перспектива всегда входит в сферу желаний. Иногда это ожидание чего-либо страшного, что создаст стрессогенную ситуацию. Мы не планируем события наподобие горя утраты или же постоянных неудач. Но рационально принимаем возможность появления оных, тем самым заранее готовясь к негативным последствиям подобных событий. Единая картина будущего – комплексная. В ней содержится много противоречий, образуемых от связи с предвосхищаемыми ситуациям. В сознании человека всегда должны быть инструменты преодоления результатов и последствий от негативных явлений. Если подобных не будет, постепенно жизнь теряет позитивную функцию урегулирования. Поведение же приобретает дезорганизованность.

Жизненная перспектива, как считает А.И.Епифанцева, может проявить в деятельности человека свою двоякую природу. Она может создавать мотив этой деятельности, создавая внутренний образ, который будет значим лично для человека. А также она – стимул, становясь экстернальной целью [2].

Карандышев отмечает, что понимание мотивов, которые приведут к будушему, дает человеку стимульный толчок. Это позволяет индивиду выбрать нужный путь в ходе трудного решения вопреки стимулам, побуждаемым ситуацией. Жизненная перспектива начинает организовывать деятельность человека [3].

Жизненные перспективы, согласно концепции Е.И.Головахи становятся предметом исследования, если речь идет о будущем. То

есть, если речь идет о протяженном масштабном образе его жизненного пути, как утверждал А.А.Кроник. Будущая временная перспектива способна отразить умение человека действовать в актуальном виде, при этом предвосхищая грядущие последствия своей деятельности. Кроме того она созревает условия координации ценностей индивида, его планов и перспектив [4].

Объектом нашего исследования является изучение жизненных перспектив различных возрастных групп. В своем исследовании мы планируем проведение следующих методик.

1. Морфологический тест жизненных ценностей (МТЖЦ)

Методика «Морфологический тест жизненных ценностей» является анкетой и насчитывает 112 утверждений. Испытуемым предлагается оценить утверждения по следующей схеме:

Ответы заносятся в бланк теста. Полученные данные суммируются в таблицу-дешифратор в соответствии с ключом. Общие баллы по шкалам в соответствии с нормами переводятся в стены. Полученные результаты в стенах заносятся в таблицу-профиль.

Приоритетными ценностями и жизненными сферами считаются те, оценки по которым расположены в диапазоне 8 – 10 стенов, а девальвированным ценностям и жизненным сферам относятся те из них, оценки по которым попадают в диапазон 1 – 3 стена.

2. Тест индекс жизненной удовлетворенности (ИЖУ), адаптация Н. В. Паниной. Опросник общего психологического состояния человека.

Опросник, диагностирующий индекс жизненной удовлетворенности, отражает общее психологическое состояние человека, степень его психологического комфорта и социально-психологической адаптированности. Тест измеряет наиболее общее психологическое состояние человека, определяемое его личностными особенностями, системой отношений к различным сторонам своей жизни. Индекс жизненной удовлетворенности - интегративный показатель, включающий в качестве основного носителя эмоциональную составляющую. Для обладателей высокого значения индекса характерны низкий уровень эмоциональной напряженности, высокая эмоциональная устойчивость, низкий уровень тревожности, психологический комфорт, высокий уровень удовлетворенности ситуацией и своей ролью в ней.

3. Тест смысложизненные ориентации (методика СЖО), Д.А.Леонтьева.

Тест позволяет оценить "источник" смысла жизни, который может быть найден человеком либо в будущем (цели), либо в настоящем (процесс) или прошлом (результат), либо во всех трех составляющих жизни.

Тест СЖО является адаптированной версией теста “Цель в жизни” (Purpose-in-Life Test , PIL) Джеймса Крамбо и Леонарда Махолика. Методика была разработана на основе теории стремления к смыслу и логотерапии Виктора Франкла и преследовала цель эмпирической валидизации ряда представлений из этой теории.

Тест СЖО содержит 20 пар противоположных утверждений, отражающих представление о факторах осмысленности жизни личности.

В тесте СЖО жизнь считается осмысленной при наличии целей, удовлетворении, получаемом при их достижении и уверенности в собственной способности ставить перед собой цели, выбирать задачи из наличных, и добиваться результатов. Важным является ясное соотнесение целей – с будущим, эмоциональной насыщенности – с настоящим, удовлетворения – с достигнутым результатом, прошлым.

Ситуация предоставляет каждому человеку возможность сделать в настоящем определенный выбор в виде поступка, действия или бездействия. Основой такого выбора является сформированное представление о смысле жизни или его отсутствии. Совокупность осуществленных, актуализированных выборов формирует "прошлое", которое неизменно, вариациям подвержены лишь его интерпретации. "Будущее" есть совокупность потенциальных, ожидаемых результатов усилий, предпринимаемых в настоящем, в этой связи будущее принципиально открыто, а различные варианты ожидаемого будущего имеют разную мотивирующую притягательность.

Полученные результаты исследования будут опубликованы в последующих публикациях.

**Литература:**


1. Абульханова-Славская К.А. Жизненные перспективы личности // Психология личности и образ жизни / Под ред. Е.В.Шороховой. - М.: Наука, 2017.С. 149-151.
2. Абульханова-Славская К.А., Брушлинский А.В. Философско- психологический смысл концепции С.Л. Рубинштейна. -М.: Изд-во МГУ, 2009. -287 с.
3. Ахмеров Р.А. Опыт формирования будущей временной перспективы // Конфликт в конструктивной психологии. - Красноярск, 2000. - С. 84-88.
4. Головаха Е.И. Жизненные перспективы и профессиональное самоопределение молодежи. - Киев: Наукова думка, 2008. - 144 с.
5. Головаха Е.И., Кроник А.А. Психологическое время: путешествие в «давно» и «не скоро» // Популярная психология: Хрестоматия / Сост.В.Мироннко. -М.: Педагогика, 2000. - С. 247-253.
6. Кроник А.А., Кроник Е.А. Психология человеческих отношений. — Дубна: Феникс, 2008. - 224 с.
7. Платонов К.К. Структура и развитие личности. М., 2006.
8. Психология человека от рождения до смерти: Полный курс психологии развития / Под ред. Л.Л. Реана. - СПб.: Еврознак, 2001. - 682 с.
9. Рубинштейн СЛ. Человек и мир. - СПб.: Питер, 2002. - 678 с.
10. Mayer N. The male mid-life crisis. - N. Y., 2012. - P. 91-109.


***Ключевые слова:*** *жизненный путь; жизненная перспектива; настоящее, будущее и прошлое; жизненный кризис*

**Fərəh Adıgözəlova**
*Bakı Dövlət Universitetinin*
*Sosial və Pedaqoji Psixologiya kafedrasının doktorantı*

## ŞƏXSİYYƏTİN HƏYAT PERSPEKTİVLƏRİNİN EKSPERİMENTAL ÖYRƏNİLMƏSİ ÜÇÜN İSTİFADƏ OLUNAN METODİKALAR

### XÜLASƏ

Məqalədə şəxsiyyətin həyat perspektivlərinin öyrənilməsində istifadə olunan metodikalardan bəhs edilir. Burada şəxsiyyətin həyat yolu və həyat perspektivi anlayışının mahiyyəti təhlil olunur. Eksperimental tədqiqatın aparılması üçün 3 metodikadan istifadə olunur: həyat dəyərlərinin morfoloji testi; həyatından məmnunluq indeksi testi; həyat mənasını istiqamətləndirmə testi. Göstərilən metodikalar sayəsində insanın ümumi psixoloji durumu, onun psixoloji komfortu və sosial-psixoloji uyğunlaşma dərəcəsini, habelə tapa biləcəyi həyatının mənası "mənbəyi" müəyyənləşdirilir.

***Açar sözlər:*** *həyat yolu; həyat perspektivi; indiki zaman,keçmiş və gələcək;həyat krizisi*

**Farah Adigezalova**
*PhD Candidate of the Department of Social and*
*Pedagogical Psychology, Baku State University*

## THE METHODS USED FOR THE EXPERIMENTAL STUDY OF A HUMAN LIFE PROSPECTS

### SUMMARY

The principal of this paper is to study of techniques used in the academic work of a human life prospects. The analysis provided within this paper clearly demonstrates an essence of the concept of the human path life and the life prospective, accordingly. Furthermore, the paper determines a conduction an experimental study, herewith 3 methods are used: Morphological test of the life values; Test life satisfaction index; Life meaning orientation test. Concurrently, owing to the aforementioned methods, it identifies the general psychological state of a person, the degree of his psychological comfort and the socio-psychological adaptation, as well as the "source" of the life meaning that can be found by the person.

***Key words:*** *path life, life perspective, present, future and past, life crisis*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

### *Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbinin ilk mühazirəsi dinlənilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) fəaliyyət göstərən Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbində 2019/2020-ci tədris ilində bakalavriat pilləsinə qəbul olunan birinci kurs tələbələri ilk mühazirələrini dinləyiblər.

İlk mühazirəni təqdim edən akademiyanın rektoru, akademik Urxan Ələkbərov Heydər Əliyev Dövlət İdarəçiliyi Məktəbi haqqında məlumat verib. O qeyd edib ki, məktəb Ümummilli lider, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin siyasi irsinin, azərbaycançılıq məfkurəsi və dövlətçilik fəlsəfəsinin təbliği məqsədilə yaradılıb. Rektor görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən bəhs edib, Ulu öndərin siyasi xəttinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Bildirib ki, müstəqilliyinin bərpasından 28 il keçməsinə baxmayaraq, Azərbaycan Respublikası uğurla inkişaf edir və tarixi baxımdan çox qısa zaman kəsiyində ölkə dövlət quruculuğunun bütün sahələrində diqqətəlayiq tərəqqiyə nail olub.

Urxan Ələkbərov qazanılan uğurların əsasında Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dərin düşünülmüş innovativ inkişaf siyasətinin dayandığını vurğulayıb. Rektor, eyni zamanda, diqqətə çatdırıb ki, ölkədə bütün istiqamətlərdə nailiyyətlərin qazanılmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın önəmli rolu var. Akademik vurğulayıb ki, əslində daha az vəsaitlərlə yüksək göstəricilərə nail olunması dövlət inkişafı proseslərinin idarə edilməsində Prezident İlham Əliyev tərəfindən işlənmiş innovativ sinergetik, komplimentar və kompensasion texnologiyalar kompleksinin tətbiqinin nəticəsidir. Həmin texnologiyalar ölkənin



hərtərəfli inkişafı və əhalinin rifahının yüksəlməsi üçün iqtisadi imkanlardan səmərəli istifadəni təmin edib. Bu təcrübənin Dünya İqtisadi Forumunun hesabatında xüsusi təhlil predmetinə çevrilməsi onun qlobal əhəmiyyətinin göstəricisidir.

Mühazirədə ölkə iqtisadiyyatının sürətli inkişafı istiqamətində aparılan uğurlu siyasətin əsas hədəfləri, eləcə də davamlı inklüziv inkişafı xarakterizə edən göstəricilər müqayisəli şəkildə tələbələrin diqqətinə çatdırılıb. Azərbaycanın bir çox istiqamətlərdə regional və qlobal liderə çevrildiyini qeyd edən rektor ölkəmizin inkişaf göstəricilərinin bir çox beynəlxalq təşkilatlar, o cümlədən BMT, YUNESKO, Dünya Bankı və digər nüfuzlu qurumların rəsmi sənədlərində, müstəqil ekspertlər tərəfindən hazırlanmış hesabatlarda təsdiqini tapdığını bildirib.

Respublikamızın "Böyük yeddilik" ölkələri ilə müqayisədə nəzərəçarpan inkişaf göstəricilərini diqqətə çatdıran akademik deyib ki, bu mühüm iqtisadi nailiyyətlər Ermənistanla münaqişə və torpaqlarımızın 20 faizinin işğalı fonunda qazanılıb. Ölkəmizin bu problemləri olmasaydı, qazanılacaq uğurların miqyası daha böyük ola bilərdi.

Sonda tələbələrin sualları cavablandırılıb.

## *"Kulturologiya və insan inkişafı" monoqrafiyası çapdan çıxmışdır*

"Kulturologiya və insan inkişafı" (Bakı: «OL NPTK», 2019) monoqrafiyası çapdan çıxmışdır. Kitabın müəllifi – Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasnın Tarix kafedrasının professoru, «Simurq» Azərbaycan mədəniyyət Assosiasiyasının Prezidenti, tarix elmləri doktoru, kulturoloq Fuad Məmmədovdır.

Monoqrafiyanın elmi redaktoru – AMEA-nın akademiki Nizami Cəfərov, elmi rəyçilər – AMEA-nın müxbir üzvü, professor Rəna Məmmədova-Sarabskaya, Azərbaycan xalq şairi, porofessor Nəriman Həsənzadə, fəlsəfə elmləri doktoru, professor Mübariz Süleymanlıdır.

Kitab Azərbaycan Respublikasının Prezidenti yanında GHT-lərə Dövlət dəstəyi Şurasının qərarı ilə, Azərbaycan mədəniyyət Assosiasiaysı və "Simurq" Kulturologiya mərkəzi tərəfindən uğurla həyata keçirilmiş "Kulturologiya və davamlı inkişaf" layihəsi çərçivəsində nəşr olunur. Əsər "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının rəyasət heyəti və ekspert-məşvərət şurası tərəfindən ali məktəblər üçün dərs vəsaiti və şəxsiyyətin kamilləşməsi üçün əldə rəhbər kimi tövsiyə edilmişdir.

Monoqrafiyanın əsas vəzifəsi – Azərbaycanın milli maraqlarına cavab verən, davamlı, təhlükəsiz və rəqabətədözümlü inkişafı təmin edə biləcək, mütəxəssislərin, o cümlədən, müəllimlərin, məmurların, jurnalistlərin fasiləsiz kulturoloji yenidən hazırlanması, əhalinin maarifləndirilməsi, vətəndaşların, şəxsiyyətlərin və liderlərin peşəkar və mənəvi kamilləşməsinə kömək göstərməkdən ibarətdir.

Sistemli yanaşma əsasında hazırlanmış və kitabda əks olunmuş universal kulturoloji biliklər, ideyalar, formul və metodlar, mədəniyyətin mahiyyəti, xüsusiyyətləri, qanunauyğunluqları, texnologiyaları və dəyişdirici imkanlarının düzgün dərk olunmasına imkan verir. Daimi dialektik dəyişikliklər və qeyri-müəyyənliklər şəraitində, mütərəqqi sosial-mədəni transformasiyaların effektiv idarəolunması üçün bu biliklər əvəzolunmaz əhəmiyyət kəsb edir.

Müəllif tərəfindən, rəqabətədözümlü insan kapitalının, beynəlxalq münasibətlər mədəniyyətinin, multikulturalizmin, mədəniyyətlərin dialoqunun effektivliyinin, insan həmrəyliyinin, rifahın və humanitar təhlükəsizliyin artırılmasının əsasını təşkil edən yüksək-mədəniyyətli insanların formalaşdırılmasının kulturoloji texnologiyaları açıqlanır.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tarix kafedrasının professoru Fuad Məmmədov Hindistanda Qlobal sammitdə iştirak etmişdir.***

26 sentyabrdan 7 oktyabra qədər tarix elmlər doktoru, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının professoru, "Simurq" Azərbaycan mədəniyyət Assosiasiyasının rəhbəri Fuad Məmmədov, ruhi mədəniyyətə həsr olunmuş "Mənəvi mədəniyyət - birlik, sülh və çiçəklənmə üçün" Hindistanın Radjastxan ştatının Abu Roud və Maunt Abu şəhərlərində keçirilən Qlobal sammitində iştirak etmişdir.

Ümumdünya Ruhani Universiteti BMT-də məsləhətçi orqan statusuna sahibdir, YUNESKO ilə aktiv iş birliyindədir. Onun ayrı-ayrı ölkələrdə insan inkişafına yönəldilmiş bir çox filialı, fərqli struktur şöbələri vardır. Onlardan Qlobal hospital, günəş enerjisi ilə işləyən Elektrostansiya və başqalarını qeyd etmək olar.

Sammitdə 3000 dən çox insan iştirak etmişdir. Görüşdə Braxma Kumaris universitetinin prezidenti Dadi Janki və bir çox rəhbərlərindən əlavə, Hindistanın vitse-prezidenti, Daxili İşlər naziri, Hindistan parlamentinin spikeri, və bir çox başqa rəsmi şəxslər, xarici alim və qonaqlar iştirak etmişdir.

Sammitdə "Simurq" AMA-nın fəxri nümayəndəsi, Rusiya Federasiyasının Xanto-Mansiysk şəhərinin vətəndaşı Teyfur Qeybətov uğurla çıxış etmişdir.

Fuad Məmmədov Azərbaycan mədəniyyət Assosiyasıyası "Simurq" adından "Ruhi mədəniyyət və insan həmrəyliyi" mözvusunda çıxış etmişdir.

Azərbaycanlı alim sammitə dəvətə görə Didi Santoşa təşəkkürlərini bildirib və Ümumdünya Ruhani universitetini dəyərləndirib. Sülh, əmin-amanlıq və davamlı inkişafa qoyduğu böyük əməyə görə Fuad Məmmədov, Universitetin prezidenti cənab Dadi Jankini beynəlxalq medal "Simurq" ilə təltif etmişdir.

F.T.Məmmədovun çıxışında harmonik inkişafın vacibliyinə, yüksək mədəniyyətə sahib insanların formalaşmasında humanitar təhlükəsizliyin insan inkişafının əsası olduğuna diqqət yetirmişdir. Belə yanaşma, vitse-prezidentin məqaləsində, rabitə və texnologiya nazirindən, Hindistanın Daxili İşlər nazirindən böyük dəstək almışdır.

Qlobal sammitdə Hindistanın vitse-prezidenti Şri Venkaya Nandu, rabitə və texnologiya rəhbəri Şri Ravi Şankar Prasad, Hindistan Məsləhət Federasiyasının spikeri Şri Om Birla, Hindistan Daxili İşlər naziri və digər fəxri qonaqlardan başqa, kulturologiyanın və Ruhi mədəniyyətin inkişafına verdiyi diqqət və müvəffəqiyyətlərinə görə Azərbaycan alimi, Ümumdünya Braxma Kumaris universitetin ən ali mükafatı "Cansız ilahi ruh" mükafatına layiq görülmüşdür.

Fuad Məmmədov, Teyfur Qeybətov və Rusiyadan gələn iştirakçıları Braxma Kumarisin baş katibi, Azərbaycandan gələn hörmətli qonaqlara ruhi həyatın filosofiyasına aid Braxma Kumarisin ən dəyərli monoqrafiyası təqdim edən cənab Nirvair qəbul etmişdir.

Ruhi mədəniyyətin və kulturologiyanın inkişafı, böyük mədəniyyətə sahib insanların formalaşması üzrə iş birliyi üçün müqavilə imzalanmışdır.

***Dövlət İdarəçilik Akademiyasında Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illiyi qeyd edilib***

Oktyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) ictimai fikrin böyük nümayəndələrindən biri, görkəmli publisist və tənqidçi, tanınmış hüquqşünas və şərqşünas alim Əhməd bəy Ağaoğlunun anadan olmasının 150 illik yubileyinə həsr edilmiş tədbir keçirilib.





Tədbirdə bu ali məktəbin rektoru, akademik Urxan Ələkbərov çıxış edərək Prezident İlham Əliyevin Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin keçirilməsi haqqında Sərəncamının əhəmiyyətini vurğulayıb.

Əhməd bəy Ağaoğlunun xidmətlərindən danışan rektor bildirib ki, o, daim milli mübarizə hərəkatının önündə olub. Onun bütün yazılarında, ideologiyasında sülh, əmin-amanlıq məfhumları xüsusi yer tutur.

Azərbaycanın Macarıstandakı səfiri, Əhməd bəy Ağaoğlu irsinin tədqiqatçısı Vilayət Quliyev böyük mütəfəkkirin həyat və fəaliyyətindən, apardığı milli mücadilənin müxtəlif istiqamətlərindən, onun bir alim, hüquqşünas, millət fədaisi olmasından söz

açıb. Qeyd edilib ki, Əhməd bəy Ağaoğlu milli oyanış hərəkatının daim ön sıralarında dayanan vətənpərvər şəxsiyyət, eyni zamanda, müsəlman Şərqində müasirləşmə siyasətinin ardıcıl tərəfdarı kimi tanınıb.

Professor Mübariz Süleymanlı, DİA-nın Siyasi idarəetmə fakültəsinin dekanı, professor Elçin Əhmədov, Tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova, Türkiyə səfirliyinin müşaviri İrfan Çiftçi və digər çıxış edənlər Əhməd bəy Ağaoğlunun ötən əsrin əvvəllərindən etibarən Azərbaycanda və onun hüdudlarından kənarda cərəyan edən mürəkkəb ictimai-siyasi proseslərdə fəal iştirak etdiyini, milli oyanış hərəkatının daim ön sıralarında dayanan vətənpərvər şəxsiyyət olduğunu söyləyiblər. Bildirilib ki, Əhməd bəy Ağaoğlunun ictimai problemləri mənəvi-əxlaqi aspektdə işıqlandıran, cəmiyyəti tərəqqiyə doğru yönəlməyə və qabaqcıl dünya mədəniyyətindən bəhrələnməklə yeniləşməyə çağıran dərin məzmunlu əsərləri Azərbaycan maarifçiliyinə mühüm töhfədir.

Çıxışlarda Əhməd bəy Ağaoğlu irsinin oxuculara çatdırılmasında Azərbaycanın Macarıstandakı səfiri, professor Vilayət Quliyevin araşdırmalarının müstəsna əhəmiyyəti vurğulanıb.

### *Dövlət İdarəçilik Akademiyasında “Avro 2020” Könüllülük Proqramı ilə bağlı görüş olub*

Futbol üzrə “Avro 2020”nin Bakı Olimpiya Stadionunda keçiriləcək 3 qrup oyunu, eləcə də 1/4 final mərhələsi qarşılaşması ilə əlaqədar yaradılmış Əməliyyat Qrupunun üzvləri tədbirə hazırlıq məqsədilə oktyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında tələbə və müəllim heyəti ilə görüş keçirib.

150-dən çox tələbənin iştirak etdiyi görüşdə Avropa çempionatının tarixi, maraqlı faktlarla yanaşı, Könüllülər Proqramının ötənilki uğurları, eləcə də “Avro 2020” ilə bağlı keçirilməsi planlaşdırılan tədbirlər haqda təqdimat nümayiş olunub.

Tədbirdə təşkilati və UEFA ilə əlaqələndirmə işlərindən məsuliyyətli olan AFFA nümayəndələri, “Avro 2020” Könüllülər Proqramının səfiri Taleh Yüzbəyov da iştirak ediblər.

Qonaqlar tələbələrin idman və qeyri-idman sahəsində lazımi təcrübə əldə etməsi, gənclərin asudə vaxtının səmərəli təşkili, onların irimiqyaslı və ölkə əhəmiyyətli tədbirlərlə bağlı texniki bilik və bacarıqlarının artırılması baxımından bu cür görüşlərin təşkilinin vacibliyindən danışıblar, həmçinin bir zamanlar könüllü olaraq qazandıqları təcrübəni və xatirələri tədbir iştirakçıları ilə bölüşüblər.

Könüllülər Proqramı nəinki tələbələr, həmçinin qitə əhəmiyyətli idman tədbirinin bir hissəsi olmaq istəyən hər kəsə açıq olacaq. Proqram çərçivəsində tələbələr üçün təşkilati məsələlərlə bağlı təlimlərin, təhsil-əyləncə kurslarının, xüsusi master-klassların və sair kimi tədbirlərin keçirilməsi planlaşdırılır.

Noyabrın 15-dək davam edəcək universitet kampaniyası paytaxtda fəaliyyət göstərən 21 təhsil ocağını əhatə edəcək.

Qeyd edək ki, “Avro 2020” Bakı Könüllülər Proqramına qeydiyyat noyabrın 29-da saat 23:59-da yekunlaşacaq.

### *DİA-da Dövlət Müstəqilliyi Gününə həsr olunan elmi-praktik konfrans*

Oktyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 18 oktyabr – Dövlət Müstəqilliyi Gününə həsr olunan elmi-praktik konfrans keçirilib.

Tədbirdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov ötən 28 il ərzində Azərbaycanda əldə edilən nailiyyətlərdən danışıb, ölkənin uğurlu inkişafı sayəsində dövlətçilik ənənələrimizin möhkəmləndiyini, iqtisadi və



siyasi gücümüzün artdığını bildirib. Qeyd edib ki, müstəqil Azərbaycan Respublikası bu gün hər bir soydaşımız üçün əsl qürur mənbəyinə çevrilib.

U.Ələkbərov vurğulayıb ki, müstəqilliyin ilk illərində Azərbaycan dərin siyasi, iqtisadi və sosial böhranla yanaşı, Ermənistanın hərbi təcavüzü, xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə siyasəti ilə üzləşib. Xalqımızın təkidli tələbi ilə Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və apardığı müdrik siyasət nəticəsində ölkəmiz parçalanma təhlükəsindən, vətəndaş müharibəsindən xilas edildi. Həmçinin ictimai-siyasi sabitlik bərqərar oldu və bütün sahələrdə uğurlu islahatların başlanmasına zəmin yaradıldı. Dövlət müstəqilliyinin ilk illərində "Müstəqilliyimiz dönməzdir, əbədidir" deyən Ümummilli liderin Azərbaycanın qüdrətli ölkəyə çevrilməsinə yönəlmiş müdrik siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Elmi-praktik konfransda Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Siyasi Araşdırmalar İnstitutunun direktoru, professor Elman Nəsirov çıxış edərək dövlət müstəqilliyimizin bərpası uğrunda gedən mübarizələrdən, əldə olunan uğurlardan bəhs edib. Professor müasir müstəqil dövlətimizin qurulmasında, möhkəmlənməsində və dünyada tanınmasında dahi rəhbər Heydər Əliyevin tarixi xidmətlərini vurğulayıb. Alim ölkəmizdə qazanılan nailiyyətlərin ulu öndər Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu deyib.

DİA-nın İnzibati idarəetmə fakültəsinin dekanı, professor Xatirə Hüseynova, Tarix kafedrasının professoru Musa Quliyev və digər çıxış edənlər 28 il əvvəl Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsini xalqımızın tarixində böyük hadisə kimi qiymətləndirib, ölkənin əldə etdiyi uğurlar barədə fikirlərini bölüşüblər.

### *"Gənclər sektorunun idarə edilməsi və gənclər siyasəti üzrə 1-ci Magistr proqramı"nın təqdimat mərasimi keçirilib*

Oktyabrın 17-də "Gənclər sektorunun idarə edilməsi və gənclər siyasəti üzrə 1-ci Magistr proqramı"nın təqdimat mərasimi keçirilib. Proqram BMT-nin Uşaq Fondu (UNİSEF), Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti

yanında Dövlət İdarəçilik Akademiyasının dəstəyi ilə tərtib edilib.

Tədbirdə Gənclər və İdman naziri Azad Rəhimov bildirib ki, "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda son illər edilmiş dəyişikliklərə əsasən bu sahədə kadr hazırlanması və əlavə təhsilin təmin olunması ilə əlaqədar müvafiq işlər görülüb. Hazırda həyata keçirilən "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramında bu məsələ öz əksini tapıb.

Nazir deyib ki, ölkə əhalisinin təqribi yarısının 29 yaşına qədər olduğunu nəzərə alsaq, gənclər siyasəti sahəsində və gənclərlə birbaşa işləyən mütəxəssislərin hazırlanması olduqca vacib məsələdir. Bizim təşəbbüsümüzü dəstəkləyən BMT-nin Uşaq Fondu bu layihəyə beynəlxalq ekspertləri cəlb edib, gənclər siyasəti və menecmenti sahəsində mütəxəssislər üçün magistr proqramı hazırlamağa başlayıb. Bu işdə əsas tərəfdaşımız Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası olub.

Beynəlxalq ekspertlərin layihədə əməyini yüksək qiymətləndirən nazir deyib: "Ekspertlər qismində Estoniyanın Tallinn Dövlət Universitetinin mütəxəssisləri cəlb olunub. Onlar bu sahədə bir neçə ölkənin qabaqcıl təcrübəsini nəzərdən keçirərək bizim 6 ali təhsil ocağının müəllim və mütəxəssisləri ilə birgə Azərbaycan üçün uyğunlaşdırılmış tədris proqramı hazırlayıblar. Sevindirici haldır ki, layihənin ikinci mərhələsində - növbəti iki il ərzində Tallinn Dövlət Universitetinin köməyi və UNİSEF-in dəstəyi ilə Azərbaycan və Estoniya arasında "Gənclərlə iş" ixtisası üzrə müəllim mübadiləsi aparılacaq. Əminəm ki, növbəti illərdə hamımız bu proqramın faydasını görəcək və gənclərlə işin daha mütəşəkkil şəkildə həyata keçirilməsinin şahidi olacağıq".

UNİSEF-in ölkəmizdəki nümayəndəliyinin rəhbəri Edvard Karvardin qeyd edib ki, magistr proqramı tərtib olunarkən gənclərlə iş üzrə təxminən 500 mütəxəssisin rəyi nəzərə alınıb. 2018-2019-cu illərdə altı ali təhsil müəssisəsi – Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Universiteti və Gəncə Dövlət Universiteti bu proqramın tətbiqinə başlayıb. Proqram ixtisaslaşma ilə bağlı tədris planlarına uyğunlaşdırılıb. Bu ali təhsil müəssisələrinin mütəxəssisləri tərəfindən UNİSEF-in Estoniyadan olan ekspertinin rəhbərliyi ilə magistr proqram üzrə 13 akademik kurs hazırlanıb. Proqramın tətbiqi Azərbaycanın gənclərlə iş istiqamətində çox mühüm mərhələdir.

Proqramın əhəmiyyətindən danışan Təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, ölkə əhalisinin magistratura səviyyəsində gənclərlə iş üzrə mütəxəssislərin hazırlanması uğurlu layihədir. Proqram az sayda ölkədə tətbiq olunur. Layihə çərçivəsində yüksək-ixtisaslı mütəxəssislərin hazırlanmasının təmin edilməsi üçün ciddi addımlar atılıb.

Təhsil Nazirliyində gənclərlə işin prioritet sahə kimi qəbul olunduğunu diqqətə çatdıran nazir müavini bu təşəbbüsün dəstəkləndiyini bildirib. Firudin Qurbanov deyib: "Nazirlər Kabinetinin müvafiq qərarına əsasən Təhsil Nazirliyi 2018-ci ildə magistr proqramını təsdiq edib. İki ildir ki, bu ixtisaslaşma üzrə 6 ali təhsil müəssisəsində qəbul aparılır və artıq 80 nəfərə yaxın gənc magistratura səviyyəsində təhsil alır. Hesab edirəm ki, onlar gələcəkdə yüksəksəviyyəli mütəxəssis kimi formalaşa biləcəklər".

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov layihə iştirakçılarına minnətdarlığını bildirib. Gənclər siyasəti və menecmenti sahəsində mütəxəssislər üçün magistr proqramının hazırlanmasını yüksək qiymətləndirən rektor bu sahədə fəaliyyətin vacibliyini diqqətə çatdırıb.

Sonra UNİSEF-in beynəlxalq eksperti xanım Tanya Dibou Azərbaycanda magistr proqramının tətbiqi ilə bağlı mövcud vəziyyət və gələcək işlər" mövzusunda təqdimat edib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akade-

miyasının I kurs magistrlərinin Estoniyanın mütəxəssisləri tərəfindən keçirilən təlimlərdə iştirakı ilə bağlı videoçarx nümayiş olunub.

Sonda magistr proqramının praktiki bölmələrinin işlənib hazırlanmasına dəstək vermiş elmi işçilər mükafatlandırılıb.

***Azərbaycanlı alimin Ankara Sosial Elmlər Universitetində mühazirəsi dinlənilib***

Ankara Sosial Elmlər Universitetində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Rəcəb Rəhimlinin "Azərbaycanda dövlət idarəçiliyi sistemində islahatlar və dövlət qulluğu sistemi" mövzusunda məruzəsi dinlənilib.

Alim məruzəsində ölkədə zamanın çağırışlarına və beynəlxalq standartlara cavab verən dövlət idarəçilik sistemi və onun hüquqi bazasının formalaşdırılmasının Ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb. Bildirib ki, dövlət siyasətinin məqsədlərinin uğurla reallaşdırılmasında dövlət qulluğu başlıca alət kimi çıxış edir və dövlət qulluqçularının fəaliyyəti ölkənin inkişafında, vətəndaşların rifahının yüksəlməsində təzahürünü tapır.

Rəcəb Rəhimli bütün sahələrdə inkişafın aparıcı lokomotivi kimi müəyyənləşdirilən dövlət sektorunda islahatların əsas məqsədləri və dövlət qulluğunun inkişafı strategiyası ilə bağlı geniş məlumat verib. Vurğulanıb ki, bu gün səmərəli və peşəkar hökumətin yaradılması Azərbaycan Respublikasında dövlət idarəçiliyində islahatlarının prioritet istiqamətlərindəndir və ölkədə dövlət qulluğunun optimallaşdırılması sahəsində əsaslı nailiyyətlər əldə edilib. Çıxışçı faktlar və müqayisəli təhlillərlə əsaslandırıb ki, Prezident İlham Əliyevin konturlarını dəqiq müəyyənləşdirdiyi siyasi xətt çərçivəsində Azərbaycanda rəqabətədavamlı, səmərəli dövlət institutları formalaşdırılıb. Bu təsisat hazırda sosial-iqtisadi siyasətin formalaşdırılması və reallaşdırılmasına maraqlı subyektlərin cəlb olunması ilə cəmiyyətin yeni inkişaf modelini qurmağa, dövlətin inkişafının dinamikası və yüksək səviyyəsini təmin etməyə qadirdir. Həmçinin dövlət idarəçiliyinin bütün səviyyələrində qərar qəbulu zamanı sosial qrupların maraqlarını müəyyənləşdirmək, strukturlaşdırmaq və nəzərə almağa, qəbul edilmiş və reallaşdırılmış qərarlara görə məsuliyyət daşımağa, vətəndaş cəmiyyəti, biznes strukturları ilə ictimai həyatın önəmli məsələləri ətrafında bərabər dialoq aparmağa, vətəndaşların dövlət qulluğuna və dövlət institutlarına inamını qorumağa və dəstəkləməyə, Azərbaycanın inkişafı ilə bağlı bütün məsələlərdə geniş ictimai konsensusa nail olmağa müvəffəq durumdadır. Buna görə də cəmiyyətin inkişafı, şəraitin dəyişilməsi və müasir çağırışlar fonunda əhalinin yaşayış səviyyəsi keyfiyyətinin daha da yüksəldilməsi məqsədilə dövlət-vətəndaş qarşılıqlı münasibətlərində inkişaf tendensiyası davamlı olaraq qorunur. İnzibati islahatlar konsepsiyasının yaxın illər üçün başlıca məqsədi kimi dövlət qulluğunda keyfiyyətin daha da yüksəldilməsini nəzərdə tutur.

Dinləyicilər Azərbaycanda dövlət idarəçiliyi sisteminə dair müfəssəl məlumatları maraqla qarşılayıblar.

Sonda alim tədbir iştirakçılarının suallarını cavablandırıb.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun «Azərbaycanın növbəti beynəlxalq uğuru» adlı məqaləsi nəşr edilib***

(qəzetə keçid burada http://www.azerbaijan-news.az/uploads/1572304975.pdf?fbclid=IwAR1-4NRsEtoneI35ylXBs-L0rYTW4uz2rxsbdARXMX64fJDDQdiK4OkzMAM )

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Almaatada beynəlxalq konfransda çıxış edib***

YUNESKO-nun Mədəniyyətlərin yaxınlaşması Beynəlxalq Onilliyi Planının həyata keçirilməsi və mədəniyyətlərin etikası dialoqunun inkişafı məqsədi ilə, 17 oktyabr 2019-cu il tarixində Almaata şəhərində İkinci Atmaata Forumu keçirilmişdir. Forumun mövzusu - "Maarifli islam və Renessans: Farabdan, Bağdaddan və Kordovadan, Avropa monastırları vasitəsi ilə - biliklər mədəniyyətinə" olmuşdur.

Forumun işində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Idarəçilik Akadmiyasının Tarix kaferasının professoru, "Simurq" Azərbaycan mədəniyyət Assosiasiyasının rəhbəri, tarix elmləri doktoru Fuad Məmmədov və Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə institutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru Əli Abbasov iştirak etmişdirlər.

Forumda Qazaxstanın xalq yazıçısı, tanınmış ictimai xadim və diplomat Oljas Suleymenov, qazax xalqının ədəbiyyatı və incəsənətinin, beynəlxalq humanitar əməkdaşlığın, maarifçiliyin və sülh yaradıcılığı sahəsində inkişafında böyük xidmətlərinə görə "Mədəniyyət səfiri" ictimai fəxri adla və "Simurq" Beynəlxalq medalı ilə təltif edilmişdir.

***Dövlət İdarəçilik Akademiyasında "Azərbaycan Respublikasında Konstitusiya hüququnun aktual problemləri" mövzusunda dəyirmi masa keçirilib***

12 noyabr 2019-cu ildə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Hüquq" kafedrası və DİA-nın "Hüquq" klubunun birgə təşkilatçılığı ilə Konstitusiya gününə həsr edilmiş "Azərbaycan Respublikasında Konstitusiya hüququnun aktual problemləri" mövzusunda dəyirmi masa keçirilmişdir. Tədbirdə "Hüquq" kafedrasının müəllimləri, Həmkarlar Komitəsinin sədri dos. Y.Ağayev, Siyasi idarəetmə fakültəsinin dekanı prof. E.Əhmədov, hüquqşünaslıq ixtisasında təhsil alam tələbələr, magistrantlar iştirak etmişlər. Tədbirdə konstitusiya hüququnun aktual problemlərinə dair Hüquq kafedrasının müdiri dos. F.T. Nağıyev, Siyasi idarəetmə fakültəsinin dekanı professor E.İ.Əhmədov cıxış etmişlər.

***Dövlət İdarəçilik Akademiyasının tələbəsi Cenevrə şəhərində səfərdə olmuşdur***

28 oktyabr – 1 noyabr tarixlərində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Siyasi İdarəetmə fakültəsinin beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alan 4-cü kurs tələbəsi Şücaət Əhmədzadə İsveçrə Konfederasiyasının Cenevrə şəhərində səfərdə olmuşdur.

Səfərin təşkilatçıları Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Beynəlxalq Qızıl Xaç Komitəsi olmuşdur. Səfər zamanı Ş.Əhmədzadə Beynəlxalq Qızıl Xaç Komitəsinin qərargahında keçirilən Beynəlxalq Qızıl Xaç İcmalının 150 illiyi tədbirində iştirak etmiş və qərargahda Beynəlxalq Qızıl Xaç Komitəsinin rəhbərliyi və yüksək vəzifəli diplomatları ilə görüşlər keçirmişdir. Həmçinin, səfər zamanı Azərbaycan Respublikasının Cenevrədə BMT Ofisi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyi də ziyarət edilmiş və tələbə cənab səfir Vaqif Sadıqov tərəfindən qəbul edilmişdir. Ardınca, səfər zamanı BMT-nin Cenevrədəki ofisinə ziyarət baş tutmuş və Ş. Əhmədzadə BMT-nin işi ilə bağlı daha yaxından tanış olmuşdur.

## *Dövlət İdarəçilik Akademiyasında Azərbaycanın Dövlət Bayrağı Gününə həsr edilən elmi-praktik konfrans*

Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Dənizkənarı Bulvar İdarəsinin və Dövlət Bayrağı Muzeyinin təşəbbüsü ilə Dövlət Bayrağı Gününə həsr olunan "Azərbaycan dövlətçiliyində bayrağın yeri və əhəmiyyəti" mövzusunda elmi-praktik konfrans keçirilib.

Azərbaycan Respublikasının dövlət himni ilə başlanan tədbirdə Dövlət İdarəçilik





Akademiyasının rektoru, akademik Urxan Ələkbərov çıxış edərək Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Sərəncamının əhəmiyyətini vurğulayıb. Rektor görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən bəhs edib, Ulu öndərin siyasi xəttinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Bildirib ki, müstəqilliyinin bərpasından 28 il keçməsinə baxmayaraq, Azərbaycan Respublikası uğurla inkişaf edir və tarixi baxımdan çox qısa zaman kəsiyində dövlət quruculuğunun bütün sahələrində diqqətəlayiq tərəqqiyə nail olub. Akademik Urxan Ələkbərov qazanılan uğurların əsasında ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dərin düşünülmüş innovativ inkişaf siyasətinin dayandığını vurğulayıb.

Rektor, eyni zamanda, diqqətə çatdırıb ki, ölkədə bütün istiqamətlərdə nailiyyətlərin qazanılmasında Birinci vitse-prezident Mehriban Əliyevanın önəmli rolu var.

Azərbaycanın bir çox istiqamətlərdə regional və qlobal liderə çevrildiyini qeyd edən akademik Urxan Ələkbərov ölkəmizin inkişaf göstəricilərinin bir çox beynəlxalq təşkilatlar, o cümlədən BMT, YUNESKO, Dünya Bankı və digər nüfuzlu qurumların rəsmi sənədlərində, müstəqil ekspertlər tərəfindən hazırlanmış hesabatlarda təsdiqini tapdığını bildirib və eyni zamanda, bu mühüm nailiyyətlərin Ermənistanla münaqişə və torpaqlarımızın 20 faizinin işğal olunduğu bir dövrdə qazanıldığını söyləyib. Qeyd edib ki, ölkəmizin bu problemləri olmasaydı, qazanılacaq uğurların miqyası daha böyük ola bilərdi.

Elmi-praktik konfransda çıxış edən Dənizkənarı Bulvar İdarəsinin Dövlət Bayrağı Muzeyinin direktoru Könül İmamverdiyeva Azərbaycan bayraqları haqqında danışıb, bayrağın müqəddəs dövlət rəmzlərindən biri olduğunu deyib. Ulu öndər Heydər Əliyevin müstəsna tarixi xidmətlərindən söz açan Könül İmamverdiyeva Dövlət Bayrağı Gününün geniş qeyd edilməsinin əhəmiyyətini vurğulayıb.

Müdafiə Nazirliyinin əməkdaşı, polkovnik Abdulla Qurbani Azərbaycanın dövlətçilik tarixindən danışıb. O, müasir müstəqil dövlətimizin qurulmasında və inkişafında dahi rəhbər Heydər Əliyevin əvəzsiz xidmətlərini diqqətə çatdırıb, Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini Elçin Əhmədov Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasətin uğurlu nəticələrindən bəhs edib, Dövlət Bayrağı Gününün sonsuz qürur hissləri ilə qeyd olunduğunu söyləyib.

Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri Firdovsiyyə Əhmədova, III kurs tələbəsi Murad Həsənxanlı respublikamızın suverenliyinin əsas atributlarından olan Dövlət bayrağımızın tarixindən danışıblar. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəbul olunmuş üçrəngli bayrağımızın hələ SSRİ vaxtında Ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda bir daha ucaldıldığı xatırladılıb.

Çıxış edənlər Dövlət bayrağının xalqımızın böyük qürur mənbəyi olduğunu, ölkəmizin dünyada nüfuzunun yüksəldiyini deyib, qəsbkar ermənilər tərəfindən işğal edilmiş torpaqlarımızın tezliklə azad olunacağına əminliklərini vurğulayıblar.

Sonra Dövlət bayrağına həsr olunmuş videoçarx nümayiş etdirilib.

### *Yerli icra hakimiyyətlərinin əməkdaşları üçün növbəti distant təlim keçirilib*

2019-cu ilin noyabr ayında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında növbəti distant təlim keçirilib. Təlimin əsas məqsədi ölkənin innovativ və inklüziv inkişafı üçün hədəflərin yeni istiqamətləri ilə bağlı biliklərin dinləyicilərə çatdırılması və onlarla fikir mübadiləsinin aparılmasıdır.

Yerli icra hakimiyyətlərinin əməkdaşları üçün təşkil edilən təlimdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov «Dövlət idarəçiliyində innovativ texnologiyalar: Azərbaycan Respublikasının təcrübəsi» mövzusunda açılış mühazirələri ilə çıxış edib.

Akademik Urxan Ələkbərov Heydər Əliyev siyasətinin uğurlu nəticələrindən danışıb, Ulu Öndərin ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini bildirib və bu gün Azərbaycanın iqtisadiyyatının sürətlə inkişaf etdiyini konkret faktlarla diqqətə çatdırıb. Dövlətimizin başçısının tətbiq etdiyi və dünya miqyasında ilk dəfə işlənilmiş idarəetmə texnologiyaları sayəsində Azərbaycanın inklüziv inkişaf indeksi Avropa İttifaqına üzv olan bir çox dövlətlərin göstəricilərindən yüksək olduğu qeyd edilib.



Daha sonra Yerli icra hakimiyyətlərinin əməkdaşlarının sualları cavablandırılıb.

### *YUNESKO üzrə Azərbaycan Milli Komissiyasının 25 illiyi ilə əlaqədar Dövlət İdarəçilik Akademiyasında dəyirmi masa keçirilib*

Dekabrın 4-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılmasının 25 illik yubileyinə həsr olunmuş “Azərbaycan Respublikasının davamlı inklüziv inkişafı sahəsində dünya liderliyini təmin edən dövlət idarəçiliyi texnologiyaları” mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masa Azərbaycan Milli Elmlər Akademiyası, Xarici İşlər, Təhsil, Mədəniyyət, Ekologiya və Təbii Sərvətlər, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar, Gənclər və İdman nazirliklərinin dəstəyi ilə baş tutub.

Dəyirmi masanı giriş sözü ilə açan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov Azərbaycan Respublikasının iqtisadi, sosial və humanitar sahələrdə uğurlu inkişaf nümayiş etdirdiyini bildirib. Rektor bu uğurların kökündə əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin inkişaf etdirdiyi innovativ dövlət idarəçiliyi strategiyasının durduğunu vurğulayıb.

Urxan Ələkbərov deyib ki, Azərbaycan Respublikası 2018-ci ildə bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran ölkədir. O, eyni ildə Davos Dünya İqtisadi Forumunda dünya ölkələrində davamlı inklüziv inkişafla bağlı durumun təhlil olunduğuna diqqət çəkib. Qeyd edib ki, bu təhlil əsasında hazırlanan hesabata görə, Azərbaycan Respublikası inklüziv cəmiyyətin formalaşdırılması və bu prosesin davamlılığının təmin olunması sahəsində əhəmiyyətli dərəcədə uğur qazanıb. Davos Dünya İqtisadi Forumunun 2018-ci il üçün təhlillərinə görə, Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi 4,69 təşkil



edib. Həmin göstərici ilə ölkəmiz bir çox dövlətləri, o cümlədən yüksək iqtisadi inkişaf səviyyəsinə malik ölkələri geridə qoyub. Akademik inklüziv inkişaf göstəriciləri Azərbaycandan aşağı olan ölkələr arasında ABŞ, Yaponiya, İsrail, İtaliya, İspaniya, Türkiyə, Portuqaliya, Yunanıstan və digər ölkələrin olduğunu vurğulayıb. Rektor diqqətə çatdırıb ki, nisbətən məhdud maliyyə imkanları şəraitində Azərbaycanın inklüziv inkişaf indeksinin iqtisadi baxımdan daha inkişaf etmiş ölkələrdəkindən yüksək olması ölkənin iqtisadi potensialının hərtərəfli inkişafı və əhalinin rifah halının yüksəldilməsi üçün daha səmərəli istifadəsinin beynəlxalq təsdiqidir. Azərbaycanın inklüziv inkişaf sahəsində yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da mühüm xidmətləri var. Mehriban xanım Əliyevanın insan potensialının inkişafı, inkişaf proseslərinin inklüzivliyinin təmini sahəsində təşəbbüsləri, onun rəhbərliyi ilə gerçəkləşdirilən iqtisadi, sosial, humanitar və mədəni layihələr Azərbaycanın sosial indikatorlarının yüksək qalmasına, həmçinin gələcək sosial tərəqqiyə imkan yaradıb.

Dəyirmi masada Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri – YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi Elnur Sultanov, Təhsil nazirinin müavini Firudin Qurbanov, Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Rauf Hacıyev, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, Gənclər və İdman nazirinin müavini İntiqam Babayev çıxış edərək Azərbaycanın inkişafı, bu inkişafın təmin olunmasına yol açan texnologiyalar, dövlətimizin başçısının gerçəkləşdirdiyi islahatlar barədə danışıblar.

***Bakıda dövlət qulluğunda insan resurslarının idarə olunması mövzusunda beynəlxalq konfrans keçirilir***

Dekabrın 5-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında “Dövlət qulluğunda insan resurslarının idarə olunması: beynəlxalq trendlər və milli təcrübələr” mövzusunda beynəlxalq elmi konfrans işə başlayıb.



Tədbirdən əvvəl iştirakçılar Fəxri xiyabanda Ümummilli lider Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və “Türk şəhidliyi” abidəsini ziyarət ediblər.

Dövlət qulluğunda insan resurslarının idarə edilməsi sahəsində qlobal trendlərin müzakirəsinə həsr olunan konfransın məqsədi Prezident İlham Əliyevin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya”nın həyata keçirilməsinə yönələn elmi-nəzəri tövsiyələrin işlənib hazırlanmasıdır.

Konfransda akademik Urxan Ələkbərov “Davamlı inkişaf və inklüziv cəmiyyətin formalaşması insan resurslarının optimal idarə olunması indikatoru kimi” mövzusunda məruzə ilə çıxış edib.

Akademik ölkəmizin iqtisadi, sosial və humanitar sahələrdə uğurlu inkişaf etdiyini, müstəqilliyimizin hər yeni ilində nailiyyətlərinin artdığını diqqətə çatdırıb. Rektor əldə olunan nailiyyətlərin əsasında əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən innovativ dövlət idarəçiliyi strategiyasının dayandığını xüsusi vurğulayıb.

Rektor bildirib ki, Azərbaycan 2018-ci ildə bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran ölkədir.

Ötən il Davos İqtisadi Forumunda dünya ölkələrində davamlı inklüziv inkişafla bağlı vəziyyətin təhlilinə diqqət çəkən U.Ələkbərov bildirilib ki, həmin təhlil əsasında hazırlanan hesabata görə, Azərbaycan inklüziv cəmiyyətin formalaşdırılması və bu prosesin davamlılığının təmin olunması sahəsində




əhəmiyyətli uğurlar qazanıb. Belə ki, ölkəmizin inklüziv inkişaf indeksi 4,69 faiz təşkil edib. Həmin göstərici ilə Azərbaycan bir çox dövlətləri, o cümlədən yüksək inkişaf səviyyəsinə malik ölkələri geridə qoyub.

Urxan Ələkbərov məruzəsində inklüziv inkişaf göstəriciləri Azərbaycandan aşağı olanlar ölkələr arasında ABŞ, Yaponiya, İsrail, İtaliya, İspaniya, Türkiyə, Portuqaliya, Yunanıstanın olduğunu diqqətə çatdırıb. Vurğulayıb ki, Azərbaycanın iqtisadi cəhətdən yüksək inkişaf etmiş ölkələri geridə qoyması ölkəmizin iqtisadi potensialının hərtərəfli artımı və bu inkişafdan əhalinin rifah halının yüksəldilməsi üçün səmərəli istifadə olunmasının beynəlxalq səviyyədə təsdiqidir.

Rektor inklüziv inkişaf sahəsində ölkəmizin yüksək göstəricilər əldə etməsində və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində Birinci vitse-prezident Mehriban Əliyevanın müstəsna xidmətinin olduğunu vurğulayıb. Bildirib ki, Birinci vitse-prezidentin insan potensialının inkişafı, inkişaf proseslərinin inklüzivliyinin təminatı sahəsində təşəbbüsləri, onun rəhbərliyi ilə həyata keçirilən iqtisadi, sosial, humanitar və mədəni layihələr Azərbaycanın sosial indikatorlarının yüksək qalmasına, həmçinin gələcək sosial tərəqqiyə imkan yaradıb.

Sonra çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral, TİKA-nın Bakı nümayəndəliyinin əlaqələndiricisi Teoman Tiryaki və başqaları dayanıqlı inklüziv inkişaf və dövlət qulluğunda insan resurslarının idarə olunması ilə maraqlı fikirlər səsləndiriblər.

Dekabrın 6-da konfrans "Davamlı inklüziv inkişaf dövlət idarəçiliyində qlobal prioritet kimi" və "Dövlət qulluğunda innovasiyalar: qlobal trendlər, alətlər və mexanizmlər" mövzusunda müzakirələrlə işinə yekun vuracaq.

## *Dövlət İdarəçilik Akademiyasında ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb*

Dekabrın 10-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə müasir müstəqil dövlətimizin qurucusu və YAP-ın yaradıcısı ulu öndər Heydər Əliyevin əbədiyaşar xatirəsinə həsr olunan anım tədbiri keçirilib.






Əvvəlcə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətindən bəhs edən videofilm nümayiş olunub.

Tədbiri açıq elan edən DİA-nın rektoru, akademik Urxan Ələkbərov Ulu öndər Heydər Əliyevin Azərbaycanın müasir siyasi tarixindəki əvəzolunmaz xidmətlərindən danışıb. Müasir iqtisadi inkişafımızın əsasını təşkil edən Heydər Əliyev neft strategiyasının və "Əsrin müqaviləsi"nin imzalanmasının əhəmiyyətini xüsusi qeyd edən rektor bildirib ki, Prezident İlham Əliyev Ulu Öndərin siyasətini və yolunu yeni müstəvidə uğurla davam etdirir. Bu gün Azərbaycan dünyada tanınan, beynəlxalq münasibətlərdə öz sözü və yeri olan, dinamik inkişaf edən modern və güclü dövlətə çevrilib.

Rektor qeyd edib ki, Azərbaycanın müasir tarixində Ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərinin ictimai-siyasi mahiyyəti hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacaq. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsi daim xalqımızın yaddaşında, ürəklərdə yaşayacaq.

YAP Səbail rayon təşkilatının sədri, professor Şəmsəddin Hacıyev bütün varlığı ilə müstəqil Azərbaycan dövlətçiliyinə bağlı olan ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrlərdə taleyin hökmü ilə xalqımız və milli dövlətçiliyimiz üçün yerinə yetirdiyi böyük tarixi missiyalardan danışıb. Bildirib ki, dinamik inkişaf edən və ildən-ilə siyasi, iqtisadi, beynəlxalq nüfuzu yüksələn müasir Azərbaycanın müstəqillik dövründə əldə etdiyi bütün uğurların bünövrəsi dahi siyasətçi və görkəmli dövlət xadimi Heydər Əliyev amili və Heydər Əliyev şəxsiyyəti ilə bağlıdır. Şəmsəddin Hacıyev vurğulayıb ki, zaman keçdikcə biz Heydər Əliyev dühasının əzəmətini, böyüklüyünü daha çox hiss edir, həyata keçirdiyi çoxşaxəli işlərin, xalqımız və müstəqil dövlətçiliyimiz üçün ən çətin, taleyüklü anlarda yerinə yetirdiyi xilaskarlıq missiyaların nəhəngliyini daha dərindən dərk edirik. Azərbaycan xalqı Ulu öndər Heydər Əliyevin əbədiyaşar xatirəsini ehtiramla yaşadır.

Şəmsəddin Hacıyev Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik və idarəçilik irsi haqqında tədbir iştirakçılarına xronoloji ardıcıllıqla geniş və ətraflı məlumat verib. O qeyd edib ki, sovet dövründə Heydər Əliyev yalnız şəxsi bacarığı, istedadı və işgüzarlığı ilə gənc yaşlarından etibarən dünyanı idarə edən iki nəhəng dövlətdən birinin ən yüksək rəhbər vəzifələrinə qədər yüksələn ilk müsəlman-türk, azərbaycanlı olub. Ulu öndər 1969-cu ildə müttəfiq respublikalar arasında ən geridə qalmış aqrar-xammal ölkələrindən biri olan Azərbaycana rəhbər təyin olunmasından sonra cəmi 13 il ərzində Azərbaycan SSR-ni sovet respublikaları sırasında ən sürətlə inkişaf edən və özünü tam təmin edən aqrar-sənaye respublikasına çevrib. SSRİ kimi fövqəldövlətdə yüksək məsuliyyət tələb edən elm, təhsil, mədəniyyət, nəqliyyat, maşınqayırma, dəmir yolları və digər mühüm strateji sahələrə məhz Heydər Əliyev rəhbərlik edib və bu sahələrin inkişafında əhəmiyyətli nəticələr əldə edilib. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Heydər Əliyevin xalqın istəyi və dəstəyi ilə 1993-cü ilin iyununda Azərbaycanda hakimiyyətə gəlməsi onun tarixi qurtuluş missiyasının başlanğıcıdır. 1992-ci il noyabrın 21-də Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının təsis olunması və qısa müddətdə xalqın dəstəyi ilə iqtidar partiyasına çevrilməsi Azərbaycanın siyasi tarixində mühüm hadisədir.

Bildirilib ki, Azərbaycana rəhbərlik etdiyi 10 il ərzində Ulu öndər ölkəmizi düşdüyü bəlalardan, məhv olmaq və dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən xilas edib. Ümummilli lider Heydər Əliyev son dərəcə mürəkkəb siyasi və iqtisadi şəraitdə Azərbaycanın müstəqilliyini qoruyub, möhkəmləndirib və ölkəmizi iqtisadi tənəzzüldən sürətli inkişaf və tərəqqi yoluna çıxarıb.

Şəmsəddin Hacıyev Heydər Əliyevin müasir müstəqil Azərbaycan dövlətçiliyinin

inkişafı üçün hazırladığı fundamental siyasi və iqtisadi bazanın tərkib elementlərini təhlil edib. O, Ulu öndərin misilsiz xidmətləri sırasında 1994-cü ildə Azərbaycan üçün əlverişli şərtlərlə "Əsrin müqaviləsi"nin imzalanmasının, 1995-ci ildə əsl sivil, müasir tələblərə cavab verən və sonradan dövlətin bütün qanunvericilik bazasının yaradılmasında həlledici rol oynayan müstəqil Azərbaycanın yeni Konstitusiyasının hazırlanmasının və qəbulunun, ölkədə bazar iqtisadiyyatına keçid üçün zəruri institutların və infrastrukturun yaradılmasının, cəmiyyət həyatının bütün sahələrini əhatə edən geniş və sistemli islahatlar proqramının həyata keçirilməsinin, eləcə də həmin dövrdə Azərbaycanın milli və azərbaycançılıq ideologiyasının formalaşdırılmasının və bütün cəmiyyətin bu ideyalar ətrafında birləşdirilməsinin əhəmiyyətini vurğulayıb.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı daha bir tarixi missiyasının sağlığında özünün siyasi varisini müəyyənləşdirməsi olduğunu diqqətə çatdıran Şəmsəddin Hacıyev qeyd edib ki, zaman bu seçimin nə dərəcədə düzgün, müdrik və uzaqgörən qərar olduğunu sübuta yetirib. Azərbaycan xalqına firavan həyat və güclü dövlət bəxş etmiş Heydər Əliyev siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən tamamilə yeni keyfiyyət müstəvisində dünyada gedən proseslər və yeni çağırışlar əsasında uğurla davam etdirilir. Ölkə başçısının rəhbərliyi ilə Azərbaycanda son 16 ildə möhtəşəm işlər görülüb, ən böyük dəyərimiz olan ictimai-siyasi sabitliyimiz təmin olunub, iqtisadiyyatımız sürətlə inkişaf edib, beynəlxalq aləmdə Azərbaycan etibarlı tərəfdaş imici qazanıb. 2018-ci ildən etibarən ölkəmizdə davamlı, tarazlı, şaxələndirilmiş inkişaf və cəmiyyət həyatının bütün sahələrini əhatə edən əsaslı islahatlar həyata keçirilir və müsbət nəticələr də göz önündədir. Azərbaycan öz inkişaf yolu ilə gedir, bu yol Heydər Əliyev yolu və İlham Əliyevin cəsarətli, müstəqil, uzaqgörən siyasət yoludur. Bu siyasət Azərbaycanı gələcəkdə də çox uğurlara aparacaq.

Ulu öndər Heydər Əliyevi bir daha qürurla və ehtiramla yad edən Şəmsəddin Hacıyev vurğulayıb ki, Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixin gedişini dəyişən və Azərbaycanın yeni tarixini yaradan şəxsiyyətdir. Nə qədər Azərbaycan varsa, Heydər Əliyev ideyaları da yaşayacaq və Heydər Əliyevin qurub yaratdığı Azərbaycan vaxt gələcək ki, dünyanın ən inkişaf etmiş ölkələrindən olacaq.

Tədbirdə çıxış edən DİA-nın Siyasi idarəetmə fakültəsinin dekanı, siyasi elmlər doktoru, professor Elçin Əhmədov bildirib ki, otuz beş ilə yaxın bir müddətdə Azərbaycanın taleyi dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevlə bağlı olub. Ümummilli lider Heydər Əliyevin zəngin irsi müstəqil Azərbaycan dövlətinin inkişaf və tərəqqisi yolunda, indiki və gələcək nəsillər üçün əvəzsiz sərvət, böyük qürur və iftixar mənbəyidir. Bu irsi öyrənmək və təbliğ etmək bizim hər birimizin məsul və şərəfli borcudur. Ümummilli lider Heydər Əliyevin müdrik rəhbərliyi, həyata keçirdiyi düşünülmüş, məqsədyönlü tədbirləri hesabına 1969-1982-ci illər Azərbaycanın intibah dövrü kimi tarixə düşüb.

Professor Elçin Əhmədov qeyd edib ki, 1993-cü ilin ikinci yarısında Ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaradıb. Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərdə respublikamız üçün həlledici illər olub. Məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulub. O illərdə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edilib, Azərbaycan dünya birliyinə qovuşub.

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun son 16 ildə Prezident İlham Əliyev tərəfindən dinamik şəkildə və novatorcasına inkişaf etdirilməsi nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsini təmin edib. Həyata keçirilən qlobalmiqyaslı tədbirlər bu gün

Azərbaycanın dünya miqyasında nüfuzunu xeyli artırıb, ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirib.

Siyasi idarəetmə fakültəsinin III kurs tələbəsi İlahə Balakişiyeva bildirib ki, Ümummilli Liderin zəngin dövlətçilik irsi gənclər üçün böyük nümunə təşkil edib. Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycan hər bir gənc üçün fəxr və qürur mənbəyidir. Ölkəmizdə Ulu öndərin əsasını qoyduğu dövlət gənclər siyasəti Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Bu gün vətənpərvərlik ruhunda formalaşan Azərbaycan gəncliyi ölkəmizin son 16 ildə əldə etdiyi misilsiz nailiyyətlərindən ruhlanır və onlara göstərilən yüksək etimada layiq olmağa çalışır.

Tədbirdə Dövlət İdarəçilik Akademiyasının YAP-ın sıralarına yeni qəbul olunan tələbələrinə partiya üzvlük vəsiqələri təqdim olunub.

### *Heydər Əliyevin idarəçilik məktəbi Azərbaycanın davamlı inkişafının təməli və qarantıdır*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərovun yeni məqaləsi çap olunub.

http://www.azerbaijan-news.az/uploads/1576013182.pdf?fbclid=IwAR3v9iAJsqFvQqCE-jzFtemZ8fLpRJikZect-v_gw_cdnL7XuDMKwUS2OiJ0

### *Dövlət qulluqçuları üçün növbəti səyyar seminar keçirilib*

Dekabrın 16-da İmişli rayonunda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və İmişli rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə dövlət qulluqçuları və ASAN xidmət mərkəzinin əməkdaşları və könüllüləri üçün növbəti səyyar seminar keçirilib.

Tədbiri giriş sözü ilə İmişli rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev açıb. Seminarda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Azərbaycan Respublikasının davamlı inklüziv inkişaf sahəsində dünya liderliyi: beynəlxalq təşkilatların dəyərləndirmələri" mövzusunda məruzə ilə çıxış edib. Rektor Azərbaycan Respublikasının iqtisadi, sosial və humanitar sahələrdə uğurlu inkişaf nümayiş etdirdiyini və müstəqilliyinin hər növbəti ili ölkənin yeni yüksək nailiyyətləri ilə bağlı xəbərlərlə müşaiyət olunduğunu bildirib. Akademik qeyd olunan uğurların kökündə əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin yaradıcılıqla inkişaf etdirdiyi innovativ dövlət idarəçiliyi strategiyasının durduğunu xüsusi vurğulayıb. Rektorun sözlərinə görə, Azərbaycan Respublikası 2018-ci ildə bütün dünya üçün prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran ölkədir. O, eyni ildə Davos İqtisadi Forumunda dünya ölkələrində davamlı inklüziv inkişafla bağlı durumun təhlil olunduğuna diqqət çəkib. Qeyd edilib ki, bu təhlil əsasında hazırlanan hesabata görə, Azərbaycan Respublikası inklüziv cəmiyyətin formalaşdırılması və bu prosesin davamlılığının təmin olunması sahəsində əhəmiyyətli dərəcədə uğur qazanıb. Davos İqtisadi Forumunun 2018-ci il üçün təhlillərinə görə, Azərbaycan Respublikasının inklüziv inkişaf indeksi 4,69 təşkil edib. Həmin göstərici ilə ölkəmiz bir çox dövlətləri, o cümlədən yüksək iqtisadi inkişaf səviyyəsinə malik ölkələri geridə qoyub. Akademik U.Ələkbərov inklüziv inkişaf göstəriciləri Azərbaycandan aşağı olan ölkələr arasında ABŞ, Yaponiya, İsrail, İtaliya, İspaniya, Türkiyə, Portuqaliya, Yunanıstan və s. olduğunu vurğulayıb. Rektor diqqətə çatdırıb ki, nisbətən məhdud maliyyə imkanları şəraitində Azərbaycanın inklüziv

inkişaf indeksinin iqtisadi baxımdan daha inkişaf etmiş ölkələrdəkindən yüksək olması ölkənin iqtisadi potensialının hərtərəfli inkişaf və əhalinin rifah halının yüksəldilməsi üçün daha səmərəli istifadəsinin beynəlxalq təsdiqidir. Seminar iştirakçıları həmçinin Azərbaycanda tətbiq edilən və dünya miqyasında ilk dəfə işlənilmiş sinergetik, komplimentar və kompensasion texnologiyaların mahiyyəti barədə məlumatlandırılıblar. Xüsusi vurğulanıb ki, inklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsində ölkənin Birinci Vitse-Prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri var. Mehriban xanım Əliyevanın insan potensialının inkişafı, inkişaf proseslərinin inklüzivliyinin təmini sahəsində təşəbbüsləri, onun rəhbərliyi altında gerçəkləşdirilən iqtisadi, sosial, humanitar və mədəni layihələr Azərbaycan Respublikasının sosial indikatorlarının yüksək qalmasına, həmçinin gələcək sosial tərəqqiyə imkan yaradıb. Məruzədə beynəlxalq təşkilatların 2018-2019-cu illərdə dərc edilmiş rəsmi statistik bilgiləri təhlil olunub. Eyni zamanda Davos Dünya Forumunun təsisçisi və fəxri Prezidenti professor Klaus Martin Şvabın hazırladığı qlobal hesabat nəzərdən keçirilib. Bildirilib ki, həmin hesabatda Azərbaycan dünyanın ən səmərəli sosial siyasət həyata keçirən ölkəsi kimi xarakterizə olunub.

"Dövlət qulluğunda innovasiyaların yeni mərhələsi" mövzusunda məruzə ilə çıxış edən Dövlət İdarəçilik Akademiyasının Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsinin müdiri dosent Rəcəb Rəhimli "İnnovasiyaların dövlət sektorunda tətbiq olunmasının əsas məqsədləri və dövlət qulluğunda innovasiyaların tətbiqinin dövlət qulluğunun inkişafı strategiyası" adlı məruzəsində geniş məlumat verib. Natiq günümüzdə ölkədə baş verən dəyişikliklərin insan fəaliyyətinin bütün sahələrini əhatə etdiyindən innovasiyaların bir çox sosial institutlar üçün aparıcı roluna diqqət çəkib. Təsadüfi deyil ki, müasir idarəetmə sisteminin başlıca inkişaf tendensiyalarından biri innovasiyalar və onların tətbiqinə yeni yanaşmaların axtarışıdır. Eyni zamanda vurğulanıb ki, dinamik şəkildə dəyişən informasiya və texnologiyalar bazarı şəraitində idarəetmə orqanları və qurumlarının innovasiyaların təşviqi və tətbiqinə dair fəallıqları ən qiymətli rəqabət üstünlüyü kimi dəyərləndirilir. Məruzəçi müasir dönəmdə bu prosesin gedişində ölkədə dövlət qulluğu sistemində innovasiyaların tətbiqi zamanı səmərəli idarəetmə texnologiyalarının seçimi, dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi, dövlət qulluğunda səriştə modelinin tətbiq edilməsi ilə dəyişikliklərə təkan verən təşkilati mühitin yaradılması, potensial uğurlu layihələrin stimullaşdırılması, xərc və resursların həcminin düzgün müəyyənləşdirilməsi kimi önəmli faktorlara xüsusi diqqət yetirildiyini önəmli üstünlük kimi qeyd edib. Onun fikrincə, dövlət qulluğu və dövlət idarəçiliyində tətbiq edilən yeni innovativ yanaşma və təşəbbüslərin bu institutun nüfuzunun daha da artmasına imkan yaradacaqdır.

Seminarın yekununda iştirakçıların sualları cavablandırılıb.

### *Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilmişdir*

20 dekabr 2019-cu il tarixində DİA Tələbə Elmi Cəmiyyətinin "Azərbaycan Respublikasının müasir inkişaf prioritetləri" mövzusunda yekun elmi konfransı keçirilmişdir.

Konfransı giriş sözü ilə DİA-nın rektoru, akademik Urxan Ələkbərov açaraq, Ulu öndər Heydər Əliyevin gələcəyə hesablanmış milli inkişaf kursunun layiqli davamçısı, XXI əsrin ən uğurlu siyasi liderlərindən olan Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın dinamik və sürətli inkişaf yolunda əldə etdiyi uğurlardan nüfuzlu beynəlxalq qurumların məlumatlarına istinad edərək geniş söhbət açmışdır. Rektor bu baxımdan Tələbə Elmi

Cəmiyyətinin elmi konfransının vacib və aktual mövzuya həsr olunduğunu xüsusi vurğulamış, konfransın işinə uğurlar arzulayaraq, onun iştirakçıların yüksək fəallığı şəraitində keçəcəyinə əminlik ifadə etmişdir.

Sonra Tələbə Elmi Cəmiyyətinin sədri, dosent Sevil Məmmədova müzakirəyə çıxarılan mövzu ilə bağlı məruzə etmiş, TEC-in ötən il ərzində fəaliyyəti və qarşısında duran vəzifələr haqqında ətraflı məlumat vermişdir.

Plenar iclasdan sonra elmi konfrans öz işini dosentlər Sevil Məmmədovanın, Yusif Zeynalovun və Araz Qədiməliyevin rəhbərliyi ilə üç bölmədə davam etdirmişdir. Bölmə iclaslarında Akademiyanın tələbə və magistrantları tərəfindən Azərbaycan dövlətçiliyinin inkişafında Heydər Əliyev fenomeni, Azərbaycan Respublikasında insan və vətəndaş hüquq və azadlıqları, müasir dünyada təhlükəsizlik problemləri və Azərbaycanın milli təhlükəsizlik maraqları, Azərbaycanın enerji siyasəti və onun regionun geoiqtisadi vəziyyətinə təsiri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasət strategiyası, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında müasir mərhələ, dövlət idarəçiliyində informasiya təhlükəsizliyinin təmin edilməsi metodları və s. mövzularda maraqlı çıxışlar edilmiş və geniş fikir mübadiləsi aparılmışdır.

***Dövlət İdarəçilik Azərbaycanda YUNESKO klublarının təqdimatı olub***

Dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti yanında YUNESKO üzrə Milli Komissiyanın dəstəyi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının təşkilatçılığı ilə Akademiyada Azərbaycanda ilk YUNESKO klublarının təqdimat mərasimi keçirilib.

Təqdimat mərasimində Akademiyanın rektoru akademik Urxan Ələkbərov, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin xü-



susi tapşırıqlar üzrə səfiri, YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının baş katibi Elnur Sultanov, Gənclər və İdman nazirinin müavini Fərhad Hacıyev, Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini Vasif Eyvazzadə, Azərbaycan YUNESKO klublarının koordinatoru Cahangir Hacıyev, eyni zamanda, müxtəlif təhsil ocaqlarının müəllim və tələbələri iştirak ediblər.

Qeyd olunmalıdır ki, cari ildə ölkəmizin bir sıra təhsil müəssisələrində - Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət Pedaqoji Universitetində, Bakı Avropa Liseyində və 20 saylı ümumtəhsil məktəbində YUNESKO klubları yaradılıb.

Rektor U.Ələkbərov Azərbaycan-YUNESKO münasibətlərinin yüksək səviyyədə olduğunu qeyd edərək, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın misilsiz xidmətlərini vurğulayıb. O, klubların Azərbaycanın YUNESKO ilə əməkdaşlığına əlavə töhfə verəcəyinə əminliyini bildirib.

Tədbirdə Milli Komissiyanın baş katibi E.Sultanov çıxış edərək YUNESKO klublarının yaradılmasının Milli Komissiyanın 25 illiyinə təsadüf etdiyini diqqətə çatdırıb. E.Sultanov Milli Komissiyanın Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1994-cü ildə müvafiq Sərəncamı ilə yaradıldığını qeyd edərək, Komissiyanın fəaliyyəti barədə danışıb. O, Azərbaycan və YUNESKO arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. E.Sultanov ölkəmizdə YUNESKO klublarının yaradılmasının Azərbaycan-YUNESKO əlaqələrində yeni səhifə olduğunu qeyd edib.

Gənclər və İdman nazirinin müavini Fərhad Hacıyev YUNESKO-nun gənclər mövzusuna önəm verdiyini vurğulayıb, ölkəmizdə həyata keçirilən gənclər və idman siyasətindən bəhs edib, Azərbaycan-YUNESKO klublarının fəaliyyətinə uğurlar arzulayıb.

Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini Vasif Eyvazzadə mədəniyyət sahəsində, xüsusən də maddi və qeyri-maddi irsin qorunması sahəsində Azərbaycan–YUNESKO əməkdaşlığından bəhs edib və klubların yaradılmasının əhəmiyyətini vurğulayıb.

Azərbaycan-YUNESKO klublarının koordinatoru Cahangir Hacıyev təqdimatla çıxış edərək, klubların yaranması haqqında tədbir iştirakçılarına məlumat verib və onların fəaliyyət istiqamətləri barədə danışıb.

Sonra tədbir iştirakçıları mövzu ilə bağlı fikir mübadiləsi aparıblar.

### *"Vətən məndən başlayır!"*

Dekabr ayının 25-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "ZƏFƏR" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi "Vətən məndən başlayır!" adlı layihənin növbəti tədbiri keçirilib.

Layihə çərçivəsində yerinə yetiriləcək fəaliyyətlərin əsas məqsədi xüsusilə gənclər arasında vətənpərvərlik və dövlətçilik ideologiyalarının "Vətən məndən başlayır!" devizi altında təbliğ olunması, hər bir fərdə ümumi tərəqqi və dövlətçiliyimizin daimi olması naminə öz fəaliyyətlərində daha çalışqan, məqsədyönlü və əzmkar olmağı təşviq etməkdir.

Tədbirdə DİA-nın prorektoru Əlikram Abdullayev, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Şəhid polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşı Sevinc Alızadə, tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova, Milli Qəhrəman Şirin Mirzəyevin həyat yoldaşı, millət vəkili Flora Qasımova, Millət vəkili Tahir Mirkişili, professor Anar İsgəndərli, Parlament Jurnalistlər Birliyinin sədri Elşad Eyvazlı, Qarabağ qazisi Rey Kərimoğlu, "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin üzvləri, ictimaiyyət nümayəndələri, QHT rəhbərləri, şəhid ailələrinin üzvləri, qazilər və akademiyanın kollektivi iştirak ediblər.

Sonra tədbir iştirakçıları mövzu ilə bağlı fikir mübadiləsi aparıblar.

## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**...........7
.
**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**............................15

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**.........................................83

Rusiya Federasiyasına işgüzar səfər ..............................................................................83
Türkmənistan Respublikasına işgüzar səfər ..................................................................90
Qəbələ rayonuna səfər .......................................................................................................93
Ağdaş rayonuna səfər.........................................................................................................96
Sumqayıt şəhərinə səfər ...................................................................................................100
Türkiyə Respublikasına işgüzar səfər ............................................................................113
Şamaxı rayonuna səfər.......................................................................................................117
Rusiya Federasiyasına işgüzar səfər ...............................................................................124
Qusar rayonuna səfər .........................................................................................................126

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri**.......................................................................................................127

İlham Əliyevin Rusiyanın "Rossiya" və "Birinci" televiziya kanallarına müsahibəsi ..............127

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşündə İlham Əliyevin nitqi ..........129

Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşündə İlham Əliyevin nitqi ..........................................................................130

Dünya dini liderlərinin II Sammitinin açılış mərasimində İlham Əliyevin nitqi .......................133

Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə İlham Əliyevin nitqi ......................................................................................................136

XXV beynəlxalq "Bakutel 2019" telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgisinin iştirakçılarına İlham Əliyevin müraciəti..................................................142

İlham Əliyevin "Bakutel-2019" sərgisində Rusiyanın "Rossiya 24" televiziya kanalına müsahibəsi..............................................................................................................142

Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin (TRASEKA) 20 illik fəaliyyətinə həsr olunmuş yubiley konfransının iştirakçılarına İlham Əliyevin müraciəti............................143

Pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər ilə bağlı müşavirədə İlham Əliyevin giriş nitqi ..............................................................................................144

Pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlər ilə bağlı müşavirədə İlham Əliyevin yekun nitqi ..............................................................................................150

2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə İlham Əliyevin nitqi...........................151

Azərbaycan Respublikası Prezidentinin Dünya azərbaycanlılarına müraciəti............................154

**DÖVLƏT İDARƏÇİLİYİ**

**Elman Nəsirov.** İlham Əliyev – dünya səviyyəli islahatçı Prezident......................................... 155

**SOSİAL FƏLSƏFƏ**

**Etibar Nəcəfov.** Multikulturalizmin tədqiqinə dair liberalizm və kommunitarizm yanaşmaları.171

**DÖVLƏT İDARƏÇİLİYİ**

**Əli Həsənov.** İlham Əliyev – qurucu lider .........................................................................183

**REGİONLAR**

**Vidadi İsayev.** Bərdə Azərbaycanın uğurla inkişaf edən rayonlarından biridir ..........................195

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ**

**Marziye Memmedli, Ayşegül Acar.** Breaking Point in Tourism as a Tool of Soft Power .........203

**Лилия Габдрафикова.** Татарско-азербайджанский социокультурный диалог
в начале XX века ...........................................................................................................215

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**

**Fuad Humbatov.** Sustainable Inclusive Vocational Education and Training System
in Azerbaijan: Main Achievements and Challenges ....................................................................225

**SİYASİ NƏZƏRİYYƏ**

**Вероника Чекалюк.** Медийный имидж страны и ее лидеров .............................................237

**KONSTİTUSİYA HÜQUQU; İNZİBATİ HÜQUQ**

**Asif Qədirov.** Cinayət prosesində sübutların toplanması zamanı insan və vətəndaşın
konstitusion hüquq və azadlıqlarının qorunmasının təmininin bəzi cəhətləri..............................249

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Akif Marifli.** Beynəlxalq terrorçuluğa qarşı qlobal koalisiyanın yaranmasının
hərbi-siyasi zərurəti........................................................................................................ 261

## G Ə N C T Ə D Q İ Q A T Ç I L A R

### BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Shabnam Hasanova.** Energy Security Policy of Europe and the Ways of Ensuring it ...............275

### DÖVLƏT İDARƏÇİLİYİ

**Xəyyam Məmmədov**. Azərbaycanda dövlət idarəçiliyində xidmət sektorunun innovativ təkmilləşdirilməsi.......................................................................................................................283

### BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ

**Şaiq Əliyev.** Beynəlxalq nəqliyyat və logistik layihələrin Cənubi Qafqazın nəqliyyat-kommunikasiya sisteminin inkişafına təsiri ...............................................................289

### SOSİAL VƏ PEDAQOJİ PSİXOLOGİYA

**Фарах Адигезалова.** Методики, применяемые для экспериментального исследования жизненных перспектив личности ...........................................................................................299

**Dövlət İdarəçilik Akademiyasında** ..........................................................................................307

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına**
**məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal**
**«Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author's (s') academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal’s editorial board after the opinion of peer reviewers.

**Правила предоставления статей для публикации**
**в журнале «Государственное управление: теория и практика»**

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2019, №4(68)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev*
və müəllim *F.Şammədov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*
Korrektoru *İradə Təhməzova*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.org.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**«Təhsil Nəşriyyat-Poliqrafiya»**
müəssisəsinin mətbəəsində çap olunmuşdur.
Sifariş 23. Tiraj 1000.

# Journal of Public Administration: Theory and Practice

***Scientific and theoretical journal***

**2019, №4(68)**

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, assistant professor*
and *F.Shammedov,* lecturer, all from Academy of Public Administration.

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*
Correctors *Irada Tahmazova*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.org.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed at the printing-house of the
**«Tahsil Publishing-Polygraphy»**
Order 23. Number of copies printed 1000.